Məqsədə uyğun olaraq aybaşının 6 gün müddətində ləngiməsi olan 100 qadın müayinə olunmuşdur. Onlardan 25 qadında hamiləliyin olmaması, 75 qadında isə hamiləlik təyin edilmişdir. Müqayisə üçün 25 sağlam, aybaşı sikli normal olan qadınların reproduktiv orqanlarının ultrasəs müayinəsi aybaşı siklinin proliferativ fazasının 5-ci günündə aparılmışdır.

Vaginal öltürücüsü olan ultrasəs müayinəsi aybaşının 1 həftəyə qədər ləngiməsi fonunda aparılmışdır. Müayinədə uşaqlığın uzunluğu, eni, ön-arxa ölçüsü, yumurtalıqların uzunluğu, eni, qalınlığı, həcmi, endometriumun qalınlığının, döl yumurtasının, sarılıq kisəsinin diametri, aybaşı siklinin sarı cisminin və hamiləliyin sarı cisminin böyük və kiçik ölçüləri təyin edilmişdir. Alınan nəticələr uşaqlığın fizioloji ölçüləri ilə müqaisə olunmuşdur: uzunluğu- 6,7 (5,5-8,3) sm, eni- 6,1 (4,6-6,2) sm, qalınlığl (ön-arxa ölçüsü)- 3,6 (2,8-4,2) sm olmuşdur. Endometriumun qalınlığı lütein fazada 12 mm-ə qədər təyin edilir.

Aybaşı tsiklinin sonunda yumurtalıqların həcmi təyin edilmişdir və düsturla hesablanmışdır.

$$V(sm^3)=U\times G\times\sum\times 0,5$$

Burada: V-yumurtalığın həcmi; U-yumurtalığın uzunluğu; G-yumurtalığın qalınlığı; ∑-yumurtalığın enidir.

Döl yumurtasının ölçülərini təyin edərkən Callen P.W. (2009) tərəfindən fizioloji ölçülərdən istifadə edilmişdir:

-4 həftədə blastosistin uzunluğu 1 mm.

-5 həftədə embrionun təpə büzdüm ölçüsünün uzunluğu 5 mm.

Alınan nəticələr cədvəl 1-də təqdim olunmuşdur.

Cədvəl 1

Aybaşı ləngiməsi fonunda daxili cinsiyyət orqanlarının exoqrafik göstəriciləri (m±Se)

Exoqrafik göstəricilər	Müayinə qrupları		P
	Aybaşı ləngiməsi olan qrup (n=25)	Müqayisəli qrup, proliferativ fazanın göstəriciləri (n=25)	
Uşaqlıq:			
-uzunluğu,sm	5,61±0,14 (4,0-6,6)	6,12±0,21 (5,1-7,9)	>0,05
-eni,sm	6,5±0,11 (3,9-6,3)	6,23±0,06 (4,8-6,5)	>0,05
-ön-arxa ölçüsü,sm	4,11±0,09 (2,7-5,0)	3,61±0,03 (2,9-4,7)	<0,05
Endometriumun qalınlığı sm	1,15±0,05 (0,7-1,4)	0,36±0,08 (2,9-4,7)	<0,05
Sağ yumurtalıq			
-uzunluğu, sm	3,7±0,03 (2,7-4,5)	3,2±0,03 (2,4-3,7)	<0,05
-eni,sm	2,37±0,04 (2-3,3)	2,5±0,07 (2,1-2,8)	>0,05
-qalınlığı, sm	2,4±0,06 (1,6-4,2)	1,9±0,03 (1,6-2,4)	<0,05
-həcmi, sm^3	10,5±0,04	7,6±0,04	<0,05
Sarı cismin			
-böyük ölçüsü	1,38±0,11 (0,61-2,1)	-	
-kiçik ölçüsü	1,16±0,21 (0,7-1,6)	-	
Sol yumurtalıq			
-uzunluğu,sm	3,46±0,13 (2,5-4,6)	2,6±0,09 (2,3-3,1)	<0,05
-eni,sm	2,34±0,09 (1,6-2,4)	2,3±0,11 (1,4-3,6)	>0,05
-qalınlığı, sm	2,35±0,06 (1,7-3,2)	1,9±0,06 (1,6-2,6)	<0,05
-həcmi, sm^3	9,5±0,11	5,7±0,09	<0,05
Sarı cismin			
-böyük ölçüsü	1,34±0,09 (0,4-2,1)	-	
-kiçik ölçüsü	1,13±0,02 (0,6-1,8)	-	

Qeyd: P- dürüstlük dərəcəsi

Cədvəl 1-dən göründüyü kimi aybaşının 3-6 gün ləngiməsi olan qadınların uşaqlığının ön-arxa ölçüsünün, endometriumun qalınlığının, eyni zamanda hər iki yumurtalığın uzunluğunun, qalınlığının və həcminin statistik dürüst artması təyin edilir ($p<0,05$).

Qeyd etmək lazımdır ki, hər iki yumurtalıqda sarı cismin ölçüləri təyin edilmişdir. Hər yumurtalıqda olan sarı cisminin ölçüləri nəzərəçarpacaq dərəcədə fərqlənmirdilər ($p>0,05$).

Beləliklə, aybaşının 3-6 gün ləngiməsi və hamiləliyi olmayan qadınlarda uşaqlığın ön-arxa ölçüsünün, endometriumun qalınlığının və yumurtalıqların uzunluğunun, qalınlığının, həcminin statistik dürüst artması qeyd edilir.

Aparılan tədqiqatda aybaşının 3-6 gün ləngiməsi və uşaqlıqdaxili hamiləliyi olan qadınlarda uşaqlığın və yumurtalıqlırın exoqrafik göstəriciləri təhlil edilmişdir. Alınan nəticələr cədvəl 2-də təqdim olunmuşdur.

Cədvəl 2-dən göründüyü kimi uşaqlıqdaxili hamiləliyin erkən hestasiya müddətində uşaqlığın ölçüləri və endometriumun qalınlığı nəzərəçarpacaq dərəcədə yüksək olmuşdur (p<0,05).

Cədvəl 2

Aybaşı ləngiməsi fonunda və uşaqlıqdaxili hamiləliyi olan qadınlarda erkən hestasiya dövründə uşaqlığın exoqrafik göstəriciləri (m±Se)

Exoqrafik göstəricilər	Müayinə qrupları		p
	Erkən hestasiya dövründə uşaqlıqdaxili hamiləliyi olan qrup (n=75)	Abaşının ləngiməsi və hamiləliyi olmayan qrup(n=25)	
Uşaqlıq:			
-uzunluğu, sm	6,15±0,09(4,9-7,2)	5,61±0,14(4,0-6,6)	<0,05
-eni, sm	6,85±0,12(5,1-9,5)	6,5±0,11(3,9-6,3)	<0,05
-ön-arxa ölçüsü,sm	5,12±0,14(4,3-6,1)	4,11±0,09(2,7-5,0	<0,05
Endometriumun qalınlığı, sm	1,51±0,06(0,9-1,8)	1,15±0,05(0,7-1,4)	<0,05

Hamiləliyin erkən müddətində döl yumurtasının uzunluğunun, embrionun ölçüsü, sarılıq kisəsinin diametri və yumurtalıqda olan sarı cismin böyük və kiçik ölçüləri təyin edilmişdir. Hamiləliyin erkən müddətinin exoqrfik göstəriciləri cədvəl 3-də göstərilmişdir.

Cədvəl 3

Hamiləliyin erkən müddətinin USM göstəriciləri

Exoqrafik göstəricilər	Erkən hestasiya dövrünün nəticələri (n=75)
Döl yumurtasının diametri, mm	2,3±1,47(1,6-3,7)
Sarılıq kisəsinin diametri, mm	2,95±0,13(1,9-3,9)
Yumurtalıqda sarı cismin ölçüsü, mm	20,15±0,12(18-23)
Embrionun uzunluğu, mm	3,0±0,06(2,5-4,5)
Hamiləliyin müddəti (həftə)	3,89±0,11(3-6,2)

Cədvəl 3-dən göründüyü kimi aybaşının 6 günə qədər ləngiməsi olan qadınlarda vaginal ötürücü ilə ultrasəs müayinəsi döl yumurtasının , embrionun ölçüsü, sarılıq kisəsinin diametri, yumurtalıqlarda sarı cismin ölçüsü təyin edilir.

Beləliklə, aybaşı ləngiməsində və uşaqlıqdaxili hamiləlik zamanı hamiləlik olmayan qadınlardan fərqli olaraq uşaqlığın ölçülərinin, endometriumun qalınlığının, yumurtalıqlarda sarı cismin ölçülərinin yüksək olması, döl yumurtasının, embrionun, sarılıq kisəsinin vizualizasiyası qeyd edilir.

Aparılan tədqiqat nəticəsində hamiləliyin erkən müddətində embrionun və ekstraembrional strukturlarının exoqrafik göstəriciləri təyin edilib, bu da hamiləliyin erkən müddətində fizioloji meyarlar kimi istifadə oluna bilər.

ƏDƏBİYYAT

1. Волкова А.Е. Ультразвуковая диагностика в акушерстве и гинекологии. Ростов-на Дону: Феникс, 2007,477с.

2. Дубиле М.П., Бенсон К.Б. Атлас по ультразвуковой диагностике в акушерстве и гинекологии. М.:МЕДпресс-информ, 2009, 328 с.

3. Медведев М.В., Юдина Е.В. Дифференциальная пренатальная ультразвуковая диагностика. М.: Реал Тайм, 2010, 160 с.

4. Михеева Н.Г., Якутовская С.Л., Марковская Т.В.. Ультразвуковая диагностика маточной беременности в ранние сроки. Учебно-методическое пособие. Минск, 2011,12 с.

5. Норман Ч., Смит Э., Пэт М. Ультразвуковая диагностика в акушерстве и гинекологии понятным языком / Пер. с англ./ под ред А.И.Гуса. М.: Практическая медицина, 2010, 304с.

6. Флейшер А., Кеппл Д. Трансвагинальная эхография в 1 триместре беременности. Эхография в акушерстве и гинекологии. Теория и практика, Ч.1, М.: Видар, 2005, с. 71-99.

7. Хачкурузов С.Г. Ультразвуковое исследование при беременности раннего срока. М.: Медпресс-информ, 2005, 248 с.

8. Goldberg B.B., John P. Atlas ultrasound measurements. 2 edition. USA: Mosby Elsevier, 2006, 512p.

9. Paspulati R.M, Bhatt S., Nour S. Sonographic evaluation of first-trimester bleeding // Radiol.Clin.North.Am., 2004, v. 42 №2, p.297-314.

10.Botros R., Rizk M.B. Ultrasonography in reproductive medicine and infertility. Cambrige University Press, 2010, 321 p.

11.Wheelrer D., Sinosich M. Prenatal screening in the first trimester of pregnancy // Prenat. Diagn, 2009, №18, p. 537-543.

Резюме

Особенности ультразвукового исследования при задержке менструации и ранних сроках гестации

С.Ш. Мамедова, А.Г. Мамедова, Э.М. Алиева, Н.Ш. Алиева

Целью данного исследования явилось определение эхографических показателей у женщин с отсутствием беременности и при ранних сроках беременности на фоне задержки менструации. Обследовано 100 женщин с задержкой менструации до 6 дней. Из них- у 25 отсутствовала беременность во время исследования и в последующие дни, у 75 определялись ранние сроки гестации. Сравнительную группу составили 25 женщин с нормальным менструальным циклом. Ультразвуковое исследование им проводилось на 5 день менструального цикла. Было установлено, что в ранние сроки беременности отмечалось достоверное увеличение размеров матки, толщины эндометрия, диаметров желтого тела по сравнению с пациентками с задержкой менструации и отсутствием беременности. В ранние сроки беременности диаметр плодного яйца составил-2,3±1,47 мм, диаметр желточного мешка- 2,95±0,13мм, диаметр желтого тела беременности- 20,15±0,12 мм, длина эмбриона- 3,0±0,06 мм, что соответствовало - 3,89±0,11 недельной беременности. Данные показатели могут быть использованы в качестве физиологических критериев ранней беременности.

Summary

Distinctive features of ultrasound investigation in women with delay of menstruation and in early pregnancy

S.Sh. Mamedova, A.G. Mamedova, E.M.Aliyeva, N.Sh.Aliyeva

The aim of the study was determination of ultrasound features of women with absence of pregnancy and in early pregnancy. 100 women were examined with delay of menstruation up to 6 days. In 25 women the pregnancy was absent at the time of examination and during the following days, while in 75 women was determined early pregnancy. The control group comprised of 25 women with normal menstrual cycle. The ultrasound examination was undertaken on 5 day of the menstrual cycle. It was determined that uterine size, endometrial thickness and the size of the corpus luteum were truly greater compared to the patients with menstrual delay and absence of pregnancy. In early pregnancy the gestational sac diameter was 2,3±1,47 mm, corpus luteum diameter was 20,15±0,12 mm, embryonic CRL-3,0±0,06 mm, which correlated to 3,89±0,11 week pregnancy. These results could be used as physiologic criteria in early pregnancy.

Daxil olub: 13.06.2013

YAYILMIŞ İRİNLİ PERİTONİT ZAMANI LİPİDLƏRİN PEROKSİD OKSİDLƏŞMƏSİNİN VƏ ANTİOKSİDANT SİSTEMİNİN BƏZİ GÖSTƏRİCİLƏRİNİN DİNAMİKASI

Ə.M. Məmmədov, Ş.X. Əliyev, C.N. Ramazanov, M.M.Abdullayev

Azərbaycan Tibb Universiteti, III cərrahi xəstəliklər kafedrası, Bakı

Açar sözlər: yayılmış irinli peritonit, lipidlərin peroksidləşməsi, antioksidant sistem

Ключевые слова:

Yayılmış irinli peritonitlərin (YİP) müalicəsi homeostaz sisteminin müxtəlif səviyyələrində baş verən pozğunluqların ifadəliliyindən və xarakterindən asılıdır. Peritonitin patogenezi əhəmiyyətli dərəcədə endogen intoksikasiya sindromu ilə şərtlənir [1,4,7,12], bunun inkişafı isə öz növbəsində lipidlərin peroksid oksidləşməsi (LPO) proseslərindən [1,2,3,6,8] asılıdır.

LPO məhsulları bir tərəfdən yüksək toksikliyə malik olub, hüceyrənin müxtəlif strukturlarının membranını zədələməklə, həyati vacib orqanların funksiyalarının pozulmasına gətirib çıxarır. Toksiki təsir LPO–in müxtəlif aralıq və son məhsulları olan yüksək toksikliyə malik birləşmələrin; dien konyuqatların, malon dialdehidlərin əmələ gəlməsindən asılıdır. Onların zədələyici təsiri membranların lipid qatının kövşəkləşməsi ilə özünü göstərir ki, bu da hüceyrələrin zülal komponentlərinin proteazların təsirinə həssaslığının artması, antioksidant aktivliyinə malik maddələrin (vitaminlərin, steroid hormonların) parçalanması, membranlarda patoloji keçiriciliyin əmələ gəlməsi, membranların və fermentlərin tərkibinə daxil olan zülalların xüsusuyyətlərinin

dəyişməsi, onların aktivləşməsi və inhibə olunmasından tutmuş transformasiyasına kimi xassələrinin dəyişilməsi ilə təzahür edir [6,8,11]. Digər tərəfdən LPO məhsulları zülal molekullarının deqradasiyasına və toksik maddələrin yaranmasına səbəb olur ki, nəticədə orta molekullu peptidlərin (OMP) əmələ gəlməsi endogen intoksikasiyanı sürətləndirir, həyati vacib orqan və sistemlərin həyat fəaliyyətinə mənfi təsir edərək patoloji prosesin dərinləşməsinə səbəb olur [5,9,10]. OMP hüceyrə metobolizminə bilavasitə toksiki təsir etməklə, hüceyrə immunitetinin vəziyyətini və bəzi fermentlərin aktivliyini inhibə edərək, maddələrin hüceyrə membranından nəqlinə maneəçilik yaradır. Bu səbəbdən orqanizmin detoksikasiyası və LPO proseslərinin intensivliyinin azaldılması YİP–in bütün mərhələlərində müalicənin əsas məqsədlərindən biridir. Müxtəlf detoksikasiyon terapiya metodlarının istifadəsinin effektivlik kriteriyaları və patogenetik əsaslandırılması ancaq klinik göstəricilərlə deyil, eləcə də LPO metobolitlərin konsentrasiyasıına görə təyin edilir.

Tədqiqatın məqsədi: Yayılmış irinli peritonitlər zamanı müxtəlif ağırlıq dərəcəli endotoksikozlu xəstələrdə lipidlərin peroksid oksidləşmə məhsullarının və antioksidant sisteminin bəzi göstəricilərinin dəyişmə dinamikasının, eyni zamanda qanın venadaxili lazerlə şüalandırılmasının (QVLŞ-45nm) bu göstəricilərə təsirinin tədqiqindən ibarətdir.

Tədqiqatın material və metodları. Yayılmış irinli peritonitlər zamanı müxtəlif ağırlıq dərəcəli endotoksikozlu xəstələrdə lipidlərin peroksid oksidləşmə məhsullarının və antioksidant sisteminin bəzi göstəricilərinin dəyişmə xüsusiyyətlərinin tədqiqi məqsədilə tədqiqata daxil edilmiş, nəzarət qrupunu təşkil edən 54 xəstədə bu göstəricilərin dəyişmə dinamikası, eləcə də, endogen intoksikasiya (Eİ) sindromunun klinik əlamətləri təhlil edilmiş, əsas qrupu təşkil edən 40 xəstədə isə əməliyyatdan sonraki dövrdə qanın venadaxili lazerlə şüalandırılmasının (405 nm) bu göstəricilərə təsiri tədqiq edilmişdir.

Xəstələr endotoksikozun ağırlıq dərəcəsinə görə üç qrupa bölünmüşdür. Nəzarət qrup xəstələrdə qanın bəzi ümumi göstəriciləri 1–ci cədvəldə göstərilmişdir.

Cədvəl 1

Əməliyyatdan sonrakı birinci gündə qanın ümumi analizinin bəzi göstəriciləri

Göstəricilər	I qrup n=16	II qrup n=16	III qrup n=22
Hemoqlobin q/l (norma 126±4,5)	96,2±6,3	94,7±5,2	94,6±4,8
Eritrositlər (norma 4,2±0,2 x10^{12}/l)	3, ±0,1	3,6±0,3	3,7±0,1
Leykositlər (norma 6,4±0,2 x10^{9}/l)	12,4±0,3	10,6±0,4	11,7±0,1
EÇS (norma 9±1,8 mm/saat)	26,4±1,2	24,6±1,2	23,8±1,3

Əməliyyatdan sonrakı birinci sutkada xəstələrin hamısında Eİ sindromunun ilkin əlamətləri müşahidə edilməklə, dehidratasiya əlamətləri aydın nəzərə çarpmışdır. Xəstələrdə nəbz bir dəqiqədə 100 vurğudan çox–taxikardiya, tənəffüs tezliyi bir dəqiqədə 26-dan çox–taxipnoe, akrosianoz, dəri örtüyünün avazıması, yüksək hərarət, selikli qişanın quruluğu, bağırsaq parezi, eyforiya, bəzi xəstələrdə toksiki ensefalopatiya əlmətləri qeydə alınmışdır.

Qanın ümumi analizinin göstəricilərinin təhlili zamanı, bütün qrup xəstələrdə əməliyyatdan sonrakı birinci sutkada, eritrositlərin və hemoqlobinin miqdarının əhəmiyyətli dərəcədə azalması müşahidə olunmuşdur. Hemoqlobinin miqdarı müvafiq olaraq 24,9%, 24,8%, 21,6%, eritrositlər isə 19%, 11,9% və 9,5% azalmışdır. Xəstələrin hamısında leykositlərin ümumi miqdarının artması qeydə alınmışdır. Eləcə də EÇS–nin mormadan kifayət qədər yüksək olması təyin edilmişdir.

Beləliklə, tədqiqatın nəticələri göstərdi ki, müayinə olunan xəstələrin hamısında EÇS–nin yüksəlməsi və leykositoz fonunda, hemoqlobinin miqdarının və eritrositlərin əhəmiyyətli dərəcədə azalması qeydə alınır.

Cədvəl 2

Eİ müxtəlif qrup xəstələrdə əməliyyatdan sonrakı birinci sutkada LPO və antioksidant göstəricilərin dəyişmə dinamikası

Göstəricilər	Endotoksikozun dərəcəsi		
	I (yüngül)	II (orta)	III (ağır)
MDA mmol/l (norma64,4±8,2)	129,6±6,8	205,6±9,8	286,4±17,9
DK v/ml (norma1,42±0,07)	2,61±0,02	3,78±0,01	4,98±0,05
Katalaza mmol/l (norma 0,28±0,01)	0,11±0,010	0,010±0,001	0,006±0,01
Peroksidaza mmol/l (norma84,6±0,11)	40.6±0.1	32,3±1,3	25,7±1,4

OMP ş. v. (norma - 0.24±0.01)	0,27±0,02	0,35±0,04	0,46±0,08
Lİİ (norma – 0,56 ±0,04)	2,37±0,01	6,16±1,04	9,44±2,35

Qeyd: * -p < 0,01 olduqda dürüstdür

Laborator müayinələrin nəticələri göstərmişdir ki, tədqiq olunan bütün qruplardan olan xəstələrdə əməliyyatdan sonrakı birinci sutkada lipidlərin peroksidləşmə məhsullarının konsentrasiyalarının yüksəlməsi, metobolik pozğunluqların daimi və mühüm təzahürlərindən biri olub, 2-ci cədvəldən göründüyü kimi əməliyyatın birinci sutkasında bütün qrup xəstələrdə LPO sistemində ciddi pozğunluqlar müşahidə edilir. Xəstələrdə peroksidləşmənin ilkin məhsulu olan DK–nın, eləcə də ikincili MDA–nın səviyyələrinin əhəmiyyətli dərəcədə artması təyin olunur. DK–nın miqdarı normadan əhəmiyyətli dərəcədə yüksək olub, endotoksikozun ağırlıq dərəcəsinə uyğun olaraq 1,8; 2,7; 3,5 dəfə artmışdır. MDA–nın konsentrasiyası, normal göstəricilərlə müqayisədə, hər qrupa müvafiq olaraq 2,01; 3,2; 4,4 dəfə artmışdır. Göründüyü kimi, lipidlərin peroksidləşmə proseslərinin ikincili məhsulu olan MDA–nın səviyyəsi, birincili məhsul olan DK–nın səviyyəsindən yüksək olub. Bu rəqəmlər YİP zamanı LPO proseslərinin intensivləşməsini və lipidlərin peroksidləşməsinin toksiki məhsullarının eliminasiyasının pozulmasını göstərir.

Eİ sindromunun bəlli əlamətlərini müqayisə edərkən qan zərdabında OMP–in konsentrasiyasının və Lİİ–nin artması qeydə alınmışdır. Qan zərdabında OMP miqdarı norma ilə müqayisədə birinci qrupda 1,1 dəfə, ikinci qrupda 1,5 dəfə, üçüncü qrupda isə 2 dəfə artmışdır. Lİİ–nin miqdarı isə müvafiq olaraq normadan əhəmiyyətli dərəcədə yüksək-4,2; 11 və 17 dəfə olmuşdur.

I dərəcəli Eİ sindromu olan xəstələrdə ənənəvi müalicənin birinci sutkasında Lİİ və OMP səviyyələri müvafiq olaraq 3,75% və 3,84% azalmış, üçüncü sutkada isə Lİİ səviyyəsinin 10,5%, OMP 7,4% kimi azalmasına baxmayaraq, 7–ci sutkada Lİİ göstəricilərinin normadan 23,2% artıq yüksəlməsi qeyd olunurdu.

II dərəcəli endotoksikozlu xəstələridə Lİİ göstəricilərinin 7,8%, OMP səviyyəsinin 2,8% azalması müşahidə edilsə də, bu rəgəmlərin normadan 2,2 və 1,25 dəfə yüksək səviyyədə qalması qeydə alınmışdır. Ənənəvi intensiv terapiya alan III dərəcəli endotoksikozlu xəstələrdə Lİİ göstəricisinin 3,3%, OM səviyyəsinin 2,2% qədər olmaqla, digər qrup xəstələrlə müqayisədə çox zəif azalma qeydə alınmışdır.

Ağır endotoksikozlu xəstələrdə ümumi intensiv terapiyanın yeddinci sutkasında Lİİ göstəricisi normadan 11,5 dəfə, OMP 1,75 dəfə yüksək olmuşdur (bütövlükdə Lİİ göstəricilərinin 32,0%, OM səviyyəsinin 8,7% azalması qeydə alınmışdır ki, bu da intensiv azalma deyildir).

I dərəcəli endotoksikozlu xəstələrdə əməliyyatdan sonraki dövrün birinci sutkasında MDA 3,1% və DK 2,7% artması, katalazanın konsentrasiyasının 18,2% azalması, peroksidazanın konsentrasiyasının 12,8% azalması müşahidə olunmuşdur. Orta dərəcəli endotoksikozlu xəstələrdə MDA konsentrasiyasının 8,75% qədər yüksəlməsi, DK konsentrasiyasının 5,8% qədər artması qeydə alınmışdır. Müşahidə zamanı həmin xəstələrdə katalazanın 20% peroksidazanın isə 21,9% azalması təyin edilmişdir. III dərəcəli endotoksikozlu xəstələrdə həmin göstəricilərin dəyişməsi daha çox nəzərə çarpmışdır: MDA konsentrasiyasının 14% qədər, DK konsentrasiyasının 21,7% qədər, katalazanın – 33,4% qədər kəskin azalması, peroksidazanın isə 23,7% qədər azalması müşahidə olundu.

Ənənəvi intensiv terapiya alan ağır dərəcəli endogen intoksikasiyalı xəstələrdə əməliyyatdan sonrakı üçüncü sutkada ancaq malon dialdehidlərin və dien konyuqatların konsentrasiyalarında azalma, katalaza və peroksidaza aktivliyinin qismən artması müşahidə edilmişdir. I dərəcəli endotoksikozlu xəstələrdə MDA 5,5% qədər, DK isə 1,9% qədər azalmış, katalazanın aktivliyi 21,4% qədər, peroksidazanın aktivliyi 14,3% qədər artmış oldu. III dərəcəli endotoksikozlu xəstələrdə MDA göstəricilərinin 11,2% qədər, DK göstəricilərini 18% qədər artması (müvafiq olaraq 3,5 və 2,9 dəfə yüksək olmuşdur), katalazanın aktivliyi 25% qədər, peroksidaza aktivliyi isə 13,2% qədər yüksəlmişdir.

Orta dərəcəli endogen intoksikasiyalı xəstələrdə əməliyyatdan sonraki yeddinci sutkada MDA və DK göstəriciləri yüksək səviyyədə qalaraq, normadan 1,9 dəfə artıq olmuş, katalazanın və peroksidazanın aktivliyi normadan müvafiq olaraq 1,7 və 1,2 dəfə aşağı olmuşdur. Bu xəstələrdə həmin göstəricilərin normallaşması ancaq əməliyyatdan sonraki onuncu sutkada qeyd olundu. Bu da ənənəvi müalicənin effektivsizliyini bir daha sübut edir. Tədqiqatın sonrakı mərhələsində müxtəlif ağırlıq dərəcəli Eİ sindromu ilə müşayiət olunan xəstələrdə QVLŞ (405 nm) effektivliyi təhlil edilmişdir.

Cədvəl 9

Əsas qrupda müxtəlif ağırlıq dərəcəli cərrahi endotoksikozlu xəstələrdə Eİ göstəricilərinin dəyişmə dinamikası. QVLŞ əməliyyatın birinci günündən aparılmışdır (M±m)

Müayinənin müddəti	Xəstələrin qrupu	Lİİ (norma-0,56 ±0,04)			OMP ş.v. (norma – 0,24± 0,01)		
		Endotoksikozun dərəcəsi			Endotoksikozun dərəcəsi		
		I (yüngül)	II (orta)	III (ağır)	I (yüngül)	II (orta)	III (ağır)
İlk göstərici	əsas	2,40±0,01	6,13±1,21	9,43±2,41	0,26±0,03	0,35±0,03	0,47±0,01
Bir seans LŞ sonra	əsas	2,31±0,02	5,97±1,01	9,41±1,46	0,25±0,01	0,34±0,02	0,47±0,05
3 seans LŞ sonra	əsas	0,62±0,01	4,60±0,04	8,47±1,26	0,24±0,01	0,28±0,04	0,43±0,04
5 seans LŞ sonra	əsas	0,56±0,02	2,63±0,02	6,13±0,48	0,23±0,04*	0,26±0,03	0,40±0,02
7 seans LŞ sonra	əsas	-	0,58±0,02*	3,80±0,04	-	0,24±0,03	0,37±0,04

Qeyd: * – $p < 0,01$ olduqda dürüstdür

Əsas qrupda I dərəcəli endotoksikozlu xəstələrdə QVLŞ 3 seansından sonra Lİİ göstəricilərin 74,2% təşkil etdiyi halda, 5 seansdan sonra həmin göstəricilər normaya düşmüşdür. II dərəcəli endotoksikozlu əsas qrup xəstələrdə müalicənin üçüncü sutkasında Lİİ göstəricisi 24,9% təşkil etmiş, OMP səviyyəsi isə 20% azalmışdır. I və II dərəcəli endotoksikozlu xəstələrlə müqayisədə endogen intoksikasiya göstəricilərinin intensiv artmasına baxmayaraq, aparılan QVLŞ terapiyasının nəticəsində üçüncü sutkada III dərəcəli endotoksikozlu əsas qrup xəstələrdə Lİİ göstəricisi və OMP səviyyəsi müvafiq olaraq 10,2% və 8,5% olmuşdur. II dərəcəli endotoksikozlu əsas qrup xəstələrdə QVLŞ yeddi seansından sonra Lİİ göstəricisi və OMP səviyyəsi normallaşmışdır.

III dərəcəli Eİ sindromu olan əsas qrup xəstələrdə QVLŞ yeddinci seansından sonra Lİİ göstəricisi normadan 6,8 dəfə (3,80±0,04), OMP səviyyəsi 1,5 dəfə (0,37±0,04 ş.v) yüksək olmuşdur (Lİİ və OMP göstəricilərinin azalması müvafiq olaraq 59,7% və 21,3% təşkil etmişdir).

Tədqiq edilən xəstələrin laborator göstəricilərini təhlil edərkən məlum olur ki, birinci və üçüncü dərəcəli endogen intoksikasiyalı xəstələrdə LPO, Eİ və orqanizmin antioksidan göstəricilərinin dəyişmə dinamikası əhəmiyyətli dərəcədə fərqlənir. I və II dərəcəli endotoksikozlu əsas qrup xəstələrdə, nəzarət qrupu ilə müqayisədə QVLŞ (405nm) tətbiq edilməsi fonunda LPO–nun toksik aralıq məhsullarının effektiv eliminasiyası qeydə alınmış eləcə də, katalaza və peroksidazanın artması ilə müşayiət olunmaqla orqanizmin antioksidant sisteminin əhəmiyyətli dərəcədə aktivləşməsi müşahidə edilmişdir. Bu qruplarda endogen intoksikasiya göstəricilərinin əhəmiyyətli dərəcədə azalması qeydə alınmışdır.

Beləliklə, tədqiqatlar göstərdi ki, YİP xəstələrin hamısında leykositlərin ümumi miqdarının, neytrofillərin artması və EÇS–nin yüksəlməsi, LPO məhsullarının konsentrasiyasının, OMP və Lİİ səviyyələrinin artması ilə müşayiət edilir. Laborator göstəricilər xəstələrin klinik vəziyyətini əks etdirir. Bu da iltihabi prosesin, endotoksikozun ifadəliliyi və LPO prosesləri ilə sıx əlaqəli olmasını bir daha sübut edir.

Qarın boşluğundakı iltihabi proses oksigenin aktiv formasının əsas mənbəyi sayılan neytrofillərin aktivləşməsinə səbəb olur ki, bunun da sürətli əmələ gəlməsi patoloji peroksidləşmənin induksiyasına gətirib çıxarır. Digər tərəfdən toksiki məhsullar destruksiya ocaqlarından sorularaq Eİ sindromunun dərinləşməsini sürətləndirir. Əldə edilmiş nəticələr göstərir ki, YİP zamanı OMP–lə yanaşı, LPO məhsulları endotoksikozun əsas göstəriciləri ola bilər.


LPO məhsullarının göstəricilərini müqayisə edərkən məlum oldu ki, ilkin məhsul olan MDA səviyyəsi daha çox artdığı halda, sonradan onun sürətli azalması müşahidə edilir. Ancaq ikincili məhsul olan DK isə əksinə olaraq nisbətən az artır və müvafiq olaraq intensiv azalma qeyd olunmur.

Əməliyyatdansonrakı dövrdə eləcə də, OMP və Lİİ göstəricilərinin azalması da müşahidə olunur. Üçüncü – dördüncü sutkada OMP səviyyəsi 7,14% qədər, Lİİ isə 10,5% qədər azalmış, bu da əməliyyatdan sonrakı birinci sutkadakı göstəricilərə nisbətən aşağı olmuşdur. I və II dərəcəli endotoksikozlu xəstələrdə LPO məhsullarının, Lİİ və OMP göstəricilərinin qismən 7–ci sutkada normallaşması müşahidə edilsə də, Lİİ və OMP müvafiq olaraq 2,2, 1,5 dəfə yüksək rəqəmlərdə qalır. Ağır dərəcəli endotoksikozlu xəstələrdə Eİ əsas markerlərinin normallaşması hətta yeddinci sutkada da müşahidə edilmirdi. Lİİ birinci sutkaya nisbətən əhəmiyyətli dərəcədə azalaraq 44% təşkil edirdisə,

OMP səviyyəsi normadan 1,7 dəfə yüksək idi. Alınmış nəticələrin təhlili göstərir ki, LPO məhsullarının orqanizmdən eliminasiyasına baxmayaraq, bu göstəricilərin normallaşması baş vermir. Bunun səbəbi yayılmış peritonitli xəstələrdə antioksidant sistemi komponentlərinin effektivliyinin kifayət qədər olmamasıdır. Belə ki, tədqiq olunan xəstələrdə antioksidant sisteminin əhəmiyyətli dəyişiklikləri qeydə alınmışdır. Katalazanın aktivliyi əməliyyatdan sonrakı birinci sutkada artmış, sonradan bu fermentin aktivliyi azalmışdır. Yeddinci sutkada isə katalazanın aktivliyinin kifayət qədər azaması, eləcə də peroksidazanın konsentrasiyasının azalması müşahidə olunurdu. Beləliklə, katalazanın və peroksidazanın səviyyəsi əhəmiyyətli dərəcədə normadan 2,2 dəfə aşağı olmuşdur. Ilk günlərdə bu göstəricilərin yüksəlməsi YİP zamanı orqanizmin antioksidant sisteminin gərginləşməsini göstərir.

Ədəbiyyat məlumatlarına görə katalaza digər antioksidant sistemi fermentlərinə nisbətən qan zərdabında uzun müddət yüksək aktivliyini saxlayır. Katalazanın qan zərdabında miqdarının əməliyyatın birinci sutkasından artması, antioksidant sisteminin müdafiə mexanizmlərinin nisbi kompensasiyasını xarakterizə edir. Ancaq LPO proseslərinin intensivliyinin səviyyəsi ilə antioksidant sistemi fermentlərinin dəyişimə dərəcəsinin müqayisəsi zamanı, katalazanın qan zərdabında artması kifayət qədər olmamışdır. Bunun nəticəsidir ki, LPO məhsullarının səviyyəsinin kəskin artması, onları neytrallaşdıran fermentlərin miqdarının azlığından irəli gəlir və sonradan bu fermentlərin tədricən üzülməsi baş verir.

Müxtəlif ağırlıq dərəcəli endotoksokozlu xəstələrdə (ənənəvi intensiv terapiya alan) əməliyyatdan sonrakı dövrdə müxtəlif ağırlaşmalar olmuşdur. Belə ki, ənənəvi intensiv terapiya almış 54 xəstədən 9 (16,7%) xəstədə bronx–ağciyər ağırlaşması, 8 (14,8%) xəstədə əməliyyat yarasının irinlənməsi qeydə alınmışdır. 8 xəstə (14,8%) peritonitin proqressivləşməsi baş verdiyindən təkrari cərrahi əməliyyata məruz
qalmışdır



Şək. 1. Əməliyyatdan sonrakı ağırlaşmalar

Yüngül dərəcəli endotoksikozlu xəstələrdən, 1 xəstə əməliyyatdan sonrakı dördüncü sutkada kəskin ürək çatışmazlığından (miokardın kəskin işemiyası) vəfat etmişdir ki, bu da letallığın 6,2% təşkil etdiyini göstərir.

Orta dərəcəli endotoksikozlu xəstələrdən 2–də letallıq qeydə alınmışdır ki, bu da 12,5% təşkil edir. Xəstələrdən biri proqressivləşən intoksikasiya fonunda poliorqan çatışmazlığı, digəri isə ağciyər arteriyasının tromboemboliyası nəticəsində vəfat etmişdir.

Ağır dərəcəli endotoksikozlu nəzarət qrupundakı 12 xəstədən 4-ü ölmüşdür ki, bu da 33,3% təşkil etmişdir. Bu xəstələrdə ölümlərin səbəbləri proqressivləşən endotoksikoz və poliorqan çatışmazlığı olmuşdur.

Tədqiq edilmiş göstəricilərin dəyişmə dinamikasının təhlili göstərir ki, ənənəvi ümumi intensiv terapiya fonunda LPO məhsullarının və OM peptidlərin nisbətən azalması, antioksidant sistemi fermentlərinin üzülməsi qeydə alınır. Bunun nəticəsi olaraq əməliyyatdan sonrakı dövr ağırlaşmalarla, sağalmanın uzun sürməsi və yüksək letallıqla müşayiət edilir.

YİP xəstələrin ağırlıq dərəcələrinə müvafiq LPO məhsullarının və antioksidan sistemi göstəricilərinin dəyişmə dinamikası müvafiq olaraq intensiv olur. Qarın boşluğunda irinli infeksiyaların inkişafı, LPO məhsullarının fəallaşmasına və orqanizmin antioksidant sistemi göstəricilərinin aktivliyinin azalmasına səbəb olur. Bu halda endogen intoksikasiyanın ağırlıq dərəcəsi artdıqca, bir o qədər peroksidləşmə prosesləri intensiv keçir və Eİ sindromunun patogenezinin əsas həlqələrindən biri olan yüksək toksikli LPO–nun aralıq və son məhsullarının izafi toplanmasına gətirib çıxarır. Endotoksikozun yüksək göstəricilərində peroksidasiya prosesləri intensiv artır və qan zərdabında LPO aralıq məhsullarının (MDA, DK) konsentrasiyası nə qədər yüksəlirsə, antioksidant sistemin (katalaza və peroksidaza) aktivliyi bir o qədər dinamik azalır.

Tədqiqatın gedişindən alınan nəticələrin təhlili qanın venadaxili lazerlə şüalandırılmasının LPO proseslərinə inhibəedici təsir göstərdiyini və yayılmış peritonitlər zamanı lazer şüasının hemokorreksiyaedici təsirindən oksidləşmə əleyhinə müdafiə sisiteminin aktivləşdiyini deməyə imkan verir.

ƏDƏBİYYAT

1. Abdinov E.Ə., Həsənov M.C. Peritonitin etioloji faktorlardan asılı olaraq peritoneal eksudatın toksikliyinin və lipid peroksidləşməsi məhsulların miqdarının dəyişməsi // Sağlamlıq, 2006, №2, s.37-41

2. Axundbəyli A.Ə., Məhərrəmbəyli İ.Ş., İsmayılov İ.S. Yayılmış irinli peritoniti olan klinik gedişata təsiri və onların korreksiyası // Azərbaycan Tibb jurnalı, 2000, №2, s.23-26

3. Hacıyev C.N., Tanrıverdiyev M.N., Hacıyev N.C. Yayılmış peritonit zamanı ozonoterapiya üsullarının seçimi // Sağlamlıq, 2008, №10, s.29-33

4. İsmaylov S.Ə. Lipidlərin peroksidləşməsi və onların organizmdə tənzim-lənməsi // Sağlamlıq, 2005, №7, s.103-105

5. Гавриленко Г.А. Опыт применения гемосорбции при экзо- и эндотоксикозах / «Проблемы сорбционной детоксикации внутренней среды организма». Материалы мнждународного симпозиума. Новосибирск, 1995, с. 55-57

6. Голуб И.Е., Сорокина Л.В. Внутрисосудистое лазерное облуче-ние крови как компонент анестезиологического обеспечения при оперативном лечении больных с острой кишечной непроходимостью // Интенсивная терапия, 2007, №1

7. Зимон И.Н., Агзамов А.И, Калиш Ю.Л., и др. Внутриартериальное облучение низкоэнергетическим гелий-неоновым лазером в интенсивной терапии панкреатита и перитонитов / Новое в лазерной медицине и хирургии. Тезисы международной конференции. Переславль-Залесский. 1990, с.117-118.

8. Козлов В.И., Буйлин В.А. Лазеротерапия с применением АЛТ «Мустанг». М.: Фирма «Техника», 1997, 200с.

9. Малышев В.Д., Потапов А.Ф., Трепилец В.Е. и др. Нарушение процессов перекисного окисления у хирургических больных на этапах лечения // Анестезиология и реаниматология, 1994, № 6, с.53-59.

10.Островский В.К., Алимов Р.Р., Мащенко А.В. Лейкоцитарные индексы в диагностике гнойных и воспалительных заболеваний и в определении тяжести гнойной интоксикации // Вестник хирургии, 2003, Т.162, №6, с.102- 104.

11.Mitaritonno M. et al. Current developments in the treatment of acute generalized peritonitis // Minerva Chir., 2001, v.56, №5, p.525-530.

12.Kaur N., Gupta M.K., Minocha V.R. Early enteral feeding by nasoenteric tubes in patients with perforation peritonitis // WorldJ.Surg., 2005, v.29, №8, p.1023-1027.

Резюме

Динамика изменений некоторых показателей систем перекисного окисления липидов и антиоксидантов в послеоперационном периоде разлитого гнойного перитонита

А.М.Мамедов, Ш.Х.Алиева, Дж.Н.Рамазанов, М.М.Абдуллаев

Целью исследования явилось изучение динамики изменений некоторых показателей систем перекисного окисления липидов и антиоксидантов в послеоперационном периоде разлитого гнойного перитонита. В исследование вошли 54 больных в основную группу вошли 40 больных. Им был проведен лазерное облучение внутривенной крови. Полученные даны показали, что лазерное облучение оказывает ингибирное воздействие на перекисное окисление липидов. Из-

за гемокорригирующего эффекта лазерное облучение активизирует антиоксидантную защитную систему.

Summary

Dynamics of changes in some indicators systems of lipid peroxidation and antioxidants in the postoperative period diffuse purulent peritonitis

A.M.Mamedov, Sh.H.Aliyeva, J.N.Ramazanov, M.M.Abdullayev

The aim of the study was to study the dynamics of changes of some indicators systems of lipid peroxidation and antioxidants in the postoperative period diffuse purulent peritonitis. The study included 54 patients in the study group comprised 40 patients. It held an intravenous laser irradiation of blood. Are obtained showed that the laser irradiation has ingibirnoe effects on lipid peroxidation. Because of the effect of laser irradiation gemokorrigiruyuschego activates antioxidant defense system .

Daxil olub: 06.05.2013

BƏTNDAXİLİ İNKİŞAF LƏNGİMƏSİ OLAN YENİDOĞULMUŞLARDA ADHEZİYA MOLEKULLARI VƏ BÖYRƏK FUNKSİYASININ QİYMƏTLƏNDİRİLMƏSİ

P.Ə. Orucova, A.A. Axundova, S.Ş. Həsənov, S.A. Hüseynova,
S.M. Ələsgərova, S.N. Muxtarova, H.Ü.Dünyamalıyeva
Azərbaycan Tibb Universiteti, Neonatologiya kafedrası, Bakı

Açar sözlər: bətndaxili inkişaf ləngiməsi, hüceyrəarası adheziya, sICAM-1, sVCAM-1,NGAL
Ключевые слова: адгезивные молекулы, ЗВУР, sİCAM-1 , sVCAM-1, NGAL
Key words: İntrauterine growth retardation , intercellular adhesion, sICAM, sVCAM, serum NGAL

Məlumdur ki, dölün bətndaxili xroniki hipoksiyasına səbəb olan faktorlar bətndaxili inkişaf ləngiməsinə (BDİL) səbəb olur, bu uşaqlarda da xəstələnmə və ölüm göstəriciləri fiziki inkişafı normal olan yenidoğulmuşlara nisbətən 3-8 dəfə yüksək olur [1,2]. Zədələnmənin ağırlıq dərəcəsinə hipoksiyanın dərinliyi, davametmə müddəti, hestasiya müddəti kimi müxtəlif faktorlar təsir göstərir [3]. İşemik zədələnmə zamanı endotel hüceyrələri tərəfindən müxtəlif proiltihabi sitokinlərin və xemotaktik molekulların təsiri nəticəsində adheziya molekulları sintez olunaraq bəzi patoloji proseslərin inkişafına təkan verir [4,5]. Eyni zamanda BDİL sindromu ilə doğulan uşaqlarda kompensator imkanların tükənməsi fizioloji doğuş hipoksiyasının asfiksiya ilə nəticələnməsinə səbəb ola bilər. Həm bətndaxili hipoksiya və işemiya, həm də doğuş asfiksiya nəticəsində hemodinamika pozulmaları hesabına böyrək toxumasının işemik zədələnməsi baş verir [6].

Hal hazırkı işin **məqsədi** də BDİL sindromu ilə vaxtında doğulan körpələrdə adheziya sisteminin vəziyyətini və böyrəyin işemik zədələnməsini müəyyənləşdirməkdir.

Tədqiqatın material və metodları. Bu məqsədlə nəzərdə tutulmuş elmi iş üçün material 5-saylı klinik doğum evində aparılmışdır. Bu məqsədlə 36 hamilə qadın və 36 yenidoğulmuş müayinəyə cəlb olunmuşdur. Hamilə qadınlarda və yenidoğulmuş körpələrdə bətndaxili infeksiyalar immunferment analiz metoduna əsasən istisna olunmuşdur. Bütün hamilə qadınların və yenidoğulmuş körpələrin klinik, instrumental (ultrasəs müayinəsi, dopleroqrafiya), laborator (qanın və sidiyin ümümi müayinəsi, koaquloqramma) müayinəsi aparılmışdır. Yenidoğulmuş körpələrin klinik müayinəsi zamanı Bollard J.L.və həmmüəllifləri (1979) tərəfindən tərtib edilmiş şkalasında morfoloji meyarlar və sinir-əzələ yetkinliyi dərəcəsinə əsasən onların hestasiya yaşına uyğun yetişkənlik dərəcəsini, eyni zamanda fiziki inkişaf göstəriciləri Azərbaycan regionu üçün N.Ə.Tağıyev və həmmüəllifləri tərəfindən tərtib olunmuş siqmal cədvələ əsasən müqayisə olunaraq bətndaxili inkişaf ləngiməsi müəyyənləşdirilmişdir [7]. Damar endotelinin funksiyasını yoxlamaq məqsədilə rutin qan analizi məqsədilə götürülmüş qan plazmasında sİCAM-1 (həll olan hüceyrədaxili adheziya molekulları) və sVCAM-1(həll olan damar hüceyrəsi adheziya molekulları), eyni zamanda böyrək toxumasının işemiyası zamanı henle ilgəyinin enli hissəsi və yığıcı kanalcıqlar tərəfindən sintez olunan serum NGAL-ın (neutrophil gelatinase-associated lipocalin-neytrofil jelatinaza ilə bağlı lipokalin) səviyyəsi təyin olunmuşdur.[8]

Alınmış nəticələr və onların müzakirəsi. Toplanmış materiallar əsasında 2 qrup müəyyənləşdirilmişdir: I qrup-sağlam BDIL olmayan və II qrup-BDİL olan vaxtında doğulan körpələr. Qruplara müvafiq anaların sağlamlıq vəziyyəti cədvəl 1-də verilmişdir.

Cədvəl 1

BDIL olmayan və II qrup-BDİL olan vaxtında doğulan körpələr analarının səhhətinin vəziyyəti

Anaların sağlamlıq vəziyyəti	I qrup(n=16)	IIqrup (n=20)
Sonsuzluq	n=1(6,25%)	n=3(15%)
Somatik xəstəliklər	n=1(6,25%)	n=2(10%)
Ginekoloji xəstəliklər	n=1(6,25%)	n=2(10%)
Preeklampsiya	n=9(56,25%)	n=12(60%)
Fəsadlaşmış mamalıq anamnezi	n=2(12,5%)	n=8(40%)*
Düşük təhlükəsi	n=1(6,25%)	n=3(15%)*
Çox döllü hamiləlik	n=0	n=0
Operativ doğuş	n=4(25%)	n=8(40%)
Ciftdə vizual dəyişikliklər	n=1(6,25%)	n=10(50%)**

Qeyd: *I qrupla müayisədə- p□0,05**; I qrupla müqayisədə- p□0,001 fərqin statistik dürüstlüyü

Cədvəldən göründüyü kimi burada əsasən FMA (anamnezdə ölü doğulma, düşüklər) daha cox 2-ci qrupda rast gəlinmişdir. Preeklampsiya, anemiya halları da II qrupda daha çox qeyd olunmuşdur ki, məhz bu patologiyalar ana-cift-döl qan dövranının pozulması və BDİl-in inkişafına səbəb olmuşdur. Yenidoğulmuş körpələrin klinik müayinəsinin nəticələri cədvəl 2-də öz əksini tapmışdır. BDİL-ə 30% simmetrik, 70% halda isə assimmetrik variantda rast gəlinmişdir. 28% halda 2-ci qrupda yüngül asfiksiya, 10% halda ağır asfiksiya qeydə alınmışdır. 1-ci qrupda isə 5% yüngül asfiksiya qeyd olunmuşdur. Mərkəzi sinir sisteminin zədələnməsi nəticəsində baş verən nevroloji simptomlar və tənəffüs pozuntuları kimi əlamətləri, eyni zamanda yayılmış dərialtı toxumanın ödemi məhz II qrupda üstünlük təşkil etmişdir. II qrupa daxil olan körpələrdən 10-un vəziyyəti çox ağır olmuş, nəticədə 3 neonatal ölüm qeydə alınmışdır.

Cədvəl 2

Qruplar üzrə yenidoğulanların erkən neonatal dövrdə vəziyyəti

	I qrup (n=16)	IIqrup (n=20)
Apqar şkalası ilə qiymətləndirmə	7±0,75 (Min7-max9)	5,82±0,3 (min4-max7)
	8,2±0,6 (Min7-max9)	7±0,22 (Min6- max8)
BDİL sindromu simmetrik asimmetrik	0 0	n=6(30%)** n=14(70%)**
Vegetovisse-ral sindrom	n=5(31,25%)	n=8(40%)
TPS	n=0	n=10(50%)**
Qıcolma	n=0	n=3(15%)*
Sinir-reflektor oyanıqlıq sindromu	n=8(50%)	n=7(35%)
Süstlük sindromu	n=0	n=9(45%)**
Ödem	n=1(6,2%)	n=9(45%)**
Oliqouriya ilk 48 saat ərzində□1ml/kq/saat	n=0	n=4(20%)**
Kreatinin,ng/dl,M±m	0,67±0,22	1,73±0,42**

Qeyd: * I qrupla müqayisədə p□0,01; **P□0,001 fərqin statistik dürüstlüyü

sİCAM-1, sVCAM-1 və serum NGAL-in qruplar üzrə dinamikada səviyyəsi cədvəl 3-də əks olunmuşdir. Göründüyü kimi 1-3 sutkada sİCAM-1-in səviyyəsi II qrupda I qrupa nisbətən çox olsa da, dinamikada artım az olmuşdur. Belə ki, I qrupda sİCAM-1-in səviyyəsi dinamikada 3,5 dəfə, II qrupda isə 1,7 dəfə artmışdır. sVCAM-1 isə I qrupda artmağa meyilli olmamış, II qrupda isə 1,7 dəfə artmışdır. II qrupda erkən neonatal dövrdə tələf olan körpələrdə həm sVCAM-1, həm də sİCAM-1-in dinamikada azalması qeyd olunmuşdur. Serum NGAL-ın səviyyəsinin böyrək zədələnmələrində hətta kreatinindən əvvəl artması məlumdur [9]. Bizim tədqiqatda da bu molekulların səviyyəsi II qrupda ılk

sutkadan yüksək olsa da, lakin dinamikada azalmağa meyilli olmuşdur.I qrupla müqayisədə ilk sutkada NGAL-nin səviyyəsi II qrupda 2 dəfə yüksək olmuş ,bu da hələ bətndaxilində böyrək toxumasının işemiyaya məruz qalmasını əks etdirir.

Cədvəl 3

Tədqiqat qrupları üzrə neonatal dövrün dinamikasında s İCAM-1,sVCAM-1 və lipokalinin səviyyəsinin dəyişməsi

	I qrup (n=16)		IIqrup (n=20)	
	1-3 sutka	5-7 sutka	1-3 sutka	5-7 sutka
sİCAM-1,ng/ml,M±m (min-max)	302±57 (198-394)	1063±269^ (680-1582)	456±153* (182-834)	790±245 (166-1502)
sVCAM-1,ng/ml,M±m (min-max)	3379±742 (1939-4408)	3426±650 (2749-4725)	4005±153* (1623-8064)	6936±1213^* (3873-10552)
Serum NGAL ,ng/ml,M±m (min-max)	81±11,6 (30-133)	90±12 (68-122)	177±41^ (52-305)	168±43** (59-273)

Qeyd: *I qrupla müqayisədə $p<0.05$, ^qrupdaxili dinamikada müqayisədə $p<0.05$, ** I qrupla müqayisədə fərqin statistik dürüstlüyü ($p<0,001$)

Neonatal dövrün normal gedişində hüceyrəarası adheziya molekulları endotel hüceyrələrinin membranı tərəfindən kiçik konsentrasiyada sintez olunur, lakin hipoksiya və işemiya zamanı iltihab mediatorları ilə yanaşı aktivləşmiş endotel hüceyrələri və leykositlər tərəfindən ekspressiya olunaraq, leykositlərin təsirə məruz qalmış damar endotelinə cəlb edib, patoloji prosesi məhdudlaşdırmağa çalışır. Adheziya molekulları içərisində yalnız VCAM-1 aktivləşmiş endotel hüceyrələri tərəfindən sintez olunur. Leykositlər səthində olan zülal-inteqrinləri vasitəsilə endotelin VCAM-ları ilə əlaqələnir, monositar tipdə olan MCP-1 və MCP-2 xemokinlərinin iştirakı ilə endotel hüceyrələri arasından keçir, hüceyrəarası matriksə birləşərək makrofaqlara çevrilir [10]. VCAM-1-in ekspressiyasının sağlam yenidoğulmuşlarda da sintez olunması onların doğuş stressi hesabına fizioloji hipoksiya keçirməsi ilə bağlıdır. Bu zaman VCAM-1 qoruyucu funksiya yerinə yetirərək toxumaların zədələnməsinin qarşısını alır. BDİL olan körpələrdə birinci sutkada artımın çox olması bətndaxilində hipoksiyanın təsirindən induksiya olunmuş sintezini əks etdirir.

sİCAM-1 molekulaları neonatal dövrdə birinci sutkadan sintez olunaraq neonatal dövrün sonuna qədər artır. Bu artım yenidoğulanların immun sisteminin formalaşmasını təmin edir.Belə ki, sİCAM-1 işemiyaya məruz qalmış toxumalara neytrofilləri, monositləri cəlb edərək, zədələnmiş hüceyrələri faqositoza uğradır. Əgər işemiya davam edərsə neytrofillərin təsirindən toxumaların ikincili zədələnməsi baş verir [11]. Bizim tədqiqatda isə II qrupda sİCAM-1 -in səviyyəsinin dinamikada I qrupa nisbətən az artması bu körpələrdə immun sistemin aşağı səviyyədə olmasını əks etdirir. Məqalənin müəllifləri elmi işin həyata keçirilməsində olan dəstək üçün Azərbaycan Respublikası Prezidenti Yanında Elmin İnkişafı Fonduna dərin təşəkkürlərini bildirirlər.

Ədəbiyyat

1.Quliyev N.C.,Hüseynova S.A. BDİL olan yenidoğulanlarda hüceyrə və humoral immunitetin vəziyyəti // Azərbaycan Tibb Jurnalı, 2003, №2-3,s.7-9

2.Барашнев Ю.И.Клинико-морфологическая характеристика и исходы церебральных расстройств при гипоксически- ишемических энцефалопатиях // Акушерство и гинекология, 2005, №5, с.39-41

3.Бунин А.Т., Иванова И.М. Диагностические возможности антенатальной кардиотокографии при синдроме задержки развитияплода: Метод. рекомендации. М., с.24-26

4. del Zoppo G ., Ginis I., Hallenbeck J.M. et al Inflammation and stroke: putative role for cytokines, adhesion molecules and iNOS in brain response to ischemia // Brain Pathol., 2000, v.10, p.95-112

5. Wang G.J., Deng H.Y., Maier C.M. et al Mild hypothermia reduces ICAM-1 expression, neutrophil infiltration and microglia/monocyte accumulation following experimental stroke // Neuroscience., 2002, v.114(4), p.1081-1090

6.Бычкова А.Б., Радзинский В.Е. Интранатальное состояние плода с задержкой внутриутробного развития // Трудный пациент, 2006, №2, с.18-24

7.Tağiyev N.Ə., Ələsgərova S.M., Hüseynova S.A. və b. Azərbaycan respublikası regionu üçün yenidoğulmuşların fiziki inkişaf göstəriciləri // Azərbaycan Tibb Jurnalı, 2003, №1, s.94-96

8. El Raggal N.M., Khafagy S.M., Mahmoud N.H., El Beltagy S.A. Serum Neutrophil Gelatinase-Associated Lipocalin as a Marker of Acute Kidney Injury in Asphyxiated Neonates // Indian Pediatr., 2013, v.50, p.459-462,

9. La Manna G, Galletti S, Capelli Iю et al Urinary neutrophil gelatinase-associated lipocalin at birth predicts early renal function in very low birth weight infants // Pediatr Res., 2011, v.70,p.379-83.

10. Malamitsi-Puchner A., Tziotis J., Mastorakos G. et al Adhesion molecules in early neonatal life // Biol Neonate, 2000, v.78 (1), p.65-67.

11. Giannaki G., Rizos D., Xyni K. üt al Serum soluble E- and Lselectin in the very early neonatal period // Earl Hum Dev., 2000, v.60 (2), p.149-155.

Резюме

Оценка состояния почечной функции и активности молекул адгезии у новорожденных детей со задержкой внутриутробного развития

П.А Оруджова, А.А. Ахундова, С.Ш. Гасанов, С.А. Гусейнова, С.М. Аласкарова, С.Н. Мухтарова, Х.У.Дюнямалиева

Цель работы заключаются в оценке функционального состояние почек и системы межклеточной адгезии.С этой целью 2х групп новорожденных (со ЗВУР и без ЗВУР) на 1-3 и 5-7 сутки были взяты образцы периферической крови и были определены уровни sICAM-1 ,sVCAM-1 и NGAL в плазме.Уровни всех этих маркеров были повышены на 1-3 сутки у новорожденных со ЗВУР.Это указывает на гипоксическое поражение почечной ткани и стимуляцию эндотелиальных клеток у детей со ЗВУР уже в антенатальном периоде.

Summary

Estimation of adhesion molecules and renal function IUGR newborns.

P.A. Orujova, A.A. Akhundova, S.Sh. Hasanov, S.A. Huseynova, S.M. Alasgarova, S.N. Mukhtarova, H.U.Dunyamaliyeva

The aim of this study is to evaluate intracellular adhesion system and renal function chances of IUGR newborns in early neonatal period. The newborns were divided into two groups : healthy control groupand babies with IUGR.The blood samples were taken at 1-3 and 5-7 days of their life.Serum levels of sICAM-1,sVCAM-1 and NGAL were determinated and were significantly increased in 2nd group newborns. Thus, it might indicate to the stimulation of endothelial cells function and renal hypoxic injury in antenatal period.

Daxil olub: 25.07.2013

TİBBİ EKSPERTİZA SƏNƏDLƏRİNİN STANDARTLAŞDIRILMASI BARƏDƏ

S.R.Orucova

Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, Bakı

Açar sözlər: tibbi ekspertiza, sənədlər, standartlaşdırma

Ключевые слова: медицинская экспертиза, документы, стандартизация

Keywords: medical examination, documents, standardization

Müasir səhiyyə xidmətləri arasında tibbi ekspertiza xüsusi yer tutur. Onun əsas məqsədi insanın sağlamlıq durumunu qiymətləndirmək və sağlamlıq durumu ilə ona təsir edən amillər arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirməkdir. Hal-hazırda qanunvericilikdə bir neçə növ tibbi ekspertiza (TE) nəzərdə tutulmuşdur [1]: müvəqqəti əmək iqtidarsızlığının ekspertizası; tibbi-sosial ekspertiza; hərbi-həkim ekspertizası; məhkəmə-tibbi və məhkəmə-psixiatriya ekspertizası; peşə yararlığının ekspertizası; xəstəliyin peşə ilə bağlılığı ekspertizası. Bütün növ TE-ların ümumi səciyyələri ilə yanaşı (dövlət tərəfindən reqlamentləşdirimə; xüsusi komissiya tərəfindən aparılması və s.) məqsədlərinə müvafiq fərqli cəhətləri də vardır. Fərqli cəhətləri ilə daha çox seçilən TE növlərindən biri hərbi-həkim ekspertizasıdır (HHE). HHE tibbi şəhadətləndirmə yolu ilə insanın sağlamlıq durumunu və fiziki inkişafını öyrənməklə aşağıdakı məqsədlərlə həyata keçirilir:

-insanın hərbi xidmətə və hərbi ixtisaslar üzrə təhsilə yararlılığını müəyyənləşdirmək;

-hərbi qulluqçuların (onlara bərabər tutulanların) hərbi xidmətdən tərxis olunanda xəstəlik və zədələrinin səbəb əlaqələrini təyin etmək.

HHE tibbi müayinə və tibbi şəhadətləndirmənin aparılmasını nəzərdə tutur. Qanunvericilikdə tibbi müayinə insanlarda xəstəliklərin, patoloji halların və onların risk amillərinin tibb işçisinin baxış da daxil olmaqla kompleks tibbi müdaxilə yolu ilə aşkar edilməsi prosesi kimi göstərilir. Tibbi şəhadətləndirmə dedikdə insan sağlamlığının hüquqi mənalı nəticəsi olan durumunun kompleks tibbi müayinə metodları vasitəsi ilə təsdiq edilməsi nəzərdə tutulur [2].

Əhalinin sağlamlığının qorunması haqqında Azərbaycan Respublikasının Qanununa müvafiq HHE hərbi xidmətə çağrılanların, müqavilə (kontrakt) üzrə hərbi xidmətə daxil olanların, silahlı qüvvələrin və milli təhlükəsizlik orqanlarının, sərhəd qoşunlarının, habelə daxili qoşunların ehtiyyatlarında olan vətandaşların və hərbi qulluqçuların sağlamlığının vəziyyəti ilə bağlı hərbi xidmətə yararlılığını müəyyən edir. HHE hərbi qulluqçularda (hərbi toplantı keçən vətandaşlarda), hərbi qulluqdan azad olunanlarda hərbi xidmət (hərbi toplantı) zamanı baş verən xəstəliklərin, yaralanmaların, travmaların səbəb əlaqəsini təyin edir və hərbi qulluqçulara lazımi tibbi-sosial yardımın, bərpa müalicəsinin növlərini, həcmini və müddətini müəyyənləşdirir. HHE-nın təşkilinə və aparılmasına dair qaydalar, eləcə də hərbi qulluqçuların, hərbi xidmətə çağırılanların, müqavilə (kontrakt) üzrə hərbi qulluğa daxil olanların sağlamlığının vəziyyətinə dair tələblər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. HHE-nin rəyinin icrası vəzifəli şəxslər üçün məcburidir. Hüquqi və sosial dəyəri çox yüksək olan HHE-nin təşkili və sənədləşdirilməsi müstəsna əhəmiyyət kəsb edir. Bunu nəzərə alaraq HHE nümunəsində TE-nin sənədləşdirilməsi ilə bağlı problemlər öyrənilərək onun standartlaşdırılması zərurəti və əsas asperektləri müəyyənləşdirilmişdir.

Tədqiqatın materialları və metodları. Müşahidə vahidi kimi HHE komissiyasında şəhadətləndirmə hadisəsi götürülmüşdür. Nəticələrin dürüstlüyünü təmin etmək məqsədi ilə təhlil üçün müşahidə vahidləri təsadüfü seçimlə toplanmışdır. Müşahidə obyektinin ümumi həcmi 498 təşkil edərək ümumi toplumun 10%-ni əhatə etmişdir. Hər şəhadətləndirmə hadisəsi üçün aşağıdakı sənədlər araşdırılmışdır:

-HHE komissiyasına rəsmi göndəriş sənədi;

-Şəhadətləndirilən şəxsin sağlamlığını xarakterizə edən müalicə-profilaktika müəssisələrindən sənədlərdən (ambulator və stasionar xəstələrinin tibbi kartları) çıxarışlar;

-Psixonevroloji, narkoloji, vərəm, dəri-zöhrəvi profilli müəssisələrdən arayışlar;

-Hərbi xidmətdə olanlar üçün hərbi hissənin tibbi sənədlərindən çıxarışlar

-Şəhadətləndirilən şəxsin HHE komissiyasında tibbi müayinə aktı (tibbi şəhadətləndirmə aktı);

-Xəstəlik haqqında şəhadətnamələr;

-HHE komissiyasının iclasının protokolları (müvafiq kitab).

Sənədlərdə mövcud qayda və standartlardan bütün kənaracıxmalar qüsur kimi dəyərləndirilmiş və onlar [3,4,5] müəyyənləşdirdiyi təsnifatla qruplaşdırılmışdır. Bu təsnifata müvafiq 4 növ qüsur ayırd edilmişdir:

-bərpası mümkün olan qüsurlar (qeydiyyatın tam aparılmaması, sənəddə imzaların qoyulmaması, müayinə tarixinin göstərilməməsi və s.);

-bərpası mümkün olmayan qüsurlar (funksional sınaqların keçirilməsi, spirometriyanın aparılmaması və s.);

-texniki qüsurlar (yazının oxunmasının çətinliyi, yazılarda ardıcıllığın pozulması və s.);

-metodiki qüsurlar (yanaşı xəstəliklər barədə məlumatlara etinasız yanaşma; diaqnozun əsaslandırılmaması və s.).

Sənədlərin ekspertizası zamanı alınmış nəticələr keyfiyyət əlamatlərinin statistikası metodu ilə araşdırılmışdır [8].

Alınmış nəticələr və onların müzakirəsi. HHE tibbi fəaliyyətin bir növü olduğuna görə onun təşkilini sənədləşdirilməsi qaydaları, sənədlərin maketi və strukturu, tərtibi alqoritmi Səhiyyə Nazirliyi tərəfindən müəyyən olunmalıdır. Amma faktiki istifadə olunan sənədlərin heç birində onun dövlətin rəsmi statistik sənədi olması barədə informasiya (formanın nömrəsi, kodu, təsdiq olunduğu vaxt və təsdiq etmiş orqanın adı) yoxdur. HHE-da istifadə olunan sənədləri bir neçə qrupa bölmək olar:

-göndərişlər;

-arayışlar;

-aktlar;

-şəhadətnamələr;

-jurnallar;

-digər növ sənədlər.

Müxtəlif yaş dövrlərində ağız və üz-çənə sistemlərinin birincili və ikincili deformasiyalarını korreksiya etmək məqsədilə ortodontik vasitələr tətbiq olunur. Ortodontik aparatlar bir sıra hissələrdən ibarət olur ki. onlara əsasən metal qövslər və aparatların əsasını təşkil edən plastmass aiddirlər. Hal-hazırda qeyd olunan aparatların metal qövslərinin tərkibi müxtəlif xəlitələrdən ibarət olur. onun bazisini təşkil edən plastmass hissə isə əsasən müxtəlif polimer maddələrdən hazırlanır [1,2,3,4,5]. Bu maddələr əsasən polimerdən ibarət paroşokdan və ona həcmcə eyni nisbətdə qatılan monomer mayesindən ibarətdir. Paroşok və monomerlərin xarakterindən asılı olaraq. aparat-protezlərin hazırlanmasında istifadə olunan plastmasslar akril. termoplast və s. qruplara bölünürlər. Müxtəlif

ədəbiyyat məlumatlarına əsasən çıxan aparat-protez istifadə edənlərin 60%-ə qədərində selikli qişada dəyişikliklər yaranır. Aparat-protez yatağında xroniki iltihabı prosesi anqulyar xeylitlər. lichen planus. dişətinin fibromatozu və s. formada təzahür olunur [6,7,8]. Çıxan ortodontik vasitələrin istifadəsi zamanı travmatik. toksiki. toksiki-allergik stomaitlər və qlossalgiyalar kimi hallar təzahür olunur. Akril aparat-protezlərin istifadəsi zamanı ağızda diş ətlərində 90% hallarda kataral gingivit və 20% hallarda isə aparat-protezin altında lokal hiperemiyalı selikli qişa sahələri müşahidə olunmuş. aparat-protezin tətbiqindən 3-7 gün keçdiyi müddətdə epitelin bazal qatında dəyişiklik olmur və o normal şəxslərdən fərqlənmir. Ortodontik aparat-protez uzun müddətli istifadə olunduqda isə selikli qişada dəyişikliklər baş verir və bu özünü hiperemiyalar. infiltrasiyalar şəklində özünü göstərir. İnfiltratların daxilində histiositlər. plazma hüceyrələri və plazma hüceyrələri ola bilir. Aparat-protezi istifadə etdikcə onun yatağındakı selikli qişanın birləşdirici toxumaları da dəyişikliyə uğrayır. artıq aparat-protezin istifadəsinin bir aylığında eroziya. hipertrofiya və hiperkeratoz növbələşərək yarana bilər. Aparat-protez yatağının patologiyalarının yaranmasında travmatik. termiki. toksiki və allergik amillər rol oynayırlar. lakin yaranmış patologiyanın yaranmasında hansı amilin dominant olduğunu müəyyənləşdirmək çətinlik yaradır. Ədəbiyyat məlumatları yaşı 16-dan az olan uşaqlarda akril tərkibli ortodontik protezlər və aparatlar tətbiq edilərkən daha çox toksiki-allergik reaksiyalar baş verdiyini göstərir. Diş əti də selikli qişa kimi orqanizmdə baş verən bir çox dəyişikliklərin ağız boşluğunda təzahürünün obyektidir. Akril protezlərin tətbiqi zamanı baş verən gingivitlər çox vaxt qövslərə təmas edən dişlərə travma və protezin bazisinin diş ətlərinə selikli qişada olduğu kimi allergik və toksiki təsirləri ilə əlaqədar yarana bilir [9,10,11]. Diş ətlərinin dəyişikliklərinin meydana çıxmasında əsas amillərdən biri də ağız boşluğunun toxumalarının yerli müdafiə. antioksidant və mikrobiosenozunun dəyişilməsidir. Ağız boşluğunun yerli müdafiə yaxud immun sistemi dedikdə selikli qişanın səthindəki immunoqlobulinləri. ağız suyunun lizosim fermenti. buynuzlaşma prosesinin normal getməsi və s. amillər aiddirlər. Termoplast aparat-protezlər isə yumşaq materiallardan ibarət olduğuna görə ağız boşluğunun selikli qişasına daha az travmatik təsir göstərirlər. Bundan başqa. termoplast protezlərin tərkibi daha inert və hamar olduğuna görə onun üzərində mikroorqanizmlərin inkişafı üçün şərait akril protezlərindən az olur.

Tədqiqatın **məqsədi** müxtəlif polimerlərdən hazırlanmış ortodontik aparat-protezlərin tətbiqi zamanı ağız boşluğunda müşahidə olunan patologiyaların dinamikasının təyin edilməsi olmuşdur.

Tədqiqatın material və metodları. Bu məqsədlə tərəfimizdən 70 nəfər ortodontik aparat tətbiq olunmuş şəxsin ağız boşluğu protezin istifadə olunmasından 3 və 6 ay sonra müayinə olunmuşdur. Bu 70 nəfərdən 45-ində akril tərkibli və 25 nəfərinə isə termoplast plastmasslardan hazırlanmış aparat-protezlərdən istifadə olunmuşdur. Bundan başqa. qeyd olunan ortodontik xəstələrin ağız boşluqlarının vəziyyətini müqayisə etmək üçün müayinələrə əlavə olaraq. 20 nəfər də adi heç bir çıxan protez taxmayan sağlam şəxslər cəlb olunmuşlar. Xəstələr və sağlam şəxslərin ağız boşluqlarında lokal və yayılmış iltihabın. ağızda quruluğun. hipersalivasiya və taktil hissiyatının pozulmasının rast gəlinməsi hesablanmışdır. Alınmış rəqəmlər müasir tələbləri nəzərə almaqla statistik metodlarla işlənmişdir. Qrup göstəriciləri üçün orta qiymətlər (M). onların standart xətası (m). sıraların minimal (min) və maksimal (max) qiymətləri. həmçinin qruplarda keyfiyyət göstəricilərinin rastgəlmə tezliyi müəyyən edilmişdir. Qeyd edək ki. tədqiqat işi zamanı alınan nəticələrin statistik işlənməsi Statistica 7.0 tətbiqi kompüter proqramı ilə aparılmışdır.

Tədqiqatın nəticələri və müzakirəsi. Tədqiqat nəticəsində 45 nəfər akril tərkibli ortodontik protez tətbiq edilmiş şəxslərdə lokal iltihabı proses protezin tətbiqindən 3 ay sonra 26.67±6.59% . 6 ay sonra isə 17.78±5.70% hallarda rast gəlinsə də. bu göstərici 25 nəfər termoplast ortodontik protez tətbiq edilmiş şəxslərdə uyğun olaraq. 8.00±5.43% və 4.00±3.92% olmuşdur. Bu hal akril materiallardan hazırlanmış ortodontik materialların termoplast materiallara nisbətən daha sərt olmaları və həmin sərt sahələrin selikli qişa sahələrində lokal iltihabı proseslərə daha çox rəvac vermələri ilə bağlıdır. Lokal iltihabı proseslərin akril tərkibli aparat-protezlərdə profilaktik tədbirlərin icrasını vacib edir. Selikli qişanın yayılmış iltihabı isə daha çox mexaniki amillərlə deyil. toksiki və allergik reaksiyalarla bağlıdır. Yayılmış selikli qişanın iltihabı prosesinə tədqiqatımız zamanı 45 nəfərlik akril ortodontik protezlər tətbiq etdiyimiz şəxslər qrupunda protezlənmənin 3 aylığında 22.22±6.20% hallarda rast gəlinsə də bu göstərici termoplast aparat tətbiq olunan qrupda cəmi 4.00 ± 3.92% hallarda müşahidə olunmuşdur. Protezlənmənin 6 aylığında isə akril protezlər tətbiq olunmuş qrupda yayılmış selikli qişa iltihabına 26.67±6.59% hallarda rast gəlinsə də termoplast aparatlar tətbiq olunmuş 25 nəfərlik qrupda bu göstərici 0-a bərabər olmuş. yəni yayılmış iltihaba rast gəlinməmişdir. Bu termoplast vasitələrin

daha neytral və az toksiki olduğunun göstəricisidir (Cədvəl 1). Akril protez tətbiq etdiyimiz ortodontik xəstələrin müalicənin 3 və 6 aylığında ağızda quruluq hissinin 6.67 ± 3.72% və 2.22 ± 2.20% şəxslərdə rast gəlinsə də həmin zaman kəsiklərində termoplast tərkibli ortodontik aparat tətbiq etdiyimiz 25 nəfərdə bu göstəricilər 0-a bərabər olmuşdur. yəni müşahidə olunmamışdır.

Cədvəl 1

Akril və termoplast tərkibli ortodontik protezlərin əlavə təsirlərinin müqayisəsi

Əlavə təsirlər	Akril (n = 45)		Termoplast (n = 25)	
	3 ay	6 ay	3 ay	6 ay
Lokal iltihab	26,67±6,59	17,78 ±5,70	8,00± 5,43	4,00± 3,92
Yayılmış iltihab	22,22±6,20	26,67±6,59	4,00± 3,92	-
Ağızda quruluq	6,67±3,72	2,22±2,20	-	-
Hipersalivasiya	2,22±2,20	4,44±3,07	4,00± 3,92	-
Taktil hissiyatının pozulması	93,33±3,72	86,67±5,07	44,00± 9,93	20,0± 8,00

Ağız suyunun intensivliyinin artması olan hipersalivasiya əlamətinə isə ortodontik müalicənin 3 aylığında 45 nəfərlik akril tərkibli vasitələr tətbiq etdiyimiz qrupdakı pasiyentlərin 2.22 ± 2.20%-ində rast gəlinsə də. eyni vaxt kəsiyində termoplast protez tətbiq etdiyimiz 25 nəfərdə bu hal cəmi 4.00 ± 3,92% hallarda rast gəlinmişdir. Hipersalivasiya halları adətən ağız boşluğundakı iltihabı proseslərə adekvat olaraq inkişaf edir. Protezlənmənin 6 aylığında isə akril aparatlar tətbiq olunmuş şəxslərdə 4,44±3,07% hallarda hipersalivasiya müşahidə olunsa da. termoplast vasitələr tətbiq etdyimiz qrupda 6 aylıq müddətdən sonra hipersalivasiya halı müşahidə olunmamışdır.

Taktil hissiyatının pozulması ortodontik protezlərin lövhə hissələrinin selikli qişa səthlərini örtməsi və qismən protezin materialından asılıdır. Ortodontik müalicə məqsədilə akril materiallardan olan vasitələr tətbiq etdiyimiz 45 nəfər şəxslərdə protezin tətbiqindən 3 ay sonra 93,33±3,72% pasiyentlərdə taktil hissiyatının pozulması müşahidə olunsa da, termoplast tərkibli ortodontik vasitələr tətbiq etdiyimiz 25 nəfərlik qrupda isə bu göstərici 44,00±9,93% olmuşdur. Protezləmədən 6 ay sonra isə akril ortodontik vasitələr tətbiq etdiyimiz qrupda qeyd olunan hissiyyat pozulması halları 86,67±5,07%. termoplast vasitələr tətbiq olunan qrupda isə 20,0±8,00% hesablanmışdır. Termoplast ortodontik plastmasslardan hazırlanmış vasitələrin tətbiqi zamanı taktil hissiyatının akril tərkibli vasitələrə nisbətən az pozulması onların tərkibi və materiallarının daha yumşaq olmaları ilə bağlıdır. Aldığımız nəticələr göstərir ki, termoplast tərkibli ortodontik vasitələrin tətbiqi genişləndirilməlidir.

Beləliklə. ədəbiyyat məlumatları yaşı 16-dan az olan uşaqlarda akril tərkibli ortodontik protezlər və aparatlar tətbiq edilərkən daha çox toksiki-allergik reaksiyalar baş verdiyini göstərir. Termoplast aparat-protezlər isə yumşaq materiallardan ibarət olduğuna görə ağız boşluğunun selikli qişasına daha az travmatik təsir göstərirlər. Bundan başqa. termoplast protezlərin tərkibi daha inert və hamar olduğuna görə onun üzərində mikroorqanizmlərin inkişafı üçün şərait akril protezlərindən az olur. Müxtəlif polimerlərdən hazırlanmış ortodontik aparat-protezlərin tətbiqi zamanı ağız boşluğunda müşahidə olunan patologiyaların dinamikasının təyini məqsədilə tərəfimizdən tədqiqat aparılmışdır. Tədqiqat nəticəsində 45 nəfərlik akril ortodontik protezlər tətbiq etdiyimiz şəxslər qrupunda protezlənmənin 3 aylığında 22,22±6,20% hallarda rast gəlinsə də bu göstərici termoplast aparat tətbiq olunan qrupda cəmi 4,00±3,92% hallarda müşahidə olunmuşdur. Ümumiyyətlə 70 nəfər ortodontik xəstədə aparılan tədqiqat zamanı termoplast tərkibli vasitələr tətbiq olunan pasiyentlər qrupunda lokal iltihab. yayılmış iltihab. ağızda quruluq. hipersalivasiya.taktil hissiyatının pozulması kimi əlavə təsirlər akril tərkiblilərə nisbətən az olmuşdur.

ƏDƏBİYYAT

1. Авдиенко И.Д., Рябченко Н.Ф., Волгарева Г.М. и др. Поиск биологических средств против грибов рода Candida // ЖМЭиИ, 2000, №6, с. 79-80.

2. Агапов В.С., Артонов Д., Царев В.Н. и др. Сравнительный анализ адгезии к базисным пластмассам микробной флоры полости рта пациентов с послеоперационными дефектами челюстей // Рос. стом. журн., 2004, №3, с. 33-36.

3. Алиев А.У., Ягудеев Т.А. Функциональные полимеры на основе акриловых и метакриловых эфиров некоторых бромацетиленовых спиртов // Химия и химическая технология, 2001, т.43, с.97-101.

4. Алимова Р.Г. Индивидуальная гигиена полости рта при применении современных несъемных сложных ортодонтических конструкций // Стоматология, 2004, №6, с. 63-64

5. Бадалов Р.М.,Гараев З.И., Рзакулиева Д.М. Адаптация к съемным пластиночным зубным протезам // Caucasian dental news, Баку, 2002, №6, с.43-48.

6. Байрамов Х.Х. Структурные и функциональные изменения слизистой оболочки протезного ложа при длительной компрессии съемными протезами: Автореф. дис. … канд.мед. наук. Баку, 1996, 18 с.

7. Бакерникова Т.М. Изучение колонизации микрофлоры протезов из акриловых пластмасс у детей с дефектами зубных рядов // Вестник РГМУ. Периодический медицинский журнал, 2008, т.61, №2. с. 265.

8. Варес Э.Я., Нагурный В.А., Варес Я.Э.. Аллахвердиева Л. Литьевым термопластам медицинской чистоты – дорогу в стоматологическую ортопедию // Стоматология, 2004, т.83. №6, с. 75-76.

9. Chen Y.Y., Betzenhauser M.J., Snyder J.A., Burne R.A. Pathways for lactose/galactose catabolism by Streptococcus salivarius // FEMS-Microbiol-Lett., 2002, 209(1), p.75-79.

10. Frank R.P., Brudvik J.S. Seroux. Relationship between the standarts of removable partial denture construction. clinical acceptability and patient satisfaction // J.Prosthet. Dent., 2000, №83, p. 521-527.

11. Kawara M. et al. Istortion Behavior of Heat-activated Acrylic Denture-base Resin in Conventional and Long. Low-temperature Processing Methods // Journal of Bioactive and Compatible Polymers., 2006, v.21, No 3, p.221-235.

Резюме

Патологии полости рта при применении ортодонтических протезов. изготовленных из различных полимеров

И.Г.Мехмани

Местная тканевая реакция аллергического генеза является частой причиной непереносимости съёмной ортодонтической аппаратуры. изготовленной из акриловых пластмасс. Больные при этом. испытывают дискомфорт. чувство инородного тела. Гиперемия и отек слизистой оболочки полости рта очень часто выявляется в первой фазе ортодонтического лечения. Высокий уровень распространенности воспалительных осложнений при лечении зубочелюстных аномалий несъемной и съемной ортодонтической аппаратурой свидетельствует о необходимости изучения состояния твердых и мягких тканей. микрофлоры. иммунологической реактивности и антиоксидантной системы полости рта у пациентов во время ортодонтического лечения. На основе полученных результатов можно разработать дифференцированный подход к разработке комплексных лечебно - профилактических программ.

Summary

Pathologies of the oral cavity when applied orthodontic prostheses made of different polymers

I.G.Mehmani

Local tissue reaction allergic genesis is a common cause of intolerance removable orthodontic equipment made of acrylic plastic. Patients with experiencing discomfort. foreign body sensation. Hyperemia and edema of the mucous membrane of the mouth is often detected in the first phase of orthodontic treatment. The high prevalence of inflammatory complications in the treatment of dentofacial anomalies with fixed and removable orthodontic apparatus indicates the need to study the state of the hard and soft tissues of the microflora. immunological reactivity and antioxidant system of the oral cavity in patients during orthodontic treatment. On the basis of these results we can develop a differentiated approach to the development of integrated health - care programs.

Daxil olub: 24.05.2013

«DİABETİK PƏNCƏ» SİNDROMU OLAN XƏSTƏLƏRİN CƏRRAHİ MÜALİCƏCİNDƏ OZONOTERAPİYA VƏ MAQNİT-İNFRAQİRMIZI LAZER TERAPİYASININ ROLU

H.B.İsayev, S.F.Şxəliyeva

Akad. M.A.Topçubaşov adina Elmi Cərrahiyyə Mərkəzi, Bakı

Açar sözlər: diabetik pəncə, cərrahi müalicə, ozon terapiyası maqnit-infraqırmızı lazer şüalanması
Ключевые слова: диабетическая стопа, хирургическое лечение, озонотерапия, магнитно-инфракрасное излучение
Keywords: diabetic foot, surgical treatment, ozone therapy, magnetic infrared irradiation

İnkişaf etmiş sənaye ölkələrində 60 yaşdan yuxarı olan əhalinin 10-20%-i ŞD-dən əziyyət çəkir [1,2,11]. Son on illiklər ərzində ŞD-in sosial əhəmiyyətinin artması. bir tərəfdən xəstəliyin rast gəlmə tezliyinin çox sürətlə inkişafı. müalicənin böyük xərclər tələb etməsi. digər tərəfdən isə xəstəliyin ağır fəsadlarının həyat fəaliyyətinə təsir göstərərək ölüm faizini yüksəltməsi ilə əlaqədardır [7,10,13].

ŞD-in tipik və həyat üçün təhlükəli ağırlaşmalarına. arterial qan damarlarının kəskin zədələnməsi və pəncənin irinli-nekrotik proseslərə məruz qalması aiddir [9,14,16]. Məlum olmuşdur ki. ŞD ağırlaşmaları olan xəstələrin 25%-i pəncənin irinli-nekrotik proseslərindən əziyyət çəkir [5,9,14,16]. ŞD-in ən qorxulu ağırlaşmasını aşağı ətrafların diabetik angiopatiyası (AƏDA) və «diabetik pəncə» sindromu (DPS) təşkil edir [3,6,17,18]. ŞD zamanı pəncənin irinli-nekrotik ağırlaşması. 30-60% hallarda ətrafın yuxarı səviyyədən amputasiyasına [18,19], sonrakı dövrlərdə isə 35% letallığa səbəb olur [20,21].

Bütün bunlar. irinli-nekrotik dəyişiliklərlə fəsadlaşan aşağı ətrafların diabetik angiopatiyası və diabetik pəncə sindromunun kompleks cərrahi müalicəsinin əhəmiyyətinin artmasına və bu istiqamətdə yeni effektli üsulların axtarılmasına səbəb olmuşdur [4,5,8,12,15].

İşin **məqsədi** «Diabetik pəncə» sindromu olan xəstələrin kompleks cərrahi müalicəsində maqnit-infraqırmızı-lazer şüalanmasının və ozonoterapiyanın müştərək tətbiqinin köməyilə aparılan cərrahi müdaxilələrin nəticələrinin yaxşılaşdırılmasıdır.

Tədqiqatın material və metodları. Elmi işdə təqdim olunan xəstələr ak. M.A.Topçubaşov adına Elmi Cərrahi Mərkəzin damar şöbəsində 2006-2010 illər ərzində kompleks şəkildə müayinədən keçmişdirlər. İşimizdə istifadə olunan kliniki. laborator. instrumental müayinələr kompleksi, çoxprofilli xəstəxanaların diaqnostik praktikası üçün əsasən ənənəvi xarakter daşıyır.

Tədqiqatda qarşıya qoyulan vəzifələri həll etmək üçün aşağı ətrafların irinli-nekrotik dəyişiliklərı ilə ağırlaşan ŞD əziyyət çəkən 135 xəstə müayinə və müalicə olunmuşdur.

Xəstələr 2 qrupa bölünmüşdürlər: ümumi qəbul edilmiş. ənənəvi müalicə aparılan nəzarət qrupu və ənənəvi müalicə ilə yanaşı kombinəşəkilli kompleks yerli və ümumi ozono- və yerli MİL terapiyası aparılan əsas qrup.

Tədqiqatın məsələlərinə müvafiq xəstələr şərti olaraq xəstəliyin həmcins əlamətləri olan qruplara ayrılmışdır. Hər qrupa cins. yaş. prosesin lokalizasiyasına görə oxşar olan xəstələr daxil edilmişdir. yəni xəstə qrupları reprezentativdir:

1 qrup (nəzarət) – müalicəsində ümumi qəbul edilmiş ənənəvi üsullar tətbiq edilmiş pasientlər – 63nəfər.

2 qrup (əsas) – müalicəsində kompleks yerli və ümumi ozono- və yerli MİL terapiyası tətbiq edilmiş pasientlər – 72 nəfər. Əsas qrup ozü də 2 yarımqrupa bölünmüşdür:

A yarımqrupu – 33 nəfər. bu qrup xəstələrə ənənəvi kompleks cərrahi müalicə ilə yanaşı. həm də yerli və ümumi ozonoterapiya da tətbiq edilmişdir.

B yarımqrupu – 39 nəfər. bu qrup xəstələrə ənənəvi kompleks cərrahi müalicə ilə yanaşı. həm də yerli və ümumi ozonoterapiya və yerli MİL terapiyası müştərək şəkildə tətbiq edilmişdir.

Dinamiki nəzarət və müayinələr eynilə nəzarət qrupunda olduğu kimi idi. Xəstələrin seçilməsi təsadüfi xarakter daşıyaraq klinikaya müraciət edən xəstələrin arasından aparılmışdır.

Hər iki tədqiqat qrupunda olan xəstələrdə aşağı ətrafların diabetik angiopatiyasının müxtəlif formalarına aid klinika müşahidə edilirdi. Xəstələrin vəziyyəti qəbul zamanı orta ağır. ağır kimi qiymətləndirilmişdir.

Diabetik pəncə sindromu diaqnozu. ümumi qəbuledilmiş obyektiv və xüsusi müayinə üsullarının köməyilə təyin edilmişdir.

Xəstə klinikaya daxil olan andan bütün diaqnostik və müalicəvi tədbirlər təxirəsalınmadan həyata keçirilmişdir. Adi kliniki nəzarətlə yanaşı instrumental və laborator müayinələr də aparılırdı (EKQ, döş qəfəsinin rentgenoqramması, sidik və qanın kliniki analizləri, sidik cövhəri, bilirubin, kreatinin, şəkər və qan zülalaları, qələvi-turşu müvazinəti və qanın laxtalanma göstəriciləri təyin edilmışdır).

132 (97,8±1,3%) xəstədə hemoqlobin göstəricisi 50-100 q/l olan anemiya aşkar olunmuşdur ki. bu da xəstələrdə intoksikasiyanın orqanizmə. xüsusən də hemopoezə ümumi təsir göstərməsini təsdiq etmişdir.

Bizim müşahidələrə əsasən 106 (78,5±3,5%) xəstədə eritrositlərin çökmə sürəti (EÇS) normadan artıq olmuşdur və bu xəstələrin çoxunu xəstəliyin ağır forması olan pasientlər təşkil etmişdirlər.

Qanda acqarına qlükozanın yüksək səviyyədə olması müşahidələrin 122 (90,4±2,5%) hallarında aşkar edilmişdir. Qeyd olunan xəstələrə əməliyyatdan sonrakı dövr proqramına müvafiq olaraq. endokrinoloqun nəzarəti altında qlikemiyanın tənzimlənməsi aparılmışdır.

Biokimyəvi müayinələrdən. həmçinin qan zərdabında ümumi zülal (q/l) –kolorimetrik biuret üsulu ilə; bilirubin (mkmol/l) – İendraşek-Kleqqor üsulu ilə; qanda şəkər (mmol/l) – fermentativ üsulla təyin edilmişdir.

Tədqiqatda qarşıya qoyulan məsələləri həll etmək üçün. ümumi qəbul edilmiş kliniki müayinə metodlarından başqa. biz ŞD xəstələrinin cərrahi müalicə mərhələlərində əlavə biokimyəvi (qan zərdabında lipidlərin sərbəst radikal oksidləşməsi proseslərinin, həmçinin qanın antioksidant müdafiə göstəricilərinin dəyişiliklərinin dinamikasını tədqiq etmək məqsədilə), yara səthinin bakterioloji müayinəsi. toxumaların histomorfoloji müayinəsindən istifadə etmişdik. Qanın toksikliyi orta molekul çəkisinin (OMÇ) və leykositar intoksikasiya indeksinin (Lİİ) dərəcəsinə görə təyin edilmişdir.

Tədqiqatın gedişində alınmış bütün rəqəm göstəriciləri statistik təhlil olunmuşdur. Statistik analizin ilkin mərhələsində parametrik üsullardan istifadə edilmişdir. Sonradan qruplardakı göstəricilərin sayını nəzərə alaraq, alınmış nəticələri dəqiqləşdirmək məqsədilə qeyri-parametrik üsullar tətbiq olunmuşdur. zsaylı qruplarda göstəricilər arasındakı fərqi müəyyən etmək üçün qeyri-parametrik üsuldan – Uilkokson (Manna-Uitni) meyarından (U) istifadə olunmuşdur. Keyfiyyət analizi aparmaq üçün χ^2-meyarından (Pirsonun uyğunluq meyarı) istifadə olunmuşdur. Öyrənilən əlamət göstəricilərinin sayı 2-dən çox olduğu hallarda Pirsonun polixorik əlaqə göstəricisindən istifadə olunmuşdur: Bütün hesablamalar EXCEL elektron cədvəlində aparılmışdır.

Nəticələr və onların müzakirəsi. Tədqiq olunan xəstələrin zədələnmiş aşağı ətrafında qan dövranının zəifləməsi reovazoqrafiya və ultrasəss müayinəsi ilə təsdiqlənmişdir. Göstərilən müayinə metodlarının tətbiqi 9,6% xəstədə magistral arteriyaların okklüziya zədələnməsini (makroangiopatiya) və 21,5% xəstədə isə aşağı ətrafların mikroangiopatiyasını aşkar etməyə kömək etmişdir. Xəstələrin əksəriyyətində (68,9%) magistral və kiçik arteriyaların müştərək zədələnməsi- diabetik makro- və mikroangiopatiya müşahidə edilmişdir. Distal yatağın zədələnməsi ilə əlaqədar magistral qan dövranının rekonstruksiyası aparılmışdır.

Ətrafın qan təchizatında əhəmiyyətli dəyişiliklər əsas qrupun xəstələrindən 41-də (57%) nisbətən zəif dəyişiliklər isə erkən trofiki pozğunluğu olan 4 (5,6%) xəstədə müşahidə edilmişdir. Nəzarət qrupunda isə müvafiq olaraq 40(63,4%) və 5(7,9%) xəstədə.

İrinli-nekrotik prosesin ağırlığından asılı olaraq xəstələr 5 qrupa bölünmüşdür:

1) aşağı ətrafların yumşaq toxumalarının erkən trofiki pozğunluğu olan xəstələr;
2) pəncənin bayır və ayaqaltı hissəsinin uzun müddət sağalmayan trofiki xorası olan xəstələr;
3) pəncənin barmaq falanqalarının nekrozu olan xəstələr;
4) pəncənin fleqmonası və daraq sümüklərinin osteomieliti olan xəstələr;
5) pəncənin qanqrenası olan xəstələr.

Ozonoterapiya və MİL terapiyasının effektliliyini qiymətləndirmək məqsədilə. DPS-i olan xəstələrdə venadaxili və yerli ozonoterapiyanın və MİL terapiyasının mikrosirkulyator yatağın vəziyyətinin dinamikasına, kliniki və laborator göstəricilərə təsiri öyrənilmişdir.

Ətrafın arterial qan dövranının qiymətləndirilməsi reovazoqrafiya və ultrasəss müayinəsinin köməyilə həyata keçirilmişdir. Baldırın aşağı 1/3 regionar sistolik təzyiqinin. bazu-baldır regionar sistolik təzyiq indeksinin təyin edilməsi kimi üsullardan da istifadə edilmişdir.

İşemiyaya məruz qalmış ətrafda ozonoterapiyanın mikrosirkulyator sistemə təsirini qiymətləndirmək üçün bir sıra düz və dolayı üsullardan istifadə edərək, ətrafın distal nahiyələrində oksigen sıxlığının səviyyəsini və regionar oksigenasiya göstəricisini təyin etmişik. Baldırda oksigenin sıxlığının venadaxili ozonoterapiyadan sonra təyin edilməsi göstərmişdir ki, müsbət kliniki dinamika ətraf toxumaların oksigenasiyasının səviyyəsinin artması ilə nəticələnmişdir. Ozonoterapiya və MİL terapiyası kursundan sonra bütün kliniki qruplarda ətrafın distal nahiyələrində oksigenin səviyyəsinin kritik həddən. yəni 50 mm.c.süt.-dan artması müşahidə olunmuşdur. Ətrafda qan dövranının yaxşılaşması və ozonoterapiyanın effektliliyi xəstəliyin mərhələsindən asılı olmuşdur. Xəstəliyin II mərhələsi olan xəstələrdə. ozonoterapiya və MİL terapiyasından sonra baldır dərisində oksigenin sıxlığı başlanğıc rəqəmlərə nisbətən 21%, III mərhələsi olan xəstələrdə 18%, IV mərhələdə isə 7%-ə qədər artmışdır. Bu göstəricilər bir daha onu təsdiq edir ki. işemiyaya məruz qalmış toxumuların

oksigenlə təminatı ozonoterapiya və MİL terapiya kursundan sonra daha da yüksəlmiş olur. Eyni vaxtda xəstəliyin geçikmiş formalarında toxumaların oksigenasiyasının yaxşılaşmasında nisbətən zəiflik nəzərə çarpır. Belə ki, aşağı ətrafların diabetik angiopatiyasının IV mərhələsində regionar oksigenasiya göstəricisinin qiyməti azacıq artsa da. digər qruplarda bu rəqəm əhəmiyyətli dərəcədə dəyişilmişdir.

"Diabetik pəncə" sindromu olan xəstələrdə parenteral ozonoterapiya və regionar MLT terapiyasının tədbiqindən asılı olaraq müxtəlif dövrlərdə işemik və nekrotik dəyişikliklіyə məruz qalmış toxumaların reparativ xüsusiyyətlərini öyrənmək üçün müxtəlif günlərdə yara nahiyəsindən toxuma nümunələri götürülmüşdür. Histomorfoloji tədqiqatların icra edilməsi üçün əldə olunan cərrahi bioptatlar 10%-li neytral formalində fiksasiya olunmuş. 5-8 mkm qalınlıqda kəsiklər alınaraq hematoksilin –eozin və Van-Gizon üsulu ilə boyadılmışdır.

Qarşıya qoyulan məsələləri həll etmək üçün öncədən razılıqları alınmış və nisbi olaraq 2 qrupa böldüyümüz xəstələrdən toxuma nümunələri əldə etdik. "Diabetik pəncə" sindromu olan I qrup xəstələrə (n=11) yalnız ozonoterapiya aparıldı. II qrup xəstələrə (n=15) isə parenteral ozonoterapiya ilə yanaşı yara nahiyəsinə regionar MLT terapiyası da əlavə edildi. Ayrı –ayrılıqda tətbiq olunan terapiya üsullarının effektliyini öyrənmək üçün hər iki qrup xəstələrdən müalicənin 3-cü və 10-cu günü yara nahiyəsindən nümunələr götürülmüş və toxumada baş verən morfoloji dəyişikliklər müqayisəli şəkildə tətqiq edilmişdir.

Beləliklə. apardığımız kliniki-morfoloji tədqiqatların nəticələri aşağıdakı mərhələlərə bir daha aydınlıq gətirdi:

1.Diabetik mikroangiopatiyanin nəticəsi kimi yaranan Diabetik pəncə sindromu zamanı mikrosirkulyator şəbəkənin reduksiya olunması hemodinamik pozuntulara səbəb olmaqla yanaşı. öz növbəsində xırda kalibrli damarların zədələnməsini daha da dərinləşdirir.

2.Şəkərli diabetin davametmə müddəti ilə mikrosirkulyator damarların divarında baş verən histopatoloji dəyişikliklər və toxuma metabolizmi arasında birbaşa korelyasion əlaqənin olması təsdiqləndi.

3.Aparılmış kliniki-morfoloji müayinələrin nəticələri göstərdi ki, ozonoterapiya və MİL terapiyasının kompleks şəkildə tətbiqi "diabetik pəncə" sindromu zamanı toxuma strukturlarında və damarların divarında patoloji dəyişiklikləri zəiflətməklə yerli iltihabi reaksiyaların tempini azaldır və toxumaların mikrosirkulyasiyasını yaxshılashdırmaqla reporativ proseslərə effektli təsir edir.

Ozonoterapiya və MİL terapiyası qəbul edən xəstələrdə LPO və antioksidant sistemin göstəricilərinin dinamikasının öyrənilməsi zamanı. bu göstəricilərin müalicə fonunda əsaslı surətdə dəyişilməsi aşkar edilmişdir. LPO birincili və ikincili məhsullarının miqdarının enməsi artıq bir seans venadaxili ozonoterapiyadan sonra başlayaraq. müalicənin sonuna qədər saxlanılmışdır. Antioksidant sistemin vəziyyətində olan dəyişiklik isə. yəni katalaza və reduksiya olunmuş qlütatinperoksidaza fermentlərinin aktivliyi birinci prosedurdan sonra artaraq. müalicədən sonrakı dövrdə də saxlanılmışdır. Klinikaya daxil olan bütün xəstələrdə LPO məhsullarının artması və orqanizmin antioksidant müdafiə faktorlarının enməsi müşahidə olunmuşdur. Bununla belə. ənənəvi müalicə alan I qrup xəstələrdə dien konyuqatlarının (DK) və malon dialdehidinin (MDA) səviyyəsi nisbətən azalmışdır. Belə ki. II A qrupun xəstələrində DK və MDA-da olan dəyişikliklər I qrupa nisbətən müalicənin ilk günlərində müvafiq olaraq 9.7% (p_0<0,001; p_1<0,01) və 11,5% (p_0<0,001; p_1<0,001). II B qrupun xəstələrində isə DK 11,9% (p_0<0,001; p_1<0,001; p_2<0,05). MDA isə 14,4%-ə (p_0<0,001; p_1<0,001) bərabər olmuşdur. Tədqiqat aparılan qruplarda LPO və AOM amilləri arasında əhəmiyyətli fərq. aparılan müalicənin 4-cü günündən başlayaraq. adları çəkilən göstəricilərin müalicə fonunda dəyişilməsi ilə izlənilmişdir. Belə ki, II A qrup xəstələrində ozonoterapiya fonunda cərrahi müdaxilədən 8-10 gün sonra DK və MDA göstəricilərinin səviyyəsi demək olar ki, normal göstəricilərə yaxın olmuşdur. Ozonoterapiya və MİL terapiyası tətbiq edilən II B xəstə qrupunda isə göstəricilər bu müddət ərzində normal göstəricilərə bərabər olmuşdur. Eyni zamanda. I qrup xəstələrində bu müddət ərzində DK və MDA-nın səviyyəsi. əməliyyatdan qabaq olan göstəricilərə nisbətən ensə də. normadan bir qədər yüksək səviyyədə – müvafiq olaraq 3,83±0,04% (p_0<0,001) və 11,3±0,2% (p_0<0,001) qalmışdır.

Analoji hal AOM fermentlərinin (katalaza. SOD) vəziyyətini əks etdirən göstəricilərdə də müşahidə olunmuşdur. Ozon və MİL terapiyası təyin edilən xəstə qruplarında AOM göstəricilərinin bərpası daha yüksək temp ilə baş vermişdir. Tədqiqatların son mərhələsində (əməliyyatdan 8-10 gün sonra) bu xəstələrdə tədqiq olunan göstəricilərin səviyyəsi demək olar ki. yol verilən həddə olmuşdur.

Nəzarət qrupunda olan xəstələrdə yuxarıda adları çəkilən göstəricilərin dəyişiklikləri daha az biruzə olunurdu və tədqiqatmızın 8-10 günündə normal ölçülərə çatmamışdır. II A və II B qrupa aid olan xəstələrdə isə. I qrup xəstələri ilə müqayisədə kompleks müalicə tədbirlərinin təsiri altında AOM fermentlərinin qatılığının nəzərə çarpan dərəcədə stabilləşməsi və göstəricilərin cərrahi müdaxilədən sonra 8-10 gün normal səviyyəyə çatmışdır.

Diabetik pəncə sindromu olan xəstələrdə tərəfimizdən aparılan kompleks müalicənin tərkib hissəsi kimi. cərrahi müdaxilə ilə yanaşı ozon və MİL terapiyasının tətbiq olunması. müalicənin sonunda LPO-AOM göstəricilərinin yol verilən qiymətlərə yaxınlaşmasına imkan vermişdir.

Hər iki qrupdan olan xəstələrdə qanın ümumi və biokimyəvi göstəriciləri yüksək dərəcəli intoksikasiyanın olmasına dəlalət edirdi. Sağlam şəxslərə nisbətən hər iki qrupdan olan xəstələrdə Lİİ və OMÇ-in səviyyəsinin artması müşahidə olunurdu. İntoksikasiya göstəricilərinin artması cərrahi müdaxilədən 1-3 gün sonra da saxalanılırdı. Ozonoterapiyanın ayrılıqda və MİL terapiyası ilə müştərək tətbiqinin detoksikasion effekti II A və II B qruplara daxil olan xəstələrin qanında 8-10 sutkada müşahidə olunurdu. belə ki. bu müddət ərzində göstəricilər norma daxilində olurdu. Tədqiqat qruplarında olan xəstələrin qanında intokiskasiya göstəricilərinin tədqiqat nəticələrini müqayisə edilmişdir. Qeyd etmək lazımdır ki. I qrupa daxil olan xəstələrdə gerçək enmə bilavasitə 8-10 sutkadan başlamışdır. II A və II B qruplara daxil olan xəstələrdə I qrupdan fərqli olaraq. Lİİ və OMÇ-in səviyyəsi sonrakı dövrdə daha yüksək sürətlə enmişdir. Bu cür meyl tədqiqatın son mərhələsində qeyd olunan göstəricilərin normallaşmasına (8-10 sutka) səbəb olmuşdur.

Beləliklə. ənənəvi müalicə alan I qrup xəstələrlə müqayisədə. əsas qrupların xəstələrində. kompleks müalicənin tərkibində təklif etdiyimiz müalicə üsullarının tətbiq edilməsi. tədqiq olunan göstəricilərin daha yüksək templə normallaşmasına səbəb olmuşdur.

Tədqiqat aparılan qruplarda lipid mübadiləsinin vəziyyətinin öyrənilməsinin əsas səbəbi. diabetik angiopatiyalı xəstələrin çoxunun yaşının 50-dən yuxarı və onlardan bəzilərinin isə postmenopauza dövründə olan qadınlar olmasıdır. Müəyyən edilmişdir ki. 129 (95,6±1,8%) xəstədə – ümumi xolesterinin. 135 (100%) xəstədə – triqliseridlərin və 133(98,5±1,0) b-lipoproteidlərin miqdarı artmışdır. 99 (73,3±3,8%) xəstədə isə diabetik angiopatiya aterosklerozun kliniki təzahürləri olan – ürəyin işemik xəstəliyi. dissirkulyator ensefalopatiya ilə müştərək şəkildə rast gəlinmişdir. Bu cür xəstələrdə arteriyaların aterosklerotik zədələnməsi periferik qan dövranının. o cümlədən də periferik sinirlərin qan təchizatının pisləşməsinə səbəb olmuşdur.

Ozonoterapiya kursundan sonra. əsasən də hiperlipidemiya olan xəstələrdə. lipid profilin göstəricilərinin müsbət dinamikası müşahidə olunmuşdur. İlkin normal göstəricilər praktiki olaraq dəyişilməmişdir. Belə ki. ümumi xolesterinin yüksək ilkin miqdarı ozonun təsiri altında 16,7% (p_0<0,001; p_1<0,01) qədər enmiş. normal göstəricilərə qədər azacıq çatmamışdır. Bu göstəricinin normallaşması 53(73,6±5,2%) hallarda müşahidə olunmuşdur. Yavaş formada triqliseridlərin səviyyəsi və b-lipoproteidlərin miqdarı enmişdir. Bu cür dinamika müvafiq olaraq 37,3% (p_0<0,001; p_1<0,01) və 31,7% (p_0<0,001; p_1<0,001) hallarda müşahidə olunmuşdur, a-xolestirinin antiaterogen fraksiyalarının qiymətləri müalicənin ilk günlərində əsas qrupa daxil olan xəstələrdə 11,2% (p_0<0,05; p_1<0,01). müalicənin sonunda isə 31,8% (p_0<0,001; p_1<0,001) artmışdır. Pirson göstəricisi (χ^2) bu qrup üçün müalicənin mərhələlərinə müvafiq olaraq 12,53 (p_1<0,01); 5,436 (p_1<0,05) və 8,244 (p_1<0,01) bərabər olmuşdur. Ozonoterapiyadan əvvəl və sonra xəstələrin qanında olan aterogen b-lipoproteidlərin tədqiqi zamanı Pirsen kriteriyasına (p_1<0,001) görə fərq 33,34-ə bərabər olmuşdur. ilkin olaraq b-lipoproteidlərin konsentrasiyasının yüksək səviyyəsi olan xəstələrdən 53 (73,6±5,2%) nəfərdə isə rəqəmlərin normal ölçülərə qədər azalması müəyyən edilmişdir.

Nəzarət qrupunda olan xəstələrdə də lipid mübadiləsinin göstəricilərinin yaxşılaşması tendensiyası qeyd olunmuşdur. lakin əsas qrupda olduğu kimi kəskin deyil. İstisna halı. ilkin konsentrasiyada hipertriqliseridemiya olan xəstələrdə normallaşan triqliseridlər təşkil etmiş. bu halda o, 26,6% (p_0<0,001) qədər azalmışdır.

Beləliklə. ozonlaşmış natrium-xlorid izotonik məhlulunun venadaxili infuziyaları lipid mübadiləsi göstəricilərinə. xüsusən də onun pozğunluqları zamanı müsbət təsir göstərərək. aterogen fraksiyaların-ümumi xolesterin. triqliseridlər və b-lipoproteidlərin yüksək çıxış səviyyələrinin enməsinə səbəb olmuşdur.

Ozonoterapiyanın təsiri altında lipid profilinin normallaşması təkcə damar divarlarının aterosklerotik zədələnməsinin tormozlanmasına deyil. həmçinin eritrositlərin deformabelliyinin 20,9% (p_0<0,001; p_1<0,001) və qanın laxtalanmasınn 17,9% (p_0<0,001; p_1<0,001) artmasına səbəb

olmuşdur. Bu isə mikrosirkulyasını yaxşılaşdırdığına görə və nəticə etibarilə toxumaların hipoksiyasını azaltdığına görə. diabetik angiopatiyası olan xəstələr üçün çox vacib şərtlərdən biri olmuşdur.

Tədqiqat qruplarında olan xəstələrin hamısında qanın ümumi və biokimyəvi göstəriciləri intoksikasiyanın yüksək səviyyəsinə dəlalət etmişdir. Hər üç qrupun xəstələrində müalicədən əvvəl sağlam şəxslərlə müqayisədə İLİ və OMÇ göstəricilərinin artması müşahidə olunmuşdur. Hətta müalicənin 1-3 günü də bütün qruplar üzrə intoksikasiya göstəriciləri hələ də yüksək olmuşdur.

LPO göstəriciləri ilə olduğu kimi bütün xəstə qruplarında müalicədən 1-3 gün sonra intoksikasiya göstəricilərinin də həqiqi artımı müşahidə olunaraq, yalnız aparılan müalicənin sonrakı günlərində bu göstəricilərin enməsi baş vermişdir. Bu halda alınan nəticələr. kompleks cərrahi müalicənin tərkibində əlavə müalicə üsullarının tətbiqinin üstünlüyünü təsdiq edirdi. Belə ki, II B qrup xəstələrində müalicənin sonuna yaxın yuxarıda adları çəkilən göstəricilərin normal rəqəmlərə çatması müşahidə olunmuş. bu da dəqiq şəkildə qalan iki qrupun nəticələrindən fərqlənmişdir ($p_1<0,001$; $p_2<0,001$). Beləliklə, həm II A qrup, həm də II B qrup xəstələrində kompleks cərrahi müalicənin tərkibində təklif etdiyimiz müalicə üsullarının tətbiqi, I qrup xəstələrində tətbiq edilən ənənəvi müalicə üsulları ilə müqayisədə, tədqiq etdiyimiz göstəricilərin daha yüksək templə normallaşmasına səbəb olmuşdur.

DPS-də hemoreoloji pozğunluqlar təkcə patogenezin bir amili kimi deyil. həmçinin irinli-nekrotik pozğunluqların əmələ gəlmə səbəbi kimi də özünü biruzə vermişdir. Buna görə də bu qrup xəstələrdə hemoreoloji pozğunluqların korreksiya edilməsi vacib şərtlərdən biri olmuşdur.

Nəzarət qrupunda aparılan ənənəvi müalicə fonunda qanın laxtalanma vaxtı cüzi dəyişilsə də. əsas qrupda bu rəqəm nəzarət qrupuna nisbətən ozonoterapiyadan sonra II qrupun A yarımqrupunda 7.4% ($p_0<0.001$; $p_1<0,05$). B yarımqrupunda isə 9,0% ($p_0<0,001$; $p_1<0,01$) dəyişilmişdir. Eynilə digər göstəricilər arasındakı fərq də aydın nəzərə çarpır. Belə ki. nəzarət qrupunda fibrinogen 5,1%-ə qədər azalsa da. II (A) qrupda bu rəqəm daha yüksək olub nəzarət qrupundan 18,9%($p_0<0,001$; $p_1<0,001$). II (B) qrupda isə 22,0%($p_0<0,001$; $p_1<0,001$) fərqlənmişdir. Nəzarət qrupunda fibrinolitik aktivliyin müalicədən sonra 5.8% qədər artmasına baxmayaraq. digər qrupun xəstələrində ozonoterapiyadan sonra bu rəqəm. I qrupa nisbətən II qrupun A yarımqrupu üçün 23,7% ($p_0<0,05$; $p_1<0,001$). B yarımqrupu üçün isə 35.5% ($p_0<0.001$; $p_1<0.001$) təşkil etmişdir. Protrombin indeksi nəzarət qrupunda 3,0%-ə qədər artdığı halda. II (A) qrupunda bu rəqəm nəzarət qrupuna nisbətən 0,1% ($p_0<0,05$). II (B) qrupda isə 0,3% ($p_0<0,01$) azalmışdır. Həmçinin AHTV (aktivləşən hissəvi tromboplastin vaxtı) göstəricisini hər üç qrup arasında müqayisə etdikdə məlum olur ki, nəzarət qrupunda bu rəqəm 0,6%, II (A) qrupda I qrupla müqayisədə 9,4%($p_0<0,05$; $p_1<0,01$). II (B) qrupda isə 17.3% ($p_0<0.001$; $p_1<0.001$; $p_2<0.05$) fərqlənmişdir. Eritrositlərin deformabelliyinə gəlincə, müvafiq olaraq qruplar üzrə aşağıdakı kimi dəyişilmişdir: I qrupda bu rəqəm 5,0%-ə ($p_0<0,01$). II qrupun A yarımqrupunda isə nəzarət qrupuna nisbətən 7,6% ($p_0<0,01$; $p_1<0,01$). B yarımqrupunda isə 24,1% ($p_0<0,001$; $p_1<0,001$; $p_2<0.001$) fərqli olmuşdur. Tətbiq etdiyimiz yeni müalicə üsullarının təsiri altında plazmanın rekalsifikasiya vaxtı I qrupla müqayisədə II (A) qrupunda 6,6%-ə ($p_1<0,05$). II (B) qrupunda isə 17,3%($p_0<0,01$; $p_1<0,001$; $p_2<0,05$)-ə qədər artmışdır. Nəzarət qrupunda bu rəqəm ənənəvi müalicə fonunda digər qruplardan fərqli olaraq 2,7%-ə qədər azalmışdır. Plazmanın heparinə qarşı həssaslığı, nəzarət qrupunda 6,8% ($p_0<0,001$), II qrupun A yarımqrupunda I qrupa nisbətən 4,2%-ə ($p_0<0,001$; $p_1<0,05$). B yarımqrupunda isə müvafiq olaraq 5,1%-ə ($p_0<0,001$; $p_1<0,01$) qədər azalmışdır. Hematokrit göstəricisi isə I qrupda 2,6%-ə, II (A) qrupunda ənənəvi müalicə aparılan qrupa nisbətən 2,0% ($p_0<0,001$),II (B) qrupunda isə 8,9%-ə ($p_0<0,001$; $p_1<0,001$; $p_2<0,001$) qədər artmışdır.

Beləliklə, DPS olan xəstələrdə qanın reoloji xüsusiyyətlərinə ozonoterapiyanın və MİL terapiyası ilə müştərək tətbiqinin müsbət təsiri təsdiqlənmişdir.

Aşağı ətrafların termoqrafiyası zamanı diabetik angiopatiyanın funksional mərhələsi olan bütün xəstələrdə istilik şəklinin bərpasında müsbət irəliləyişlər və diabetik angiopatiyanın üzvi dəyişiliklər baş verən mərhələsində olan 82% xəstədə aşağı ətrafların istilik amputasiyası sindromunun səviyyəsinin enməsi qeyd edilmişdir.

Tərəfimizdən tədqiqat aparılan 68 (94,4%) (əsas qrup) və 58 (92%) (nəzarət qrupu) xəstədə aşağı ətrafların irinli-nekrotik pozğunluqları qeyd edilirdi. Biz yaranın sağalma prosesinə yerli və ümumi ozonoterapiyanın tətbiqinin necə təsir etməsini tədqiq etmişik. Sübut olunmuşdur ki, infeksiyalaşmış yarası olan xəstələrin 45-də (62,5%) patogen mikrofloranın artımı ozonoterapiya və MİL terapiyasının tətbiqi zamanı müşahidə edilməmişdir. Yaraların ozonlaşmış məhlulla işlənilməsindən bir sutka sonra yaralardan mikrobların sayı azalmışdır. Müqayisə məqsədilə mikroflorada olan mikrobların növünü

təyin etmək üçün yaranın səthindən təqiqat üçün steril tamponla patoloji material götürülmüşdür. Yaranın səthindən götürülən materialın bakterioloji müayinəsi göstərmişdir ki, törədicilərin 78% monokultura şəklində, qalanları isə qarışıq mikroflora şəklində olmuşlar. Mikrofloranın keyfiyyət tərkibinin müayinəsi zamanı məlum olmuşdur ki. aşağı ətraflarda irinli proseslərin əsas törədiciləri stafilokokk (23,7%). bağırsaq çöpləri (14,1%) və qarışıq mikrofloradır (23,7%). Kliniki əlamətlər əsasında 8,9% hallarda. yarada baş verən dəyişiliklərə görə adi infeksiyadan fərqli olan qeyri-klostridial anaerob infeksiya aşkarlanmışdır. Qarışıq kultura, çox halda stafilokokk, streptokokk, proteylə assosiasiyalarda müşahidə olunurdu.

II qrupa daxil olan xəstələrdə parenteral ozonoterapiyanın tətbiqindən sonra 1-3 sutkada mikroflora 16 (48,5%) halda müşahidə olunmuşdur. III qrupa daxil olan xəstələrdə isə təklif etdiyimiz üsulun MİL terapiyası ilə müştərək tətbiq edilməsi nəticəsində qeyd olunan müddət ərzində yalnız 11 (28,2%) xəstədə mikrofloraya rast gəlinmişdir.

Nəzarət qrupuna daxil olan xəstələrdə də əsas qrupun xəstələrində olduğu kimi, müalicədən öncə yara nahiyəsində törədicilər aşkar olunmuşdur. Bu qrupa daxil olan xəstələrə ənənəvi müalicə tətbiq olunduqdan sonra xəstələrin 44-də (69,9%) törədicilər aşkar olunmuşdur (bu II A qrupa nisbətən 3 dəfə çox deməkdir).

Aparılan bakterioloji tədqiqatların sonrakı nəticələrinə əsasən. müalicənin sonuna yaxın əsas qrupun A yarımqrupunun xəstələrində mikroflora 3(9%) xəstədə müşahidə olunmuşdur. B yarımqrupunda isə mikroflora aşkar edilməmişdir.

Tədqiqatlar nəticəsində məlum olmuşdur ki. I qrupa daxil olan xəstələrdə yaraların ənənəvi müalicəsi və profilaktikası çox vaxt özünü doğrultmurdu və əməliyyatdan sonrakı dövrdə mikrobla kontaminasiya 30,1% (19 xəstə) halda rast gəlinmişdir.

Xəstə qruplarında yara səthindən götürülən yaxmaların bakterioloji analizlərin müqayisəli nəticələrinə əsasən. tədqiqatın sonuna yaxın əsas qrupa daxil olan xəstələrdə yara səthinin demək olar ki, steril olması. bizim təklif etdiyimiz müalicə üsullarının bakterisid effektli olmasını sübut etmişdir.

Ozonoterapiya və MİL terapiyasının. bilavasitə DPS olan xəstələrin müalicəsinin nəticələrinə təsirini qiymətləndirmək üçün, tərəfimizdən bir neçə meyar istifadə edilmişdir: aparılan müalicədən sonra ətrafın saxlanılma meyarı, infeksiyalaşmış yaraların kliniki dinamikası.

Ozonoterapiyanın və MİL terapiyasının müştərək tətbiqindən sonra amputasiyaların miqdarı nəzarət qrupu ilə müqayisədə 12,9%-ə qədər azalmışdır. Həmçinin DPS trofo-nekrotik fəsadları tərəfindən də. müsbət kliniki dinamika qeyd edilmişdir. Tərəfimizdən təsdiq olunmuşdur ki, kompleks müalicədə venadaxili ozonoterapiya əlavə edilən və irinli-nekrotik pozğunluğu olan DPS xəstələr arasında ən yaxşı nəticələr, distal arterial yatağı zədələnmiş xəstə qruplarında əldə edilmişdir. Ozonlaşmış məhlulların venadaxili yeridilməsi regional venoz hövzənin hüdudunda lokal təsir göstərərək, təkcə əmliyyatdan sonrakı letallığı deyil, həmçinin ətrafda icra ediləcək «böyük» amputasiyalarının miqdarını da azaltmağa kömək etmişdir. Ozonoterapiyanın effektliliyinin retrospektiv təhlili göstərmişdir ki, ozonlaşmış məhlulların damardaxili infuziyalarının DPS olan xəstələrin müalicə kompleksinin tərkibinə əlavə edilməsi, «böyük» amputasiyalar olan xəstə qrupunda letallağın səviyyəsinin əhəmiyyətli dərəcədə aşağı enməsinə səbəb olmuşdur. Ozonoterapiya və MİL terapiyası alan xəstə qrupunda «böyük» amputasiyalarının miqdarı 3 (7,7%) olduğu halda. nəzarət qrupunda bu rəqəm 13(20,6%) bərabər olmuşdur. Beləliklə, ozonoterapiyanın MİL terapiyası ilə müştərək tətbiqi nəticəsində amputasiyaların sayı 12,9%-ə qədər enmişdir. Parenteral ozonoterapiya ilk növbədə orqanizmdə baş verən yerli və ümumi pozğunluqların intensivliyinin azalması və ya qarşısının alınması. «qoruyucu» əməliyyatların yerinə yetirilməsi üçün şəraitin yaradılması və bunun nəticəsində ətrafın həyat qabiliyyətinin və onun funksiyasının saxlanılması üçün tətbiq edilmişdir (cədvəl 1).

Cədvəl 1

Tədqiqat qruplarına daxil olan xəstələrdə tətbiq edilən cərrahi əməliyyatların növləri və onların nəticələri

Cərrahi əməliyyatın növü		A yarımqrupu (n=33)	B yarımqrupu (n=39)	Nəzarət qrupu (n=63)
Konservativ		4 (12,1±5,7%)	11 (28,2±7,2%)	5 (7,9±3,4%)
«Kiçik» amputasiyalar	Nekrektomiya	-	1 (3,6±3,5%)	5 (7,9±3,4%)
	Ayaq barmaqlarının ekzartikulyasiyası	14 (48,3±9,3%)	17 (60,7±9,2%)	20 (31,7±5,9%)

	Ayaqaltı aponevrozun açılması	1 (3,4±3,4%)	-	5 (7,9±3,4%)
	Metatarzal amputasiya	10 (34,5±8,8%)	7 (25,0±8,2%)	15 (23,8±5,4%)
«Böyük» amputasiyalar	Baldırın orta 1/3 amputasiyası	1 (3,4±3,4%)	-	-
	Baldırın yuxarı 1/3 amputasiyası	1 (3,4±3,4%)	2 (7,1±4,9%)	7 (11,1±4,0%)
	Budun aşağı 1/3 amputasiyası	1 (3,4±3,4%)	1 (3,6±3,5%)	6 (9,5±3,7%)
	Budun orta 1/3 amputasiyası	1 (3,4±3,4%)	-	-
	Budun yuxarı 1/3 amputasiyası	-	-	-
$\chi 2$; p		$\chi 2$=1,35; p>0,05	$\chi 2$=9,07; p<0,05	

Tərəfimizdən DPS ozonoterapiya və MİL terapiya əlavə edilmiş kompleks cərrahi müalicəsinin 1 və 3 ildən sonrakı uzaq nəticələri və ətrafın saxlanılması kriteriyasına görə nəzarət qrupuna daxil olan xəstələr təhlil edilmişdir. ozonoterapiya və MİL terapiya alan xəstə qrupunda amputasiyaların sayı az olmuşdur (cədvəl 2 və cədvəl 3).

Cədvəl 2
DPS olan xəstələrdə müalicədən 1 il sonra amputasiyaların sayı

Müalicə qrupları	Amputasiyasız	Amputasiya yerinə yetirilmişdir	Ölüm	$\chi 2$; p
Ozonoterapiyasız (n=51)	24 47,1±7,0%	21 41,2±6,9%	6 11,8±4,5%	
Ozonoterapiyadan sonra (n=28)	19 67,9±8,8%	9 32,1±8,8%	–	$\chi 2$=5,12; p >0,05
Ozonoterapiya və MİL terapiyasından sonra (n=33)	28 (84,8%)	5 (15,2%)	-	$\chi 2$=12,9; p<0,01

Cədvəl 3
DPS olan xəstələrdə müalicədən 3 il sonra amputasiyaların sayı

Müalicə qrupları	Amputasiyasız	Amputasiya yerinə yetirilmişdir	Ölüm	$\chi 2$; p
Ozonoterapiyasız (n=27)	3 11,1±6,0%	14 51,9±9,6%	10 37,0±9,3%	
Ozonoterapiyadan sonra (n=11)	6 54,5±15,0%	3 27,3±13,4%	2 18,2±11,6%	$\chi 2$=8,16; p <0,05
Ozonoterapiya və MİL terapiyasından sonra (n=14)	11 78,6±11,0%	2 14,3±9,4%	1 7,1±6,9%	$\chi 2$=18,7; p<0,001

Beləliklə, DPS olan xəstələrdə ozonoterapiya və MİL terapiyasının terapevtik imkanlarının təyin edilməsi, aparılan elmi tədqiqatın yekunu olmuşdur. Alınan nəticələrin müqayisəli təhlili, ozonoterapiyanın MİL terapiyası ilə müştərək tətbiqinin ŞD xəstələrinin müalicəsinin yaxın və uzaq nəticələrinin yaxşılaşması üçün müsbət təsir göstərməsi haqda fikir yürütməyə imkan vermişdir. Qabarıq müalicəvi təsirə malik olsa da, ozonoterapiyanın heç bir mənfi əlavə təsiri qeyd edilməmişdir. Ozonla müalicə rasional və mütləq şəkildə insulinin, mikrosirkulyasiyanın korreksiyasına yönəldilən dərman preparatlarının təyin edilməsi, mikrofloranın çoxalmasına qarşı yönəldilən, dezintoksikasiya, həyati vacib orqanların pozulmuş funksiyalarının bərpasına gətirib çıxaran tədbirlərin, kompleks şəkildə istifadə edilməsi zamanı yüksək nəticə əldə etmək mümkün olmuşdur. Bu üsulla yanaşı MİL terapiyasının istifadə olunması ŞD xəstələrində həm lokal əməliyyatların uğurlu nəticəsi üçün əməliyyatdan əvvəlki dövrdə, həm də aparılan müalicənin nəticələrinin yaxşılaşması üçün əməliyyatdan sonrakı dövrdə də tətbiq edilməsi mümkündür.

Apardığımız tədqiqatlarla biz ozonoterapiya və MİL terapiyasının müştərək tətbiqinin həqiqətən də, DPS-i olan xəstələrin müalicəsində müəyyən üstünlüklərə malik olmasını sübut etmişik və bu

üsulun cərrahi təcrübədə geniş şəkildə tətbiq olunmasını tövsiyə edirik.

ƏDƏBİYYAT

1.İsayev H.B., Şıxəliyeva S.F. «Diabetik pəncə» sindromu probleminin müasir aspektləri // Cərrahiyyə, 2007, N3, p.81-87.

2.Məmmədhəsənov R.M., Cəfərova R.Ə. Şəkərli diabetin etiologiyası və patogenezi haqqında müasir təsəvvürlər // Azərbaycan Tibb Jurnalı, 2011, №4, s.115-120

3.Nəsirov M.Y., İsrafilova G.T. Diabetik pəncə sindromunun diferensial diaqnostikasina dair. // Cərrahiyyə, 2006, №2, s. 11-16

4.Nəsirov M.Y., Talıbov Ş.T., İsrafilova G.T. Aşağı intensivlikli lazer şüalarının şəkərli diabetin irinli-nekrotik ağırlaşmaları olan xəstələrdə tətbiqi // Cərrahiyyə, 2005, №4, s. 16-20

5. Şxəliyeva S.F. Aşağı ətrafların irinli-nekrotik dəyişiklikləri ilə fəsadlaşan diabetik angiopatiyalı xəstələrin kompleks müalicəsi // Azərbaycan təbabətinin müasir nailiyyətləri, 2012, N3, p.58-62.

6.Алиева И.Д. Синдром Диабетической стопы. Принципы и методы клинико-инструментальной диагностики // Sağlamlıq, 2009, №7, c.162-166

7.Исмайлова Д.А. Новые подходы к комплексному лечению больных с синдромом диабетической стопы. Автореф.дис. д-ра филос. по мед.наукам. Баку, 2012, 21 с.

8.Шхалиева С.Ф. Роль озоно- и МИЛ-терапии в определении состояния регионарного кровообращения у больных с диабетическими ангиопатиями нижних конечностей // Вестник Хирургии Казахстана, 2012, N3, c.15-16.

9.Балаболкин М.И., Клебанова Е.М., Креминская В.М. Микроангиопатия-одно из сосудистых осложнений сахарного диабета // Consilium medicum, 2000, Т. 2, №5.

10.Гурьева И.В., Кузина И.В., Воронин А.В. и др. Синдром диабетической стопы. М., 2000, 40 с.

11.Леонович С.И., Кондратенко Г.Г., Безводицкая А.А. Синдром диабетической стопы актуальность проблемы сохраняется // Белорусский медицинский журнал, 2003, №1, с.8-11.

12.Лечение больных с синдромом диабетической стопы с использованием комплексной озонотерапии и «МИЛ-терапии» / Материалы научно-практической конференции врачей России посвященной 70-летию Тверской государственной медицинской академии «IV Успенские чтения» г. Тверь, 2006, с. 84-85

13.Международное соглашение по диабетической стопе. Составлено Международной рабочей группой по диабетической стопе. М.: Берег. 2000. 96с.

14.Питер Дж.Уоткинс. Сахарный диабе ABC of Diabetes / М.И. Балаболкин. М.: Бином, 2006, 134 с.

15.Al-Dalain SM., Martinez G., Candelario-Jalil E. et al. Ozone treatment reduces markers of oxidative and endothelial damage in an experimental diabetes model in rats. // Pharmacol-Res., 2001, v. 44 (5), p.391-396

16.Andersen C.A., Roukis T.S. The diabetic foot // Surg Clin North Am., 2007, v.87(5),p.1149-77.

17.Brem H. Evidence-based protocol for diabetic foot ulcers /H Brem. P Sheehan. J Rosenberg. JS Schneider. A Bolton // Plast Reconstr Surg. 2006 Jun; 117(7 Suppl):193S-209S.

18.Carrington L. et al. A Foot Care Program for Diabetic Unilateral Lower-Limb Amputees // Diabetes Care, 2001, v.24, p.216-221

19.Holstein P., Ellitsgaard N., Olsen B.B. Ellitsgaard V. Decreasing incidence of major amputations in people with diabetes // Diabetologia, 2000, v.43, №7, p. 844-847.

20.Probal K., Mtonga M.R., Gill GV. Amputation and mortality in new-onset diabetic foot- ulcers stratified by etiology. // Diabetes Care, 2003, v.26, p.491-494

21.Rathur H.M., Boulton A.J. The diabetic foot // Clin Dermatol., 2007, v. 25(l), p.109-20.

Резюме

Роль озоно- и магнито-инфракрасно лазерной терапии в хирургическом лечении больных с синдромом диабетической стопы

Г.Б.Исаев. С.Ф. Шхалиева

Цель работы – оценить эффективность озоно- и МИЛ терапии в в хирургическом лечении больных с синдромом диабетической стопы. Проведен анализ результатов лечения 135 больных сахарным диабетом. осложненным гнойно–некротическим поражением стопы. Больным основной группы (II А подгруппа) наряду с традиционным лечением проводилась озонотерапия в сочетании с МИЛ терапией. Наше исследование подтвердило. что применение озонотерапии

и МИЛ терапии у больных с синдромом диабетической стопы. Способствует улучшению результатов.

Summary

Role of ozone and magnetic-infra-red-laser therapy in surgical treatment in patients with the syndrome of diabetic foot

H.B.İsayev, S.F. Shikhaliyeva

Purpose of research-is evaluation an effectiveness of ozone and MIL therapy in surgical treatment on patients with the diabetic foot syndrome. Analysis of the results of surgical treatment to 135 patients with diabetes mellitus complicated by purulent necrotic injuries of the foot performed. Patients of the main group (II A subgroup). have had magnetic-laser therapy along with traditional treatment and ozone therapy. Our study confirmed that the use of ozone therapy and MIL therapy in patients with diabetic foot syndrome contributes to improved health outcomes.

Daxil olub: 12.09.2013

VİTAMİNLƏŞDİRİCİ "URVACROS" DƏRMAN VASİTƏSİNİN TEXNOLOGİYASININ İŞLƏNİB HAZIRLANMASI

M.N.Vəliyeva, S.C. Mehralıyeva , E.A. Quliyeva, A.F. Quliyeva, M.İ. Sarıyılmaz

Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: "urvacros" fitoyığıntı, ekstraktiv maddə, qranullar

Ключевые слова: «урвакрос» фитосбор, экстрактивное вещество, гранулы

Keywords: "urvakros" fitosbor, extractives, granules

Müasir dövrdə tərkibi vitaminlərlə zəngin dərman vasitələrinin hazırlanması tibb və əczaçılıq elminin aktual məsələlərindən hesab olunur.

Orqanizmin müxtəlif xəstəliklərə qarşı müqavimətinin artırılmasında vitaminlərin böyük rolu vardır. Vitaminlər katalizatorlar və ya enzimlər kimi hüceyrələrin funksiyalarını, eləcə də onlarda gedən biokimyəvi prosesləri tənzim- ləyir və qida maddələrinin düzgün istifadə olunmasını təmin edir. Hormonlar və enzimlərlə birlikdə onlar vahid fizioloji birlik olan biokatalizatorlar qrupunu əmələ gətirir və orqanizmdəki bütün maddələr mübadiləsi proseslərində son dərəcə büyük rol oynayır.

Hal-hazırda 30-a yaxın vitamin məlumdur ki, onlardan da təqribən iyirmisi insan orqanizminə bitki və heyvan mənşəli qidalarla daxil olur. Bitkilərdə vitaminlər digər bioloji maddələr və mikroelementlərlə müəyyən nisbətlərdə yerləşir [2,3].

Orqanizmdə vitamin çatışmazlığı avitaminoz və ya hipervitaminozla nəticələnir ki, bunu da tərkibində vitaminlər saxlayan preparatlar, bitkilər və bitki yığıntıları ilə tənzimləyirlər. Bu sahədə bir sıra vitaminli (№1-№10) yığıntıların olmasına baxmayaraq, yeni tərkiblərin işlənib hazırlanmasına ehtiyac duyulur [5].

Qeyd olunanları nəzərə alaraq Azərbaycan florasından olan bitkilərdən vitaminləşdirici dərman vasitəsinin hazırlanması qarşıya məqsəd kimi qoyulmuşdur.

Tədqiqatın material və metodları. ATU-nun əczaçılıq texnologiyası, iqtisadiyyatı və təşkili kafedrasının elmi-tədqiqat laboratoriyasında gicitkən yarpağı (Folium Urtica dioica-35q, XI DF, s.274), qaragilə meyvəsi (Fructus Vaccinium myrtillus -15q, XI DF, s.291) və itburnu meyvələrindən (Fructus Roza canina-15 q, XI DF, s.294) ibarət yığıntı hazırlanmışdır. Yığıntı şərti olaraq "Urvacros" (Urticae-Vaccinium-Rosa) adlan- dırılmışdır. "Urvacros" yığıntısı və onun əsasında hazırlanmış qranulların optimal texnoloji parametrləri ATU-nun laboratoriyasında öyrənilmiş, qranulların tərkibində olan vitaminlərin miqdari təyini isə Azərbaycan Respublikasının Dərman Vasitələrinin Analitik Ekspertiza Mərkəzində (DVAEM) aparılmışdır.

Cihazlar və xromotoqrafiya şərtləri:

Analitik tərəzi –KERN , AET-220-4nm; max 220g, d=0,1mg; min 10mg, e=1mg;

Xromatoqraf -Agilent 110 Series;

Xromotoqrafik kolon- ZORBAX CB-C18; 4,6x250 mm;

İnyeksiyanın həcmi -20mkl;

Detektor -DAD, 360nm;

Hərəkətli faza: metanol : 0,2%-li natrium fosfat (45:55)

Hərəkətli fazanın sürəti -1ml/dəq;
Hərəkətli faza metanol və 0,2%-li natrium fosfat məhlulundan ibarət olub 45:55 nisbətindədir. Kolbaya 300 ml 0,2%-li natrium fosfat məhlulu və 245 ml metanol əlavə olunaraq həlledici faza hazırlanmışdır [1,4].

Nəticələr və müzakirə. Gicitkən yarpağı, qaragilə və itburnu meyvələrindən ibarət xammallar xırdalanır və diametri 2 mm olan ələkdən keçirilir.

Xarici görünüşü: Qarışıq təmizlənmiş yaşıl-qırmızı-bənövşəyi rəngli olub, qara-bəvşəyi rəngli qaragilə meyvələrindən, tünd-yaşıl rəngli gicitkən yarpaqlarından, qırmızı-qəhvəyi itburnu meyvələrindən ibarətdir.

Xassəsi: Iyi spesifik, dadı turştəhər-yandırıcıdır.

Ədədi göstəricilər:

Nəmlik 16%-dən çox olmamalıdır.

Ümumi kül 5%-dən çox olmamalıdır.

10%-li xlorid turşusunda həll olmayan külün miqdarı 2%-dən çox olmamalıdır.

Üzvi qarışıqlar 1%-dən çox olmamalıdır.

Mineral qarışıqlar 1%-dən çox olmamalıdır.

Ekstraktiv maddələr: təmizlənmiş su ilə 22%-dir.

Hazırlanmış yığıntıda optimal həlledici, xammal-ekstragent nisbəti, xammalların xırdalıq dərəcəsi, ekstraksiya müddəti, ekstraksiya şəraiti ədəbiyyat məlumatlarına görə müəyyənləşdirilir. Vitamin tərkibli bitkilərdə yüksək temperaturda parçalanma ehtimalı olduğundan onlarda məhz aşağı temperaturda və xırdalıq dərəcəsində (1mm) ekstraksiya aparılmalıdır. Ona görə də vitaminli yığıntıdan 1:10 nisbətində dəmləmə hazırlanması həyata keçirilmişdir.

"Urvacros" adlandırılan yığıntı yuxarıda göstərlən tərkibdə çəkilib həvəngə yerləşdirilir və xammalların 1mm ölçüdə olmaqla üyüdücü cihazda xırdalanması aparılır. Bu qarışıqdan 10 q çəkilir, həcmi 200 ml olan kolbaya yerləşdirilir.

Kolbadakı xammalın üzərinə temperaturu 50-60ºC olan 120ml su əlavə edilir (V=V1+PK=100+10x2=120ml). K suudma əmsalı olub, itburnu meyvələri üçün 1,1; qaragilə meyvələri üçün 1,8; gicitkən yarpağı üçün1,8 müəyyən edilmişdir. Təklif olunan yığıntı üçün təqribi olaraq K=2 götürülür. İtburnu meyvələrindən 1:20 nisbətində dəmləmə; gicitkən yarpaqları 1:10 nisbətində dəmləmə; qara meyvələrindən isə 1:10 nisbətində bişirmə hazırlanır. Tərtib olunmuş yığıntının tərkibində bunu nəzərə alaraq, ekstraksiya prosesi 40-50ºC istiliyi olan su hamamı üzərində 15 dəqiqə müddətində aparılır. Alınan çıxarış 45 dəqiqə müddətində soyudulur və süzülür.

Süzülmüş çıxarış su hamamı üzərində sulu konsentrat alınana qədər buxarlandırılır. Boş farfor kasanın çəkisi müəyyən olunur -36,15 q. Sulu konsentrat kasaya yerləşdirilir. Quru qalıq alınana qədər su hamamı üzərində buxarlandırılır, sonra soyudularaq çəkisi müəyyən edilir 38,72 q .

Quru qalığın faizlə miqdarı $X=a-a_1/Px100$ düsturuna əsasən hesablanır. Alınan nəticələr 1-ci cədvəldə verilmişdir.

Cədvəl 1

"Urvacros" fitoyığıntısında maksimal miqdarda ekstraktiv maddələrin alınması üçün optimal parametrlərin seçilməsi

Ekstragentin təbiəti	Xammal və həlledicinin nisbəti	Xammalların xırdalıq dərəcəsi, mm	Ekstrasiya müddəti, dəqiqə	Ekstrasiya şəraiti	Ekstraktiv maddələrin miqdarı,%
Təmizlənmiş su	1:10	1	15	su hamamı üzərində 40-50ºC temperaturu olan	21,94

Beləliklə, optimal həlledici- təmizlənmiş su, xammal-ekstragent nisbəti 1:10, ekstraksiya müddəti-15 dəqiqə, ekstrasiya şəraiti 40-50ºC temperatur olduqda ekstraktiv maddələr 21,94% təşkil edir.

Təsiredici maddələrin ballast maddələrdən təmizlənməsi. Bu məqsədlə ekstraktiv maddələr 20 ml su ilə həll edilir. Alınan sulu konsentrat (tünd-qəhvəyi rəngli) zülali maddələrdən azad edilmək üçün 95%-li etil spirti ilə (1:2 nisbətində), 10 dəqiqə müddətində qarışdırılır və kağız filtrdən süzülür. Filtrdəki qalıq su-spirt qarışığı ilə yuyulur. Alınmış filtrat quru qalıq alınana qədər buxarlandırılır. Təmizlənmiş quru ekstrakt 12% təşkil edir.

Optimal parametrlərin iştirakı ilə alınmış quru ekstrakt əsasında qranullar hazırlanır. Tərkib: "Urvacros"un quru ekstraktı-10,0; süd şəkəri-10,0, aerosil -0,005 q; 70%-li etil spirti lazım olan qədər.

Hazırlanması. Quru ekstrakt və süd şəkəri bərabər nisbətdə qarışdırılır. Sonra 7-8 ml 70%-li etil spirti ilə nəmləşdirilir, aerosil əlavə edilir. Qranulyatordan keçirilir. Lab. Inkubatorunda 5-10 dəqiqə müddətində qurudulur (Şək. 1) .





Şək.1. Qranulların hazırlanması


Hazırlanmış vitaminləşdirici qranulların keyfiyyət normaları öyrənilmişdir: xarici görünüşü, ölçüsü, təsirdeici maddələrin miqdarı, parşalanması və s. (cədvəl 2).

Cədvəl 2

"Urvacros" qranullarının keyfiyyət göstəriciləri

Xarici görünüşü	Ölçüsü, mm	Təsiredici maddələrin miqdarı,%	Parçalanması, dəqiqə
Dairəvi, açıq-qəhvəyi rəngli, şirintəhər-turş dadlı, spesifik iyli	0,2-0,3	12	10

Qranulların parçalanmasının təyini. Hazırlanmış qranullardan 0,5 qr çəkilir, həcmi 100 ml olan konusşəkilli kolbaya keçirilir, üzərinə temperaturu 37ºC olan 50 ml su əlavə edilir. Kolba dəqiqədə 1-2 dəfə çalxalanır. Tədqiq edilən "Urvacros"qranulları 10 dəqiqə müddətində parçalanır.



Şək.2. Vitaminli "Urvacros" qranullarının hazırlanmasının texnoloji sxemi

Yüksək effektli maye xromatoqrafiya vasitəsilə vitaminlərin (C, B1, B2, B6) miqdari təyinatı



Vitaminlərin standart məhlullarının hazırlanması.

C vitamini 0,0477 q, B1 vitamini 0,0112 q, B2 vitamini-0,0067q çəkildi. Hər biri ayrı-ayrılıqda həcmi 25 ml olan kolbaya yerləşdirilir. Həcm su ilə ölçüyə çatdırılır. Bundan sonra C vitaminindən 0,9 ml, B1 və B2-2,3 ml, B6 vitaminindən isə 4 ml götürülür və həcmi 25 ml olan kolbaya yerləşdirilir. Tədqiq olunan qranullardan 3,2396 q götürülür və həcmi 50 ml olan kolbaya yerləşdirilir mobil faza ilə həll edilir və xromatoqrafiyaya uğradılır.

1 qr qranulda C vitamininin (və ya B1, B2, B6) miqdarı aşağıdakı düsturla hesablanmışdır:

$$X = \frac{S_{nüm.} \times m_{st.} \times V_{st} \times 50}{S_{st.} \times m_{nüm.} \times 25 \times 25}$$

Burada, Snüm.-tədqiq olunan nümunə məhlulunun xromatoqramında hesablanmış C vitamininin (və ya B1, B2, B6) zirvə sahələrinin orta göstəricisi;


$S_{st.}$ – C vitamininin (və ya B1, B2, B6) Işçi Standart Nümunə məhlulunun xromatoqramında hesablanmış C vitamininin (və ya B1, B2, B6) zirvə sahələrinin orta göstəricisi;

$m_{st.}$ –C vitamininin (və ya B1, B2, B6) Işçi Standart Nümunəsinin hazırlanması üçün götürülən C vitamininin (və ya B1, B2, B6) çəkisi, q-la;


mnüm. – tədqiq olunan qranulların nümunə çəkisi , q-la ;

$V_{st.}$ – standart məhlulu durulaşdırdıqdan sonra, götürülən həcm, ml-lə (0,9ml, 2,3 ml, 2,3ml, 4 ml).

Müqayisəli xromatoqramlar şəkil 1 və 2-də göstərilmişdir.



Şək. 3. Standart məhlulda C, B1, B2 , B6 vitaminlərinin xromatoqramı



Şək. 4. Tədqiq olunan nümunədə C, B1, B2 , B6 vitaminlərinin xromatoqramı

Aparılan analizlər nəticəsində hazırlanmış "Urvacros" qranullarında C vitamininin 7 mq, B_1-0,214mq, B_2 -0,101mq, B_6- 0,314 mq təşkil etdiyi müəyyən edilmişdir.

Beləliklə, Azərbaycan florasından olan bitkilər əsasında hazırlanmış "Urvacros" qranulları orqanizmin vitamin çatışmazlığının təmin edilməsində istifadə oluna bilər.

ƏDƏBİYYAT

1.Государственная фармакопея СССР одиннадцатое издание. Выпуск 2, М.: «Медицина», 1990

2. Морозкина Т.С., Мойсеенко А.Г. Витамины. Минск: Асар, 2002, 114 с.

3. Михайлов И.Б. Витамины СПб: Аст Сова, 2006, 128 с.

4.Яшин Я.И., Яшин А.Я. Высокоэффективная жидкостная хроматография. Состояние и перспективы // Российский Химический Журнал, 2003, Т.47, № 1, с. 111-118

5. http://www.km.ru/zdorove/encyclopedia/vitaminnye-i-obshcheukreplyayushchie-sbory

Резюме

Разработки технологии приготовления витаминизированные гранулы «Urvacros»

М.Н.Велиева, С.Дж. Мехралиева, Э.А. Кулиева, А.Ф. Кулиева, М.И.Сарыйылмаз

В лаборатории кафедры фармацевтической технологии Азербайджанского Медицинского Университета впервые приготовлен витаминизированный сбор на основе лекарственных растений, представленных флорой Азербайджана: крапива двудомная (Urtica dioica), черника обыкновенная (Vaccinium myrtillus), шиповника обыкновенная (Rosa canina). Условно сбору дали название ”Urvacros”. Были определены оптимальные параметры приготовленного сбора: соотношение сырья и экстрагента - 1:10, степень измельчения- 1мм, время экстракции-

15минут, условия экстракции - 40-50^0 С. Методом влажной грануляции на основе сухого

экстракта, полученного из сбора, были приготовлены гранулы и проверены нормы их качества. Было определено, что эти 0,2-0,3мм цилиндрические гранулы светло-кофейного цвета, сладко-кислого вкуса и специфического запаха растворяются в течение 10 минут. Одновременно в ЦАЭЛС было выявлено количество биологически активных веществ методом высокоэффективной жидкостоной хроматографии. Было определено, что в гранулах ”Urvacros” содержатся витамины в следующих количествах С 7 мг, B_1 – 0,214 мг, B_2 -0,101мг, B_6 -0,314 мг.

Summary

Development of technology for preparation of fortified pellets ”Urvacros”

M.N.Veliyeva, S.C. Mehralıyeva, E.A. Quliyeva, A.F. Quliyeva, M.İ. Sarıyılmaz

In the laboratory of the Department of Pharmaceutical Technology of Azerbaijan Medical University enriched first prepared on the basis of collection of medicinal plants presented in flora of Azerbaijan: nettle (Urtica dioica), bluebrries (Vaccinium myrtillus), dog-rose (Rosa canina). Conditionally collection was given the name "Urvacros". Optimal parameters were prepared collection: the ratio of raw materials and extractive - 1:10, crushing - 1mm, extraction time -

15minutes, extraction conditions - 40-50^0 C. The method of wet granulation on the basis of the dry

extract obtained from the collection, granules were prepared and checked their quality standards. It was determined that these 0.2-0.3 mm cylindrical pellets of coffee color, sour -sweet taste and odor specific to dissolve within 10 minutes. Simultaneously in CAED - revealed of biologically active substances by HPLC. It was determined that the pellets "Urvacros" vitamins C is 7mg, - 18,62 mg / g, B_1 – 0,214 mg, B_2 -0,101 mg, B_6 -0,314 mg.

Daxil olub: 06.05.2013

BAKI TİKİŞ SƏNAYESİ İŞÇİLƏRİNİN ƏMƏK FƏALİYYƏTI ZAMANI YORULMANIN SƏBƏBLƏRİ (TİBBİ-SOSİAL MÜAYİNƏ)

R.H.Əliyeva, R.A.Orucov, S.A.Gürzəliyev, M.Y.Nəbiyeva, C.Y.Salihova

Azərbaycan Tibb Universiteti,Bakı

Açar sözlər: Bakı tikiş sənayesi, işçi qadınlar, yorulmanın səbəbləri

Ключевые слова: Бакинское швейное производство**,** женщины работницы, причины утомления

Key words: Baku clothing manufacture, women workers, causes of fatigue

Sənaye işçilərinin yorulma probleminin həlli məsələsi qadınların əmək məhsuldarlığının yüksəldilməsi və sağlamlıqlarının qorunmasında mühüm rol oynayır.

Tədqiqatın **məqsədi** iş prosesində istehsalat yorulmasını dinamikada öyrənilməklə ona təsir göstərən amillərin tibbi-sosial tədqiqat məlumatlarına əsasən aşkarlanmasından ibarətdir.

Tədqiqatın material və metodları. Hazırda tədqiqat tikiş istehsalatında 20-dən 50-ə qədər olan yaşda birnövbəli, 8 saatlıq iş günü, 5 günlük iş həftəsi rejimində çalışan tikişçilər, döşəməçilər, biçicilər, ütüləyicilər, yekun bəzəkvurucuları və hazır məmulatların qablaşdırılmasında çalışan müxtəlif peşə sahiblərindən olan 400 nəfər işçi qadın müayinəyə və xüsusi anket sorğusuna cəlb olunmuşdur: xronometraj üsulla 35 qadın aparılmışdır.

Müayinə aparılan sexlərdə istehsalat prosesinin spesifikliyi qadın işçiləri əməyinin bəzi xarakter və xüsusiyyətlərini şərtləndirməyə imkan verir [2,3]. Tikiş sənayesində əsas müayinələr sağlam və müxtəlif işçi qadın qrupları üzərində laborator instrumental müayinə metodlarından istifadə etməklə, terapevt, nevroloq, otolorinqoloq, dermatoloq, okulist və ginekoloq həkimlərin iştirakı ilə kompleks müayinə aparılmışdır. Müayinəyə ən yaxşı iş qabiliyyətli 20-50 yaş arasında olan 369 işçi qadın (76,5%) cəlb olunmuşdur.

Alınan nəticələr və onun müzakirəsi. İşçi qadınlar üçün əsas əlverişsiz istehsalat amilləri iş yerində havanın tozla çirklənməsi 7,2mq/m^3-dən 6,9mq/m^3-dək. havanın yüksək rütubətliliyi 87%-dək, işıqlanmanın hüdudunun aşağı olması 45-120 lk. tikiş və digər maşınların yaratdıqları daimi olmayan aşağı və orta tezlikli olan səs-küy - 87-94dBA səviyyəsində, işçi zonası havasında çox da yüksək konsentrasiya təşkil etməyən müxtəlif kimyəvi maddələr (karbon oksidi, ammonyak, formaldehid və s.) aşkar edilmişdir ki, onların da konsentrasiyası yol verilən həddi konsentrasiyasından aşağı olmuşdur (7.12).

Anket sorğu üzrə soruşulanların 63,6%-i bütün növbə ərzində əlverişsiz istehsalat amillərinin təsirinə məruz qaldıqlarını qeyd etmişlər. Qadın işçilərin 57,2%-i əmək fəaliyyətinin keyfiyyətinə təsir göstərən amillər arasında yay fəslində havanın temperatur və rütubətinin yüksək olduğunu göstərmişlər.

Aparılmış müayinələr nəticəsində aydın olmuşdur ki. iş prosesində yorulmanın inkişafında işin ağırlığının rolu 24,9%, diqqət gərginliyi 19,5%,. görmə gərginliyi 21,3% və səs-küy 12,3% təşkil edir.

Soruşulanlar hesab edirlər ki, yorulmanın inkişafına təsir göstərən amillərdən: aşağı işıqlanma səviyyəsi 19,2%, iş prosesinin monotonluğu 8,3%, cavabdehlik və məsuliyyət hissinin yüksək olması 91% təşkil edir. Onuda qeyd etmək lazımdır ki, yorulmanın inkişaf etməsində göstərilən amillərin təsirinin xüsusi çəkisi ayrı-ayrı sexlərdə müxtəlif olmuşdur.

Soruşulan işçi-qadınlar əmək fəaliyyətini icra edərkən 42,9% hallarda istehsalat funksiyasının yüksək səviyyədə yerinə yetirilməsi ilə əlaqədar yaranan konflikt situasiyalarını. yaxud əmək intizamının pozulmasını (1,2%) qeyd edirlər ki, bu da oz növbəsində yüksək sinir-emossional gərginliyin formalaşmasına səbəb olur.

Sorğunun nəticəsi göstərdi ki, bütün qadınlar istehsalat tapşırıqlarının öhdəsindən lazımınca gələ bilirlər və öz işlərindən razıdırlar.

İşçilərin 72,6%-ni ümumi əmək stajı 6 ildən artıq olanlar. 60,4%-ni bu peşə üzrə çalışanlar təşkil edir. Onlardan hazırlıq sexində 105 nəfər (25,7%), biçmə sexində 48 nəfər (13,0%), tikiş sexində 126 nəfər (34,1%), qızdırıcı sexdə 72 nəfər (19,4%), hazır məmulat sexində 18 nəfər (4,8%) qadın işləyir.

İşçi qadınlar üzərində aparılan xronometraj müşahidə məlumatlarına görə növbə ərzində hər iki əllə sürətli iş tempi ilə 6000-dən 12300-dək eyni cür sinxron hərəkət təkrar icra edilməklə, iş gününün ümumi yükü 85-91% təşkil edir. İşçilərin işlə məşğul olmadıqları vaxt müddəti - nahar fasiləsi də daxil olmaqla 15%-dən artıq təşkil etmir.

Müayinə nəticəsində növbə ərzində iş əməliyyatlarının yerinə yetirilməsi zamanı sürətli əl hərəkəti tsikllərinin orta miqdarı cədvəldə verilmişdir (cədvəl 1).

Cədvəl 1

İşçi qadınların iş növbəsi ərzində sürətli əl hərəkəti tsikllərinin orta miqdarı

Sexlər	Hərəkət tsiklinin miqdarı		
	Sağ əlin hərəkəti	Hər iki əlin hərəkəti (sinxron)	Gövdənin 15%-dən artıq əyilməsi
Hazırlıq	134-650	2020-4200	120-200
Biçmə	865-1077	5215-7500	146-382
Tikiş	1300-2010	9660-12300	1030-1365
Termo işləmə	256-968	6000-10700	105-269
Hazır məmulat	120-469	868-2450	70-138

Cədvəldən göründüyü kimi çoxlu sayda işçi hərəkətlərinin yerinə yetirilməsi müxtəlif əzələ qruplarının gərginliyinə, əl və istinad əzələlərinin (kürəyi açan), statik işi – dözümlülük göstəricilərinə. o cümlədən qadın işçilərin sinir-əzələ aparatının funksional vəziyyətinə təsir etdiyini göstərir [9,11].

İşçi növbəsinin sonunda hazırlıq, biçmə, tikiş, qızdırıcı işləmə sexlərində qadın işçilərin sağ əlində əzələ dözümlülüyü göstəricisinin işdən əvvəlki səviyyəyə nisbətən 26;33;38 və 30% azalması və istinad əzələlərinin 28; 34; 45 və 37% azalması müşahidə edilir. Qeyd olunan meyillənmələrə səbəb olaraq işin ağırlığı, hərəkətin tezliyi, xarakteri və məcburi işçi pozasının təsirinin nəticəsi kimi qiymətləndirilir.

Yorğunluq dərəcəsi subyektiv şkaladan istifadə edilməklə 4 balla qiymətləndirilmişdir [5,9,12].

Yorulmuram – 1 bal

Az yoruluram – 2 bal

Yoruluram – 3 bal

Çox yoruluram – 4 bal

İşçi qadınların xəstələnmə göstəriciləri tibbi müayinə məlumatlarına əsasən öyrənilmişdir.

Istehsalat yorulmasının səbəbini sorğu anketi vasitəsilə aydınlaşdırmaraq. alınan qiymətlərin nəticəsi cədvəldə verilmişdir (cədvəl 2).

Cədvəl 2

Müxtəlif dərəcəli istehsalat yorulması zamanı işçi qadınların yorulma səbəblərinin tezliyi

Yorulmanın səbəbi	Yorulmanın öz - özünü qiymətləndirməsi (balla)	
	1-2	3-4
Yüksək görmə gərginliyi	11	29-13
Bədənin və əlin məcburi işçi vəziyyəti	12	25-12
Işin intensivliyi və yüksək həcmi	35	28-37
Monotonluq və yeknəsək hərəkət	27	35-80
Əməyin təşkilində çatışmazlıq	15	10-9
Sağlamlıq vəziyyətinin aşağı olması	4	5-10
Gigiyenik şərait və sosial-psixoloji amillər və s.	20	34-28

Cədvəl 2-də yorulmanın səbəblərinin subyektiv əhəmiyyətini səciyyələndirən məlumatlar verilmişdir. Nəticələrdən göründüyü kimi işçi qadınlar hesab edirlər ki. yorulmaya təsir göstərən əsas amillər görmə orqanlarında yaranan yüksək gərginlik bədənin və əllərin məcburi işçi pozası. işin intensivliyi və həcmidir (60-80%). Bundan əlavə kəskin yorulma zamanı özünü qiymətləndirmədə (OQ=4) dominantlıq təşkil edən "işin həcminin və intensivliyinin" rolu, digər amillərin mövcudluğu şəraitində xeyli dərəcədə artmış olur.

Kompleks tibbi müayinələrin məlumatlarına görə 117 işçi qadının sağlam olduğu. 38 nəfərdə ağciyər-bronx patologiyası (ildə 3 dəfə və daha çox kəskin respirator xəstəliklər), 67 işçi qadında remissiya mərhələsində ağciyər-bronx sisitemi xəstəlikləri, (xroniki bronxit. bronxial astma, xroniki pnevmoniya), 26 işçidə tonzillit, 45 işçidə revmatizm, 39 işçidə hipertoniya, 20 işçidə qastrit və xora xəstəliyi ilə yanaşı onlarda ginekoloji xəstəliklər aşkar olunmuşdur.

Müayinə zamanı alınmış nəticələr üzrə müxtəlif diaqnozlu xəstəlikləri olan işçi qadınlarda istehsalat yorulmasının inkişaf dinamikası aşağıda verilmişdir (cədvəl 3).

Cədvəl 3.

Tikiş sənayesində müxtəlif diaqnozlu xəstəliyi olan işçi qadınların istehsalat yorulmasının inkişaf dinamikası

İş saatı	Müayinə olunmuş qrup						
	sağlam	yuxarı tənəffüs yolları xəstəlikləri	ağciyər-bronx patologiyası	tonzillit xəstəlikləri	revmotizm xəstəliyi	hipertoniya xəstəliyi	mədə - bağırsaq xəstəlik-ləri
1	-	3,8	2,1	-	-	-	-
2	-	6,0	0,5	6,0	2,2	4,7	24,2

3	-	6,7	13,6	3,2	2,4	12,0	17,9
4	14,3	13,1	16,4	18,8	11,7	10,4	8,7
5	16,8	13,3	7,8	6,0	2,0	14,7	23,0
6	24,2	8,7	9,8	6,6	22,6	15,0	8,2
7	9,8	14,0	8,7	6,8	18,5	16,2	7,0
8	32,4	33,1	40,2	45,7	35,4	23,5	8,1

Cədvəldən göründüyü kimi sağlam işçi qadınlarda (38 nəfərdə) yorulma 4 saat işlədikdən sonra baş verdiyi halda, digər qruplarda isə xeyli tez inkişaf edir ($p<0,05$). Ağciyər-bronx patologiyası olan işçi qadınlarda 3 saatlıq işdən sonra onların 18,2%-i yorulmadığı halda. arterial hipertoniyalı xəstələrin 21%, mədə-bağırsaq traktı xəstəliyi olanların 40,6%-nin yorulduğu qeydə alınır ki, bunlar da kompleks tibbi profilaktik tədbirlərin hazırlanması zamanı nəzərə alınmalıdır.

İstehsalat yorulmasının inkişafında işçi qadınların işə başlamazdan əvvəlki vəziyyətlərinin də rolu olduğunu nəzərə alaraq. hər bir qadına belə bir sualla müraciət edilmişdir: Siz işə necə gəlirsiniz. istirahət etdikdən sonra və ya yorğun halda? Alınan cavablardan bəlli olmuşdur ki. işçi qadınların 55,6%-i yaxşı istirahətdən sonra işə başladıqlarını. onların 30%-i bu suala cavab verməkdə çətinlik çəkmiş. 14,3%-i kifayət qədər istirahət etmədiklərini qeyd etmiş, 35,8% hallarda əsas səbəb kimi özlərini yaxşı hiss etmədiklərini, 18,1%-i əvvəlki iş günündən yorğun qaldıqlarını qeyd etmişlər.

Məlumdur ki. işçinin sağlamlığına və onun iş qabiliyyətinə təsir göstərən xarici istehsalat mühiti parametrlərindən başqa, daxili, şəxsi amillər və işçinin fərdi xüsusiyyətləri də az əhəmiyyət kəsb etmir [4,10].

Istehsalat yorulmasının profilaktikasında səhər gimnastikası və fasiləli bədən tərbiyəsi şəklində fizioloji yüklənmənin böyük əhəmiyyətə malik olduğu məlumdur. Lakin alınan məlumatlardan aydın olur ki, iş vaxtı fasiləli bədən tərbiyəsi aparılmır, soruşulan işçi qadınların yalnız 0,85%-i evdə səhər gimnastikası ilə məşğul olduğu halda. onların 14,3%-i dövri olaraq gimnastika ilə, 79,1%-i isə tamamilə məşğul olmurlar.

Nəticələr

1.Tikiş sənayesinin bütün işçi qadınları istehsalat tapşırıqlarının öhdəsindən lazımınca gələ bilir və işlərindən razıdırlar.

2.İşçi qadınlarda istehsalat yorulmasının inkişafı işə başladıqdan 4 saat sonra baş verir.

3.Xəstəlikönü vəziyyətdə və remissiya mərhələsində xəstəliyi olan işçi qadınlarda istehsalat yorulmasının inkişafı: mədə-bağırsaq traktı xəstəliyi olanların – 40,6%-də, arterial hipertoniyası olanların 21,0%-də. ağciyər-bronx patologiyası olanların 18,2%-də işin ilk birinci saatından başlayır. Ona görə də bu qrup işçi qadınlar üçün müalicə-profilaktik tədbirlərin həyata keçirilməsi zərurəti yaranır.

4.Tikiş sənayesi şəraitində relaksasiya otağının düzəldilməsi yolu ilə psixofizioloji vəziyyətin yüngülləşdirilməsinə nail olmaq olar.

5.İstehsalat yorulmasının qarşısının alınmasında mühüm istiqamətlərdən biri- elmi əsaslarla əməyin və növbədaxili istirahətin normalaşdırılması. yaş ilə əlaqədar görmə qabiliyyətinin dəyişikliyini nəzərə alaraq psixo və oftalmotreninqlər aparılmaqla. işə qəbul zamanı peşəseçiminin aparılmasından ibarət olmalıdır.

ƏDƏBİYYAT

1.Альбицкий В.Ю., Юсупова А.Н., Шарапова Е.И. и др. Репродуктивное здоровье и поведение женщин России: Медико - социальные исследования. Казань: Медицина, 2001, с.29.

2. Золина З.М., Измеров Н.Ф. Руководство по физиологии труда. М.,1983, с. 201-203.

3.Измеров Н.Ф., Денисов Э.И., Прокопенко Л.В. и др. Методология выявления и профилактика заболеваний. связанных с работой. // Медицина труда и промышленная экология, 2010, №9, с. 1-7.

4.Калинина Л.Н. Окружающая среда и здоровье. Пенза: РИОПГСХА, 2010, с. 165.

5.Кожин А.А., Кучма В.Р., Сивочалова О.В. Здоровый человек и его окружение. Учебник М., 2006, с.290-293.

6.Механтьев И.И. Влияние производственных процессов на здоровья работающих женщин. // Медицина труда и промышленная экология, 2002, №7, с. 29-31

7.Общие санитарно-гигиенические требования к воздуху рабочей зоны. ГОСТ 12.1.005-88. М., 1988, 75 с.

8.Сухотина Н.К. Нервно-психическое здоровье и факторы производственной среды работающих матерей // Медицина труда и промышленная экология, 1999, №3, с.39-43.

9.Суй В.М. О заболеваемости костно-мышечной системы у работниц швейных фабрик // Медицина труда и промышленная экология, 1999, №7, с.44-46.

10.Bucle P. Uper lim disorders and Work: the impornfpce of physical and psixososial factors // J.Psichosomatic Pesearch, 2007, v.43, p.17-25

11.Sivochalova O., Denisov E. Ecologikal and professional chemical danqers for reproductive health. Chemicals as intentional and accidental qlobal environmental threats. Springer.The NATO. Program for security through science. 2006

12.Hosokawa M.K. Work and Health, Japan, 1990, p.12-16.

Резюме

Причины утомления у работниц Бакинского швейного производства при трудовой деятельности (медико-социальные исследования)

Р.Х.Алиева, Р.А.Оруджев, С.А.Курзалиев, М.Е.Набиева, Д.Я.Салихова

Целью работы явилось изучение динамики утомления в процессе работы и вскрыть факторы на него влияющие по данным медико-социального исследования. В результате исследования выявлено, что на здоровья женщин-работниц возраста 20-50 лет в процессе выпролнения трудовых операций воздействуют производственные и непроизводственные факторы среды, что явились причиной повышенного уровня нервно-эмоционального и нервно-мышечного напряжения; при этом несомненное влияние оказывало тяжесть труда, вынужденная рабочая поза тела и рук, объем интенсивность работы, пониженное состояние здоровья. По данным медицинского обследования у работниц, находящихся в предболезни и болезни в стадии ремиссии, утомления развивается с первых часов работы, достигая при патологии желудочно-кишечного тракта- 40,6%, при наличии артериальной гипертонии 21%, у лиц с наличием бронхо-легочной патологии 18,2%, что обуславливает необходимость проведения широких профилактических мероприятий для этих групп работниц данного производства.

Summary

Causes of fatigue in Baku garment production workers at work (medical and social research)

R.H.Aliyeva, R.A.Orujev, S.A.Gurzaliyev, M.E.Nabiyeva, D.Y.Salihova

The aim of the work was to study the dynamics of fatigue during work and uncover the factors affecting it according to medical and social research. The study found that the health of women workers aged 20-50 years in the labor operations affect production and non-environmental factors. that have resulted in increased levels of neuro-emotional and neuro-muscular tension, while doubtless influenced by the severity of labor, forced labor body posture and hand, the volume of work intensity, reduced health. According to a medical examination at the workers who are in pre-illness and disease in remission, fatigue develops in the first hours of work, reaching pathology of the gastrointestinal tract- 40,6 %, with arterial hypertension 21%, those with the presence of broncho-pulmonary pathology 18,2 %, which necessitates extensive preventive measures for these groups of workers of the production.

Daxil olub: 11.06.2013

MÜXTƏLİF PREPARATLARIN PARODONTİTLƏRİN MÜALİCƏSİ ZAMANI AĞIZ BOŞLUĞUNUN BİOKİMYƏVİ GÖSTƏRİCİLƏRİNƏ TƏSİRİ

N.S. Məmmədova, A.R. Əlizadə, Ə.A. Əliyev

Azərbaycan Tibb Universiteti, terapevtik və ortopedik stomotologiya kefedrasıı, Bakı

Açar sözlər: parodontit, prepatalar, müalicə, biokimyəvi göstəricilər

Ключевые слова: пародонтит, препараты, лечение, биохимические показатели

Keywords: periodontal disease, drugs, treatment, biochemical parameters

Parodontitlər parodont toxumalarının birlikdə iltihabı olub. gedişatına görə kəskin və xroniki, yayılmasına görə generalizə olunmuş və local, ağırlıq dərəcəsinə görə isə yüngül. orta və ağır formaları ayırd olunur. Yüngül parodntitlər zamanı normal halda 1-2 mm dərinlikdə olan parodont cibləri, 2-3 mm-ə qədər dərinləşir, dişətləri hiperemiyalaşır sümük arakəsmə zədələnmir. Orta dərəcəli parodontitdə isə proses bir qədər də dərinləşir və 4-5 mm olur, ağır formada isə proses irəliləyir və parodontal ciblər patoloji xarakter daşıyaraq, 6 mm və daha dərin olur. Lokal parodontitlər zamanı

proses 1 yaxud bir neçə dişin parodontunu əhatə etsə də generalizə olunmuş formada proses bütün diş qövsünün parodontunu əhatə edir. Xroniki parodontitlər daha çox generalizə olunmuş formalı olurlar və əsasən 30-40 yaşdan sonra inkişaf edirlər [1,2,3]. Generalizə olunmuş parodontitlərin yaranmasında immun sisteminin hüceyrəvi amillərinin zəifləməsinin mühüm rolu vardır. Belə ki, generalizə olunmuş parodontitlər zamanı əksər hallarda qanda T-limfositlərin və onların aktivliklərinin nəzərəçarpacaq dərəcədə aşağı enməsi müşahidə olunur, parodontitlərin başlanğıc mərhələlərində qanda və ağız suyunda neyramin turşusu və fukozaların miqdarı azalmış olur. Parodont toxumalarının xəstəliklərinin meydana çıxmasında ümumi orqanizmin mübadilə proseslərinin səviyyəsi, neyroendokrin tənzim. immunoloji reaktivlik, yerli qan döranını. orqanizmin orqan və sistemlərinin dəyişikliklər kimi endogen amillərin mühüm rolu vardır. Xroniki generalizə olunmuş parodontitlər daha çox uzun müddət davam edən patologiyalar olduğundan onların aradan qaldırılması və ağız boşluqlarında biokimyəvi balansı bərpa etmək üçün təbii xarakterli antiseptik və preparatların istifadə olunması daha məqsədə uyğundur. Xlorheksidin 0,02%-li məhlulu kəskinliyi az və çox zəif antiseptik kimi uzun müddət istifadə olunduqda selikli qişanın qıcıqlanması kimi əlavə təsirlər müşahidə olunur [4,5]. "Parodontaks" müalicəvi diş məcunu olub tərkibində bir sıra qeyri-təbii və təbii komponentlər vardır. Bu maddələrə əsasən adaçayı, rataniya, mirra, exinatseya və nanə ekstraktları kimi bitki təbiətli çıxarışları, natrium bikarbonat, qliserin, flüor və kokamidopropil betain kimi sistetik üzvi və qeyri üzvi maddələr aiddirlər ki, qeyd olunan maddələr Parodontaksın 70%-ni təşkil edir, onun təsirilə 15 gün ərzində diş ətində patoloji hallar aradan qalxır. Malum Qranatum narın toxumlarından alınan ekstraktlardan ibarət təbii vasitədir. Malum Qranatumun tərkibinə əksəriyyəti antioksidant xarakterli Punikalaqin turşusu (62,5%), Palmitin turşusu (3,2%), Stearin turşusu (2,1%), Tokoferollar (0,66%) və Vitamin E (0,33%) kimi komponentlərdən ibarət təbii preparatdır.

Tədqiqatın məqsədi. Müxtəlif preparatların yüngül dərəcəli xroniki generalizə olunmuş parodontitlər zamanı ağız boşluğunun biokimyəvi göstəricilərinə təsirinin qiymətləndirilməsi.

Tədqiqatın material və metodları, Bu məqsədlə tərəfimizdən 50 nəfər yüngül xroniki generalizəolunmuş parodontitdən əziyyət çəkən şəxslər müayinə və müalicə tədbirlərinə cəlb olunmuşdur. Onlardan 18 nəfərində müayinə və müşahidələr dövründə müalicə məqsədilə Xlorheksidinin 0,02%-li məhlulu, 17 nəfərində müalicəvi diş məcunu olan "Parodontaks"-dan və qalan 15 nəfərində isə təbii bitki əsaslı Malum Qranatum preparatından istifadə edilmişdir. Müalicəyə başlamamış. müalicənin 15-ci günü, 3 və 6 aylığında hər qrupdan xəstələrin ağız suyu nümunələri xüsusi qablarda toplanaraq, ATU-nun Biokimyəvi Laboratoriyasına gondərilmiş və mütəxəsislərə ağız suyunun pH-ı. Ca və P kimi elementlərin miqdarının hesablanması tapşırılmışdır. Onu da qeyd edək ki. müayinə etdiyimiz parodontitli xəstələrin hamısının ağız boşluğunda bu və ya digər formada körpüyəbənzər protez olmuşdur. "Parodontaks"-la müalicə dedikdə gün ərzində dişlərin 2 dəfə fırçalanması nəzərdə tutulmuşdur. Alınan göstəricilər statistik metodlarla işlənmişdir, qrup göstəriciləri üçün orta qiymətlər (M), onların standart xətası (m), sıraların minimal (min) və maksimal (max) qiymətləri, həmçinin qruplarda keyfiyyət göstəricilərinin rastgəlmə tezliyi müəyyən edilmişdir. Qeyd edək ki, tədqiqat işi zamanı alınan nəticələrin statistik işlənməsi Statistica 7.0 tətbiqi proqramı ilə icra edilmişdir, diaqram və cədvəllər tərtib edilmişdir.

Tədqiqatın nəticələri və müzakirəsi, Tədqiqat nəticəsində müalicə məqsədilə ağız boşluğunda ənənəvi antiseptik olan Xlorheksidinin 0,02%-li məhlulundan istifadə etdiyimiz yüngül xroniki parodontitli xəstələr qrupunda ağız suyu nümunələrində Ca elementinin orta miqdarı antiseptikin tətbqindən qabaq 1,27±0,054 mmol/l olmasına baxmayaraq, müalicənin 15-ci günü aşağı enərək 1,08±0,032 mmol/l-ə, 3 aylığında daha da enərək 1,03±0,030 mmol/l-ə enmiş, müalicənin 6 aylığında isə 1,12±0,037 mmol/l-də stabilləşmişdir (Cədvəl 1).

Cədvəl 1

Müxtəlif preparatların yüngül Ca elementinin ağız suyundakı miqdarına təsiri

Müalicə qrupları	Müalicə müddətlərində Ca elementinin ağız suyunda orta göstəricisi							
	Müalicədən qabaq	Müalicənin 15-ci günü	P<	Müalicənin 3 aylığı	P<	Müalicənin 6 aylığı	P<	P_{3ay}<
Xlorheksidinn n=18	1,27±0,054	1,08±0,032	0,01	1,03±0,030	0,001	1,12±0,037	0,05	-
Parodontaks n=17	1,20±0,049	1,19±0,043	-	1,02±0,026	0,01	1,06±0,020	0,05	-
P_1<	-	-		-		-		
MalumGranatn n=15	0,89±0,035	0,98±0,026	-	1,35±0,024	0,001	1,77±0,038	0,001	0,001
P_1<	-	0,05		0,001		0,001		

P_2<	-	0,01		0,001		0,001		

Qeyd: P-qruplararası dürüstlük əmsalı

15 nəfərdən ibarət ağız boşluğunu təbii vasitə olan Malum Qranatumla irriqasiya etdiyimiz qrupda isə müalicədən qabaq Ca elemntinin qrup üzrə ağız sularında orta miqdarı 0,89±0,035 mmol/l. müalicənin 15-ci günü, 3 və 6 aylığında uyğun olaraq, 0,98±0,026 mmol/l, 1,35±0,024 mmol/l və 1,77±0,038 mmol/l müəyyənləşmişdir. Ağız suyu nümunələrində P elementinin qruplar üzrə orta miqdarının hesablanması zamanı isə ağız boşluğunda müalicə məqsədilə ənənəvi antiseptik olan Xlorheksidinin 0,02%-li məhlulundan istifadə etdiyimiz yüngül xroniki generalizəolunmuş parodontitli xəstələr qrupunda ağız suyu nümunələrində qeyd etdiyimiz elementin orta miqdarı mülicədən əvvəl 3,17±0,069 mmol/l hesablanmışdır (Cədvəl 2). Bu qrup üzrə müalicənin 15-ci günü, 3 və 6 aylığında isə P elementinin ağız suyundakı miqdarı qrup üzrə ortalama 3,41±0,046 mmol/l. 3,34±0,055mmol/l və 3,05±0,042 mmol/l müəyyənləşmişdir.


Cədvəl 2

Müxtəlif dərman preparatların P elementinin ağız suyundakı miqdarına təsiri

Müalicə qrupları	Müalicə müddətlərində P elementinin ağız suyunda orta göstəricisi							
	Müalicədən qabaq	Müalicənin 15-ci günü	P<	Müalicənin 3 aylığı	P<	Müalicənin 6 aylığı	P<	P_{3ay}<
Xlorheksidinnn = 18	3,17±0,069	3,41±0,046	0,01	3,34±0,055	-	3,05±0,042	-	0,01
Parodontaks n = 17	2,95±0,049	2,78±0,043	-	3,21±0,065	0,01	3,20±0,046	0,01	-
P_1<	0,05	0,001		-		0,05		
MalumGranatn = 15	3,47±0,079	3,19±0,065	0,05	3,75±0,072	0,05	3,78±0,092	0,05	-
P_1<	0,05	0,05		0,001		0,001		
P_2<	0,001	0,001		0,001		0,001		

Qeyd: P-qruplararası dürüstlük əmsalı.

Ağız boşluqları müalicəvi diş məcunu olan "Parodontaksla" gündə 2 dəfə olmaqla fırçalanan parodontitli xəstələr qrupunda isə müalicə tədbirlərindən qabaq P elementinin miqdarı 2,95±0,049 mmol/l və müalicəyə başladıqdan 15 gün sonra isə 2,78±0,043 mmol/l hesablanmışdır. Ağız boşluqları müalicə məqsədilə "Parodontaks" diş məcunundan istifadə etdiyimiz 17 nəfərlik yüngül parodontitli qrupda isə Ca elementinin orta miqdarı diş məcununun istifadəsindən qabaq 1,20±0,049 mmol/l olmasına baxmayaraq, onunla gündə 2 dəfə səhər və axşam olmaqla istifadəsindən sonra müalicənin 15-ci günü 1,19±0,043 mmol/l-ə enmiş, müalicənin 3 və 6-cı ayında isə uyğun olaraq, 1,02±0,026 mmol/l və 1,06±0,020mmol/l tərəfimizdən hesablanmışdır (Şək.1).



Şək. 1. P elementinin ağız suyundakı miqdarının müalicədən və müalicədən sonra dinamikası

Bu qrup üzrə "Parodontaks"-la müalicənin 3 aylığında uyğun elementin ağız suyu nümunələrindəki orta miqdarı 3,21±0,065 mmol/l və 6 aylığında isə 3,20±0,046 mmol/l hesablanmışdır. Ağız boşluğunda təbii vasitə olan Malum Granatum tətbiq etdiyimiz 15 nəfərlik yüngül xroniki generalizəolunmuş parodontitli xəstələr qrupunda isə təbii vasitəni tətbiq etməzdən qabaq P elementinin ağız suyu nümunələrindəki orta miqdarı 3,47±0,079 mmol/l olmasına baxmayaraq. mülicənin 15-ci günündə bu göstərici aşağı enərək 3,19±0,065mmol/l-ə, 3 və aylığında isə müvafiq olaraq, 3,75±0,072 mmol/l və 3,78±0,092 mmol/l-ə qalxmışdır.

Yüngül xroniki generalizəolunmuş parodontitli xəstələr qrupunda ağız suyu nümunələrinin orta pH-ının hesablanması üzrə hesablamalarımız zamanı isə. müalicə məqsədilə ənənəvi antiseptik tətbiq etdiyimz 18 nəfərdən ibarət parodontitli xəstələr qrupunda müalicədən qabaq pH göstəricisi 6,10±0,06, müalicənin 15-ci günü isə artaraq 6,58±0,07 olmuşdur (Cədvəl 3). Müalicənin 3 aylığında uyğun göstərici bir qədər də artaraq, 6,87±0,05 6 aylığında isə normalara yaxınlaşaraq, zəif qələvi, 7,14±0,06 müəyyənləşdirilmişdir.


Cədvəl 3

Müxtəlif preparatların yüngül dərəcəli xroniki generalizə olunmuş parodontitlər zamanı ağız sularında pH-ın orta göstəricilərinə təsiri

Müalicə qrupları	Müalicə müddətlərində pH göstəricisinin ağız sularında orta göstəricisi							
	Müalicədən qabaq	Müalicənin 15-ci günü	$P_{до}<$	Müalicənin 3 aylığı	P<	Müalicənin 6 aylığı	P<	$P_{3ay}<$
Xlorheksidinnn = 18	6,10±0,06	6,58±0,07	0,001	6,87±0,05	0,001	7,14±0,06	0,001	0,01
Parodontaks n = 17	6,14±0,07	6,65±0,06	0,001	6,82±0,08	0,001	7,02±0,07	0,01	-
$P_1<$	-	-		-		-		
MalumGranat n = 15	6,23±0,08	6,32±0,07	-	6,48±0,07	0,05	6,84±0,06	0,001	0,01
$P_1<$	-	0,05		0,001		0,01		
$P_2<$	-	0,01		0,01		-		

Qeyd: P-qruplararası dürüstlük əmsalı

Ağız boşluğunda müalicə məqsədlilə "Parodontaks" müalicəvi diş məcunundan istifadə etdiyimiz 17 nəfərlik yüngül güneralizə olunmuş parodontitdən əziyyət çəkən şəxslər qrupunda müalicədən qabaq ağız suyu nümunələrində pH-ın orta göstəricisi 6,14±0,07, müalicənin 15-ci günü 6,65±0,06, 3 aylığında 6,82±0,08 və 6 aylığında isə zəif qələvi, 7,02±0,07-ə qədər hesablanmışdır (şək. 3). Müalicə məqsədilə ağız boşluqlarında təbii vasitə olan Malum Granatumdan istifadə etdiyimiz 15 nəfərlik parodontitli xəstələr qrupunda isə müalicə tədbirlərindən əvvəl ağız suyu nümunələrində orta pH göstəricisi 6,23±0,08 olmasına baxmayaraq, müalicənin 15-ci günü bu göstərici qalxaraq, 6,32±0,07-ə. 3 aylığında 6,48±0,07-ə və 6 aylığında isə 6,84±0,06-a yüksəlmişdir.



Şək. 2. Müxtəlif preparatların ağız sularında pH-ın orta göstəricilərinə təsirinin dinamikası

Alınmış nəticələr göstərir ki, parodontitlər zamanı ağız boşluğunda Ca və P kimi elementlərin, pH göstəricisinin əhəmiyyətli dəyişiklikləri müxtəlif preparatların tətbiqi nəticəsində öz normalarına qayıdır və parosesdə sintetik vasitələrlə birlikdə təbii vasitə olan Malum Granatum tərəfimizdən uğurla istifadə olunmuşdur.

ƏDƏBİYYAT

1.Дубова Л.В., Воложин А.И. Бабахин А.А. Биосовместимость стоматологических материалов — оценка безопасности по способности к гистаминолиберации // Стоматология, 2006, № 4, с.4-8

2.Почтаренко В.А. Изучение влияния генетического полиморфизма человека на развитие воспалительных заболеваний пародонт автореф. Дис. … канд.вед.наук. М., 2005, 21 с.

3.Орехова Л.Ю. Горбачова Н.А. Кирсанов А.И. Единство системных патогенетических механизмов при заболеваниях внутренних органов. ассоциированных с генерализованным пародонтитом // Стоматология, 2004, № 3, с.6-15

4.Nibali L., Tonetti M.S., Ready D.R. et al Interleukin-6 polymorphisms are associated with pathogenic bacteria in periodontitis patients // J Periodontol., 2008, v.19, p.677-683

5.Offenbacher S., Barros S.P., Paquette D.W. et al. Gingival transcriptome pattern during induction and resolution of experimental gingivitis in humans // J. Periodontol., 2009, v.80(l), p.1963-82.

Резюме

Влияние различных препаратов на биохимические показатели полости рта при лечении пародонтита

А.А.Алиев, А.Н.Ниязов

Для определения эффективности различных противовоспалительных препаратов в слюне обследуемых больных определяли содержание кальция (Ca), фосфора (P), а также pH слюны до и после завершения лечебно-профилактических мероприятий. Анализ результатов лабораторных исследований выявил увеличение значений pH смешанной слюны во всех группах больных. но более выраженный рост значений наблюдался в первой и второй группах. Установлена корреляционная связь показателей изучаемого фактора от формы применяемых лекарственных средств. Кроме вышеуказанного обращает на себя внимание факт нормализации фосфорно-кальциевого больных основной группы. При количественной оценке содержания общего кальция и фосфора в смешанной слюне выраженное повышение показателей наблюдалось после аппликации препарата «MalumGranatum».

Summary

Effect of various drugs on the biochemical parameters of the oral cavity in the treatment of periodontitis

A.A.Aliyev, A.N.Niyazov

To determine the effectiveness of various anti-inflammatory drugs in the saliva of patients surveyed determined the content of calcium (Ca). phosphorus (P) and the pH of saliva before and after completion of treatment and preventive measures. Analysis of the results of laboratory studies revealed an increase in the pH of mixed saliva in all groups of patients, but a more pronounced increase in the values observed in the first and second groups. Established correlation parameters studied on the form factor used drugs. Besides the above noteworthy fact normalization of calcium and phosphorus study group patients. In quantifying the total content of calcium and phosphorus in mixed saliva pronounced increase observed after application of the drug «MalumGranatum».

Daxil olub: 19.06.2013

İDMANÇILARDA PARODONT TOXUMALARINDA MÜXTƏLİF DƏRƏCƏLİ İLTİHABİ PROSESLƏRİN YAYILMASININ QİYMƏTLƏNDİRİLMƏSİ

E.E.Babayev

Azərbaycan Tibb Universiteti, ortopedik stomatoloqiya kafedrası, Bakı

Açar sözlər: idmançılar, parodont, iltihabi proseslər

Ключевые слова: спортсмены, пародонт, воспалительные процессы

Keywords: athletes, periodontal inflammation

İdmançıların ağız boşluqlarında ən geniş yayılmış xəstəliklər əsasən parodont. o cümlədən diş ətinin iltihabi xəstəliklərıdir. Onlar bir sıra fiziki və emosional təsirlərə məruz qalırlar. Bu təsirlər nəinki onlarda ümumi orqanizm səviyyəsində pozğunluqlara hətta ağız boşluğu. o. cümlədən parodont toxumalarında dəyişikliklərə gətirib çıxarır [1,2]. Belə hallar özünü daha çox veteran idmançılarda göstərir. onlar həyatları boyu gərginlikdə olduqları üçün onların bədənində travmatik və mübadilə patologiyaları kumulyasiya olunur. İdmançıların parodontlarında bir sıra əlavə təsirlərlə əlaqədar

iltihabi dəyişikliklər meydana çıxır. Parodontun xəstəlikləri adətən ilkin olaraq gingivit formasında üzə çıxır, sonradan proses dişin bağ-dayaq aparatının itirilməsilə müşayiət olunan parodontitə keçir [3,4,5,6]. Parodontitin yüngül. orta və ağır dərəcələri ayırd olunur. Yüngül dərəcəli parodontitdə parodont toxumaların iltihabi dəyişikliklər baş verir. sümük arakəsmə az zədələnir. 2-4 mm dərinlikli parodontal ciblər müşahidə olunur. Orta dərəcəli parodontitdə isə dişin bağ-dayaq aparatının iltihabi proses nəticəsində destruksiyaya uğraması və 4-5 mm dərinlikli parodontal ciblər müşahidə olunur. Ağır dərəcəli parodontitdə isə proses bir qədər də irəliləyərək dişin bağ-dayaq aparatının bir qədər də itirilməsi və dişlərin əhəmiyyətli dərəcədə laxlaması ilə müşayiət olunur və 6 mm və daha dərin patoloji parodontal ciblər formalaşır. Patoloji ciblər dərinləşdikcə onun daxilinə qida qalıqları və onlarda bölünüb-çoxalan mikroorqanizmlər inkişaf edirlər. Ciblərdə mikroorqanizmlərin fəaliyyəti və iltihabı proses davam etdikcə və vaxtında tibbi müdaxilə olunmazsa dişin dayaq aparatı bir qədər də destruksiyaya uğrayır, qüsurlu dövran yaranır. Parodontit dişlərin tezliklə itirilməsinə gətirib çıxara bilər. Parodont toxumalarının iltihabı prosesləri və diş çoküntülərinin əmələ gəlməsi qarşılıqlı əlaqədədirlər və bir-birilərinin etioloji amili ola bilərlər.

Yuxarıda qeyd olunandan başqa. prodontun iltihabi xəstəlikləri əhatə etdiyi diş sahələri və yaranma səbəbinə görə də təsnif oluna bilər. Ən geniş yayılmış prodont xəstəliklərindən biri də yuvenil parodontitdir. İdmançılar arasında yeniyetmələr daha çox olduğundan onların stomatoloji statuslarında bu xəsətəlik daha aktual xarakter daşıyır. Yuvenil gingivitin əsas səbəbi yeniyetməlik dövründə cinsi inkişafla əlaqədar yaranan hormonal disbalansdır. İdmançıarın həyat tərzi gərgin xarakter daşıdığından onların bədənindəki mübadilə yenidənqurmaları və dəyişiklikləri daha tez parodont toxumalarında təzahür olunur. Parodontitlər isə yaıldığı və hatə etdiyi sahəyə görə lokal və generalizə olunmuş xarakterli olurlar. Lokal parodontit yalnı bir dişi yaxud bir diş qrupunu əhatə edir ki. xəstəliyin bu formasının yaranmasında əsas etioloji amil çox vaxt yerli travma yaxud digər dəyişikliklər olur. İdmançılarda kappaların yarışlar zamanı istifadə və digər tarvmatik amillər lokal parodontitə səbəb ola bilərlər. Ancaq bununla bərabər ümumi orqanizm səviyyəsində baş verən dəyişikliklər də lokal prodontitlə müşayiət oluna bilər. Bu proses özünü daha çox ön dişlərdə göstərir. Generalizə olunmuş prodontit isə əsasən ütün diş qruplarının prosesə cəlb olunmasıyla müşayiət olunur. İdmançılarda bu proses əsasən yeniyetməlik dövründə yuvenil gingivitin infeksion proseslə ağırlaşması yaxud da elə birincili olaraq prosesin parodonta sirayət etməsiylə əlaqədardır. Yenə də qeyd etdiyimiz kimi idmançıların həyat tərzi gərgin olduğu üçün adi insanların bədəninin kompensasiya amilləri səfərbər olunub, yuvenil gingivit yaxud digər ilkin prodont xəstəliklərini məhdudlaşdırdıqları halda, idmançılarda bədən həddindən çox fiziki və psixo-emosional gərginliyə düşdükdə bu baş vermir, Bütün bunları nəzərə alsaq. qeyd etməkolar ki, idmançıların sağlamlıqları o cümlədən stomatoloji satuslarının araşdırılması aktual mövzunu əhatə edir.

Tədqiqatın **məqsədi** İdmançılar arasında parodontit və gingivitin yayılma xarakterinin qiymətləndirilməsindən ibarətdir.

Tədqiqatın material və metodları. Bu məqsədlə tədqiqatın ilk mərhələsində tərəfimizdən yaşı 23-dən yuxarı 360 peşəkar idmanla məşğul olan və eyni sayda eyni yaş qrupuna aid adi həyat tərzi keçirən kişilər götürülmüşdür. Müayinə obyekti olan şəxslərin hamısının kişi götürülməsinin səbəbi qadınların həyat dövrlərində baş verən hormonal pozğunluqların omların parodontlarına təsirinin bizim tədqiqatın nəticələrinə təsir göstərməməsidir. Çünki. qadınlar çox olan müayinə qruplarında parodontitlətlərə çox rast gəlinə bilər. Sonra həm adi. həm də idmançı şəxslərdə müayinələr vasitəsilə normal parodontun. yüngül. orta və ağır dərəcəli parodontitin rast gəlinməsi say və faizlə hesablanmış və hər iki qrup bir-birilə müqayisə olunmuşdur.

Tədqiqatın ikinci mərhələsində isə tərəfimizdən 115 nəfər idmançı və eyni sayda adi həyat tərzi sürən yeniyetmə şəxs götürülərək onlarda müayinələr aparılmaqla parodontitin yuvenil. lokal və generalizə olunş formalarının rast gəlinməsi say və faizlə hesablanmış idmançılar qrupu ilə adi həyat tərzi keçirən şəxslər qrupunun göstəriciləri müqayisə olunmuşdur. Onu da qeyd etməl lazımdır ki, müayinə olunan şəxslərin yeniyetmə götürməyimizin əsas məqsədi cinsi inkişaf dövründə idmançılar və adi həyat tərzi keçirənlərin parodontundakı dəyişikliklərin öyrənilməsidir. Alınmış ədədi verilənlər müasir tələbləri nəzərə almaqla statistik metodlarla işlənmişdir. Qrup göstəriciləri üçün orta qiymətlər (M), onların standart xətası (m), sıraların minimal (min) və maksimal (max) qiymətləri, həmçinin qruplarda keyfiyyət göstəricilərinin rastgəlmə tezliyi müəyyən edilmişdir. Qeyd edək ki. tədqiqat işi zamanı alınan nəticələrin statistik işlənməsi Statistica 7.0 tətbiqi kompüter proqramı ilə aparılmışdır. Müayinələr stomatoloji güzgü və parodontal düyməli zondla icra olunmuşdur.

Tədqiqatın nəticələri və müzakirəsi. Müayinələr nəticəsində ilk mərhələdə 360 peşəkar idmançıdan 45-ində parodont toxumaları normal vəziyyətdə olmuşdur ki. bu da ümumi qrup üzrə 12,5 ±1,74% şəxsi əhatə etmişdir. Adi həyat tərzi keçirən şəxslərdə isə sağlam parodont toxumalarının rast gəlinməsi 75 nəfəri yəni qrupun təxminən beşdə birini, 2,08±2,14%-ni əhatə etmişdir. Peşəkar dmançılar qrupunda 75 nəfərdə gingivit halı aşkarlanmışdır ki. bu da qrupun 20,8±2,14%-ni təşkil etdiyi halda adi həyat tərzi keçirən şəxslər qrupunda gingivitə 122 nəfərdə rast gəlinmişdir ki, bu da qrupun 33,9±2,49%-i olmuşdur.

Yüngül dərəcəli parodontitin rast gəlinməsinə gəldikdə isə peşəkar idmançılar qrupunda 110 nəfərdə yəni qrupu əhatə edən şəxslərin 30,6±2,43%-ində bu patologiya rast gəlindiyi halda. adı həyat tərzi keçirən şəxslərdə bu göstəricilər 88 nəfər yaxud qrupun 24,4±2,27%-ini əhatə etmişdir. Parodontitin dişin bağ-dayaq aparatının itirilməsilə müşayiət olunan forması olan orta dərəcəli parodontit isə peşəkar idmançılar qrupunda 92 nəfərdə aşkarlanmışdır ki, bu da qrupun 25,6±2,30%-i olmuşdur. Adi həyat tərzi keçirən şəxslərdə isə orta dərəcəli parodontit 55 nəfərdə aşkarlanışdır ki. bu da qrupun 15,3±1,90-i olmuşdur.

Parodont toxumalarının daha ağır patologiyası olan və 6 mm və daha dərin patoloji ciblərlə müşayiət olununa ağır parodontitə isə peşəkar idamançılar qrupunda 38 nəfərdə rast aşkarlanaraq qrupun 10,6±1,62%-ni təşkil etdiyi halda, adi həyat tərzi keçirən şəxslərdə cəmi 20 nəfərdə bu patologiyaya rast gəlimişdir və bu qrupun 5,6±1,21%-ni əhatə edərək peşəkar idmanla məşğul olan şəxslər qrupundan 2 dəfəyə qədər az olmuşdur (Cədvəl 1).

Cədvəl 1

Parodont xəstəliklərinin peşəkar idmançılarda yayılması

Parodontun vəziyyəti	Müayinə olunanlar			
	Peşəkar idmançılar		Adi həyat tərzi keçirənlər.	
	say.	%-lə	say.	%-lə
Sağlam parodont	45	12.5 ± 1.74	75	20.8 ± 2.14
Gingivit	75	20.8 ± 2.14	122	33.9 ± 2.49
Parodontitin ağır dərəcəsi.	110	30.6 ± 2.43	88	24.4 ± 2.27
Parodontitin orta dərəcəsi.	92	25.6 ± 2.30	55	15.3 ± 1.90
Parodontitin ağır dərəcəsi.	38	10.6 ± 1.62	20	5.6 ± 1.21
Ümumi.	360	100	360	100

Tədqiqatın ikinci mərhələsində isə müayinələrə cəlb olunan yeniyetmə idmançı və adi həyat tərzi keçirən insanlarda müayinələr nəticəsində ümumi 115 nəfərlik idmançılar qrupunda 61 nəfərdə sağlam parodonta rast gəlinmişdir və bu qrupun yarıdan çoxunu, 53,0±4,65%-ni əhatə etmişdir. Adi həyat tərzi keçirən şəxslərdə isə 82 nəfərdə sağlam parodont toxumaları aşkarlanmışdır ki, bu da qrupun 71,3±4,22%-ni əhatə etmişdir. Əsasən yeniyetmələrdə müşahidə olunan yuvenil gingivitə isə idmançı yeniyetmələr qrupunda 24 nəfərdə yəni 20,9±3,79% şəxslərdə rast gəlindiyi halda, adi həyat tərzi sürən yeniyetmələrdə bu cəmi 13 nəfəri əhatə etmişdir ki, bu da qrupun 11,3±2,95%-ni təşkil edərək, idmanılardan iki dəfə az olmuşdur (Cədvəl 2).

Cədvəl 2

Yeniyetmə idmançılarda parodont xəstəliklərinin rast gəlinməsi

Parodontun vəziyyəti	Müayinə olunanlar			
	İdmançı yeniyetmələr		Adi həyat tərzi sürən yeniyetmələr	
	say.	%-lə	say.	%-lə
Sağlam parodont.	61	53,0 ± 4,65	82	71,3 ± 4,22
Yuvenil gingivit.	24	20,9 ± 3,79	13	11,3 ± 2,95
Lokal parodontit.	23	20,0 ± 3,73	19	16,5 ± 3,46
Generalizə olunmuş parodontit	7	6,1 ± 2,23	1	0,9 ± 0,87
Cəmi	115	100	115	100

Lokal parodontitə isə yeniyetmə idmançılar qrupunda 23 nəfərdə rast gəlinərək qrupun 20,0±3,73%- ni əhatə etdiyi halda, adi həyat tərzi sürən yeniyetmələrdə bu göstərici bir qədər az şəxsdə, 19 nəfərdə rast gəlinərək qrupun 16,5±3,46%-ni əhatə etmişdir. Daha çox dişlər sahəsini əhatə edən generalizə olunmuş parodontitə isə idmançı yeniyetmələrin 7 nəfərində aşkar etmişik ki, bu da

qrupun 6,1±2,23%-ni təşkil etsə də adi həyat tərzi sürən yeniyetmələrdə cəmi 1 şəxsdə parodontit rast aşkarlanmışdır (0,9±0,87%).

Beləliklə. tədqiqatın birinci mərhələsində yaşı 23-dən çox yəni yeniyetməlik və hormonal dəyişikliklər dövrünü arxada qoymuş idmançılar araşdırıldığından onlarda gingivit hallarının rast gəlmə faizi tədqiqatın ikinci mərhələsində müayinə olunan yeniyetmə idmançılardan az olmuşdur. Ancaq prodontit mmüxtəlif formalarına isə adi insanlardan çox rast gəlinmişdir ki, bu da peşəkar idmançıların müdafiə sistemlərinin gərginliklərlə əlaqədar dəyişikliyə uğraması ilə əlaqələndirilir. Tədqiqatın ikinci mərhələsində isə müayinə olunanlar yeniyetmə olduqları üçün onlarda bədən strukturu, immun sistemi və ən əsası hormonal sistemdə dəyişikliklər olduğuna görə onlarda fiziki gərginlik şəraitində orqanizmin əvəzedici və kompensasiya sistemləri ümumi dəyişikliklərin parodont toxumalarında təzahürlərini azalda bilmir.

ƏDƏBİYYAT

1. Гаврилова Е.А. Стрессорная кардиомиопатия у спортсменов (дистрофия миокарда физического перенапряжения): Автореф. дис....д-ра.мед.наук. СПб, 2001, 23 с.

2. Давыдов В.В., Чурганов О.А., Гаврилова Е.А. Исследование концентрации молекул средней массы у спортсменов со стрессорной кардиомиопатией // Вестник аритмологии, 2002,№26, с.98-99

3. Розанов Н.Н. Особенности тканей пародонта и состояние местной неспецифической и иммунной защиты у спортсменов с синдромом перетренированности / Сб. тезисов Международн. научно-практич. конференции «Фундаментальные и прикладные проблемы стоматологии». СПб, 2009, с.77-79

4. Muller-Bolla M., Lupi-Pegurier L., Bolla M., Pedeutour P. Orofacial trauma and rugby in France: epidemiological survey // Dent. Traumatol., 2003, v.19, №4, p.l83-92.

5. Pyne D.B., Mc Donald W.A., Gleeson M. et al Mucosal immunity. respiratory illness. and competitive performance in elite swimmers // Med. Sci. Sports. Exerc., 2001, v.33, №3, p.348-353

6. Reid B.C., Chenette R., Macek M.D. Prevalence and predictors of untreated caries and oral pain among Special Olympic athletes // Spec. Care. Dentist., 2003, v.23, №4, p. 139-42.

Резюме

Оценка распространенности воспалительных заболеваний тканей пародонта у спортсменов

Е.Е.Бабаев

Были проведены исследования по изучению частоты встречаемости и степени тяжести деструктивных процессов в тканях пародонта у спортсменов в зависимости от возраста. Были обследованы 360 взрослых и 115 спортсменов-юношей и проведена сравнительная оценка с данными. полученными в группе людей. не занимающихся спортом. Согласно результатам исследований высокий уровень гингивита у юношей. в частности связанный с гормональными перестройками. и деструктивных форм пародонтита среди взрослых наблюдался в основной группе. которую составили профессиональные спортсмены.

Summary

Assessing the prevalence of inflammatory periodontal disease in athletes

E.E.Babayev

İnvestigations have been conducted to study the frequency of occurrence and severity of the destructive processes in periodontal tissues of athletes, depending on age. Have been performed examination of 360 adults and 115 young athletes and comparative evaluation with the data obtained in the group of people who are not involved in sports. According to research high level of gingivitis in young men, in particular related to hormonal changes. and destructive forms of periodontitis in adults observed in the study group. which is made by professional athletes.

Daxil olub: 06.05.2013

LOR PATOLOQİYALARI FONUNDA PARODONT TOXUMALARININ VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

N.A.Qurskaya

Azərbaycan Tibb Universiteti, ortopedik stomotologiya kefedrası, Bakı

Açar sözlər: LOR patologiyalar, parodont

Ключевые слова: ЛОР патологии, пародонт
Keywords: ENT pathology, periodontal

Qulaq, burun və boğaz (LOR) xəstəlikləri zamanı adı çəkilən orqanlar qrupunun selikli qişalarının müxtəlif iltihabı və qeyri-iltihabi patoloji prosesləri nəzərdə tutulur. Bu qrup xəstəliklər zamanı qeyd olunan orqanların selikli qişalarındakı proseslər ağız boşluğuna da sirayət edir, onlarda müxtəlif patoloji dəyişikliklərin meydana çıxmasına və inkişaf etməsinə səbəb olurlar. LOR xəstəlikləri zamanı patoloji ocaqlarda müxtəlif mikroorqanizmlər və iltihabi prosesin elemntləri ağız boşluğu orqanlarına təsir edərək orada da oxşar patoloji proseslərin baş qaldırmasına səbəb olur [1,2,4,5]. LOR xəstəliklərinin lokalizasiyası ağız boşluğuna yaxınlaşdıqca onların ağız boşluğu toxuma və orqanlarında təzahürləri də artır. Bu qanunauyğunluqla ağız boşluğunda ən çox təzahürlərə səbəb olan LOR xəstəliklərinə udlaq badamcıqlarının iltihabı olan tonzillitlərdir. Tonzillitlər zamanı ağız boşluğunda dişlərin sərt toxumalarının zədələnməsinin artması patoloji ocaqdan ağız boşluğuna başda Streptokok nümayəndələri olmaqla bir çox mikroorqanizm növlərinin sirayət etməsi karioz proseslərin başlamasına, inkişafına və intensivləşməsinə gətirib çıxarır. Damaq badamcıqlarndan gələn patogen və virulentliyi artmış mikroorqanizmlər dişlərin səthində ərplərin yaranmasının intensivləşdirməklə gigiyenik indekslərin yüksəlməsinə səbəb olmaqla yanaşı, diş səthindəki ərplərin altından ilkin demineralləşma sahələrinin yaratmasıyla ilkin karioz ocaqların meydana gəlməsinə də gətirib çıxarır [3].

LOR xəstəlikləri zamanı ağız boşluğuna sirayət edən potensial patogen elementlər parodont toxumalarına da öz təsirini göstərir. uyğun gigiyenik və parodontal indekslərin mənfi göstəricilərinin təzahürünə gətirib çıxarır. Bütün xəstəliklər kimi bu xəstəliklərin də yayılması. xarakteri və ağız boşluğunda təzahürü yaş amilindən asılı olur. İnsanın müxtəlif yaş dövrlərində orqanizmin reaktivliyinin dəyişkənliyi, immunitet amillərinin xüsusiyyətlərinin fərqliliyi və hormonal balansın xarakteristikası müxtəlif olur. Odur ki, qeyd olunan xəstəliklərin ağız boşluğunda təzahürlərinin xarakteri öyrənilərkən yaxşı olar ki, onların ağız boşluğuna yaxınlıq dərəcəsi və yaş amili nəzərə alınmaqla öyrənilsin.

Tədqiqatın **məqsədi** LOR xəstələrdə dişlərin sərt toxumalarının, parodont toxumaları və gigiyenik vəziyyətinin xüsusiyyətlərinin qiymətləndirilməsindən ibarətdir.

Tədqiqatın material və metodları. Bu məqsədlə tərəfimizdən 2 mərhələli tədqiqat aparılmışdır. İlk mərhələdə 60 nəfəri yaşı 12-ə kimi olan uşaqlar, 35 nəfəri yaşı 13-20 arası olan yeniyetmələr və 40 nəfəri yaşı 21 dən yuxarı olan yetkin şəxslər olmaqla cəmi 135 nəfər LOR xəstələrdə və 50 nəfər bütün yaş qruplarına aid könüllü olaraq müayinələrə razı olan sağlam şəxslərdə kariesin yayılması və intensivlik göstəricisi olan KPÇ (K-karies. P-plomb. Ç-çıxarılmış dişlər) indeksi hesablanmış və göstəricilər müqayisə olunmuşdur.

Tədqiqatın ikinci mərhələsində isə müxtəlif LOR və parodont xəstəliklərindən əziyyət çəkən şəxslərdə Fyodorov-Volodkina gigiyenik indeksi, Rasselin parodontal, PMA və Kompleks Parodontal indeksləri sağlam şəxslərlə müqayisəli şəkildə hesablanmışdır. LOR patologiyalarina görə xəstələr 14 nəfəri udlağın iltihabı olan farinqit, 16 nəfəri qırtlağın iltihabı olan laringit və 13 nəfəri tonzillit olmaqla 3 qrupa bölünmüşlər və onların qeyd olunan indekslər üzrə nəticələri müayinələrə könüllü razılaşmış 14 nəfər sağlam şəxslərin eyni göstəricilərilə müqayisə olunmuşlar. Aldığımız rəqəmsal göstəricilər müasir tələbləri nəzərə almaqla statistik metodlarla işlənmişdir. Qrup göstəriciləri üçün orta qiymətlər (M), onların standart xətası (m), sıraların minimal (min) və maksimal (max) qiymətləri. həmçinin qruplarda keyfiyyət göstəricilərinin rastgəlmə tezliyi müəyyən edilmişdir. Qeyd edək ki, tədqiqat işi zamanı alınan nəticələrin statistik işlənməsi Statistica 7.0 tətbiqi kompüter proqramı ilə aparılmışdır. diaqramlar qururlmuş. nəticələr cədvəlləşdirilmişdir.

Tədqiqatın nəticələri və müzakirəsi. Müayinələr nəticəsində yaşı 12-ə kimi olan 60 nəfər müxtəlif LOR xəstəliklərindən əziyyət çəkən uşaqlarda kariesin yayılması 83,3±4,81%. kariesin intensivliyinin göstəricisi olan KPÇ indeksi 4,53±0,27, o cümlədən bu indeks üzrə K-3,58, P-0,63 və Ç-0,32 olmuşdur. Müxtəlif LOR patologiyalı yaşı 13-20 arası olan 35 nəfər yeniyetmələr arasında karisesin yayılması 91,4±4,73%, onun intensivliyini ehtiva etdirən KPÇ indeksinin göstəricisi K-3,71, P-0,66 və Ç-0,54 olmaqla ümumilikdə 4,91±0,45 olmuşdur. Müayinələr nəticəsində yaşı 21-dən yuxarı olan 40 nəfər yetkin xəstələr qrupunda isə uyğun indeksin göstəricisi K-4,40, P-0,63 və Ç-0,67 olmaqla cəmi 5,70±0,36 müəyyənləşdirilmiş, kariesin yayılması isə 97,5±2,47% hallarda aşkarlanmışdır.

Ümumilikdə yuxarıdakı yaş qrupları üzrə bütün 135 nəfər xəstədə kariesin yayılmasının orta göstəricisi 89,6±2,62% olsa da, onlarla müqayisə olunan 50 nəfər sağlam şəxsdə 72,0±6,35% müəyyənləşdirilmişdir (Cədvəl 1).

Cədvəl 1

LOR xəstələrdə kariesin yayılması və intensivliyi

Qruplar	Müayinə olunan lar.	Kariesin Yayılması %-lə	Kariesin intensivliyi (1 nəfərə düşən orta göstəricisi) KPÇ	KPÇ indeksinin elementləri (1 nəfər üçün orta göstərici)		
				K	P	Ç
Uşaqlar	60	83,3±4,81	4,53±0,27	3,58	0,63	0,32
Yeniyetmələr	35	91,4±4,73	4,91±0,45	3,71	0,66	0,54
Yetkinlər	40	97,5±2,47	5,70±0,36	4,40	0,63	0,67
Ümumi LOR xəstələr	135	89,6±2,62 **	4,98±0,20 **	3,86 ***	0,64	0,48 ***
Sağlam şəxslər	50	72,0±6,35	3,72±0,34	2,58	0,96	0,18

Qeyd: K-karies, P-plomb, Ç-çıxarılmış dişlər. Qruplararası dürüstlük əmsalı; *-p<0,05, * -p<0,01 və *** - p<0,001.

Ümumi LOR xəstələrdə ümumilikdə kariesin intensivliyini göstərən KPÇ indeksi 4,98±0,20 olmaqla, K-3,86, P-0,64 və Ç-0,48 hesablansa da sağlam şəxslər qrupunda uyğun göstərici K-2,58, P-0,96 və Ç-0,18 olmaqla tərəfimizdən 3,72±0,34 müəyyənləşdirilmişdir.

Tədqiqatın ilk mərhələsində alınan nəticələr LOR xəstəlikləri zamanı patoloji ocaqlardan mikroorqanizmlərin və iltihabi proses nəticəsində yaranan amillərin ağız boşluğuna sirayət etməsi karioz proseslərin intensivliyinin artmasına səbəb olur. Bu səbəbdən LOR xəstələri arasında kariesin yayılması da yüksəkdir. Tədqiqatın 2-ci mərhələsində isə Fyodorov-Volodkina indeksi üzrə hesablamalar zamanı ümumi 43 xəstədən 14 nəfəri parodontopatiyaların yüngul forması olan qinqivitlə. 16 nəfəri parodontit və qalan 13 nəfəri isə tonzillitdən əziyyət çəkdiyi müəyyənləşdirilmişdir və onların uyğun indeks üzrə göstəriciləri 14 nəfər müayinələrə razılıq vermiş sağlam şəxslərin göstəriciləri ilə müqayisə edilmişdir. Müayinələr nəticəsində qinqivitli 14 nəfərdə Fyodorov-Volodkina gigiyena indeksinin göstəricisi 2,94±0,05, 16 nəfər parodontitli xəstələrdə 3,06±0,06. tonzillitli xəstələrdə 3,31±0,09 hesablansa da sağlam şəxslərdə bu göstərici 2 dəfə az, 1,94±0,02 müəyyənləşdirilmişdir (Cədvəl 2).

Cədvəl 2

LOR patologiyaların ağız boşluğunun gigiyenik indeksinin göstəricilərinə təsiri

Müayinə olunanlar	Müayinə olunanların sayı	Fyodorov-Volodkina indeksi
qinqivit	14	2,94±0,05
parodontit	16	3,06±0,06
LOR xəstəlikləri	13	3,31±0,09
Sağlam	14	1,94±0,02

Parodont toxumalarının vəziyyətinin öyrənilməsi məqsədilə tərəfimizdən Rasselin parodontal. PMA və Leusun Kompleks parodontal indeksi hesablanmışdır. Yuxarıda qeyd olunan LOR xəstəlikləri qrupları üzrə Rasselin parodontal indeksi üzrə hesablamalar nəticəsində qinqivitdən əziyyət çəkən 14 nəfərdə uyğun indeksin göstəricisi 2,97±0,067, 16 nəfər parodontitli xəstədə 3,45±0,019, 13 nəfər tonzillitli xəstədə 5,39±0,093 olmasına baxmayaraq, sağlam şəxslər qrupunda dəfələrlə az, 1,95±0,019 olmuşdur.

PMA indeksi üzrə hesablamalar zamanı isə 14 nəfər qinqivitdən əziyyət çəkən şəxslərdə göstərici 33,5±0,48%, parodontitli xəstələr qrupunda 34,2±0,77%, LOR patoloqiyalı xəstələrdə 55,6±1,18% olsa da, uyğun göstərici sağlam şəxslərdə 7,2±0,25% olmuşdur. Kommpleks parodontal indeksi üzrə müayinələr zamanı isə 1-ci qrup xəstələrdə orta göstərici 3,54±0,07, 2-ci qrupda 3,89±0,02, əsas qrupda isə 4,68±0,05 olsa da. sağlam şəxslərdə daha az 2,52±0,10 hesablanmışdır (Cədvəl 3).

Cədvəl 3

Müxtəlif patologiyalar zamanı parodontal indekslərin müqayisəli dinamikası

İndekslər	patologiyalar			Sağlam n=14
	Qinqivit n=14	Parodontit n=16	LOR-xəstəlikləri n=13	
Rassel Pİ	2,97±0,067	3,45±0,019	5,39±0,093	1,95±0,019

PMA. %	33,5±0,48	34,2±0,77	55,6±1,18	7,2±0,25
KPİ (Leus)	3,54±0,07	3,89±0,02	4,68±0,05	2,52±0,10

Tədqiqatın 2-ci mərhələsinin nəticələrini analiz etdikdə LOR patologiyaları zamanı ağız boşluğunun gigiyenası kimi. parodont toxumalarının da vəziyyəti patoloji ocaqdan gələn zərərli amillərlə əlaqədar olaraq. pisləşir və özünü parodontal indekslərin o. cümlədən diş ətinin kataral iltihabının yayılma dərəcəsini göstərən PMA indeksinin göstəricilərində ehtiva etdirir. Bundan başqa. ayrı-ayrı LOR patologiyalarının lokalizasiyası ağız boşluğuna yaxınlaşdıqca onun ağız boşluğuna təsiri də yüksək olur.

ƏDƏBİYYAT

1. Карабаева Г.С. Иммунологическая структура и защитные функции верхних дыхательных путей и уха // Российская ринология, 2007, № 3, с.29-32.
2. Тихомирова И.А. Алгоритмы диагностики и выбора лечебной тактики у детей с хроническими заболеваниями лимфоэпителиальной глоточной системы. секреторным средним отитом с учетом генетической предрасположенности и профиля патологии // Российская оториноларингология, 2009, № 1 (приложение), с.148–155.
3. Чуйкин С.В., Мурзабаева С.Ш., Андрианова Ю.В., Давлетшин Н.А. Стоматологическая и соматическая заболеваемость у детей с врожденной патологией челюстно-лицевой области. Уфа: ГОУ ВПО «Башгосмедуниверситет РОСЗДРАВА», 2006, 148 с.
4. Strauchen J.A., Miller L.K. Lymphoid progenitor cells in human tonsils // Int. J. Surg. Pathol., 2003, v.1, N1, p.21-24.
5. Takaki M., Ushikai M., Deguchi K. et al. The role of nuclear factor-kappa B in interleukin-8 expression by human adenoidal fibroblasts. // Laryngoscope, 2003, v.113, N 8, p. 1378-1385

Резюме

Оценка состояния тканей пародонта на фоне ЛОР-патологий

Н.А.Гурцкая

У обследованных 135 больных с ЛОР-патологиями и 50 практически здоровых лиц определяли распространенность и интенсивность кариеса зубов. состояние гигиены полости рта. Изменения в тканях пародонта определяли с помощью папиллярно-маргинально-альвеолярного индекса (PMA). Согласно результатам клинико-эпидемиологических исследований на фоне развития ЛОР-патологий отмечается более частая встречаемость по сравнению с контрольной группой кариозных поражений. как молочных. так и постоянных зубов. Как показали результаты проведенных нами исследований. у больных с заболеваниями ЛОР-органов уровень гигиены во всех обследуемых основных группах был ниже, чем у здоровых лиц. При этом необходимо отметить рост индексных данных по частоте встречаемости воспалительных процессов в тканях пародонта на фоне сочетанных проявлений ЛОР-заболеваний. В данной группе в ходе клинических исследований показатели пародонтальных индексов по сравнению с другими группами значительно выросли, при этом по всем изучаемым факторам наиболее благоприятные результаты выявлялись в группе практически здоровых лиц и пациентов с заболеваниями пародонта. но без фоновой патологии.

Summary

Assessment of periodontal tissue on a background of ENT pathologies

N.A.Gurtskaya

We examined 135 patients with ENT diseases and 50 healthy persons and determined the prevalence and intensity of dental caries. oral hygiene status. Changes in periodontal tissues was determined by papillary marginally alveolar index (PMA). According to the results of clinical and epidemiological research on the background of the development of ENT pathologies observed more frequent occurrence of carious lesions as milk and permanent teeth in comparison with a control group. As the results of our study, in patients with diseases of upper respiratory tract level of hygiene in all major surveyed groups was lower than in healthy individuals. It is necessary to note the growth of the index data on the incidence of inflammation in periodontal tissues on the background combined manifestations of ENT diseases. In this group in clinical trials indicators of periodontal indices compared with other groups have increased significantly. most favorable results were detected in the group of healthy subjects and patients with periodontal disease. but without the background pathology.

Daxil olub: 06.05.2013

QARIN BOŞLUĞUNUN ƏMƏLİYYATDAN SONRAKI ABSESLƏR ZAMANI AZİNVZİV MÜDAXİLƏLƏR

E.Y. Bababəyli
A.M.Topçubaşov adına ECM, Bakı; Naxçıvan MR Xəstəxanası, Naxçıvan;
Koceli Universiteti Tibb Fakultəsi, İzmit

Açar sözlər: abseslər, drenaj, aznivaziv müdaxilə
Ключевые слово: абсцессы, дренаж, малоинвазивное вмешательство
Key words: abscess drainage, minimally invasive intervention

Qarın boşluğunun abseslərinin müalicəsi abdominal cərrahlığın aktual problemi olaraq qalır [1,5,7,9]. Antibakterial terapiyanın uğurlarına və cərrahi texnikanın təkminləşməsinə baxmayaraq, qarın boşluğunun abseslərinin ağırlaşma tezliyi və əməliyyatdan sonrakı letallıq yüksək olaraq qalır [1,3,5,8,9]. Qarın boşluğunun abseslərinin azinvaziv müdaxilələlə müəyyən uğurlarına baxmayaraq. bu müalicə metodikasının effektivliyinin qiymətləndirilməsi, üsulunun həyata keçirilməsinə göstəriş və əks göstərişlərin xüsusiyyətləri aktual problem olaraq qalmaqdadır [1,3,6,7,9,10].

Biz son ədəbiyyat icmalını sistematik araşdırmaqla və azinvaziv metodla qarın boşluğunun əməliyyatdan sonrakı abseslərinin müdaxilələrini müvəffəqiyyətlə yerinə yetirmişik [1,5,7,10]. Qarın boşluğunun əməliyyatdan sonrakı abseslərinin azinvaziv müdaxilərindən sonra ağırlaşmalar ədəbiyyat məlumatlarına görə 9,8-13% təşkil edir. Təxirəsalınmaz və təcili yaxud təkrar əməliyyat tələb edən əməliyyatlarda qarındaxili ağırlaşmalrın sayı 0,5%-dən 6,4%-dək olur, uzunmüddətli və çətin müdaxilərdən sonra isə 12,0-27,5%-ə çatır, letallıq 20,7-58,2% arasındadır [2,4,5,7,9]. Qarın boşluğunun absesləri bütün qarındaxili ağırlaşmaların ümumi sayının 10,0%-dən 34,2%-ə qədərini təşkil edərək, 0,24-0,58% hallarda relaparatomiyadan sonra əmələ gəlir [1,6,9,10].

İşin **məqsədi** ultrasəs KT və rentgenoskopiyanın nəzarəti altında azinvaziv müdaxilələri tətbiq etməklə qarın boşluğunun absesləri olan xəstələrin müalicələrinin nəticələrini yaxşılaşdırılmağı qarşımıza məqsəd qoymuşuq.

Tədqiqatın material və metodları. Tədqiqat işində Türkiyə Cumhuriyyəti Koceli Universiteti, M.A.Toopçubaşov adına ECM-nin və Naxçıxan MR Xəstəxanasının 2008-2013-ci illərdə qarın boşluğunun absesləri olan 103xəstəni tədqiqatı araşdırılmışdır. Xəstələrin yaşı 20-75 arasında olmuşlar. Qadınlar 62 (60,2%), kişilər 41(39,8%) nəfər olmuşdur. Tədqiqata cəlb olunan 103 xəstədə 158 abses müşahidə olunmuşdur. Diafraqmaaltı 23(14,6%), qaraciyərdaxili 54(34,2%), qaraciyəraltı 28(17,7%), bağırsaq ilgəklərarası 14(8,7%), dalağın 5(3,2%) və çanaqdaxili 34(21,6%) abses müşahidə edilmişdir. Müayinə və müdaxilələr BV-25 Philips (Hollandiya), Compact 7700 GE (ABŞ), İMS (İtaliya) rentgen cərrahi aparatlarının. həmçinin GCE-406M 4,0 Mhs.UST-5018P 3,5 Mhs markalı xətti punksiya ğtürücüləri ilə təchiz olunmuş Sal-38AS. Sal-250 Toshiba SSD-500. Aloka (Yaponiya) ultrasəs müayinə aparatlarının köməyi ilə yerinə yetirilmişdir. Bütün müdaxilələr yerli və ya ümumi anesteziya altında, imalədən sonra acqarına aparılmışdır. Absesin ölçüsündən və lokalizasiyasından asılı olaraq müdaxilənin növü seçilmişdir. Qarın boşluğunun abseslərinin azinvaziv müdaxilələrinə əks göstərişlər: Absesin ölçüsünün 5 sm-dən az olması, həmçinin onun mürəkkəb topoqrafoanatomik, təhlükəli nahiyyədə yerləşməsi və s. göstərişlər: Rentgenoloji USM, KTM-də aydın görünməsi, 5 sm-dən böyük olması, klinik əlamətlərin kəskinləşməsi və s.

Müzakirəsi: Xəstələr nəzarət və əsas qruplara ayrılmışdır. Dəriarası iynə ilə 103 xəstədən 38-in də laporotomiya. drenajlanma aparılmışdır. Digər 65 xəstədə azinvaziv müdaxilələr tətbiq edilmişdir.Müdaxilələr 12F-24 F kateteri ilə bir dəfəyə (n=44), iki dəfəyə (N=17) və üçüncü dəfədən (n=4) dəqiq müdaxilə prosedur aparılmışdır. Prosedura ilə əlaqədar heç bir ağırlaşma qeydə alınmamışdır. QBA idarə olunmasında PCD iynə ilə dəriarasi aspirasiya üsuluna nisbətən olduqca effektlidir. Dəriarası iynə üsulu diametri 50 mm və ondan az olan sadə abseslərdə real alternativ üsul kimi tətbiq edilə bilər. Xəstələr cinsindən asılı olmayaraq absesin simptomları və klinik əlamətləri USM və ya KT müayinələri ilə təsdiq olunmuşdur. Sistemləşdirilmiş intervension radioloqiya sisteminin köməyi ilə absesin yayılma. görünüşünün qrafiki aşağıdakı cədvəldə verilmişdir (Cədvəl 1).

Cədvəl 1

Qarın boşluğunun əməliyyatdan sonrakı abseslərinin lokalizasiyası (yerləşməsi)

Absesin lokalizasiyası	Abseslərin sayı. %
Qaraciyəraltı	28 (17,7%)
Diafraqmaaltı	23 (14,6%)
Qaraciyərdaxili	54 (34,2%)
İlgəklərarası	14 (8,9%)
Dalaq	5 (3,1%)
Çanaq	34(21,5%)
Cəmi:	100%

Drenajlanma texnikası: Müdaxilələr əməliyyat otağında aparılmışdır. Müdaxilə anında xəstəni nəfəsini saxlamaq tapşırılır, bu da iynənin daha dəqiq yeridilməsinə imkan yaradır. Punksiyanın yerini və trayektoriyasını (yolunu) fərdi olaraq seçirlər, iynənin hərəkət trayektoriyası punksiya olunan yerlə abses divarları arasındakı ən qısa məsafədə olmalıdır; qarın boşluğu abseslərinin punksiyası və kataterizasiyası zamanı iynə patoloji ocaqdan 2-3 sm aralı olmaqla keçməlidir. İrin abseslərinin evakuasiyası 18 kalibrli birdəfəlik troakar iynəsinin köməyi ilə həyata keçirilmişdir. USM hər 3 gündən bir aparılmış və onun nəticələri qeyd edilmişdir. Əgər təkrar yoxlama zamanı abses boşluğunun kiçilməsi baş vermirsə, prosedura təkrarlanır. Müdaxilə 2 dəfədən artıq yerinə yetirildikdə effekt vermirsə. üçüncü cəhddə müalicədən imtina edilməli və fasiləsiz drenaj üçün kateter daxil edilməlidir. Punksiya üçün "azinvaziv minimal texnologiyalar" şirkətinin istehsal etdiyi iynələr tətbiq edilmişdir. İynələrin 18 G kalibri distal ucunda lazer nişanları və iynənin ultrasəsdə görünməsini yaxşılaşdırmaq məqsədilə mandren üzərində sirkulyar bölgüləri vardır. Drenajlamanın V.Q.İvşin metoduna əsaslanaraq "boşluq törəmələrinin drenajlanması üçün qurğu"nun köməyi ilə həyata keçirilmişdir. Drenajlama üçün sapın köməyi ilə fiksə olunan. Diametri 12F."azinvaziv minimal texnologiyalar" şirkətinin istehsal etdiyi polietilen rentgenkontrast drenajlardan istifadə edilmişdir. Absesin ölçüləri 10 sm-dən artıq olduqda aspirasion-yuyucu tərəfimizdən təklif olunmuş üç mənfəzli kateterin (Fole) köməyi ilə yerinə yetirilmişdir.

Kliniki müşahidələrin daha müfəssəl tədqiq edilməsi məqsədilə bütün xəstələr 2 qrupa bölünmüşdür: təksaylı absesləri olan xəstələr 77 (74,8%) və çoxsaylı 26 (25,2%). Birinci qrupa daxil olan 38(36,9%) xəstənin abses boşluğu antiseptik məhlullarla sanasiya edilmiş və geniş spektrli təsirə malik antibiotiklər yerilmişdir. İkinci qrupa daxil olan 65 (63,1%) xəstədə sanasiyadan sonra xüsusi hazırlanmış metodika üzrə antibiotiklər yanaşı proteolitik fermentlərin və spesifik bakterifaqlarından birgə istifadə edilmişdir. Abseslərin ənənəvi və azinvaziv metodlarla işlənib-hazırlanmış sanasiya üsullarının nəticələrinin müqayisə edilməsi aşağıdakı göstəriciləri öyrənilmişdir; müalicənin effekliliyi, absesin obliterasiya sürəti, letallıq, müdaxilə başlanandan xəstəxanadan çıxanadək və drenajlama aparılan andan drenaj çıxarılanadək olan müddət. Klinik sağalma baş verdikdə dəriarası müalicə effektiv sayılırdı və başqa intervension və ya operativ müdaxiləyə ehtiyac qalmırdı. Absesin obliterasiya sürəti standart şəraitdə yerinə yetirilmiş fistuloqrammada tutduğu sahənin dəyişikliyinə əsasən hesablanmışdır. Öyrənilən parametrlər haqqında məlumatlar variasion statistika metodu ilə təhlil edilmişdir. Statistik hipotezlərin yoxlanması zamanı ehtimal olunan səhvlərin son həddi 0,05 qəbul edilmişdir.

Nəticələr. Dəriarası punksiya aparılmış təksaylı absesi olan 38 xəstədə müalicənin effektliliyi 27 xəstədə (71,1%) birdəfəlik punksiya kifayət etmişdir. 11 xəstədə (38,9%) klinik sağalma əldə edilmədiyindən ikinci cəhtdə punksiya yerinə yetirilmişdir.Təksaylı absesləri olan 1 xəstədə (2,6%) abses düzgün-olmayan formalı şiş olmuş və buna görə də adekvat sanasiya aparmaq mümkün olmamış digər 1(2,6%) xəstədə sanasiya adekvat aparılmamış; 3 (7,9%) xəstədə abses boşluğuna öd axması müşahidə olmuşdur. Letallıq 1(2,6%) xəstədə müşahidə edilmişdir. Azinvaziv metodla 65 xəstədə 120 punksiya aparılmışdır ağırlaşma 3(4,6%) xəstədə qeydə alınmışdır. Punksiya anından stasionardan çıxanadək orta müalicə müddəti 8,4±1,3 çarpayı günü təşkil etmişdir. Aparılan təksaylı məlum oldu ki, müalicənin effektliliyi sanasiyadan asılıdır. Qalıq boşluğu əməliyyatdansonrakı abseslərin müalicə nəticələrini müqayisə edərkən obliterasiyasının orta sürəti ikinci qrupda 8,4±1,3%. birinci qrupda isə gün ərzində 12,4±3,2% təşkil etmişdir ki, bu göstəricinin həqiqiliyi yüksək olmuşdur ($p<0,05$). Ona görə də müalicənin müddəti və drenajlamanın müddəti ikinci qrupda birinci qrupdakından 1,6 dəfə az olmuşdur ($p <0,05$). Böyük ölçülü sekvestri olan absesli xəstələrin müalicəsində uğursuzluğa düçar olduğumuzdan biz sekvestrləri parçalamaq (fraqmentlərə ayırmaq) və ləğv etmək üçün yeni metodika Morcellex

GYNECARE cihazının köməkliyi ilə toxumanı hissə-hissə ləğv edən qurğudan istifadə etmişik. Bu zaman drenajın halqa şəkilli distal hissəsi sekvestri kiçik fraqmentlərə (hissələr) bölərək daha kiçik edir drenajın dəliyindən aspirasiya olunaraq xaric olunur. Bu üsul tərəfimizdən qaraciyərin exinokokkoektomiya əməliyyatdan sonrakı xitin qişanin hissə-hissə ləğv edilməsində geniş tətbiq olunur. Həmçinin qarın boşluğunun abseslərinin sekvesterləri olan 3 xəstədə tətbiq edilmişdir. 2 xəstədə sekvestrləri birinci seansından sonra ləğv etmək mümkün olmuş. 1 xəstədə isə ikinci seansı aparmaq lazım gəlmişdir. Abses boşluğunda 1 xəstədə yad cisim tənzif salfet uğurla çıxarılmışdır. Bu məqsədlə 12F dəriarası kateteri 24 F konyulası ilə əvəz edilmiş, onun dəliyindən interversion nəzarəti altında bərk endoskopik kəlbətinlə salfet tutulmuş və çıxarılmışdır.

Cədvəl 2.

Abseslərin ənənəvi və azinvaziv drenajlanmasının əsas göstəriciləri

Göstəricilər	Ənənəvi üsul	İşlənib-hazırlanmış üsul
Müalicənin effektliliyi (%)	84,2	95,4
Letallıq (%)	2,6	1,5
Absesin obliterasiya sürəti (gün ərzində %-lə) (ortalama %-lə)	(gün %-lə) 3,4±1,2 (orta %-lə)12,4±3,2	(gün %-lə) 6,4±1,3 (orta %-lə) 8,4±1,3
Drenajlama başlanandan stasionardan evə yazılanadək olan günlərin sayı	22±2,8	12,6±1,6
Drenajlama başlanandan	27,7±3,3	18±2,2
Qeyd: * - p <0.05		

Təksaylı əməliyyatdan sonrakı absesləri olan xəstələrdə müalicənin effektliliyi 97,4% olmuşdur. 1 xəstədə (2,6%) müalicə effektsiz olmuş. bunun səbəbi isə USM və KT ilə tanınmayan çoxsaylı ilgəklərarası abseslər olmuşdur. 1-ci qrupda müalicənin effektliliyi 20,5±2,2 gün. drenajlamanınkı isə 26±1,8 gün olmuşdur. Çoxsaylı absesləri olan xəstə qruplarında hətta irinliklərin birmomentli sanasiyasından sonra belə. ağırlaşma olmamışdır. 2-ci qrupda letallıq 2 (3,1%) xəstədə müşahidə olunmuş, ölümün səbəbi dəriarası müdaxilə ilə əlaqəsi olmayan, yanaşı xəstəliklər olmuşdur.

Nəticə: Beləliklə. əməliyyatdan sonrakı abseslərin ənənəvi və azinvaziv üsulların müqayisəli təhlili azinvaziv metodların yüksək kliniki effektliliyi ilə xarakterizə olunur. Ənənəvi metodda abseslərdə effektlilik 84,2%,. azinvazivdə isə 95,4% təşkil edir. Azinvaziv metodla "boşluq törəmələrinin drenajlanması üçün qurğu"dan istifadə edilməsi abseslərin və punksiyanın sadəliyinə. ağırlaşmaların və letallığın tezliyinin miniuma enməsinə imkan yaradır.

Sekvestrlərin fraqmentasiyası və ləğvi üçün, həmçinin yad cisimlərin çıxarılması üçün işlənib-hazırlanmış üsullar dəriarası müalicənin imkanlarını genişləndirir və xəstələri müalicəsində kliniki sağalmaya imkan yaradır. Qarın boşluğunun sanasiyası üçün işlənib-hazırlanmış üsulundan istifadə etməklə proteolitik fermentlərin kombinasiyasının və bakterifaqın yeridilməsi abses boşluğunun obliterasiyasının tempini sürətləndirir və müalicə müddətini 1,6 -2,4 dəfə qısaldır.

İntervension radiologiya üsullarının müasir dövrdəki nailiyyətləri dəriarası müdaxilələrin azinvaziv müdaxilələrlə əvəz edilməsinə imkan verir. Qarın boşluğunun abseslərinin ultrasəs azinvaziv müdaxilə. sadə. az travmatik, aşağı maliyyə vəsaiti aparan. effektli metod olduğundan açıq üsula drenaglanmaya alternativ ola bilər.

ƏDƏBİYYAT

1. Bababəyli E.Y., Mustafayeva İ.R., Ciftci E., Bababəyli E.N. Qarın boşluğunun absesləri zamanı ultrasəs müayinəsinin nəzarəti altında mininvaziv müdaxilələr // Cərrahiyyə, 2013, N2, s.59–65.

2. Мохан S.N., Чаудхари Т. и др. Абсцессы печени: анализ клинико из 82 случаев // *Int Surg.,* 2006, v. 91, p.228 -233

3. Тан Ю.М., Чанг А.Ю., чау-РК и др. Оценка хирургического и чрескожное дренирование для гнойных абсцессов печени размером более 5 см. // En *Surg.,* 2005, v. 241, p.485 -490

4. Акынджы D., Ахан О., Ozmen M.H. и др. Чрескожное дренирование 300 внутрибрюшинного абсцесса с долгосрочными наблюдения // *Cardiovasc Intervent радиологии.,* 2005, v.28, p.744 -750

5. Cerwenka H.H и др. Лечение больных с гнойно абсцесс печени // *Химиотерапия,* 2005, v.51, p.366 -369

6. Хо С.С. др. Лечение гнойных абсцессов печени: проспективное рандомизированное сравнение дренажного катетера и иглы аспирацией // Российский вестник гастроэнетерологии, колопроктологии и гепатологии, 2004, №39, с.932 -938;

7. Томас J., Тернер P., Нельсон R.C. и др. Postprocedure сепсис в области обработки изображений. управляемых чрескожное дренирование абсцесса печени: как часто это происходит? // AJR, 2006, v.186*:* 1419 -*1422*

8. Вайнер Ю.С., Егоров А.Б., Вардосанидзе В.К. Лечение абсцессов брюшной полости с использованием малоинвазивных методик под ультразвуковым контролем / Сборник тезисов научнопрактической конференции по чрескожным и внутрипросветным эндоскопическим вмешательствам в хирургии. М., 2010, с. 4849.

9. Zerem E. Bergsland J. Ультразвуковое управляемых чрескожного лечения абсцессов селезенки: значение в лечении пациентов в критическом состоянии // J Gastroenterol., 2006, v.12, p.7341;

10.Bababəyli E.Y., Ceyranlı F.C., Məmmədov A.Q. exinokokkozun residiv və absesi zamanı USM–in nəzarəti altında drenajlanma üsulu / Xalq həkim M.A.Bağırovun anadan olmasının 90 illiyinə həsr olunmuş elmi praktik konfransın materialları. Naxçıvan, 2006, s.213–215;

Резюме

Возможности малоинвазивной хирургии в лечении послеоперационных абсцессов брюшной полости

Е.Ю.Бабабейли

В феврале 2008 года и марте 2013 года до даты диагноз абсцесс печени у 103 пациентов (62 женщин, 41 мужчин, средний возраст 51,2±14,4). отобрано 38 пациентам лапоротом чрескожного дренажа (ПСД). У остальных 65 больных, находящиеся на лечении методом ультразвукового катетера. был применен 12-16-24F нефростомии широкий набор для MV (Барт). Пациенты с абсцессами. средний диаметр которых составлял 3-16 см была применена ПСD. время вмешательства 17 минут и 55 минут. и в среднем составлял 7,25 минут. Продолжительность госпитализации составила 2,5 до 14, в среднем 5,9±2,9 дней.Пункция и дренирование бактериальных абсцессов под ультразвуковым наведением эффективный способ лечения. позволяющий уменьшить количество полостных операций. снизить количество послеоперационных осложнений. сократить продолжительность пребывания пациентов в стационаре.

Summary

During abscesses abdominal cavity under the supervision of interventions mininvaziv

E.Y.Bababeyli

This prospective study was launched in February 2008 and March-2013 until the date of diagnosis of liver abscess in 103 patients (62 female, 41 male, middle age, 51,2±14,4). Selected 38 patients underwent percutaneous drainage (PCD) the other 65 patients under treatment ultrasound catheter method was applied, 8-16-24F wide nephrostomy kit for MV (Bart) was used. Patients with abscesses. and the average diameter of 3 cm and 16 cm was PCD intervention time of 17 minutes and 55 minutes. and the average was 7,25 minutes. It was not were observed complications in any patient during the PCD of interference. The duration of hospitalization was 2,5 to 14 with a mean of 5,9±2,9 days. In 7(11,7%) cases, surgical drainage was required. There were no deaths in either of the groups. Puncture and drainage of bacterial liver abscesses under ultrasound guidance is an effective method of treatment that makes it possible to reduce the of abdominal operations. reduce the number of postoperative complications number and shorten the hospital stay.

Daxil olub: 05.06.2013

PANKREATİTLƏ AĞIRLAŞMIŞ DAŞLI XOLESİSTİTLİ XƏSTƏLƏRDƏ XOLESİSTEKTOMİYADAN SONRAKI NƏTİCƏLƏRƏ FERMENTƏVƏZLƏYİCİ TERAPİYANIN TƏSİRİ

R.Z.Eminov, E.A.İskəndərov

Akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi

Açar sözlər: pankretit, daşlı xolesistit, fermenəvəzləyici terapiya
Ключевые слова: панкреатит, каменныйхолецистит, фермент замещающая терапия
Keywords: pancreatitis, stones holsistit, fermentzamschayuschaya therapy

Son vaxtlar aparılan tədqiqatlar göstərmişdir ki. daşlı xolesistit diaqnozu ilə xolesistektomiya əməliyyatına məruz qalan xəstələrdə əməliyyatdan sonrakı yaxın və uzaq dövrlərdə yaranmış disfunksiyalar – postxolesistektomik sindrom öd kisəsinin çıxarılması ilə deyil. əməliyyatdan əvvəlki dövrdə aşkar edilməmiş xəstəliklər, eləcə də əməliyyat zamanı nəzərdən yayınmış patoloji hallar ilə əlaqədardır [4,6,8]. Postxolesistektomik sindromu olan xəstələrdə iltihab, qısa zaman ərzində hepatopankreatoduodenal zona orqanlarını prosesə cəlb etməklə. bu orqanlarda funksional və orqanik pozğunluqların yaranmasına səbəb olur. Bu kontingentli xəstələrdə müşahidə edilən klinik pozğunluqlar ödün kimyəvi tərkibinin dəyişməsi. onikibarmaq bağırsağa passajının pozulması. Oddi sfinkterinin diskineziyası. maldigestiya və malabsorbsiya sindromları kimi həzm pozğunluqları ilə əlaqələndirilir [2,5,7,10]. Xəstələrin müəyyən hissəsinin uzun müddət ərzində müalicəyə ehtiyacları olur ki. bu ehtiyacı ilk növbədə xolesistektomiyadan sonra meydana çıxan pozulmuş həzm sindromu (PHS) və onun müxtəlif təzahürləri tələb edir [1,3,9,11,12].

Öd daşı xəstəliyi (ÖDX) və öd yollarında iltihabı pozğunluqları olan xəstələrin sayında olan artım. xolesistitin müalicəsi zamanı cərrahi əməliyyatın aparılmasına göstərişlərin genişləndirilməsi ilə əlaqədar öd kisəsi xaric edildikdən sonra qaraciyər. öd yolları və mədəaltı vəzidə baş verən kompensator dəyişikliklərin öyrənilməsi xüsusi aktuallıq kəsb edir.

Tədqiqatın məqsədi: Xolesistektomiyadan sonrakı uzaq dövrdə pozulmuş həzm sindromu olan xəstələrdə fermentəvəzləyici terapiyanın tətbiq edilməsinin hepatopankreatoduodenal zona orqanlarının funksional vəziyyətinə və xəstələrin həyat keyfiyyətinə olan təsirinin dəyərləndirilməsi.

Tədqiqatın material və metodları: Tədqiqatın materialını akad. M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzində ÖDX-yə görə xolesistektomiya edilmiş 30-60 yaşlı 99 (əsas qrup) xəstə təşkil etmişdir. Xəstələrdən 34 (34,3%) nəfəri kişi. 65 (65,7%) nəfəri qadın olmuşdur. Nəzarət qrupunu müvafiq yaşlı 27 praktik sağlam şəxs təşkil etmişdir. ÖDX-nin cərrahi müalicəsindən sonra PHS-in inkişafında mədəaltı vəzinin xarici sekretor fəaliyyətinin pozğunluqlarının rolunu qiymətləndirmək üçün əsas qrupa daxil olan xəstələr 2 qrupa bölünmüşdür. I qrupa daxil olan və xolesistektomiya aparılmış 52 xəstə pankreatitlə ağırlaşmamış (35 xəstə) və pankreatitlə ağırlaşmış (17 xəstə) 2 yarımqrupa bölünmüşdür. II qrupa xolesistektomiya ilə yanaşı xoledoxotomiya əməliyyatı aparılmış 47 xəstə daxil edilmişdir və onlar da pankreatitlə ağırlaşmamış (27 xəstə) və pankreatitlə ağırlaşmış (20 xəstə) 2 yarımqrupa bölünmüşdür.

PHS-nin obyektiv diaqnostikasında əsasən qaraciyərin metabolik funksiyalarının tədqiqindən və mədəaltı vəzinin xarici sekretor fəaliyyətinin göstəricilərindən istifadə edilmişdir. Bu məqsədlə qaraciyərin zülal və öd piqmentləri mübadiləsində rolunu araşdırmış. marker fermentlərinin aktivliyi, öd əmələ gətirmə və öd ifrazı funksiyaları tədqiq olunmuşdur. Mədəaltı vəzinin xarici sekretor fəaliyyətini qiymətləndirmək üçün karbohidrat. lipid və zülalların həzmində iştirak edən fermentlərinin aktivliyinin analizi aparılmışdır. Biokimyəvi laborator müayinə üsulları və nəcisdə elastaza-1 fermentinin təyini Elmi Cərrahiyyə Mərkəzinin biokimyəvi laboratoriyasında və Azərbaycan Tibb Universitetinin kliniki-biokimyəvi laboratoriyasında yerinə yetirilmişdir. Fermentlərin aktivliyi «Human» (Almaniya) firmasının reaktiv dəsti vasitəsilə kinetik üsulla. nəcisdə elastaza-1 fermentinin aktivliyi isə «Bioserv Diaqnostics» firmasının reaktiv dəsti vasitəsilə immunoferment üsulla aparılmışdır.

Öd daşı xəstəliyinin cərrahi müalicəsindən sonra yaranmış pozulmuş həzm sindromunun profilaktikası və müalicəsi «Essensiale N», «Xofitol» və «Kreon» preparatları ilə aparılmışdır. Essensiale N 2 kapsuladan gündə üç dəfə yemək vaxtı 3 ay müddətinə. Xofitol 2 kapsuladan gündə üç dəfə yeməkdən əvvəl 3 ay ərzində hər ay 10 gün, Kreon preparatı isə tərtib etdiyimiz müalicə alqoritminə əsasən 1 kapsuladan gündə üç dəfə yemək vaxtı daxilə təyin edilmişdir.

Tədqiqatın gedişində alınmış bütün rəqəm göstəriciləri müasir tövsiyələr nəzərə alınmaqla riyazi-statistik təhlil olunmuşdur. Statistik analiz ilkin olaraq parametrik üsulla aparılmış və ümumi mənzərə ayırd edilmişdir. Sonra alınmış nəticələri dəqiqləşdirmək məqsədilə qeyri-parametrik üsullardan istifadə olunmuşdur. Qruplarda göstəricilər arasındakı fərqi müəyyən etmək üçün qeyri-parametrik üsuldan – Uilkokson (Manna-Uitni) meyarından (U) istifadə olunmuşdur. Bütün hesablamalar EXCEL

elektron cədvəlində aparılmış, nəticələr cədvəllərdə və diaqramlarda cəmləşdirilmişdir.

Alınmış nəticələr. ÖDX olan xəstələrdə qaraciyərin və mədəaltı vəzinin xarici sekretor fəaliyyətinə fermentəvəzləyici terapiyanın tətbiqinin nəticələrini qiymətləndirmək məqsədilə xolesistektomiyadan 3 ay. 6 ay və 1 il sonra pankreatik və qaraciyər fermentlərinin aktivliyinin, eləcə də zülal və piqment metabolizminin bəzi göstəriciləri tərəfimizdən öyrənilmişdir.

Əməliyyatdan sonra 1 il ərzində aparılmış fermentativ müalicə nəticəsində qaraciyər və mədəaltı vəzinin mühüm fermentlərinin fəallığında. eləcə də qan serumunun zülal və piqment spektrində nəzərə çarpacaq dəyişikliklər aşkar edilmişdir (cədvəl 1). Cədvəldən göründüyü kimi. xolesistektomiyadan sonra fermentativ müalicə kursu keçmiş xəstələrin qan serumunda ümumi zülalın miqdarı çox cüzi artaraq. norma hədlərinə çatmışdır. Belə ki. ümumi zülalın qatılığı 1 ildən sonra orta hesabla 70,9±1,3 q/l-ə qədər artmışdır.

Cədvəl 1

Pankreatitlə ağırlaşmayan xəstələrdə enzimokorreksiyanın effektivliyi

Göstəricilər	Nəzarət qrupu (n=27)	Müşahidə müddəti			
		Əməl.əvvəl (n=35)	3 ay sonra (n=33)	6 ay sonra (n=24)	1 il sonra (n=18)
Ümumi zülal. q/l	71,3±1,3 (59,8-80,6)	68,7±1,2 (56,7-78,5)	69,1±1,1 (60,1-79,8)	70,3±1,5 (58,9-81,1)	70,9±1,3 (59,9-75,8)
Albumin. q/l	40,4±0,7 (33,9-47,9)	38,6±1,0 (31,6-48,8)	40,1±0,9 (33,5-49)	40,6±1,0 (34,4-48,6)	40,2±1,1 (34,5-48,3)
Ümumi bilirubin. mkmol/l	13,6±0,2 (12-15,18)	17,7±0,4 (14,6-22,6) ***	16,0±0,3 (13,7-19,7) *** ^^^	14,6±0,2 (12,5-17) *** ^^^	13,7±0,2 (12,3-15,5) ^^^
Birləşmiş bilirubin. mkmol/l	3,16±0,12 (2,34-4,19)	6,56±0,34 (4,1-10,9) ***	5,38±0,28 (3,4-9,8) *** ^^	4,17±0,19 (3-6,7) *** ^^^	3,17±0,16 (2,5-4,3) ^^^
Sərbəst bilirubin. mkmol/l	10,4±0, (9,21- 11,51)	11,1±0,1 (10,4-12,3) ***	10,6±0,1 (9,7-11,8) ^^	10,5±0,2 (9,3-11,5) ^^^	10,5±0,2 (9,3-11,5) ^^

Qeyd: Göstəricilər arasında fərqin statistik dürüstlüyü: 1.nəzarət qrup göstəriciləri ilə: * - $p<0,05$, ** - $p<0,01$, ***- $p<0,001$. 2.əməliyyatdan əvvəlki göstəriciləri ilə: ^ - $p_0<0,05$. ^^ - $p_0<0,01$. ^^^ - $p_0<0,001$.

Fermentativ müalicə kursu başlanandan 3 ay sonra qan serumunda ümumi və birləşmiş bilirubinin qatılığı əməliyyatdan əvvəlki göstəricilərə nisbətən orta hesabla 9,5% ($p_0<0,001$) və 18,0% ($p_0<0,01$) aşağı düşmüşdür. Buna baxmayaraq. nəzarət qrupa nisbətən 18,1% ($p<0,001$) və 70,3% ($p<0,001$) yüksək olaraq qalır. Fermentativ müalicə ən çox birləşmiş bilirubinin qatılığının azalmasına təsir etdiyi üçün qan serumunda sərbəst bilirubin fraksiyası az dəyişikliyə uğramışdır.

Beləliklə. pankreatitlə ağırlaşmayan ÖDX olan xəstələrdə xolesistektomiya əməliyyatından sonra 1 il ərzində aparılmış fermentativ müalicə kursu qaraciyər və mədəaltı vəzinin xarici sekretor fəaliyyətinin bərpa olunmasına səbəb olmaqla. qan serumunda zülal və bilirubin metabolizminin də normallaşmasını şərtləndirir. Xolesistektomiyadan sonra aparılmış fermentativ müalicə kursunun ən yaxşı effektiv nəticələri müalicədən yalnız 1 il sonra müşahidə edilmişdir.


Pankreatitlə ağırlaşmayan ÖDX olan xəstələrin xolesistektomiya əməliyyatı aparılmış klinik qrupda fermentativ müalicədən 3 ay sonra qaraciyərin xarici sekretor fəaliyyətinin öyrənilməsi zamanı məlum olmuşdur ki, ALT və AST fermentlərinin fəallığı müvafiq olaraq 33,1-61,2 U/l və 25,8-45,9 U/l hədlərində dəyişmişdir. Belə ki, ALT və AST fermentlərinin fəallığı əməliyyatdan əvvəlki nəticələrlə müqayisədə müvafiq olaraq orta hesabla 11,4% ($p_0<0,05$) və 16,0% ($p_0<0,001$) əhəmiyyətli dərəcədə azalmışdır, lakin həmin göstəricilərin sağlam şəxslərin göstəriciləri ilə müqayisəsi göstərir ki. onların fəallığı normaya nisbətən orta hesabla 2,2 ($p<0,001$) və 1,8 dəfə ($p<0,001$) yüksək olaraq qalır. ALT və AST fermentlərinin fəallığı fermentativ müalicə kursunun 6-cı ayında müvafiq olaraq 23,2-39,9 U/l və 19,4-35,5 U/l hədlərində. 1 ildən sonra isə 17,2-30,6 U/l və 14,6-30,2 U/l hədlərində dəyişmişdir.

Göstərilən qrup xəstələrdə pankreatik fermentlərin fəallığı da müalicə kursu ərzində əhəmiyyətli dərəcədə dəyişmişdir. Aparılmış klinik müayinələr zamanı müəyyən edilmişdir ki. α-amilaza və lipaza fermentlərinin fəallığı müvafiq olaraq 3 aydan sonra 53,2-83,4 U/l və 23,3-57,8 U/l, 6 aydan sonra

49,7-79,0 U/l və 23,1-42,0 U/l. 1 ildən sonra isə 49,0-68,8 U/l və 20,1-34,9 U/l hədlərində dəyişmişdir. Belə ki, α-amilaza və lipaza fermentlərinin fəallığı əməliyyatdan əvvəlki göstəricilərlə müqayisədə müalicə kursu ərzində 3 aydan sonra 9,4% (p_0<0,05) və 10,4%, 6 aydan sonra 15,2% (p_0<0,001) və 30,9% (p_0<0,001), 1 ildən sonra isə 17,0 (p_0<0,001) və 42,5% (p_0<0,001) azalmışdır.

α-Amilaza və lipaza fermentlərinin aktivliyi müalicə kursundan sonrakı dövrdə norma hədlərinə yaxınlaşır. Belə ki, həmin fermentlərin fəallığı müalicədən 3 ay sonra nəzarət qrupa nisbətən müvafiq olaraq 15,1% (p<0,001) və 57% (p<0,001). 6 aydan sonra isə 7,6% (p<0,05) və 21,1% (p<0,01) yüksək olaraq qalsa da, 1 ildən sonra hər iki fermentin fəallığı nəzarət qrupundan çox cüzi fərqlənmişdir (şək. 4.3).

Aparılan fermentəvəzləyici müalicəyə baxmayaraq 2 (11,1±7,4%) xəstədə (p_0<0,001) ağrı. 4 (22,2±9,8%) xəstədə (p_0<0,001) meteorizm. 1 (5,6±5,4%) xəstədə (p_0<0,05) ishal. 2 (11,1±7,4%) xəstədə (p_0<0,001) dispepsiya əlamətləri davam etmişdir. Bunları nəzərə alaraq yüngül dərəcəli ferment çatışmazlığı müşahidə edilmiş xəstələrə pəhrizlə yanaşı 1 kapsula kreon 10,000 üç dəfə yemək vaxtı daxilə 1 ay müddətinə təyin edilmişdir.



Şək. 1 Pankreatitlə ağırlaşmayan ÖDX olan xəstələrdə xolesistektomiyadan sonra mədəaltı vəzi fermentlərinin aktivliyi (nəzarət – 100%)

Digər tərəfdən isə pankreatitlə ağırlaşan ÖDX olan xəstələrdə xolesistektomiya əməliyyatından sonra 1 il ərzində aparılmış fermentativ terapiya kursunun nəticələrinin monitorinqi izlənilmişdir. Xolesistektomiya əməliyyatından sonra aparılmış fermentativ müalicə kursu qan serumunda ümumi zülalın orta hesabla 69,5±1,8 q/l-dən 71,6±2,5 q/l-ə qədər. albuminin isə 38,2±1,4 q/l-dən 40,1±1,6 q/l-ə qədər artmasına səbəb olmuşdur.

Fermentativ terapiya ümumi bilirubin və onun fraksiyalarının əhəmiyyətli dərəcədə azalması ilə nəticələnmişdir. Fermentativ terapiyadan sonra ilk 3 ayda ümumi bilirubinin qatılığı əməliyyatdan əvvəlki nəticələrə nisbətən orta hesabla 15% (p_0<0,001), 6 aydan sonra 19,6% (p_0<0,001), 1 ildən sonra isə 21,5% (p_0<0,001) azalmışdır. Birləşmiş və sərbəst bilirubinin qatılığı isə orta hesabla 3 aydan sonra 34,5% (p_0<0,001) və 5,0% (p_0<0,05), 6 aydan sonra 41,4% (p_0<0,001) və 8,5% (p_0<0,01), 1 ildən sonra isə 44,1% (p_0<0,001) və 9,9% (p_0<0,01) azalmışdır. Buna baxmayaraq, ümumi, birləşmiş və sərbəst bilirubinin qatılığı nəzarət qrupa nisbətən orta hesabla ilk 3 ayda 10,5% (p<0,001), 24,1% (p<0,01) və 6,4% (p<0,01) yüksək olaraq qalmışdır. Müalicədən 6 ay və 1 il sonra isə ümumi. birləşmiş və sərbəst bilirubinin qatılığı nəzarət qrupu hədləri səviyyəsinə qədər dəyişir. Aparılmış fermentativ müalicə son 6 ay ərzində zülal və bilirubin metabolizminə əhəmiyyətli dərəcədə təsir göstərmir.

Qan serumunda ALT və AST fermentlərinin fəallığı xolesistektomiyadan 3 ay sonra müvafiq olaraq əməliyyatdan əvvəlki göstəricilərə nisbətən orta hesabla 13.3% (p_0<0.01) və 11.8% (p_0<0.05). 6 ay sonra 34.5% (p_0<0.001) və 28.6% (p_0<0.001). 1 il sonra isə 51.2% (p_0<0.001) və 45.5% (p_0<0.001) azalmışdır. Buna baxmayaraq. həmin fermentlərin fəallığı müalicənin 3-cü ayında nəzarət qrupa nisbətən orta hesabla müvafiq olaraq 2,5 (p<0,001) və 2,4 dəfə (p<0,001), 6 aydan sonra 92,6% (p<0,001) və 91,1% (p<0,001). 1 ildən sonra isə 43,5% (p<0,001) və 45,9% (p<0,001) yüksək olaraq

qalır.

Alınmış nəticələrdən məlum olmuşdur ki, α-amilaza və lipaza fermentlərinin fəallığı ilk 3 ay ərzində əhəmiyyətli dərəcədə dəyişməmişdir. Lakin müalicədən 6 ay sonra həmin fermentlərin fəallığı müvafiq olaraq əməliyyatdan əvvəlki göstəricilərə nisbətən orta hesabla 8,2% (p_0<0,01) və 12,8% azalaraq nəzarət qrup hədləri səviyyəsində dəyişilmişdir. 6 aydan sonra aparılan müalicə kursu α-amilaza və lipazanın fəallığına əhəmiyyətli dərəcədə təsir etməmişdir.

Elastaza-1 fermentinin fəallığının müalicə kursundan sonra öyrənilməsi zamanı məlum olmuşdur ki. onun fəallığı ilk 3 ayda əməliyyatdan əvvəlki göstəricilərə nisbətən orta hesabla 39,5% (p_0<0,001). 6 aydan sonra 1,8 dəfə (p_0<0,001), 1 ildən sonra isə 2,2 dəfə (p_0<0,001) artmışdır. Alınmış nəticələrin nəzarət qrupun göstəriciləri ilə müqayisəsi göstərmişdir ki. elastaza-1 fermentinin fəallığı müalicədən 3 ay sonra nəzarət qrupa nisbətən orta hesabla 44,7% (p<0,001),6 aydan sonra isə 28,4% (p<0,001) aşağı olmuş. 1 ildən sonra nəzarət qrup hədləri səviyyəsində dəyişmişdir.

Əməliyyata məruz qalmış 17 xəstədə fekal elastaza-1 fermentinin müayinəsi zamanı 9 (52,9±12,1%) xəstədə orta ağır dərəcə, 8 (47,1±12,1%) xəstədə isə ağır dərəcə ferment çatmamazlığı aşkar edilmişdir. Əməliyyatdan sonra həmin qrup xəstələrdə fekal elastaza-1 fermentinin səviyyəsində demək olar dəyişiklik aşkarlanmamışdır. Bütün xəstələrə əməliyyatdan sonra ənənəvi müalicə üsulu ilə yanaşı fermentəvəzləyici terapiya təyin edilmişdir.

Cədvəl 2

Pankreatitlə ağırlaşan ÖDX olan xəstələrdə xolesistektomiyadan sonrakı müalicə dövründə klinik əlamətlərin təzahürü

Klinika	Müşahidə müddəti			
	Əməl. əvvəl (n=17)	3 ay sonra (n=14)	6 ay sonra (n=9)	1 il sonra (n=8)
Ağrı	17 100,0%	4 ^^^ 28,6±12,1%	2 ^^^ 22,2±13,9%	–
Meteorizm	17 100,0%	9 ^ 64,3±12,8%	5 ^ 55,6±16,6%	3 ^^ 37,5±17,1%
İshal	4 23,5±10,3%	3 21,4±11,0%	2 22,2±13,9%	–
Dispepsiya	17 100,0%	10 71,4±12,1%	6 66,7±15,7%	2 ^^^ 25,0±15,3%

Qeyd: Əməliyyatdan əvvəlki göstəricilər ilə fərqin statistik dürüstlüyü: ^ - $p_0 < 0.05$; ^^ - $p_0 < 0.01$; ^^^ - $p_0 < 0.001$

3 aydan sonra 14 xəstənin təkrar müayinəsi zamanı 8 (57,1±13,2%) xəstədə yüngül, 6 (42,8±13,2%) xəstədə orta ağır və ağır dərəcədə ferment çatışmazlığı aşkarlanmışdır (χ^2=13,1; p<0,01). Bu özünü klinik əlamətlərdə də göstərmişdir. Belə ki, 4 (28,6±12,1%) xəstədə (p_0<0,001) ağrı, 9 (64,3±12,8%) xəstədə (p_0<0,05) meteorizm, 3 (21,4±11,0%) xəstədə ishal, 10 (71,7±12,1%) xəstədə dispepsiya əlamətləri qalmışdır.

6 ay sonra 9 xəstənin təkrar müayinəsi zamanı 9 (100%) xəstədə yüngül dərəcəli ferment çatışmazlığı aşkarlanmışdır (χ^2=26,0; p<0,001). Bu da özünü klinik əlamətlərdə göstərmişdir. Belə ki, 2(22,2±13,9%) xəstədə (p_0<0,001) ağrı. 5 (55,6±16,6%) xəstədə (p_0<0,05) meteorizm, 2 (22,2±13,9%) xəstədə ishal, 6 (66,7±15,7%) xəstədə dispepsiya əlamətləri davam etmişdir. 8 xəstə üzərində aparılmış 1 ildən sonrakı təkrar müayinə zamanı elastaza-1 fermentinin səviyyəsi 3 (37,5±17,1%) xəstədə norma, 3 (37,5±17,1%) xəstədə şərti norma səviyyəsində olmuş, 2 (25,0±15,3%) xəstədə yüngül dərəcədə ferment çatışmazlığı aşkarlanmışdır (χ^2=25,0; p<0,001). Bu özünü klinik əlamətlərdə də göstərmişdir. Belə ki, 3 (37,5±17,1%) xəstədə (p_0<0,01) meteorizm. 2 (25,0±15,3%) xəstədə (p_0<0,001) dispepsiya əlamətləri davam etmişdir. Yüngül dərəcəli ferment çatışmazlığı olan hər 2 (25,0±15,3%) xəstəyə pəhriz № 5 ilə yanaşı 1 kapsula Kreon 10.000 gündə 3 dəfə 1 ay müddətinə təyin edilmişdir.

Nəticələrin müzakirəsi. Öd daşı xəstəliyi olan xəstələrin qan serumunda α-amilaza və lipaza fermentlərinin aktivliyinin nəzarət qrupuna nisbətən müvafiq olaraq 12,6% və 30,6% artması, pankreatitlə ağırlaşmayan xəstələrdə nəcisdə elastaza-1 fermentinin fəallığının 17% azalması. pankreatitlə ağırlaşan xəstələrdə isə bu fermentin fəallığının pankreatit inkişaf etməyən xəstələrin göstəricilərinə nisbətən 2 dəfə aşağı olması mədəaltı vəzinin xarici sekretor fəaliyyətinin pozulduğunu

əks etdirir. Xolesistektomiyadan sonrakı uzaq dövrdə aparılmış fermentəvəzləyici dərman müalicəsi sayəsində α-amilaza və lipaza fermentlərinin fəallığı əməliyyatdan əvvəlki göstəricilərlə müqayisədə müalicə kursu ərzində 3 aydan sonra 9,4% və 10,4%, 6 aydan sonra 15,2% və 30,9%, 1 ildən sonra isə 42,5% və 35,7% azalmışdır.

Beləliklə. PHS-in müalicəsi üçün xolesistektomiyadan sonra qaraciyərin. mədəaltı vəzinin fəaliyyətini normallaşdıran ənənəvi müalicə üsulu ilə yanaşı fermentəvəzləyici preparatların istifadəsi tövsiyə olunur. ÖDX-nin pankreatitlə ağırlaşmış klinik qrupunda xolesistektomiya əməliyyatından sonra fermentativ müalicə kursu mədəaltı vəzinin xarici sekretor fəaliyyətinin demək olar ki, tam bərpasına səbəb olmaqla xroniki pankreatitin aradan qaldırılmasını şərtləndirir.

ƏDƏBİYYAT

1. Ağayev B.A., Məmmədov K.B., Rüstəmov E.A. və b. Öd kisəsi və öd yollarının cərrahiyyəsinin bəzi məsələləri // Sağlamlıq, 2001, №8, s.3-7
2. Бабак О.Я. Желчный рефлюкс: методы патогенетической терапии // Здоров'я України. 2006, т.136, № 3, с. 55
3. Бабов К.Д., Драгомирецкая Н.В., Кондратюк О.А. Ранняя реабилитация больных. перенесших операции на билиарной системе // Медицинская реабилитация и курортология. 2000, № 2, с. 33-36
4. Бебуришвили А.Г., Быков А.В., Бурчуладзе Н.Ш. Эволюция подходов к хирургическому лечению осложненного холецистита // Хирургия, 2005, №1, с. 43-47
5. Билиарный сладж: от патогенеза к лечению: Метод. рекомендации / Под ред. Ильченко А.А. М.: 2004, 31 с.
6. Григорьев П.Я., Яковенко Э.П., Агафонова Н.Г. и др. Постхолецистэктомический синдром: диагностика и лечение // Лечащий врач, 2004, № 4, с. 34-38
7. Губергриц Н.Б., Бен Хмида М. Билиарный сладж: констатировать или лечить? // Сучасна гастроентерол, 2005, т. 24, № 4, с. 9-19
8. Губергриц Н.Б., Юрьева А.В., Фоменко П.Г. Постхолецистэктомический синдром // Сучасна гастроентерол.,2006, т.29, № 3. с. 4-8
9. Ильченко А.А. Желчнокаменная болезнь // Лечащий врач, 2004, № 4, с. 27-32
10. Калашов П.Б. Синдром нарушенного пищеварения после перенесенного острого панкреатита: Автореф. дисс. ... канд. мед. наук. М., 2004, 21с.
11. Маев И.В., Вьючнова Е.С., Лебедева Е.Г. Коррекция проявлений холестаза у больных с калькулезным холециститом. перенесших холецистэктомию // Практикующий врач, 2006, №1, Специальный выпуск. с. 29
12. Петухов В.А. Желчнокаменная болезнь и синдром нарушенного пищеварения. М.: ВЕДИ, 2003, 125с.

Резюме

Воздействие ферментозаменяющей терапии на результаты лечения больных желчнокаменной болезнью осложненным панкреатитом.

Р.З. Эминов, Э.А.Искендеров

С целью оценки внешнесекреторного состояния поджелудочной железы 99 больных были разделены на 2 группы. В лечении синдрома нарушенного пищеварения после холецистэктомии. применяли препараты Эссенциале N, Хофитол и Креон. У больных с желчнокаменной болезнью в крови отмечено повышение активности ферментов α-амилазы и липазы на12,6% и 30,6%. АлАТ и АсАТ 1,5 и 2 раза, ЩФ и ГГТ 13% и 29,8%, общего билирубина на 30,5%. непрямого билирубина на 7,1%, прямого билирубина в 2,1 раза, и уменьшение содержания общего белка на 20% и альбумина на 4,4%. Адекватная ферментозаместительная терапия в раннем и отдаленным периодах после холецистэктомии позволяет нормализовать внешнесекреторную функцию поджелудочной железы. при синдроме нарушенного пищеварения: показатели α-амилазы и липазы по сравнению с показателями до операционного периода. снизились через 3 месяцев 9,4% и 10,4%, через 6 месяцев 15,2% и 30,9%, через год 42,5% и 35,7%, а содержание фекальной эластазы-1 у больных с желчнокаменной болезнью. при различных степенях ферментной недостаточности. была выявлена до операции в 92,9±2,6%, через 3 месяца в 77,9±4,5%. через 6 месяцев в 46,8±6,3% и через год в 4,1±1,3% случаях.

Summary

Influence of enzyme substitute therapy on results of the patients with gallstone diseases complicated with pancreatitis

R.Z. Eminov, E.A.Iskandarov

In order to validate the disorders of the exocrine function of the pancreas the 99 patients divided into the 2 groups. For the treatment of syndrome of the digestion disorder after cholecystectomy. the drugs such as Essensiale N,Xofitol and Kreon were taken. There were observed the increase of the α-amylase and lipase activity up to 12,6% and 30.6%. ALT and AST 1,5 and twice. Alkaline Phosphatase and GGT 13% - 29,8%, total bilirubin 30,5%, unconjugated bilirubin 7,1% conjugated bilirubin 2,1 times. and the content of the total protein was decreased 20% and albumin to 4,4%. Adequate ferment – substitute therapy in early and long – term periods after cholecystectomy allows to normalize the exocrine function of pancreas within the syndrome of digestion disorder: coefficient of α-amylase and lipase in comparison with the preoperative period decreased after 3 months to 9,4% and 10,4% after 6 months to 15,2% and 30,9% after a year to 42,5% and 35,7%, but the content of fecal elastase-1 in patients with gallstone disease. within the different rates of ferment insufficiency was observed in 92,9±2,6% before operation. after 3 months 77,9±4,5%. after 6 months 46,8±6,3% and 4,1±1,3% after a year.

Daxil olub: 17.06.2013

MÜXTƏLİF ETİOLOGİYALI PERİTONİTLİ XƏSTƏLƏRİN REABİLİTASİYASI TİBBİ, İQTİSADİ VƏ SOSİAL PROBLEM KİMİ

L.B.Haxverdiyeva

Akad. M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi, Bakı

Açar sözlər: peritonit, reabilitasiya, tibbi, iqtisadi və sosial problem

Ключевые слова: перитонит, реабилитация, медицинская, экономическая и социальная проблема

Keywords: peritonitis, rehabilitation, medical, economic and social problem.

Müasir səhiyyənin tibbi-sosial problemləri arasında reabilitasiya məsələlərinə xüsusi diqqət yetirilir. Bu onunla izah olunur ki, xəstələrin reabilitasiyası dövlət əhəmiyyəti kəsb edən tədbirlər sistemindən ibarətdir ki, bu tədbirlərin həyata keçirilməsindən klinik təbabətin geniş diapazonlu müalicə-profilaktika problemlərin effektiv şəkildə həll olunması müəyyən dərəcədə asılıdır. Reabilitasiya anlayışı qismində müvəqqəti və ya davamlı olaraq əmək qabiliyyətinin itirilməsinə gətirib çıxaran patoloji proseslərin inkişafının qarşısının alınmasına, xəstə və əlillərin cəmiyyətə və ictimai faydalı əməyə erkən qayıtmasına yönəlmiş tibbi, sosial-iqtisadi sistem başa düşülür [3]. Müxtəlif etiologiyalı peritonitli (kəskin appendisit, öddaşı xəstəliyi və əməliyyatdansonrakı xora xəstəliyi) xəstələr sırasında bir il ərzində dispanser nəzarəti altında olan 77,9% kişi və 82% qadın əmək qabiliyyətlərini itirirlər, xəstələrin 1/3-dən çoxu xəstəxana vərəqələrindən təkrar istifadə edirlər. Uzun müddət davamlı olaraq əmək qabiliyyətinin itirilməsinə. bəzən isə ölüm hallarına gətirib çıxaran müxtəlif etiologiyalı peritontli xəstələrdə ağırlaşmaların tezliyi 26,5%-42,3% arasında tərəddüd edir [4,5,11,13]. Ona görə də həmin patologiyalı xəstələrin reabilitasiya problemi adi klinik xəstəliklər sırasından çıxaraq böyük sosial-iqtisadi əhəmiyyət kəsb edən problemlər sırasına daxil olmuşdur [13]. Hazırki dövrə qədər reabilitasiya xidmətinin təşkili məsələsi müxtəlif ölkələrdə mütəxəssislər tərəfindən geniş şəkildə müzakirə olunan məsələlərdən biridir [11,17,18,20,23,24]. ABŞ-da və Avropa ölkələrində reabilitasiyanın II və III mərhələlərinin müxtəlif formaları vardır: poliklinik. reabilitasiya mərkəzləri və s. [17,21,23,24]. Bu proqramların əksəriyyəti aşağıdakı mərhələlərdən ibarət olur: xəstə stasionardan buraxıldıqdan sonra ambulator olaraq həftədə bir neçə dəfə mərkəzlərə gəlirlər. burada onlar fiziki və psixi reabilitasiyadan keçirlər. Müxtəlif ölkələrdə reabilitasiya xidmətlərinin təşkili imkanları sosial-iqtisadi şəraitin xüsusiyyətləri ilə təyin olunur ki. buraya səhiyyənin müxtəlif variantları və sosial sığortalama. eləcə də milli və yerli ənənələr daxildir [17,18,22]. Reabilitasiyanın inkişafı və müvəfəqiyyətli olması birbaşa olaraq onun sadəliyi və qənaətli olmasından asılıdır. Reabilitasiya sisteminin fəaliyyətinə müxtəlif profilli mütəxəssislər daxildir ki. onlar reabilitasiya xidmətinin tibbi. fiziki. psixoloji. professional aspektdən reallaşmasını təmin edirlər. Bu məsələlərdən onun fəaliyyətinin effektivliyi asılıdır [13,17,19].

Beləliklə. reabilitasiyanın qarşısında duran vəzifələr sadəcə olaraq əmək qabiliyyətinin bərpa olunması ilə məhdudlaşmır. buraya daha geniş tədbirlər planı daxildir. ÜST işçi qrupunun təyinatına əsasən reabilitasiya itirilmiş əmək qabiliyyətinin bərpası və sosial həyata qayıtmasına yönələn tədbirlər toplusundan ibarətdir. Bizim ölkədə müxtəlif etiologiyalı peritonitli xəstələrin əməliyyatdansonrakı dövrdə mərhələli reabilitasiyasının dövlət proqramı yaradılmışdır. Reabilitasiyanın vəzifələri orqanzimin kompensator-uyğunlaşma və tənzimləyici sistemin adaptasiya halqalarının bərpa olunması üçün optimal şəraitin təmin olunmasından ibarətdir. Belə zəruri vəzifələrin həyata keçirilməsi üçün hər bir konkret halda reabilitasiya problemlərinin həlli ilə məşğul olan klinisist reabilitasiya proqramlarının fərdiləşdirilməsində kompleks sistemli yanaşmadan istifadə etməlidir.

Məlumdur ki. öddaşı xə xora xəstəliyinin gedişatı orqanizmin müxtəlif müdafiyə komponentlərinin nəzərəçarpacaq dərəcədə aşağı düşməsi ilə müşayiət olunur. onların kəskinlik dərəcəsi və özünü büruzə verməsi fərdi olaraq dəyişkəndir. Mədə-bağırsaq traktı və öddaşı xəstəliyinin geniş yayılmış kompensator-adaptasiya halqalarının xəstəlik prosesində bərpa olunması xəstələrin reabilitasiyasının ən vacib istiqamətlərindən biri hesab olunur. Onların həyata keçməsi həkim-reabilitoloqun mədə-bağırsaq traktı və öd yolları sistemindəki dəyişikliklərin mahiyyəti haqqında biliklərə detalları ilə malik olması dərəcəsindən asılıdır [3].

Keçirilən əməliyyatın həcmi və ağırlıq dərəcəsindən. əməliyyatdan keçən vaxtdan. xəstənin yaşı və xarakterik xüsusiyyətlərindən. pasiyentin öz xəstəliyinə olan münasibətindən və bir sıra başqa məqamlardan asılı olaraq cərrahi əməliyyatdan sonra ağırlaşmaların olub-olmaması və əlverişsiz gedişatı. xəstələrə qulluğun xarakteri və müalicəyə yanaşma fərqli olacaqdır.

Reabilitasiyanın stasionar mərhələsi artıq əməliyyatdan sonra palatada aparılır və xəstə stasionardan buraxıldıqda sona yetir. Son illər əksər müəlliflər yekdil olaraq xəstənin stasionar şəraitində bərpaedici müalicəsının ikikomponentli sisteminin təşkilinin məqsədəuyğunluğu haqqında fikir irəli sürürlər [3,7,14,17,21]. Bu sistemə erkən əməliyyatdansonrakı dövr və bununla əlaqədar olaraq cərrahi stasionarda bərpaedici müalicə, eləcə də xəstələrin müalicəsinin davam etdirilməsi üçün gətirildiyi qastroenteroloji şöbədə reabilitasiya tədbirləri ilə xarakterizə olunan sonrakı dövrlərdən ibarətdir. Erkən əməliyyatdansonrakı dövrdə aparılan tədbirlər homeostazın qorunmasına yönəlmiş olur. Zərurət olduqda çoxionlu məhlul olan Ringer-Lokk və qlükoza yeridilir. Qanın reoloji xüsusiyyətlərinin yaxşılaşdırılması və toxumaların yaxşı reparasiyası üçün heparinin yeridilməsi. parenteral qidalanma üçün zond və s. məqsədəuyğundur [3]. Həzm sistemi və öd yolları xəstəliyinin diaqnostika və müalicəsinin qüvvədə olan standart və protokollarına uyğun olaraq kombinəolunmuş antibiotikterapiyası və xoraəleyhinə müalicə sona yetdikdən sonra müalicəni ev şəraitində davam etdirmək lazımdır- 5 həftə ərzində poststasionar mərhələ- duodenal xəstəliklər zamanı 7 həftə-mədə lokalizasiyalı xoralar olduqda bir qəbula birdəfəlik 30 və 40 mq olmaqla (19-20 mq) ranitidin və famotidindən istifadə edilir. Daha geniş istifadə olunan effektiv preparat "protob pompa" inhibitoru olan omeprazol hesab olunur. Əməliyyatdansonrakı dövrdə müxtəlif etiologiyalı peritonitli xəstələrin reabiltasiyasının sanator-kurort mərhələsi ambulator şəraitdə bərpaedici müalicədən 2 həftə tez olamayaraq davam olunmalıdır. Bununla yanaşı xəstələri müxtəlif iqlim zonalarında yerləşən sanatoriyalara göndərmək lazım deyil. Belə xəstələrdə erkən dövrlərdə iqlimin dəyişməsi vəziyyətin pisləşməsinə səbəb ola bilər [5,6,12,14,15].

Müasir ədəbiyyat mənbələri xronik formalı və ya residivli xronik qastroduodenal xoraların. xronik appendisitin və xolesistitdən sonra bərpaedici müalicənin müxtəlif aspektləri haqqında informasiyalar ilə zəngindir [2,4,11,18], lakin əməliyyatdan sonra xəstələrin reabilitasiyası məsələlərinə cüzi işlər həsr olunmuşdur və ya onlara tamamilə rast gəlinmir. Bununla yanaşı olaraq reabilitasiya tədbirlərinin az effektiv olduğu faktını etiraf etmək lazım gəlir [10]. Bununla əlaqədar olaraq reabilitasiya probleminin qarşısında duran bütün kompleks məsələlərin həllinə yeni yanaşma işlənib hazırlandıqda başqa müalicə-profilaktika tədbirləri ilə vəhdəddə bərpaedici müalicənin effektivliyinin və əhəmiyyətinin artırılmasını təmin edə bilər.

Xəstəlik hətta yüngül formada keçdikdə belə adi həyat tərzi dəyişilir. insanın ənənəvi həyat stereotipinə kobudcasına daxil olur. Xəstəlik prosesinin davametmə müddəti. müalicənin mürəkkəbliyi, istənilən xəstəlik zamanı kəskin patoloji simptomatika ümumilikdə şəxsiyyətdə öz izlərini qoyur. Xəstəlik zamanı. xüsusilə uzun müddət davam edən xəstəlik zamanı insan təkcə ağrı hissindən əziyyət çəkmir, onu xəstəliyin acı nəticələri və ölüm qorxusu narahat edir. Bununla da müxtəlif ağırlıq dərəcəli nevrotik hallar izah olunur. Bu hallar insan orqanizmində əsas proseslərin

gedişatına mənfi təsir göstərir. Əsas nevrotik təzahürlər xəstənin şəxsiyyətinin xüsusiyyətləri ilə bağlıdır [3,4,5,7]. Xəstənin psixikasının vəziyyəti xəstəliyinin özünün dəyişməsinə uyğun olaraq dəyişir. Xəstənin psixikasının dəyişiklikləri həmçinin xəstənin əhatə edən mühit və xarici informasiya axını ilə fasiləsiz qarşılıqlı əlaqəsindən də asılıdır. Onlar insan psixikasına təsir göstərərək cavab reaksiyaların baş verməsinə səbəb olurlar [2,6,11,13,14,16]. Ona görə də reabilitasiya proqramında təkcə xəstəliyin klinik-bioloji xüsusiyyətlərini nəzərə almaq lazım deyil, həm də onlara təsir göstərmək lazımdır. Həmçinin insan şəxsiyyətinin xəstəliyə qədər və xəstəlik zamanı xüsusiyyətlərini. onu əhatə edən ətraf mühitin xassələrini, işdə, ailə daxilində və onu əhatə edən insanlar arasında qarşılıqlı münasibətləri də nəzərə almaq lazımdır. Bu məsələləri bildikdə fərdi yanaşmanı həyata keçirmək. düşünülməmiş və xəstənin travmaya məruz qalmasına səbəb olan hərəkətlərdən uzaq olmaq. tezliklə sağalmaya olan inamı möhkəmləndirmək. xəstənin əhval-ruhiyyəsinin qaldırmaq mümkündür. Nəzərə almaq lazımdır ki, müalicənin müvəfəqiyyəti xəstənin reaksiya xüsusiyyətləri ilə sıx bağlıdır: xəstəlik ilə mübarizə aparır- adekvat münasibət göstərir və ya onlara münasibət göstəmir, onu sıxışdırılb çıxarır- anozoqnoziya və ya ona tamamilə ram olur. onun quluna çevrilir. ona öyrəşir, onun üstünlüklərinin axtarır. onu həddindən artıq qorxunc hesab edir- hipernozoqnoziya (7.8.19).Öddaşı xəstəliyi və xora xəstəliyindən əziyyət çəkən yüksək komplayensli xəstələrin 10%-ə qədərində komplayens-strategiyanı işləyib hazırlamaq olar. Həmin strategiya antisekretor preparatları fərdi şəkildə seçməklə keyfiyyətli reabilitasiyanı nəzərə almqla onlarda sağalmaya olan motivasiyanı artırır. xəstələr əməliyyatdansonrakı dövrdə əlverişli gedişata ümud bəsləyirlər [1,6,9,12].

ƏDƏBIYYAT

1. Афендулов С.А., Журавлев Г.Ю., Смирнов А.Д. Стратегия хирургического лечения язвенной болезни // Хирургия, 2006, №5, с.26-30.

2. Алиев С.А. Сравнительная оценка методов резекции желудка по пер¬вому и второму способам Бильрота в лечении пилородуоденальных язв: автореф. дис.... канд. мед. наук, Л., 1988, 24 с

3. Барановский А.Ю. Реабилитация гастроэнетерологических больных в работе терапевта и семейного врача. СПб.. 2001.

4. Васин В.А. Восстановительное лечение и реабилитация в условиях лечебно-профилактических учреждений (организационные вопросы) // Здравоохранение, 2004., №9, с. 41-47

5. Велиев М.О. Особенности клинического течения и хирургического лечения язвенной болезни у лиц пожилого и старческого возраста: ав¬тореф. дис.... канд. мед. наук. М.. 1985, 23 с.

6.Жукова М.А. Эффективность лечения больных дуоденальными язвами СМТ-электрофорезом торфогрязи санатория «Ува» (Удмуртская Республика) в условиях дневного стационара: автореф. дис. ... канд. мед. наук, Ижевск, 2002, 12 с.

7.Кулиев Ш.Б., Ахундов И.Т., Омаров Г.И., Джамалов Ф.Г. Патогенетическое обоснование эндолимфатической антиоксидантной терапии (ЭАОТ) больных перитонитом // Cərrahiyyə, 2005, №1, s. 59-64

8.Линденбратен А.Л. Ресурсосберегающие технологии в деятельности амбулаторно-поликлинических учреждений // Здравоохранение, 2003, №11, с.35-38.

9. Лакосина Н.Д., О.Ф. Панкова Клиническая психология. М.: МЕДпрессинформ, 2003,416 с.

10.Мамедова Л.Д Медикаментозная коррекция острых желудочно-кишечных кровотечений язвенной этиологии / [и др.]// РМЖ. Болезни орга¬нов пищеварения. - 2004. - Т. 6. №2. - С. 72-74.

11. Майстренко Н.А., Мовчан К.Н. Хирургическое лечение язвы двенадцатиперстной кишки. СПб., 2000, 360 с.

12.Маев И.В., Аксельрод А.Г. Лечение язвенной болезни желудка и двенадцатиперстной кишки // Аптечный бизнес, 2007, №7, с.30-35.

13. Молчанова Л.Ф., Кудрина Е.А. Анализ экономической эффективности лечения яз¬венной болезни в стационарозамещающих условиях // Главврач, 2004, №9, с.31-32.

14.Павлов И.С. Психотерапия в практике. 3е издание. перераб. и доп. М.: ПЕР СЭ, 2006, с. 398-399.

15. Kurata J.H., Nogawa A.N., Noritahe D. NSAIDs increase risk of gastrointestinal bleeding in primary care patients with dyspepsia // J. Fam. Pract., 1997, v.45, p. 227-235.

16. Оноприев В.И. Дуоденопластика- новое направление в хирургическом лечении осложнённых дуоденальных язв / Сб. науч. Трудов. Дуоденопластика и селективная проксимальная ваготомия при осложнённых дуоденальных язвах. Краснодар, 1984, с. 6-19.

17. Lam S.K. Epidemiology and genetic of peptic ulcer // Gastroen-terology, 1993, v.28, №1 (Suppl. 5), p. 145-157.

18.Əliyev S.C., Əsgərova H.E. Peritonit zamanı bağırsaq mikroflorasında yaranan bəzi dəyişikliklərin patogenetik əsasları // Sağlamlıq, 2006, №7, s. 24-28

19.Hacıyev C.N., Tağıyev E.Q., Haciyev N.C. Peritonitlər zamanı orqanizmin ümumi detoksikasiyasının yeni üsulu / Prof. Ş.B.Quliyevin 75 illik yubileyinə həsr olunmuş elmi-təcrübi konf. materialları. Bakı, 2006, s. 88-89

20.Лаберко Л.А. Прогнозирование. ранняя диагностика и профилактика послеоперационных осложнений в комплексном лечении распространенного перитонита: Автореф. дисс… к.м.н. М., 2004, 46 с.

21.Малков И.С., Шаймарданов Р.Ш., Биряльцев В.Н., Тагиров М.Р. Новые подходы к лечению разлитого перитонита // Казанский медицинский журнал, 2003, Т. 84, № 6, с. 424-428

22.Лохачёв С.С. Оценка эффективности применения метода комбинированной постоперационной санации брюшной полости в комплексном лечении распространенного перитонита // Научно-медицинский вестник Центрального Черноземья, 2003, № 13, с. 56-58

23. Fadil A. et al. Les stenoses pyloro-duodenales d'origine ulcereuse a propos de 260 cas // J. Chir. Paris, 1992, v.129. №1, p.27-30.

24.Sawyers J.L. Acute Perforated duodenal ulcer // Arch. Surg., 1975, v.110. №5, p. 39-41

Резюме

Реабилитация больных с перитонитами различной этиологиия как медицинская,экономическая и социальная проблема

Л.Б.Ахвердиева

Среди медико-социальных проблем современного здравоохранения реабилитации отводится особо важная роль. Это обусловлено тем, что реабилитация представляет собой систему мероприятий государственной значимости, от действенности выполнения которых, в определённой степени, зависит результирующая эффективность решения широкого диапазона лечебнопрофилактических проблем клинической медицины. Под реабилитацией принято понимать систему медицинских, социально-экономических, гуманистических и ряд других мероприятий, направленных на предупреждение развития патологических процессов, приводящих к временной или стойкой утрате трудоспособности, на эффективное и раннее возвращение больных и инвалидов в общество и к общественно-полезному труду. В статье анализирован материалы, касающиеся этой проблме.

Summary

Rehabilitation of patients with peritonitis of different etiology as medical , economic and social problem

L.B.Ahverdieva

Of medical and social problems of modern health care rehabilitation is given a particularly important role. This is due to the fact that rehabilitation is a system of events of national importance , effectiveness of implementation which , to a certain extent , depends on the efficiency of the resulting solutions lechebnoprofilakticheskih wide range of problems of clinical medicine . Under the rehabilitation system is commonly understood medical, socio-economic, humanitarian and a number of other measures aimed at preventing the development of pathological processes that lead to temporary or permanent disability , the efficient and early return of sick and disabled people in society and socially useful work . In the article we analyzed materials concerning this problme.

Daxil olub:09.10.2013

TEZ-TEZ XƏSTƏLƏNƏN UŞAQLARDA RESPİRATOR XƏSTƏLİKLƏRİN GEDİŞİNƏ TƏSİR EDƏN ƏSAS PATOGENETİK MEXANİZMLƏR VƏ ONLARIN KORREKSİYASI

M.K.Kərimova

Azərbaycan Tibb Universiteti, II uşaq xəstəlikləri kafedrası, Bakı

Açar sözlər: tez-tez xəstələnən uşaqlar, respirator xəstəliklər, immun sistemi, immunmodulyator

Ключевые слова: частоболеющие дети, респираторные заболевания, иммунная система, иммуномодулятор
Key words: frequently ill children, respiratory diseases, immune system, immunomodulator

Tənəffüs sistemi xəstəlikləri uşaq yaşlarında xəstələnmə və ölüm strukturunda mühüm yerlərdən birini tutur. Uzun illər bu patologiyaya dair bir çox tədqiqat işlərinin aparılmasına baxmayaraq, bugünkü gün də respirator xəstəliklərin ağırlaşması, təkrarlanması, uzun sürməsi və xronikləşməsi hallarına çox təsadüf edilir [1-16].

İmmun sistemi zəif olan uşaqlarda respirator xəstəliklərin özünəməxsus gedişi olur. Bunlar o uşaqlardır ki, yaşıdları ilə müqayisədə ildə 4-6 dəfədən artıq KRVİ ilə yoluxurlar və «tez-tez xəstələnən uşaqlar-TXU» qrupunu əmələ gətirirlər[13-16].

İşin məqsədi. Tez-tez xəstələnən uşaqlarda respirator xəstəliklərin gedişinə təsir edən patogenetik mexanizmləri aşkar etmək və onların korreksiyasını aparmaq, eləcə də ikincili immundefisit vəziyyətləri proqnozlaşdırmaq işin əsas məqsədini təşkil etmişdir.

Material və müayinə metodları. 6 aylıqdan 6 yaşa qədər 340 TXU (il ərzində 4 dəfədən artıq KRX-lə xəstələnən uşaqlar) və müqayisə qrupu kimi 125 NXU (il ərzində 3 dəfəyə qədər KRX-lə xəstələnən – nadir xəstələnən uşaqlar) tədqiq olunmuşdur .Analoji yaşda olan 30 praktik sağlam uşaq nəzarət qrupunu təşkil etmişdir.Xəstələr xəstəliyin həm kəskinləşmə, həm də klinik remissiya dövrlərində müayinə olunmuşlar.

Xəstələrin 16,2%-də TXU-da fəsadlaşmayan KRVİ, 21,8%-də kəskin bronxit, 10,6%-də kəskin pnevmoniya, 51,5%-də residivləşən bronxit qeyd edilmişdir. Kəskin pnevmoniya 33%-də fəsadsız, 67%-də müxtəlif fəsadlarla müşayiət olunmuşdur. TXU qrupunun xəstələrinin çox qismində fon xəstəlikləri və yanaşı xəstəliklər aşkar edilmişdir. 230 uşaqda (67,6%) disbakterioz halları aşkar edilmişdir. 205 (60,2%) uşaqda yuxarı tənəffüs yollarında disbioz aşkar edilmişdir.

Belə ki, 195 (57,4%) uşaqda bakterioloji müayinə nəticəsində əsnəkdən yaxmada Staphylococcus aureus, 102 (30,0%) uşaqda Staphylococcus epidermitis, 85 uşaqda (25,0%) streptokokk, 64 uşaqda (18,8%) Haemaphilus influenza, 64 uşaqda (18,8%) klebsiella, 170 uşaqda (50,0%) Candida albicans müəyyən edilmişdir. PZR vasitəsilə 53 uşaqda (15,6%) Chlamydiya pneumoniae, 33 uşaqda (9,7%) Chlamydia traxomatis, 54 uşaqda (15,9%) Mycoplasma pneumoniae, 18 uşaqda (5,3%) sitomeqalovirus aşkar edilmişdir.65% halda mono-, 35% halda isə mix-infeksiya aşkar edilmişdir, o cümlədən 18% halda 3-dən artıq mix-infeksiya müəyyən edilmişdir.

TXU qrupunda 177 uşaqda (52,1%) LOR-orqanı xəstəlikləri (otit, adenoidit, xronik tonzillit, sinusit) qeyd edilmişdir. NXU-da LOR-orqanı patologiyası 20% halda aşkar edilmişdir.145 uşaqda (42,6%) eyni vaxtda bir neçə fon və ya yanaşı xəstəlik müşahidə edilmişdir.

TXU meyarı kimi ÜST (1980) və A.A.Baranov, Y.Y.Albitski (1986) meyarlarına istinad edilmişdir [13].

Xəstəlik əsasən payız-qış və qış-yaz aylarında baş vermişdir. İmmunoloji göstəricilər – CD3, CD4, CD8, CD19 hüceyrələrinin miqdarı axarlı sitometriya metodu, zərdab immunqlobulinləri A, G, M-in konsentrasiyası- G. Manchininin radial immundiffuziya metodu (1968), qan zərdabında IgE-nin səviyyəsi immunferment analiz (İFA) metodu ilə təyin edilmişdir.IL-1β, IL-2, IL-6, IL-8 və ŞNF-α sitokinlərin səviyyəsi «İMMULİTE» avtomatik analizatoru vasitəsilə immunohemilüminissent metodu (ABŞ), İFN-γ-un səviyyəsi isə immunferment analiz metodu ilə yoxlanılmışdır.Neyropeptid – P substansiyası PENİNSULA LABORATORİES İNC. (ABŞ) firmasından əldə edilən reaktivlərlə «Stat Fax» analizatorlarla, immunferment metodu ilə təyin edilmişdir. Hemostaz sistemi tromboelastoqrafiya, xlamidiya, mikoplazma və sitomeqalovirus infeksiyasıyaları PZR, yuxarı tənəffüs yollarının mikrobiosinozu və bağırsaq mikroflorasının vəziyyəti bakterioloji metodlarından istifadə edilərək qiymətləndirilmişdir.HLA-antigenləri standart mikrolimfositotoksik testdə 120 mono- və dispesifik HLA antizərdab panellərində təyin edilmişdir. Panelin əsasını Sankt-Peterburq toxumaların immunoloji tipləşdirilməsi respublika mərkəzinin zərdabları («Biotest Serum» firması) təşkil etmişdir.

Tədqiqatın gedişində alınmış bütün rəqəm göstəriciləri müasir tövsiyələr nəzərə alınmaqla statistik təhlil olunmuşdur. Statistik analizin ilkin mərhələsində parametrik üsullardan istifadə edilmişdir (t-Stüdent). Sonradan qruplardakı göstəricilərin sayını nəzərə alaraq, azsaylı alınmış nəticələri dəqiqləşdirmək məqsədilə qeyri-parametrik üsullar (U-Uilkokson (Manna-Uitni)) tətbiq edilmişdir.

Keyfiyyət analizi aparmaq üçün χ^2 – meyarından (Pirsonun uyğunluq meyarı) istifadə olunmuşdur. Müayinə qruplarında müxtəlif göstəricilər arasında asılılığı aşkar etmək üçün korrelyasiya analizi (Z-Fişer çevirməsi ilə) aparılmışdır.

Tədqiqatın nəticələri və onların müzakirəsi. Aparılan tədqiqalat nəticəsində aşkar edilmişdir ki, tez-tez xəstələnən uşaqlarda istər immun sistem, istərsə də onunla əlaqədə olan digər sistemlərdə dəyişikliklər müşahidə edilir. Qeyd edilən dəyişikliklər xəstəliyin nozoloji formasından asılı olaraq müxtəlif olmuşdur [1-12].

Belə ki,fəsadlaşmayan KRVI zamanı bu dəyişikliklər bir o qədər də qabarıq olmamışdır. Kəskin bronxit zamanı əsasən obstruksiyalı uşaqlar fərqlənmişlər (II qrup). Qabarıq dəyişikliklər əsasən II qrupun uşaqlarında aşkar edilmişdir.

Belə ki, CD3-hüceyrələr I qrupda (kəskin sadə bronxitdə) 42,0±1,2%, II qrupda 36,2±1,8%($p<0,001$), (NXU-da 46,0±2,2%, sağlam uşaqlarda 52,0±2,6%), CD4-hüceyrələr I və II qrupda müvafiq olaraq 24,0±1,6% və 18,0±1,4% olmuşdur ($p<0,001$). NXU-da CD4-hüceyrələr 28,7±1,2% ($p<0,01$), sağlam uşaqlarda 33,5±1,2% qeyd olunmuşdur. CD8-hüceyrələrin miqdarına gəldikdə isə I qrupda 18,0±0,5%, II qrupda 18,2±0,8% olmuşdur. NXU-da bu göstərici 17,3±0,3%, sağlam uşaqlarda 18,5±0,5%-dir. Həm I, həm də II qrupda xəstəliyin kəskin dövründə hüceyrə immuniteti göstəricilərinin (əsasən CD3, CD4-hüceyrələrin) azalması müşahidə edilmişdir. Həm sağlam, həm də NXU ilə müqayisədə TXU-nun hər 2 qrupunda hüceyrə immuniteti göstəricilərinin azalması nəzərə çarpsa da, bu azalma II qrupda daha çox müşahidə edilmişdir.Bu özünü immunrequlyator hüceyrələrin əmsalında da büruzə vermişdir.

Humoral immunitetin tədqiqi zamanı da qabarıq dəyişikliklər əsasən II qrupda müşahidə edilmişdir.TXU-da xəstəliyin kəskin dövründə hər iki qrupda B-limfositlərin əsasən bir qədər azalması, IgA, IgG-nin konsentrasiyasının azalması, IgM və IgE-nin konsentrasiyasının isə artması müşahidə edilmişdir.Hüceyrə immunitetində olduğu kimi, humoral immunitet göstəricilərində olan dəyişikliklər də əsasən ağır gedişli II qrupda nəzərə çarpmışdır.

Sitokin statusda baş verən dəyişikliklərə görə II qrupda olan TXU daha çox fərqlənmişlər. Onlarda iltihab sitokinləri olan, IL-1β, ŞNFα ,IL-6,IL-8-nin səviyyəsinin artması, IL-2 və IFN-γ-nın isə azalması aşkar edilmişdir.

Dinamikada immun və sitokin statusun öyrənilməsi zamanı da maraqlı nəticələr əldə edilmişdir. Kəskin sadə bronxitli uşaqlarda klinik remissiya zamanı immun və sitokin göstəriciləri NXU-nun göstəricilərinə yaxın olmuşdur. Kəskin obstruktiv bronxitli TXU zamanı isə nə immun, nə də sitokin statusda tam normallaşma qeydə alınmamışdır. İltihab sitokinlərinin klinik remissiya zamanı da yüksək qalması II qrupda iltihabın daha çox saxlanılması və infeksion amilin persistə etməsini göstərir.

TXU-nun 175 (51,4%) nəfərində residivləşən bronxit qeydə alınmışdır. Onlardan 78 (44,5%)-də residivləşən bronxitin qeyri-obstruktiv forması (I qrup), 97 (55,5%)-də isə obstruktiv forma (II qrup) müşahidə edilmişdir. Residivləşən bronxitli uşaqların xəstəliyin kəskin və klinik remissiya dövlərində həm hüceyrə və humoral immunitet göstəriciləri, həm də sitokin statusunda müəyyən dəyişikliklər aşkar edilmişdir. Belə ki, kəskin dövrdə CD3-hüceyrələr I qrupda 40,0±1,2%, II qrupda 34,2±1,8% ($p<0,001$), CD4-hüceyrələr I və II qrupda müvafiq olaraq 20,0±1,6% və 16,0±1,4% olmuşdur ($p<0,001$). CD8-hüceyrələrin miqdarına gəldikdə isə I qrupda 20,0±0,5% ($p<0,05$), II qrupda 18,2±0,8% olmuşdur. CD4⁄CD8 əmsalı I qrupda 1,01±0,02, II qrupda 0,80±0,01 olmuşdur ($p<0,001$). Hüceyrə immuniteti tərəfdən CD3, CD4 hüceyrələrin, eləcə də immunrequlyator əmsalın – CD4/ CD8 azalması nəzərə çarpır. Bu dəyişikliklər əsasən obstruktiv formalı residivləşən bronxitli uşaqlarda özünü göstərmişdir. CD8-hüceyrələr hər iki qrupda bir qədər azalmışdır.

CD19-hüceyrələrin miqdarı II qrupda 10,5±0,5%, I qrupda 10,8±0,5% ($p<0,001$), IgA-nın səviyyəsi II qrupda 0,22±0,01q/l, I qrupda 0,35±0,02q/l ($p<0,001$), NXU-da 0,50±0,02q/l ($p<0,01$), sağlam uşaqlarda 0,62±0,03q/l olmuşdur. IgG-nin qan zərdabında konsentrasiyasına gəldikdə isə II və I qrupda bu immunoqlobulinin konsentrasiyası müvafiq olaraq 7,6±0,4q/l və 9,5±0,5q/l-ə qədər azalmışdır ($p<0,001$) (NXU-da bu göstərici 10,8±0,7q/l, sağlam uşaqlarda – 12,4±0,6q/l olmuşdur). Humoral immunitetin digər göstəricisi olan və infeksion agentin olmasını sübut edən IgM-in konsentrasiyası xəstəliyin kəskin dövründə artaraq II qrupda 1,73±0,05q/l, I qrupda 1,45±0,06q/l olmuşdur ($p<0,001$). NXU-da bu göstərici 1,20±0,02q/l ($p<0,001$), sağlam uşaqlarda 0,90±0,03q/l -ə bərabər olmuşdur. Bu uşaqlarda, xüsusilə obstruktiv forma zamanı IgE-nin yüksəlməsi nəzərə çarpmışdır. Belə ki, qeyri-obstruktiv forma zamanı ümumi IgE-nin səviyyəsi 54,0±3,8 BV/ml,

obstruktiv forma zamanı 436,2±12,0 BV/ml (p<0,001) olmuşdur. Sağlam uşaqlarda ümumi IgE-nin qan zərdabında konsentrasiyası 23,5±0,8 BV/ml, NXU-da 24,8±0,8q/l olmuşdur. Hüceyrə immunitetində olduğu kimi, humoral immunitet göstəricilərində olan dəyişikliklər də əsasən ağır gedişli II qrupda nəzərə çarpmışdır.

Sitokin statusun öyrənilməsi zamanı hər iki qrupda iltihab sitokinlərinin həm sağlam, həm də NXU-ya nisbətən xəstəliyin kəskin dövründə yüksəlməsi müşahidə edilmişdir. Belə ki, IL-1β I qrupda 133,9±5,8 pq /ml, II qrupda – 165,0±7,4pq/ml, ŞNFα I qrupda 152,7±8,5 pq/ml, II qrupda 197,8±9,0 pq/ml, IL-6 I və II qrupda müvafiq olaraq 16,2±2,1 və 20,4±2,2 pq/ml, IL-8 isə 82,3±2,3 və 105,6±4,4 pq/ml olmuşdur (p<0,001). IL-2 xəstəliyin kəskin dövründə I qrupda 159,9±3,6 U/ml, II qrupda 112,0±4,2 U/ml (p<0,001) müəyyən edilmişdir.Qeyd edək ki, sağlam uşaqlarda bu göstərici 292,0±9,8 U/ml, NXU-da xəstəliyin kəskin dövründə 223,8±12,7 U/ml qeydə alınmışdır. IFN-γ həm xəstəliyin kəskin dövründə I və II qruplarda müvafiq olaraq 42,0±1,9 və 30,2±1,2 pq/ml olmuşdur (p<0,001).

Göründüyü kimi, iltihab sitokinləri olan IL-1β, IL-6, IL-8, ŞNF-α-nın səviyyəsi həm qeyri-obstruktiv, həm də obstruktiv formalı residivləşən bronxitin kəskin dövründə həm NXU, həm də sağlam uşaqlarla müqayisədə yüksəlmiş olur. Lakin xəstəliyin obstruktiv forması zamanı bu göstəricilər qeyri-obstruktiv formadan daha yüksək olmuşdur. Hüceyrə immunitetinin göstəricilərindən olan IL-2-nin xəstəliyin kəskin dövründə azalması bu uşaqlarda əsasən obstruktiv forma zamanı müşahidə edilmişdir. Eyni istiqamət hüceyrə immunitetinin digər göstəricisi və virus əleyhinə immunitetdə mühüm rol oynayan IFN-γ –nın səviyyəsində də özünü göstərmişdir.

Xəstəliyin klinik remissiya zamanında immun və sitokin statusda olan dəyişikliklər hər iki formada saxlanmışdır. Belə ki, həm obstruktiv, həm də qeyri-obstruktiv residivləşən bronxit zamanı xəstəliyin kəskin dövründə müşahidə edilən dəyişikliklər klinik remissiya zamanı normallaşmamışdır. İmmun sistemdə olan disbalans, eləcə də iltihab sitokinlərinin klinik remissiya dövründə də saxlanması bu uşaqlarda adaptasion imkanların daha zəif olması, persistə edən infeksiyaların bu uşaqlarda daha çox təsadüf etməsi, iltihabın uzun müddət saxlanmasını sübut edir.

Bizim müşahidəmiz altında kəskin pnevmoniyalı 36 TXU olmuşdur.Kəskin pnevmoniyanın fəsadsız forması ilə 12 xəstə olmuşdur. Bu uşaqlarda kəskin dövrdə CD3 hüceyrələr- 40,2±1,4%, CD4-hüceyrələr- 20,0±1,2%, CD8 –hüceyrələr-20,0±0,8%, immunrequlyator əmsal isə 1,00±0,02 olmuşdur (p<0,001). Göründüyü kimi, bu göstəricilər həm sağlam, həm də NXU-dan fərqlənmişdir. Humoral immunitet göstəricilərinə gəldikdə, sağlam və NXU ilə müqayisədə fəsadsız kəskin pnevmoniya zamanı CD19-hüceyrələrin bir qədər azalması, IgA və IgG-nin kəskin azalması, IgM-in isə normal və ya bir qədər artması aşkar edilmişdir (p<0,001). Sitokin statusun öyrənilməsi zamanı aşağıdakı mənzərə alınmışdır: IL-1β- 148,4±9,6 pq/ml; ŞNFα -162,3±10,0 pq/ml; IL-6 - 16,2±1,0 pq/ml; IL-8 isə 92,0±3,4 pq/ml (p<0,001). IL-2 xəstəliyin kəskin dövründə 124,6±6,8 U/ml (p<0,001) olmuşdur. IFN-γ həm xəstəliyin kəskin dövründə bu uşaqlarda 32,4±2,4 pq/ml olmuşdur (p<0,001). Göründüyü kimi, sitokin statusun müayinəsi zamanı xəstəliyin kəskin dövründə iltihab sitokinlərinin artması, hüceyrə immunitetinin göstəricilərindən olan IL-2 və IFN-γ azalması nəzərə çarpmışdır.

Xəstəliyin klinik remissiya zamanı bu uşaqların immun və sitokin statusunun göstəriciləri kompleks müalicə nəticəsində bir qədər düzəlsə də, lakin tam normallaşma qeyd olunmamışdır. Belə ki, TXU-da kəskin pnevmoniyanın hətta fəsadsız forması zamanı belə, klinik remissiya zamanı immun və sitokin göstəriciləri həm sağlam, həm də NXU-dan fərqlənmişdir.

TXU qrupunda 24 uşaqda kəskin pnevmoniya fəsadla müşayiət olunmuşdur. 9 xəstədə kardiorespirator sindrom, 10-da obstruktiv sindrom, 5 xəstədə toksik təzahürlər müşahidə edilmişdir.

Fəsadlaşmış kəskin pnevmoniyalı TXU zamanı da əsasən hüceyrə immunitetinin azalması müşahidə edilir və bu özünü daha çox CD3-hüceyrələr, CD4-hüceyrələr və CD4/CD8 əmsalının göstəricilərində büruzə vermişdir. Belə ki, CD3-hüceyrələr 36,2±0,8% (p<0,001), CD4-hüceyrələr 18,0±1,4% olmuşdur (p<0,001), CD8-hüceyrələrin miqdarına gəldikdə isə 18,2±0,8% olmuşdur (p<0,001) .Hüceyrə immunitetinin azalması özünü immunrequlyator hüceyrələrin əmsalında da büruzə vermişdir. Belə ki, CD4/CD8 əmsalı fəsadlaşmış gediş zamanı 0,80±02 olmuşdur. Humoral immunitetin tədqiqi zamanı da qabarıq dəyişikliklər əsasən fəsadlı gediş zamanı müşahidə edilmişdir. Onlarda xüsusilə, IgA-nın səviyyəsinin azalması, IgM-in isə daha çox artması müəyyən edilmişdir. Bu xəstələrdə eləcə də 43% halda ümumi IgE-nin konsentrasiyasının yüksəlməsi müşahidə edilmişdir (p<0,001). Görünür ki, IgE-nin yüksəlməsi bu uşaqlarda allergiyaya meylliyin və opportunist infeksiyaların olması ilə əlaqədardır.

Sitokin statusuna nəzər saldıqda, bu uşaqlarda xəstəliyin kəskin dövründə IL-1β – 160,8±7,8 pq/ml,

IL-2- 100,0±5,0 U/ml, ŞNFα- 195,5±10,4 pq/ml, IL-6 – 24,6±1,8 pq/ml, IL-8- 118,4±5,5 pq/ml, IFNγ- 28,0±1,8 pq/ml olmuşdur ($p<0,001$). Göründüyü kimi, fəsadlı pnevmoniya zamanı da xəstəliyin kəskin dövründə iltihab sitokinləri yüksəlmiş olur və bu artım fəsadsız xəstələrin göstəricilərindən daha yüksək nəzərə çarpmışdır. Hüceyrə immunitetinin göstəricilərindən olan IL-2 və IFN-γ-nın səviyyəsi də kəskin dövrdə bu uşaqlarda fəsadsız xəstələrdən daha aşağı olmuşdur. Bu, görünür ki, TXU-da kəskin pnevmoniyanın fəsadlı gedişi zamanı intoksikasiya və tənəffüs çatışmazlığının güclü olması, bir neçə fon və yanaşı xəstəliyin olması, opportunist və şərti-patogen infeksiyaların çoxluğu,xüsusilə mix-infeksiyaların olması, disbakterioz və helmintoz-parazitozların yüksək tezliyi və s. amillərlə əlaqədardır.

Xəstəliyin klinik remissiya zamanı nə fəsadsız, nə də fəsadlaşmış kəskin pnevmoniya zamanı immun və sitokin statusda kəskin dövrdə baş verən dəyişikliklər tam normallaşmamışdır. Qeyd edilən dəyişikliklər daha çox xəstəliyin fəsadlı gedişi zamanı saxlanılmışdır.

Beləliklə, TXU-da respirator xəstəliklər zamanı xəstəliyin kəskin dövründə immun sistemdə, o cümlədən sitokin statusda dəyişikliklər baş verir.Bu dəyişikliklər obstruksiya ilə müşayiət olunan bronxitlər, xüsusilə residivləşən obstruktiv bronxit və kəskin pnevmoniyanın fəsadlaşmış gedişi zamanı daha qabarıq nəzərə çarpmışdır. Bu zaman IL-1β, ŞNF-α, IL-6 və IL-8 kimi iltihab sitokinlərinin artması, hüceyrə immunitetinin əsas göstəricilərindən olan IL-2 və IFN-γ-nın kəskin azalması müşahidə edilir. İltihab sitokinləri olan IL-1β, ŞNF-α, IL-6 və IL-8-in bizim müşahidə etdiyimiz xəstələrdə xəstəliyin kəskin dövründə artması fikrimizcə, təbiidir. Çünki bu xəstəliklər iltihabi xəstəliklərdir [17].

Bizim xəstələrimizdə IL-2 və IFN-γ-nın səviyyəsinin azalmasını isə fikrimizcə, TXU zamanı əsasən hüceyrə immunitetinin çatışmazlığı ilə əlaqədardır. Həm virusların, həm də xlamidiya, mikoplazma, sitomeqalovirus kimi opportunist infeksiyaların, eləcə də bizim tədqiq etdiyimiz TXU-da Candida albicans göbələklərinin yüksək tezlikdə rast gəlinməsi, bunların hamısının hüceyrədaxili törədici olması hüceyrə immunitetinin daha çox zədələnməsinə səbəb olmuşdur[5,9]. Digər tərəfdən baxmayaraq ki, stafilokokk infeksiyası özü hüceyrəxarici törədicidir, lakin o eyni zamanda son məlumatlara əsasən antiinterferon, antilizosim, antikomplement kimi maddələr ifraz edir və bu maddələrin də hüceyrə immunitetinin azalmasında rol oynaması məntiqəuyğundur [18-20].

Bizim xəstələrimizdə Stafilokokk infeksiyasının, xüsusilə Staphylococcus aureusun yüksək faizdə müşahidə edilmişdir.Bizim tədqiq etdiyimiz xəstələrdə əsasən hüceyrə immunitetinin azalmasını bu uşaqlarda eyni zamanda CD3, CD4- hüceyrələrin, CD4/CD8 əmsalının azalması da bir daha sübut edir. Tənəffüs sistemi xəstəlikləri olduğu üçün IgA və IgG-nin azalması da TXU-da fikrimizcə gözlənilən nəticədir. TXU zamanı respirator xəstəliklər zamanı IgM-in artmasını isə bizim uşaqlarda infeksion amilin persistə etməsi, daha dəqiq desək, iltihabi prosesin belə uşaqlarda saxlanılması ilə əlaqədardır. IgE-nin TXU zamanı yüksək səviyyəsi əsasən bronxoobstruksiyalı uşaqlarda müşahidə edilmişdir, fikrimiczə bu, gələcəkdə belə uşaqlarda bronxial astmanın əmələgəlmə riskini artırır. İmmun və sitokin statusda baş verən dəyişikliklər dəyişikliklər xəstəliklərin nozoloji formalarından asılı olaraq müxtəlif olması, obstruksiya ilə müşayiət olunan hallarda, xüsusilə residivləşən bronxit və eləcə də kəskin pnevmoniyanın fəsadlaşmış gedişi zamanı daha qabarıq dəyişikliklər müşahidə edilməsi bizim fikrimizcə, həmin xəstələrdə digər amillərlə yanaşı opportunist və şərti-patogen infeksiyaların daha yüksək tezlikdə rast gəlinməsi ilə əlaqədardır. Çünki məhz persistə etməyə meylli olan bu infeksiyaların nəticəsində TXU-da respirator xəstəliklər zamanı xəstəliyin kəskin dövründə müşahidə edilən immunoloji dəyişikliklərin klinik remissiya zamanı da tam normallaşmaması qeyd olunmuşdur[5,9]. Əsasən bu uşaqlar immundefisitli uşaqlar qrupununa daxil olmuş və onların daha çox immunmodulyatorlara ehtiyacı olmuşdur.

Qeyd etmək istərdik ki, həm TXU, həm də NXU zamanı immun sistem göstəriciləri və P substansiyasının səviyyəsində olduğu kimi, hemostaz sistemi göstəricilərində də dəyişikliklər müəyyən edilmişdir[4]. Belə ki, həm TXU, həm də NXU zamanı xəstəliyin kəskin dövründə R və K müddətinin azalması, mA və E-nin isə yüksəlməsi müşahidə olunmuşdur. Bu hal TXU zamanı daha qabarıq nəzərə çarpmış və xəstəliyin nozoloji formalarından asılı olaraq müxtəlif səviyyədə təzahür etmişdir.

Biz orqanizmin bu 3 mühüm sistemi arasındadk qarşılıqlı əlaqəni TXU-da aşkar etmək üçün onların göstəriciləri arasında korrelyasiyanı araşdırdıq. Araşdırma nəticəsində məlum oldu ki, bu sistemlər arasında sıx korrelyasion əlaqə mövcuddur[4]. Ən yüksək korrelyasion əlaqə IL-1β-nın səviyyəsi ilə P substansiyasının səviyyəsi arasında aşkar edilmişdir ($r=+0,64$). Bu da fikrimizcə,

təbiidir. Çünki makrofaqlardan ifraz olunan IL-1β iltihab sitokini kimi yerli və ümumi iltihab reaksiyalarında rol oynayır [17]. Sitokinlərin hemostaz sistemi ilə korrelyasion əlaqəsini araşdırarkən məlum oldu ki, ən yüksək müsbət korrelyasion əlaqə IL-6-nın səviyyəsi ilə fibrinogenin konsentrasiyası arasında müşahidə edilir (IL-6 – E arasında r = +0,67). Fikrimizcə, bunu belə izah etmək olar: məlumdur ki, iltihab sitokinləri hepatositlərə tropdur [17]. CD4-hüceyrələr, IL-2 və IFN-γ-nın səviyyəsi ilə hemostaz sistemi göstəriciləri arasına sıx mənfi korrelyasion əlaqə aşkar edilmişdir. Biz əvvəlki eimi araşdırmalarımızda aşkar etmişdik ki, respirator xəstəliklər zamanı immun sistemlə hemostaz sistemi arasında sıx qarşılıqlı əlaqə mövcuddur[1].Bu əlaqələr immunkompetent hüceyrələr, immun komplekslər və komplement sistemi vasitəsilə həyata keçir Biz bu araşdırmalarımızda sübut etmişdik ki, respirator xəstəliklər zamanı immunkompetent hüceyrələr (xüsusilə, T-helperlər) nə qədər aşağıdırsa, qanın laxtalanma qabiliyyəti də bir o qədər artmağa meylli olur. Bunun nəzəri izahını isə «hemostazın tənziminin immun mexanizmi» nə əsasən göstərmişdik [21].Bizim fikrimizcə, hazırkı tədqiqatımızda CD4 –hüceyrələrin və onlardan hasil olan IL-2 və IFN-γ sitokinlərinin azalmasının səbəblərindən biri də məhz bu mexanizmlə izah oluna bilər.

P substansiyası ilə hemostaz göstəriciləri arasında da sıx müsbət korrelyasion əlaqələr müəyyən edilmişdir. P substansiyasının səviyyəsi ilə hemostaz sisteminin 4 göstəricilərinin hər biri ilə korrelyasiya müəyyən edilmişdir. Yəni, P substansiyasının istər xəstəliyin kəskin, istərsə də klinik remissiya dövrlərində yüksək səviyyəsi qanın laxtalanma qabiliyyətinin artması ilə korrelyasiya aşkar olunmuşdur. Fikrimizcə, P substansiyası ilə hemostaz sisteminin qarşılıqlı əlaqəsi onların immun sistem, o cümlədən sitokinlərlə qarşılıqlı əlaqəsi vasitəsilə reallaşır.Başqa sözlə, P substansiyası əsasən IL-1β, CD4-hüceyrələr, IL-2 və IFN-γ ilə qarşılıqlı əlaqəyə girərək, dolayısı ilə hemostaz sistemi ilə də əlaqəyə girmiş olur. Beləliklə, məlum olur ki, respirator xəstəliklərinin patogenezində mühüm rol oynayan immun sistem ayrılıqda deyil, digər vacib sistemlərlə, o cümlədən sinir və hemostaz sistemi ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir. TXU-da respirator xəstəliklərin ağırlığı, fəsadlaşması, uzun srməsi, residivləşməsi və xronik hala keçməsində immun sistemlə yanaşı sinir və hemostaz sisteminin də böyük rolu vardır. [3,4,11].

Tez-tez xəstələnmənin uşaqların immungenetik aspektləri tədqiq etdikdə, müəyyən edik ki, əsasən B7 antigeninə mənsub olan uşaqlarda CD3 və əsasən də CD4-hüceyrələrin daha çox azalması nəzərə çarpmışdır. Başqa sözlə, CD4 hüceyrələrin əhəmiyyətli dərəcədə azalması B7 antigeninin rastgəlmə tezliyi ilə korrelyasiya olunmuşdur. Buradan belə nəticə çıxarmaq olar ki, TXU-da ikincili immundefisit vəziyyətinin yaranmasına risk əsasən B7-antigeninə mənsub olan uşaqlar arasında daha yüksəkdir[12].

TXU-nun 67,6%-də bağırsaq disfunksiyası qeydə alınmışdır[10]. Bağırsaq disbiozu müayinə edilən xəstələrdə bifido- və laktobakteriyaların əhəmiyyətli dərəcədə azalması, qram mənfi (klebsiella, protey,psevdomonas aeruginoza, e.Coli-nin hemolitik və laktozoneqativ ştammları) və qram müsbət (klostridiya, stafilokokkus aureus) şərti-patogen bakteriyaların aşkar edilməsi, bəzən onların assosiasiyası, eləcə də Candida cinsindən olan göbələklərin tapılması kimi təzahür etmişdir. TXU bağırsaq mikroflorasında həm obliqat, həm də fakultativ mikroorqanizmlərin miqdarına görə NXU-dan fərqlənmişdir.

Yuxarı tənəffüs yollarının mikrobiotunda TXU zamanı əksər hallarda Staphylococcus aureus aşkar edilmişdir. Bunların isə yüksək patogen və persistəetmək potensialı vardır. Müəyyən olunmuşdur ki, immun sistemin hələ tam formalaşmadığı uşaq orqanizmində, xüsusilə erkən yaşda şərti-patogen mikroflora belə, asanlıqla patogenə çevrilə bilər. Sübut olunmuşdur ki, uşaq yaşlarında respirator virus infeksiyaları şərti-patogen və ya persistə edən, latent infeksiyanı (ola bilsin ki,antenatal mənşəli) aktivləşdirmək qabiliyyətinə malikdir. Müəyyən olunmuşdur ki, tənəffüs yollarında kolonizasiya edən stafilokokkların rezidentlik xüsusiyyətləri nəticəsində yerli immunitet zəifləyir, nəticədə digər törədicilərin kolonizasiyası üçün əlverişli şərait yaranır. Stafilokokk sahib orqanizmi tərəfindən sintez olunan lizosimi, interferonu, immunoqlobulinləri, komplementi və bir çox başqa faktorları inaktivləşdirmək qabiliyyətinə malikdir [18-20]. Digər persistə edən infeksiyaların (xlamidiya, mikoplazma və s.) da belə bir qabiliyyətə malik olduqlarını düşünmək olar. Bəzi alimlər stafilikokkun uzun müddət insan orqanizmində qalmasını oxşar adaptiv mexanizmlərlə izah edirlər. Stafilokokk infeksiyasının yüksək kontagiozluğunu və ona qarşı əhali arasında yüksək həssaslığı nəzərə alsaq, bu infeksiyanın nə dərəcədə əhəmiyyət kəsb etdiyini anlamaq çətin deyil.

Biz tədqiq etdiyimiz xəstələrə immunomodulyator kimi kipferon(45 xəstədə) və imunofan(42 xəstədə) istifadə etmişik [6,8,22].

TXU-da hüceyrə immuniteti ilə yanaşı humoral immunitetdə də əhəmiyyətli dəyişikliklər müşahidə edildiyi, yuxarı tənəffüs yolları və bağırsaq disbiozu daha qabarıq olduğu hallarda immunmodulyator kimi, kipferon istifadə edilmişdir.Kipferonun 1 yaşa qədər uşaqlara gündə 1 dəfə 1 suppozitorium, 1-3 yaşda 1 suppozitoriumdam gündə 2 dəfə, 3 yaşdan böyük uşaqlara 1 suppozitoriumdan gündə 3 dəfə, 10 gün müddətinə təyini məsləhətdir. Təkrar kurs 2 həftədən sonra tətbiq edilmişdir.

TXU-da ikincili immundefisit vəziyyəti daha ağır olduğu hallarda və bu, əsasən hüceyrə immunitetinin çatışmazlığı hesabına baş verdikdə, opportunist infeksiyalar daha yüksək tezlikdə rast gəldikdə və şərti-patogen mikroflora ilə assosiasiyası olduqda (mix-infeksiya), o hallarda immunmodulyator imunofanın tətbiqi daha məqsədəuyğun olmuşdur.Umunofan hər kq cəkiyə 1 mkq dozada əzələyə 5 inyeksiya günaşırı, sonra isə həftədə 1 dəfə, 5 həftə müddətinə təyin edilmışdir.

Kompleks müalicə ilə birlikdə immunmodulyator kipferon və imunofan TXU-da immun, sitokin stasusu və qarşılıqlı əlaqə mexanizminə əsasən P substansiyası və hemostaz sistemində baş verən dəyişiklikləri aradan qaldırır, eləcə də yuxarı tənəffüs yolları və bağırsaq mikroflorasını tərkibini normallaşdırır, KRX ilə xəstələnmənin sayını azaldaraq residivlərin, fəsadların və iltihabın xronikləşməsinin qarşısını alır [6,8,22].

ƏDƏBİYYAT

1.Kərimova M.K. Kəskin pnevmoniyalı uşaqlarda immun və hemostaz sisteminin vəziyyəti,onlar arasındakı qarşılıqlı əlaqə və immunokorreksiya. Tibb.e.n.diss. Bakı, 1994. 94s.

2.Kərimova M.K. Tez-tez xəstələnən uşaqlarda respirator xəstəliklər zamanı sitokin statusunun öyrənilməsinin əhəmiyyəti // Azərbaycan təbabətinin müasir nailiyyətləri, 2008, №3, s.112-114

3.Əyyubova A.A., Kərimova M.K. Tez-tez xəstələnən uşaqlarda respirator xəstəliklərinin patogenezində P-neyropeptid substansiyasının rolu // Azərbaycan tibb jurnalı, 2008, №4, s.65-66

4.Kərimova M.K.Respirator xəstəliklərlə tez-tez xəstələnən uşaqlarda sitokin statusu, P substansiyası və hemostaz sisteminin rolu, onlar arasındakı qarşılıqlı əlaqə // Azərbaycan onkologiya və hematologiya jurnalı, 2010, № 1, s.195-199

5.Əyyubova A.A., Kərimova M.K. Opportunist infeksiyaların tez-tez xəstələnən uşaqlarda respirator xəstəliklərin klinik-immunoloji göstəricilərinə təsiri // Azərbaycan Tibb jurnalı 2010, № 2, S. 63

6.Керимова М.К.Эффективность иммунобиологического препарата «Кипферон» у часто болеющих детей // Наука и новые технологии (Бишкек), 2008, №5-6, с.281-283

7.Karimova M.K.Viral enfeksiyon ajanları ile sık hastalanan çocukların sitokin durumunun değerlendirilmesi // Selçuk Tip Dergisi 2009, v. 25, No 2, s. 78-81

8.Керимова М.К.Применение иммуномодуляторов у часто болеющих детей с рецидивирующими респираторными инфекциями // Педиатрия и детская хирургия Казахстана, 2010, № 2, с.12-14

9.Эюбова А.А., Керимова М.К. Роль хламидийной инфекции у часто болеющих детей с респираторными заболеваниями // Аллергология и иммунология, 2010, т. 11, № 3, с. 263-265

Epidemioloji tədqiqatların nəticələrinə görə polikistoz yumurtalıqlar sindromu reproduktiv yaşda olan qadınların 3-10%-də rast gəlir. Bu zaman menstrual tsiklin pozulması, hirsutizm, akne və s. 40-74% xəstələrdə artıq cinsi yetişkənlik dövründə aşkar olunur. Klinik tədqiqat metodlarından istifadə edərək hipotalamus-hipofiz-yumurtalıq sistemində "qüsurlu həlqə" yaradan yerli və ümumi morfofunksional və endokrin pozğunluqların inkişafını aşkar edirlər.

Yuxarıdakıları nəzərə alaraq aparılna tədqiqat işinin **məqdəsi** yumurtalıqların polikistosu sindromu olan cinsi yetişkənlik dövründəki qızlarda endokrin-metabolik pozuntulatın dioqnostikası və onların korreksiyası metodikasını optimallaşdırmaqdan ibarət olmuşdur.

Tədqiqatın material və metodları. Tədqiqat iki sərbəst istiqamətdən ibarət olmuşdur. Işin birinci hissəsi anamnestik məlumatlara əsasən polikistoz yumurtalqlar sindromunun risk faktorlarının aşkarlanmasina həsr edilib. Ənənəvi müalicə metodları ilə və endogen progesteron olan "Utrojestan" istifadəsi ilə kompleks müalicənin müqayisəli analizi üçün 14-18 yaş arası 112 yeniyetmə qız müayinə olunmuşdur.

Birinci mərhələdə 112 qızın anasında hamiləliyin və doğuşun gedişatı haqqında anamnestik göstəricilər toplanmışdır. Ikinci mərhələdə 112 yemiyetmə- qızın fiziki, cinsi reprodktiv vəziyyətin funksional vəziyyətlərinin xüsusiyyətləri öyrənilmişdir. Onlar 2 qrupa ayrılmışlar: PKY olan 72 qız (əsas qrup) və analoji yaşda olan normal fiziki və cinsi inkişaf göstəricilərina malik və hiperandrogen simptomları olmayan 40 praktik sağlam qız (II nəzarət qrupu).

Laborator müayinələrin göstəricilərini təhlil edərək tərəfimizdən qanın və sidiyin ümumi müayinələrində normadan kənara çıxmalar qeydə alınmışdır. Qanda hemoqlobinin cüzi aşağı olması və EÇS-in artması, sidikdə leykositlərin artması artıq yanaşı gedən patologiyalar üçün xarakterik olmuşdur. YPKS olan xəstələrdə etiopatogenez, klinik, laborator göstəricilərin, bu xəstəliyin konservativ müalicəsinin müxtəlif metodlarının müxtəlif müəlliflər tərəfindən tədqiqi nəticəsində ümumi rəy qəbul olunmuşdur ki, bu da həmin patologiyanın hormonal pozuntuları nəticəsində baş verməsindən ibarətdir.

Tərəfimizdən 112 xəstədə hormonal status müayinə olunmuşdur ki, onlar da iki qrupa ayrılmışlar: əsas qrup – 72 yeniyetmə- qız, müqayisə qrupu 40 qız- yemiyetmə. Nümunələrin götürülməsi aybaşı siklinin follikulogenez (4-5-ci günlər) və lütein (20-21- ci günlər) fazalarında baş vermişdir. Kompleks hormonal müayinələrin nəticələrinin təhlili müxtəlif parametrlərdə fəqrlərin olduğunu göstərmişdir.

Aydın olur ki, YPKS-u ilə bağlı problemlərin həlli təkcə vaxtlı diaqnostikadan deyil, həm də rasional müalicənin aparılmasından asılıdır. Düzgün terapiyanın seçimi sistemli yanaşmaya əsaslanır. Mütəxəssislərin fikrincə, hormonal terapiyanın qeyri rasional təyini hipotalamus-hipofiz-yumurtalıq sistemində patomorfoloji və funksional pozuntuları daha da dərinləşdirir. Nəticədə hormonal disbalans

yaranır. Aşkarlanmış pozuntuların korreksiyası üçün biz "Utrojestan" preparatını tətbiq etdik, müsbət dəyişikliklər əldə etdik.

Hormonal status öyrənildikdə, FSH üçün əsas qrupda göstəricilərin 3,4BV/l-dən - 64,3 BV/l-ə qədər çatması, müqayisə qrupunda 2,8BV/l-dən 7,2BV/l-qədər çatması xarakterik olmuşdur. Bununla yanaşı I fazada ümumi göstərici 6,4±0,7, əsas qrupda 6,8±0,3BV/l olmuşdur. II fazada uyun olaraq 6,7±0,8 və 7,2±0,6 olmuşdur. Hər iki qrupda FSH- in səviyyəsi fazalara uyğun olaraq çox fərqlənməmişdir. Bu hər şeydən qabaq yumurtalıqların hormonal çatışmazlığı ilə əlaqədar olmuşdur.

LH-in səviyyəsinin müayinəsindən məlum olmuşdur ki, orta hədlərin fərdi tərəddüdləri də qruplarda fazalara uyğun olaraq fərqli olmuşdur (13,3±1,6 və 14,2±1,5- I fazada, 12,8±1,4 və 13,1±1,1). Uyğun olaraq yeniyetmə- qızlarda qan zərdabında LH-ın kifayət qədər yüksək göstəriciləri aşkar olunmuşdur

Həmçinin müayinə qruplarında LH/FSH nisbəti də təyin olunmuşdur. LH\FSH göstəricisi 2,3±0,4 təşkil etmişdir.

Beləliklə, qonadotropin göstəricilərinin dəyişiklikləri aybaşı funksiyasının tənzimləyicisi olan hipotalamus-hipofiz-yumurtalıq sistemində funksional pozuntuların ilkin göstəriciləridir.

Yeniyetmə- qızlarda hormonal fonun daha dəqiq təyin olunması üçün steroid hormonların- estradiol, progesteron, prolaktin və kortizolun qan zərdabında göstəriciləri aybaşı siklinin müxtəlif fazalarında təhlil olunmuşdur.

Bizim tədqiqatlarda progesteronun miqdarının dəyişməsi dinamikası analoji olmuşdur. Hər iki qrup yeniyetmə- qızlarda fərdi dəyişikliklər aybaşı siklinin I fazasında 4,5-74,2 arasında, orta göstərici 11,5±1,2 və 9,4±1,1 olmuşdur, II fazada 45±4,4 və 42±4,2 olmuşdur.

Hər iki qrupda testosteronun miqdarı müayinə olunduqda normativ göstəricilərlə müqayisədə dürüst fərqlər aşkar olunmamışdır, lakin testosteronun miqdarının artması tendensiyası da qeydə alınmışdır ki, bu da müalicədən sonra az dəyişmişdir.

Poliksitoz yumurtalıq sindromu olan xəstələrdə testosteron gsötəriciləri 1,8-3,9 nmol/l arasında olmuşdur, müalicəyə qədər orta göstərici hər iki qrupda aybaşı siklinin I fazasında 3,1±1,2 və 3,2±0,6, II fazada 2,9±1,3 və 3,8±0,8 təşkil etmişdir.

Beləliklə, testosteron səviyyəsinin orta həddi ümumi qrupda pubertat dövründə olan yeniyetmə- qızlar üçün Tanner- 4-5 üzrə normanın yuxarı həddinə uyğun olmuşdur.

Ümumi testosteron ilə YPKS sindromnun qabarıqlılığı arasında korrelyasiya aşkar olunmamışdır.

Alınan göstəricilər təsdiq edir ki, polikistoz yumurtalıq sindromu olan yeniyetmə- qızlarda hormonal dəyişikliklər baş verir.

Beləliklə, tərəfimizdən alınan göstəricilər YPKS-in inkişafının patogenezində qonadotrop və steroid hormonlarının sekresiya pozuntularının böyük rol oynaması haqqında bir sıra müəllif fikirləri ilə üst- üstə düşür.

Hormonal korreksiya aparıldıqdan 6 ay sonra aşkar edilmişdir ki, müalicə nəticəsində hormonal status göstəriciləri normallaşmaya meyilli olmuşdur. Bununla yanaşı əsas qrupda tendensiya müqayisə qrupuna nisbətən daha kəskin olmuşdur.

Beləliklə, əsas qrupda LH və FSH səviyyələrinin orta həddi müalicədən sonra aybaşı siklinin I fazasında 9,5±0,8 (LH) və 5,3±1,3 (FSH) olmuşdur, II faza üçün hər iki hormonun bu yaş həddinə uyğun olaraq normativ göstəricilərə doğru azalması müşahidə olunmuşdur.

Estradiol və progesteron müayinə olunduqda həmçinin hər iki qrupda göstəricilərin normallaşması qeydə alınmışdır.

Müayinə olunan qızlarda uşaqlıq və yumurtalıqların vəziyyətini dinamikada təyin etmək üçün tərəfimizdən transabdominal ultrasəs müayinə aparılmışdır. Müalicə aparılana qədər, müalicə-profilaktika tədbirlərindən 1-3-6 ay sonra, aybaşı siklinin 5-10 və 17-21-ci günlərində müayinə olunmuşdur.

Metodun üstünlüyü azinvazivliyi, qeyritravmatikliyi, ağrısız olmasıdır. Bu sadalananlar USM-ni skrininq metodu etməyə imkan verir.

YPKS müalicəsinin effektivliyinin əsas qiymətləndirmə kriteriləri exoqrafik və dopplerometrik tədqiqatlar olmuşdur.

Yumurtalıqların morfofunksional vəziyyətinin təyin olunması USM-də onların ölçülərinin təyinindən başlayır. Pubertant dövrdə yumurtalıqların ölçüsü aybaşı siklin fazalarından asılı olaraq dəyişir, lakin maksimal uzunluq 35mm, eni 28 mm, qalınlığı 22mm-dən artıq olmur. Bununla

yanaşı həcmi 7-9 sm^3 təşkil edir. Sağ və sol yumurtalqılar arasında yol verilən həcm fərqi 9-9,5% təşkil edir.

Erkən follikulyar fazada (aybaşı siklinin 3-5-ci günləri) exoqrafik müayinələr zamanı diametri 2-5 mm olan 5 follikul vizualizə olunur. follikulların belə ölçüyə qədər artması hondotorpin hormonların səviyyəsindən cüzi asılı olur, bununla əlaqədar olaraq nromada həmin exoqrafik mənzərə bütün aybaşı sikli boyunca hormonal kontraseptivləri qəbul edən xəstələrdə normada qeydə alınır. Siklin 5-ci günündən başlayaraq follikulların aktiv böyüməsi honadotropinlərin təsiri altında baş verir. Bu andan dominant follikul inkişaf etməyə başlayır. Lakin onun USM vasitəsilə dürüst təyin olunması siklin 8-12-ci günündən tez olmayaraq mümkündür. Bu zaman follikul 14 mm və daha böyük ola bilər. Bir qayda olaraq ovulyasiya dövründə gündə 2-3 mm artaraq, dominant follikullun ölşüsü 18-24 mm təşkil edir.

Yuxarıda qeyd olunan əlamətlərin toplusu lüteinləşdirici hormonunu (LH) atımı ilə əlaqələndirilir ki, bu da ovulyasiyanın başlamasının mümkünlüyünü göstəriri. Bununla yanaşı olaraq exoqrafik əlamətlər göstəricisi ovulyasiyanın vaxtını qədid sö yləməyə imkan vermir, yalnız ovulyasiyanın yaxınlaşdığını və 24 saat ərzində baş verməsinin mümkün olduğunu göstərir.

Baş verən ovulyasiyanın ultrasəs mənzərəsi uşaqlıqarxası mühitdə sərbəst mayenin olmasında özünü göstərir. Eyni zamanda dominant follikulin itməsi və onun yerində qeyri-dəqiq və nahamar konturu olan heterogen törəmə qismində hemorragik cismin olduğu vizualizə olunur ki, ondan sonralar sarı cisim formalaşır.

Ultrasəs müayinələrin göstəriciləri klinik qruplarda uşaqlığın və yumurtalıqların ölçülərinin müqayisəli təhlilini aparmağa imkan vermişdir. Göstəricilər əsasında hər iki qrupda uşaqlığın bütün ölçüləri 30-45% artmışdır.

Müayinə zamanı əksər hallarda (112 xəstədən 104 nəfərdə) aşkar edilmişdir: uşaqlıq həm arxa-ön tərəfdən həm də sağ-sol ölçülərdən böyümüşdür. Uşaqlıq və yumurtalıqlar arasında məsafə kəskin qısalmışdır. 37,5% halda (42 xəstə) uşaqlıq orta mövqedə, 32,1% (36) sola doğru, 30,0%(34) sağa doğru əyilmiş vəziyyətdə olmuşdur.

Aldığımız nəticələr əvvəllər çap olunmuş işlərlə tamamilə üst-üstə düşür.

Qan axınının əsas göstəricisi qismində maksimal arterial sürət (MAC), pulsasiya indeksi (Pİ), rezistentlik indeksi (Rİ) aşkar edilmişdir. Rəngli doppler müayinə eyni zamanda qan axının 3 parametrini qiymətləndirməyə imkan verir: sürət, istiqamət və qan axınının xarakteri. Müayinə olunan xəstələrdə aybaşı siklinin proliferativ fazası (5-10-cu günlərdə) öyrənişmişdir, çünki siklin sekretor fazasında sarı cismin hipervaskulyarizasiyası hesabına dopplerometriyanın nəticələri səhv-müsbət ola bilər.

Polikistoz yumurtalıqlarda aybaşı sikli boyunca dinamik USM zamanı dominant follikul, sari cisim vizualizə olunmur. Rəngli doppler müayinəsi zamanı aybaşı siklinin artıq 3-5-ci günlərində zəngin intraovarial qan axını aşkar olunur, baxmayaraq ki, normada 8-10-cu günlərdə stroma damarları vizualizə olunmur.

İmpuls dopplerometriya zamanı yüksək İR qeydə alınır (0,54-dən yüksək) ki, o da bütün aybaşı sikli boyunca dəyişmir. Bununla yanaşı intraovarial hemodinamikanın damar rezistentliyinin daha yüksək göstəriciləri diffuz yerləşməyə nisbətən periferik yerləşmədə daha çox qeydə alınmışdır. Xəstələrdə follikulyar fazanın əvvəlində (16,89±2,36) qan axının maksimal sürəti normadan yüksək (8,74±0,68) olmuşdur ki, bu da YPKS- in ultrasəs diaqnostikasında əlavə meyar kimi istifadə oluna bilər.

Uşaqlıq arteriyalarında qan axınının dopplerometrik müayinəsinin göstəricilərinə əsasən fizioloji aybaşıya nisbətən YPKS-da Pİ yüksək olur, bununla yanaşı həmin damarlarda bu göstəricinin qanda artması androetandionun səviyyəsi ilə korrelyasiya edir.

Aparılmiş tədqiqatlar YPKS zamanı yuxarıda təsvir olunan bütün hemodinamik dəyişiklikləri, LH-ın tonik hipersekresiyasının səviyyəsini və LH/FSH nisbəti dəyişikliklərini əlaqəndirmişdir. Ona görə YPKS olan xəstələrdə intraovarial damar rezistentliyi və uşaqlıq qan axını göstəriciləri yüksək olduqca endokrin pozuntular bir o qədər qabarıq və aybaşı sikli pozuntuları ağır olur.

YPKS-in aşağıdakı ultrasəs əlamətləri aşkar edilmişdir: yumurtalıqların həcminin iki tərəfli artması (norma 3-7 sm^3 olduqda 29 qızda yumurtalıqların həcmi 12-15sm^3, 4 qızda-16-18 sm^3) olmuşdur. Yumurtalıqların strukturu çoxsaylı follikulların- 4-10 mm həm periferiyada, həm də parenxamanın mərkəzi sahələrində olması ilə xarakterizə olunmuşdur. Rəngli doppler zamanı yumurtalıqda periferiya üzrə və onun mərkəzi hissəsində çoxsaylı vaskulyarlaşma lokusları aşkar

edilmişdir. Sistolik/diastolik nisbət 5,0±0,4 (norma 5,9±0,3) olmuşdur. YPKS olan qızlarda üçölçülü vizuallaşdırma rejimindən istifadə olunduqda stromanın çox miqdarda olması müəyyən olunmuşdur ki, bu da yumurtalıqların həcminin artmasına gətirib çıxarır. 3D-dopplerometriya göstəriciləri formalaşan YPKS zamanı vaskulyarlaşma indeksinin (Vi) və qan axını indeksinin (Fi) miqdar sayının artdığını göstərir: Vi 5,9±0,3 (norma 4,1±0,5), Fi 34,6±6,2 (norma 14,5±2,3). Formalaşan YPKS olan qızlarda kompleks müayinələrin nəticələri cədvəldə əks olunmuşdur. Formalaşan YPKS olan xəstələrdə yumurtalıqların həcmi müqayisə qrupuna nisbətən 3 dəfə çox olmuşdur, qan axınının xarakterində qabarıq dəyişikliklər qeydə alınmışdır: S/D 15% aşağı düşmüş, Vi 43%, Fi- 2,4 dəfə artmışdır.

Polikistozlu yumurtalıqların damar şəbəkəsində qan axınında nəzərəçarpacaq dəyişikliklər müşahidə olunur. Doppler müayinələr aparıldıqda yumurtalığın periferiyası üzrə və mərkəzi hissəsində vaskulyarlaşmanın çoxsaylı lokusları aşkar edilmişdir. Sistolodiastolik münasibət (SDM) 4,8±0,7 (norma 5,9±0,3) təşkil etmişdir. Lakin vaskulyarlaşma indeksi (Vi) və qan axını indeksi (Fi) hədləri yüksək olmuşdur: Vi – 7,2±0,8 (norma 4,1±0,5), Fi-38,4±5,7 (norma 14,5±23). Göründüyü kimi yumurtalıqların həcminin artması və qan axının xarakterik pozuntuları polikistoz yumurtalıq sindromu üçün ultrasəs meyar ola bilər.

Müalicə kursundən sonra 3 ay ərzində kiçik çanaq orqanlarının ultrasəs müayinələri zamanı dinamikada aparılan müalicənin effektivliyi aşkar edilmişdir. Yumurtalıqların uzunluğu, eni, eləcə də ön- arxa parametrlərin normativlərə uyğun olduğu qeydə alınmışdır. Yumurtalıqların struktur və həcmi yaş parametrlərinə uyğun olmuşdur.

Siklin 5-7-ci günlərində müayinə olunanlarda endometriumun qalınlığı 0,3-0,4 mm arasında olmuşdur, lakin II fazada 19-21-ci günlərdə normativ parametrlərə nisbətən endometriumun qalınlığı cüzi artmışdır-0,8-0.92 mm (norma 10-1,1 mm) olmuşdur ki, bu da həmin mərhələdə hormonal funksiyanın pozulduğunu göstərir.

YPKS xroniki anovulyasiya və lyutein faza çatmamazlığına gətirir. Hormonal preparatlarla uzunmüddətli müalicə çox vaxt arzuolunmaz əlavə effektlərə gətirib çıxarır. Əhalinin, xüsusən də yeniyetmələrin allergizasiyasının artması ilə əlaqədar olaraq farmakoterapiyanın aparılması çətinlik törədir.

Bizim tədqiqatlarda YPKS- in əsas klinik əlamətləri kimi aşağıdakılar qəbul olunmuşdur: (1) hirsutizm, (2) akne, (3) oliqomenoreya və amenoreya, (4) USM üzrə pokistoz yumurtalıqların exoqrafik əlamətləri. Şikayətlər ilə daxil olan 112 yeniyetmə- qızın göstəriciləri təhlil olunmuşdur. Daha çox tərəfimizdən yanaşı 4 əlamət 55(41,9%) qeydə alınmışdır. Tezliyinə görə ikinci variant oliqomenoreyalı olmuşdur. Müayinə olunanların hər birində polikistoz yumurtalıqların exoqrafik əlamətləri aşkar edilmişdir.

Qeyd olunduğu kimi, əsas qrup yeniyetmə-qızlarda medikamentoz müalicə progesteron silsiləsindən olan hormonal preparat-"Utrojestan" ilə aparılmışdır. Xəstələrdə aşkar olunan əlamətlərdən asılı olaraq (4 əlamətdən 3-ü) aybaşı siklinin 5-25- ci günlərində 100 mq olmaqla gündə 2 dəfə təyin olunmuşdur. Polikistoz yumurtalıq sindromunun inkişafının iki və daha az əlamətləri qeydə alınan yeniyetmələrə aybaşı siklinin 16-25- ci günlərində 100 mq olmaqla gündə 2 dəfə təyin olunmuşdur. Hər iki müalicə sxemi 6 ay ərzində aparılmışdır.

Preparat qəbul olunduqdan 8 həftə sonra əsas qrup xəstələrdə polikistoz yumurtalıq sindromu ilə əlaqədar olan əlamətlərin kifayət qədər-25%-ə qədər azalması qeydə alınmışdır (müqayisə qrupunda xüsusi dəyişikliklər qeydə alınmamışdır). Aparılan müalicədən 16-18 həftə sonra əsas qrupdan 36 xəstədə ultrasəs müayinə altında yumurtalıqların və uşaqlığın ümumi həcminin azaldığı aşkar olunmuşdur. Hər iki qrupda uşaqlığın ölçülərinin azlması yumurtalığının ilkin həcmi normal həcmdən 2 dəfə böyük olan qızlar arasında daha qabarıq olmuşdur. Müqayisə qrupunda ümumilikdə qadın daxili cimsiyyət orqanlarının exoqrafik strukturu dəyişməmişdir. "Utrojestan" qəbul olunduqdan 6 ay sonra əsas qrupda 69 xəstədə exoqrafik müayinə zamanı uşaqlıq və yumurtalqıalrın ölşülərinin normallaşdığı, uşaqlıq və yumurtalıqlarda qan axının yaxşılaşdığı aşkar edilmişdir. 1 xəstədə əlavə təsirlər baş verdiyi üçün preparatın qəbulu dayandırlmışdır. I xəstə preparatı fasilələrlə qəbul etmişdir.

Aparılan müalicə zamanı qanın biokimyəvi göstəricilərində normadan kənara çıxmalar müşahidə olunmuşdur. "Utrojestan" ilə müalicə fonunda hormonal profildə FSH-ın və estradiolun dürüst aşağı olması, LH və progestronun dürüst artması qeydə alınmışdır ki, bu da prolaktinin azalmasına təsir göstərmişdir.

Müntəzəm aybaşı funksiyasının bərpa olunması əsas qrupda 67 (93%) xəstədə qeydə alınmışdır. Lakin 48 (66,6%) qızda aybaşı orta hesabla 4-5 gün olduğu halda, 17 (23,6%) – 2-3gün, 2(2,7%) – 2 gündən az olmuşdur.

Medikamentoz müalicədən effektin alınması üçün menarxenin baş verməsi ilə pozuntuların başlaması və müalicənin başlanması arasında interval böyük əhəmiyyət kəsb edir.

Müayinə qruplarında qızların ümumi somatik və ginekoloji vəziyyətinin öyrənilməsindən alınan nəticələr təhlil olunduqda müxtəlif vəziyyətlərin yüksək faizi aşkar edilmişdir ki, bunlar aybaşı siklinin pozulması üçün risk faktoru ola bilər.

Fəsadlaşmış irsiyyət, perinatal, neytral və prepubertant dövrlərin ağırlaşmaları hipotalamo- hipofiz-yumurtalıq sistemə ilkin zədələyici təsir göstərir və polikistoz yumurtalıqlar sindromunun inkişafı üçün əlverişli premoribid fon təşkil edir. Xəstələrin mütləq əksəriyyəti günün rejiminə əməl etməmiş, stress təsirlərə məruz qalmış, infeksion xəstəliklər keçridiklərini qeyd etmişlər. Hər müayinə olunana 2-3 xronik somatik patologiya düşmüşdür.

I mərhələdə simptomatik müalicənin qeyri- effektiv olması nəticəsində müalicə taktikası seçimi zamanı I qrupa müalicə- qoruyucu rejim fonunda hormonal hemostaz, antianemik preparatlar, vitamin terapiyası, fizioterapiya təyin olunmuşdur. Tərəfimizdən endometrium və hormonal statusun ultrasəs müayinəsinin nəticələrinə əsasən hormonal müalicəyə differensasiya edilmiş yanaşma tətbiq edilmişdir. Aybaşı funksiyanın tənzimlənməsi məqsədilə əsas qrup xəstələrə 6 ay müddətində progesteron silsiləsindən olan "Utrojestan" standart sxem üzrə (1 kapsul (100 md) x gündə 2 dəfə 5-25-ci günlərində və ya 16-25-ci günlərində) təyin edilmişdir. Aybaşı siklinin hormonal korreksiyası fonunda etioloji faktorlar da aradan qaldırılmışdır.

Müalicənin II mərhələsində və reabilatasiya mərhələsində ümumi somatik və ginekoloji xəstəliklər müalicə olunmuşdur, bunun üçün hemostatik, uterotonik preparatlar, sedativ preparatlar və vitamin terapiyası təyin olunmuşdur.

Ümumiləşdirici olaraq qeyd etmək lazımdır ki, endogen preparat olan "Utrojestan" istifadəsi müalicənin yaxın və uzaq nəticələrini yaxşılaşdırmağa, menstrual funksiyanın bərpasına, müalicə müddətinin optimallaşmasına, orqanizmə dərman yükləməsinin azalmasına, xəstəliyin residivlərinin azaldılmasına imkan vermişdir.

Beləliklə, tərəfimizdən təklif olunan müalicə aybaşı funksiyasının neyroendokrin tənzimlənməsini təmin edir. Yumurtalıqlarda polikistoz dəyişikliklərin reqressi, qızlarda hormonal fonun normallaşması və aybaşı siklinin bərpa olunması həmin metodikanın müsbət təsiri və əldə olunan effektivliyin stabilliyini göstərir.

ƏDƏBİYYAT

1. Асланова У.К. Поликистоз яичников // Reprodktiv sağlamlıq və perinatalogiya, 2004, N4, c.20-24
2. Мамедгасанов Р.М., Курбанов Д.Ф., Гусейнова Н.Ф. Сравнительный нализ эффективности лечения больных с синдромом поликистозных яичников и заболеваниями щитовидной железы // Sağlamlıq, 2008, N7, s.170-173
3. Алесина И.Л. Консультирование женщин как важный инструмент при индивидуальном подборе метода контрацепции // Акушерство и гинекология, 2011, №6, с.120-124
4. Долженко И.С., Красовская М.А., Востоков С.В. Диагностические критерии гипоталамической дисфункции у девочек-подростков с различными нарушениями менструального цикла // Репродуктивное здоровье детей и подростков, 2007, №1, с.45-49
5. Попова С.С. Надпочечниковая форма синдрома поликистозных яичников: новый взгляд на старую проблему // Международный медицинский журнал, 2005, № 2, с. 81-83
6. Синдром поликистозных яичников: Руководство для враче / Под ред. И.И.Дедова, Г.А.Мельниченко. М.: МИА, 2007, 368 с.
7. Чеботникова Т.В., Бутрова С.А., Мельниченко Г.А. Контроль массы тела - ключ к успеху лечения больных с синдромом поликистозных яичников // Вестник репродуктивного здоровья, 2007, №1, с.7-8
8. Barnard L., Ferriday D., Guenther N. et al Quality of life and psychological well being in polycystic ovary syndrome // Hum. Reprod., 2007, 22 (8), p.2279-2286
9. Cheang K.I., Nestler J.E., Futterweit W. Risk of cardiovascular events in mothers of women with polycystic ovary syndrome // Endocr Pract., 2008, v.14(9), p.1084-94

10.Goldenberg N., Glueck C. Medical therapy in women with polycystic ovarian syndrome before and during pregnancy and lactation // Minerva Ginecol., 2006, v.60 (1), p.63-75

11.Jonard S., Robert Y., Dewaily D. Revisiting the ovarian volume as a diagnostic criterion for polycystic ovaries. // Hum Reprod., 2005, v.20, p.2893-8

12.Mertens H.J. Androgen, estrogen and progesterone receptor expression in the human uterus during menstrual cycle // Eur. J. Obst. Gynec. Reprod. Biol., 2001, v.98, p.58-65.

Резюме

Клинико-патогенетическое обоснование комплексного лечения сидрома поликисточхны яичников у девушек подростков

Э.А.Мастиева

Целью исследования явилось оптимизация диагностики метаболических нарушений и их коррекции. В исследование вошли 112 девушек- подростков. Предложенное нами лечение способствует регулированию нейроэндокринных функций. Этот метод лечении положительно влияет на регресс поликистозных изменений, на нормализацию гормонального фона и восстановлению менструального цикла.

Summary

Clinico-pathogenetic substantiation of complex treatment sidroma polikistochhny ovaries in adolescent girls

E.A.Mastiyeva

The aim of the study was to optimize diagnosis of metabolic disorders and their correction. The study included 112 adolescents. Our proposed treatment helps regulate neuroendocrine functions. This method of treatment has a positive effect on the regression of polycystic changes to the normalization of hormonal levels and restoration of the menstrual cycle.

Daxil olub:14.05.2013

PERİFERİK AĞCİYƏR XƏRÇƏNGİNİN DİAQNOSTİKASINDA KOMPÜTER TOMOQRAFİYA MÜAYİNƏSİNİN ROLU

B.Ə. Baxşıyev, V.A. Dadaşova

Azərbaycan Tibb Universiteti, şüa diaqnostika və şüa terapiyası kafedrası, Bakı

Açar sözlər: ağciyər xərçəngi, diaqnostika, kompüter tomoqrafiyası

Ключевые слова: рак легких, диагностика, компьютерная томография

Keywords: lung cancer, diagnostics, computed tomography

Ağciyər xərçəngi (AX) XXI əsrin böyük iqtisadi itkilərlə, xəstələnmə və ölüm göstəricisinin qarşısıalınmaz şəkildə artması ilə xarakterizə edilən əsas sosial problemlərindəndir. Hər il dünyada 1-1,2 milyon adam AX ilə xəstələnir və bu patologiya onkoloji xəstəliklərdən ölümün səbəbləri arasında liderliyini saxlayır [1].

AX-nin periferik formasının uzun müddət "lal" şəkildə-klinika vermədən davam etməsi, obyektiv faktlara lazımi qədər əhəmiyyət verilməməsi, rentgenoloji müayinələrdə diferensasiyanın çətinliyi, bəzi müasir müayinə üsullarına etinasız yanaşma əksər hallarda düzgün diaqnoz qoyulmasını gecikdirir.

Bu sahədə aparılmış çoxsaylı tədqiqatların nəticələri göstərir ki, AX-nin erkən diaqnostikası problemi hələ də həll edilməmiş qalır. Bu məsələnin müvəffəqiyyətli həlli müasir tədqiqat üsullarının xərçəngin erkən diaqnostikasında istifadəsindən asılıdır.

Müasir dövrdə kompüter tomoqrafiya (KT) ağciyərin rentgenoqrafiyasında kütlə görünmüş hər bir xəstəyə aparılmalı olan müayinədir. Xərçəngə şübhə olan xəstədə müayinənin ikinci mərhələsi KT-nin istifadəsi olmalıdır [2].

AX-in diaqnostikasında KT törəmənin varlığını və solitarlığını dəqiqləşdirmək, şişin ölçü, struktur, sıxlıq (Xaunsfild əmsalının səviyyəsi) və konturunu, kütlənin ətraf ağciyər və divararalığı toxumaları ilə əlaqəsini təyin etmək, limfa düyünlərinin zədələnməsini aşkarlamaq məqsədi ilə istifadə olunur[3]. Tədqiqatçılar KT-in AX-nin diaqnostikasında həssaslığını 91,8% olaraq qeyd edirlər [4].

Bunları nəzərə alaraq, tədqiqatın **məqsədi** periferik AX-nin erkən mərhələsində KT müayinəsinin imkanlarının və diaqnostik semiotikasının öyrənilməsi olmuşdur.

Tədqiqatın material və metodları. Tədqiqat 2009-2013-cü illərdə Azərbaycan Tibb Universitetinin Onkoloji Klinikası, Ağciyər Xəstəlikləri Elmi-Tədqiqat İnstitutu, Milli Onkoloji Mərkəz, Lütfi Kırdar adına Elmi-Tədqiqat Institutunda aparılmışdır. Tədqiqatda şüa diaqnostik müayinə metodları ilə aşkarlanmış və histoloji olaraq verifikasiya edilmiş 76 AX-li xəstənin arxiv və cari materialları istifadə edilmişdir.

Xəstələrin 70(92,1%) nəfəri kişi, 6 (7,9%) nəfəri qadın olub, yaşları 28-78 arasında dəyişmişdir.

Xəstələrdən 35(46,1%) nəfərdə yastıhüceyrəli, 31(40,8%)- adenokarsinomalı, 3(3,9%)-xırdahüceyrəli, 4(5,2%)- irihüceyrəli, 3(3,9%) nəfərdə digər növ xərçəngə rast gəlinmişdir.

Xəstələrdə klinik əlamətlər zəif təzahür etmişdir. Belə ki, 6(7,8%) xəstədə ancaq döş qəfəsi nahiyyəsində ağrı, 5 (6,5%) xəstədə sadəcə öskürək, 5(6,5%) xəstədə qanhayxırma qeydə alınmış, 4 (5,2%) xəstədə heç bir simptoma rastlanmamışdır. Bəzi xəstələrdə isə döş qəfəsi xəstəliklərinə xas bir neçə şikayət birgə müşahidə edilmişdir.

KT "Toshiba Asteion", "Somatom Emotion Duo" və "Somatom Volume Zoom Siemens" aparatında çəkilmişdir. Bütün görüntülər ağciyər (-650-1500HU) və mediastinal (50-400HU) pəncərələrdə qiymətləndirilmişdir.

KT-nin analizi bütün xəstələrdə vizual və 36 (47,3%) xəstədə densitometrik üsulla aparılmışdır. Vizual analizdə forma, ölçü, vəziyyət, patoloji ocağın strukturu, ətraf toxumanın vəziyyətinin qiymətləndirilmiş, densitometrik analiz Xaunsfild (HU) əmsalının hesablanması ilə icra edilmişdir.

Magistral damarların vəziyyətinin qiymətləndirilməsi zamanı 5 (6,5%) xəstədə kontrastlanma üsulu istifadə edilmişdir. Bu zaman venadaxilinə 20-40 ml kontrast maddə (uroqrafin, veroqrafin və s.) yeridilmişdir.

Tədqiqatımıza daxil olan xəstələrin təsnifatı üçün 7-ci (2009) TNM sistemi istifadə edilmiş və bu bölgü cədvəldə göstərilmişdir.

Cədvəl 1

Ağciyər xərçəngli xəstələrin TNM sisteminə görə paylanması

Mərhələ	TNM	Miqdar	
		Say	%
IA	T1N0M0	15	19,7%
IB	T2N0M0	36	47,3%
II	T2N1M0	4	5,2%
II	T3N0M0	21	27,6%

Cədvəldən görünür ki, xəstəliyin I mərhələsi 51(67,1%), II mərhələsi isə 25 (32,9%) xəstədə təyin edilmişdir.

Tədqiqatın nəticələrinin statistik analizi məqsədi ilə hesablamalar kompyuterdə İBM SPSS Statistics 20 proqramından istifadə etməklə aparılmışdır.

Tədqiqatın nəticələri və onların müzakirəsi. Xəstələrdən birinin KT-də şiş vizualizasiya olunmamışdır. Tədqiqata daxil olan digər 75(98,6%) xəstədə isə törəmə bu metod vasitəsi ilə aşkarlanmışdır.

Tədqiqata daxil olan xəstələrdə periferik AX-in KT semiotikası, şiş ətrafı toxumadakı dəyişikliklər, törəmə ilə bronxların münasibəti analiz edilmiş və aşağıdakı cədvəldə təsvir edilmişdir.

Cədvəl 2

Periferik AX-in KT semiotikası

	Mütləq sayı	faiz
Şişin ölçüsü:		
3 sm-ə qədər	21	27,6%
3 sm-dən böyük	54	71%
Forma:		
Dairəvi	19	25%
Oval	14	17,9%
Qeyri-düzgün girdə	34	44,7%
Digər	8	10,4%
Kontur:		
Şüaşəkilli çıxıntı	16	21%

Hamar	7	9,2%
Qeyri-dəqiq	15	19,7%
Qeyri-hamar	33	43,4%
lobulyar	4	5,2%
"cığır":		
Plevraya doğru	12	15,7%
Kökə doğru	3	3,9%
"cığır" yoxdur	61	80,2%
Dağılma boşluğu	16	21%
Yerləşmə:		
Subplevral	27	35,5%
Plevraya yaxın	39	51,3%
Kökyanı	9	11,8%
Ətraf ağciyər toxuması:		
İnfiltrasiya	15	19,7%
Emfizema	19	25%
Fibroz	11	14,4%
Keçmiş vərəm ocaqları	7	9,2%
Buzlu şüşə	3	3,9%
patologiyasız	32	42,1%

3 sm-ə qədər ölçülü periferik ağciyər xərçəngi 21(27,6%), 3 sm-dən böyük isə 54(71%) xəstədə aşkarlanmışdır.

Düyünlərin lokalizasiyasını analiz etdikdə görürük ki, bədxassəli düyünlər 70% halda yuxarı payda yerləşir, xoşxassəli düyünlər isə bərabər paylanır[5]. Bizim tədqiqatımızda törəmə sağ payda (55,2%) daha çox lokalizasiya olunmuşdur($p<0,01$). Xərçəng əksərən yuxarı – 46 (60,5%), sonra aşağı payda – 26 (34,2%), az hallarda isə orta payda (3,9%) inkişaf etmişdir.

Periferik ağciyər xərçənginin yerləşməsini plevraya görə qiymətləndirdikdə görürük ki, 39 (51,3%) xəstədə şiş plevraya yaxın, 27-də (35,5%) subplevral, 9-da (11,8%) isə kökyanı sahədə yerləşmişdir ($p<0,01$).

Forması dairəvi olmayan və paycıqlı, kənarları qeyri-düzgün düyünlərin karsinoma olma ehtimalı yüksəkdir, ancaq xoş və bədxassəliliyi ayırd etmədə bu çox da etibarlı bir əlamət deyil[5]. Tədqiqat kontingentinə daxil edilmiş periferik xərçəngin formasına görə törəmələrin 34-ü (44,7%) qeyri-düzgün dairəvi, 19-u (25%) dairəvi, 14-ü (17,9%) oval, az qismi isə digər formalarda olmuşdur.

Törəmə xəstələrin 15-də (19,7%) qeyri-dəqiq kənarlı, 4-də (5,2%) isə lobulyar sərhədli olmuşdur. Beləliklə xəstələrin az qismində (9,2%) törəmə dəqiq-hamar kənarlı, 68 (89,4%) xəstədə isə bədxassəli törəməyə məxsus konturludur($p<0,01$).

Bədxassəlilik əlamətlərindən biri də törəmənin kənarında şüaşəkilli çıxıntının olmasıdır. Bu əlamətə sahib törəmənin 93%-i bədxassəli şiş olur [5,6,7]. Tədqiqatımızda xəstələrin 16-da (21%) şiş "şüaşəkilli" çıxıntılara malik olmuşdur və bu ədəbiyyat məlumatlarına uyğundur ($p<0,01$).

Kökə və ya plevraya doğru "cığır" şəklində reqionar linfanqait simptomu 15(19,8%) xəstədə rastlanmışdır. 61(80,2%) xəstədə isə bu əlamət görünməmişdir.

Törəmənin strukturunu analiz etdikdə xəstələrin 16-da (21%) kaverna şəkilli boşluğa rast gəlinmişdir. Ancaq divar qalınlıqları 16 mm-dən qalın olduğu üçün bədxassəli prosesdən şübhələnməyə əsas verir ($p<0,01$). Bu şəkil şişin KT-mənzərəsində heterogenlik yaradır. Heterogen şəkil şişin daxilində kalsinat olduqda da görünə bilər[6]. Ancaq bizim tədqiqatlarımızda belə xəstəyə rast gəlinməmişdir.

Xəstələrimizin 36-da (47,3%) densitometrik qiymətləndirmə aparılmışdır. Bu xəstələrdə HU əmsalı orta hesabla 27 HU olmuşdur. Bu göstərici ədəbiyyat məlumatlarına uyğundur. Kontrast istifadəsindən sonraki qiymətləndirmədə isə xəstələrin hamısında ağciyər xərçənginə xas heterogen kontrastlanma müşahidə edilmişdir (5 xəstə) ($p<0,01$).

Düyünə gedən ya da düyünün ətrafında olan bronxlarla düyün arasındakı əlaqə bronxoskopiyanın nəticəsinə təsir edir və bronkoskopiyayla iynə biyopsiyası arasında seçim etməkdə kömək edir. Şiş bronxu əhatə edib təzyiq edə və ya tam qapaya bilər[7]. Bronxların vəziyyətini qiymətləndirdikdə 2

(2,6%) xəstədə seqmentar bronxda törəmə tərəfindən obturasiya, qalanlarında mənfəzin açıq olduğu müşahidə edilmişdir (p<0,01).

Şişin ətrafındakı ağciyər toxuması müxtəlif dəyişikliklərə uğrayır. 15(19,7%) xəstədə infiltrativ sahə müşahidə edilmiş, 11(14,4%) xəstədə fibroz toxumaya rastlanmışdır. 3 (3.9%) xəstədə isə "buzlu şüşə" simptomunu izlənmişdir.

Beləliklə ağciyər xərçəngini morfoloji olaraq qiymətləndirdikdə görürük ki, törəmə adətən forması qeyri-düzgün girdə, konturu kələ-kötür (bəzən şüaşəkilli çıxıntılı), yerləşməsi plevraya yaxın və ya subplevral, kontrastlanması heterogendir. Adətən bronx mənfəzi açıq olur.

Göründüyü kimi periferik xərçəngin KT şəkli müxtəlifdir. Bu səbəbdən kliniki praktikada diferensial diaqnostikada müəyyən çətinliklər yaranır. Bu problemin həlli yalnız anamnestik məlumatlar, klinik əlamətlər, kompleks şüa diaqnostik müayinələrin nəticələri birlikdə qiymətləndirdikdə mümkün ola bilər.

ƏDƏBİYYAT

1.James G., Philip C., Gerard A. Screening for Lung Cancer // AJR, 2008, N190, p.755–761

2.Королева И.М. Лучевая диагностика рака легкого // Справочник поликлинического врача, 2008, №12, с.20-26

3.Henschke C.I., Yankelevitz D.F. Ct screening for lung cancer // The Oncologist, 2008, v.13, p.65-78.

4.Şenyiğit A, Bayram H, Asan E. Akciğer radyografisi normal saptanan hemoptizili olgularda fiberoptik bronkoskopi ve yüksek rezolüsyonlu bilgisayarlı tomografinin tanıdaki değeri Solunum Hastalıkları, 2001,N 12, T 2, s.123-128.

6.Jeong Y., Chin A., Lee K. Solitary Pulmonary Nodules: Detection, Characterization, And Guidance For Further Diagnostic Workup And Treatment //Ajr Am J Roentgenol, 2007, v.188,p.57-68

7.Verim S. Soliter Pulmoner Nodül // Anatol J. Clin Investig. 2012, T. 6(3), s. 207-210.

8.Günbatar H., Sertoğullarından B. Akciğer kanserli olguların değerlendirilmesi. 3 Yıllık Analiz //Van Tıp Dergisi: 2012, v.19 (1), s. 13-20

Резюме

Роль компьютерной томографии при периферическом раке легких.

Б.А.Бахшыев, В.А.Дадашов

Целью исследования явилось изучение возможности и диагностической семиотики КТ исследований при периферическом раке легких. В исследование вошли архивные и текущие материалы 26 больных с периферическим раком легких. Как видно КТ изображение периферического рака легких разнообразен. Из-за этого в дифференциальной диагностике встречаются определенные сложности. Для решения этой задачи необходимо комплексное оценка анамнестических показателей, клинических признаков и результатов лучевой диагностики.

Summary

The role of computed tomography in peripheral lung cancer .

B.A.Bahshyev, V.A.Dadashov

The aim of the study was to explore the possibility of semiotics and diagnostic CT studies in peripheral lung cancer. The study included archival and current material of 26 patients with peripheral lung cancer. As can be seen a CT image of peripheral lung cancer varied. Because of this, in the differential diagnosis encountered certain difficulties. To solve this problem requires a comprehensive assessment of anamnestic parameters , clinical signs and results of beam diagnostics.

Daxil olub: 15.08.2013

СОВРЕМЕННЫЙ ВЗГЛЯД НА ПРОБЛЕМУ ПАТОЛОГИИ ШЕЙКИ МАТКИ ВО ВРЕМЯ БЕРЕМЕННОСТИ

И.А.Шамхалова, Г.Л. Абдиева

АзГИУВ им А. Алиева кафедра акушерства и гинекологии, г.Баку;

Центральная больница Каспийской морской флотилии, Г.Баку

Açar sözlər: uşaqlıq boynu, potologiya, hamiləlik

Ключевые слова: шейка матки, патология, беременность

Keywords: cervix, pathology, pregnancy

Приоритетным направлением современной медицины является совершенствование охраны здоровья матери и ребенка. В частности остаются актуальными диагностика и лечение заболеваний в период беременности и родов.

Одной из важных проблем периода беременности является патология шейки матки, несмотря на современные достижения развития медицины, выбор оптимальных метод диагностики, профилактики и лечения патологии шейки матки остается до конца не решенным, так как доказано значительное влияние эти заболеваний на течение, исход беременности и родов. Шейка матки в силу своих структурно-функциональных особенностей занимает особое место в репродуктивной системе, во многом определяя перспективы полноценного оплодотворения, не осложненного вынашивания беременности и своевременных родов. Заболевания шейки матки в основном приходятся на репродуктивный возраст женщин, это является одной из главных причин актуальности данной проблемы у беременных.

Предрасполагающими факторами развития патологий шейки матки по данным различных авторов являются раннее начало половой жизни, частые аборты в анамнезе, иммунодефицитные состояния, заболевания передаваемые половым путем. Частота инфекций, передаваемых половым путем в последнее время неуклонно растет и заболевания шейки матки увеличиваются прямо пропорционально данной проблеме. Рост заболеваний внутренних половых органов воспалительно-инфекционного генеза являются причиной не только патологических процессов шейки матки, но и способствуют возникновению осложнений беременности. Наиболее частой причиной осложнения беременности при заболевании шейки матки является невынашивание.

Несмотря на современные достижения в диагностике и лечении доброкачественных заболеваний шейки матки, патология шейки матки остается важнейшей проблемой в акушерстве и гинекологии. Особую актуальность представляет проблема заболеваний шейки матки у беременных.

Шейка матки в силу своих структурно-функциональных особенностей занимает особое место в репродуктивной системе, во многом определяя перспективы полноценного оплодотворения, неосложненного вынашивания беременности и своевременных родов.

Несмотря на современные достижения в диагностике и лечении доброкачественных заболеваний шейки матки, патология продолжает оставаться важнейшей проблемой в акушерстве и гинекологии.

Особую актуальность представляют проблемы заболеваний шейки матки у беременных. Это обусловлено повышением заболеваемости раком шейки матки у женщин репродуктивного возраста в группе до 29 лет В структуре причин смерти женщин моложе 30 лет рак шейки матки составляет 8,5%.

Рак шейки матки - является самым частым в структуре злокачественных опухолей у беременных и составляет почти 45%, в то время как сочетание беременности и рака щитовидной железы составляет 7,8%; беременности и рака молочной железы - 18,9%; беременности и рака яичника - 1,4%.

Частота выявления рака шейки матки при беременности от 1:2000 до 1:5000, преинвазивной карциомы in situ - 1:770 беременных.

Предрасполагающими факторами развития патологии шейки матки по данным различных авторов являются раннее начало половой жизни (до 19 лет); частые аборты в анамнезе; частая смена половых партнеров женщиной, ее мужем; имуннодефицитные состояния; наличие ИППП у женщины, либо у ее полового партнера. Число инфекции, передающих половым путем, в последнее время неуклонно возрастает. Это способствует не только увеличению воспалительных заболеваний внутренних половых органов, но и А приводит к развитию патологических процессов- шейки матки, невынашиванию беременности.

Известно, что ежегодно в мире для 590 тысяч матерей осложнения беременности и родов оказываются смертельными, так же как каждую минуту погибают 8 новорожденных вследствие тяжелых осложнений гестационного процесса у их матерей. Субоптимальные материнские и перинатальные исходы в значительном числе случаев ассоциируются с послеродовыми инфекционно-воспалительными осложнениями и неонатальным сепсисом, а 15 % материнской смертности прямо связано с послеродовым сепсисом. Установлено, что показатель уровня материнской смертности от пуэрперального сепсиса неуклонно возрастает, а

темпы снижения смертности матерей от септических осложнений в последние годы резко замедлились.

Одной из многих предрасполагающих к развитию послеродового сепсиса причин, считаются воспалительные заболевания половых органов, при которых восходящая из шейки маки инфекция способна обсеменить децидуальную оболочку, амнион, хорион с негативными последствиями для матери, плода,новорожденного в виде преждевременного разрыва плодных оболочек (ПРПО), позднего выкидыша, преждевременных родов, хориоамнионита, эндомиометрита, тазового абсцесса, тромбофлебита, перитонита, неонатальных септических заболеваний. В свою очередь, ПР являются основной причиной высокой неонатальной заболеваемости и смертности.

С учетом того, что цервикальный канал даже при асимптомно протекающей инфекции служит резервуаром для перанатальной трансмиссии микроорганизмов в матку, а при выраженной клинической патологии ШМ связь с неблагополучными материнскими и перинатальными исходами становится явной.

Установлено, что при привычном выкидыше 52% женщин страдают эндоцервицитом, 37% новорожденных имеют признаки ВУИ; мертворождение достигает 15-17%; в 4-5 раз учащается послеродовый эндометрит; у 16% родильниц возникают отсроченные осложнения кесарева сечения, в т.ч. тазовыйабсцесс, у 14% рожениц псевдоэрозия ШМ способствовала ее разрыву.

Таким образом, осложнения деторождения ответственны за большую часть МС, но реальная информация об уровне серьезной материнской заболеваемости в стране остается неизвестной. До настоящего времени не установлена частота материнской и перинатальной заболеваемости, ассоциированной с гинекологическими воспалительными заболеваниями, в том числе с ИППП, которыми страдала женщина, вынашивая беременность. Между тем, исследования, выполненные под эгидой ВОЗ, показали 4-10-кратное возрастание уровня пуэрперальных инфекционно-воспалительных осложнений у женщин сцервицитом хламидийного генеза; гонококковая инфекция выявлена у 7%, а хламидийная - у 23% родильниц.

Сегодня пристальное внимание исследователей также привлечено к проблеме онкозаболеваний у беременных женщин, которые существенно ухудшают материнские и перинатальные исходы. В настоящее время среди беременных женщин неуклонно растет частота распространения рака шейки матки (РШМ). Так, согласно данным Европейского общества медицинской онкологии ESMO, РШМ диагностируют у 1:200 беременных женщин. Сводная статистика за последние 50 лет сообщает о 4699 беременных, у которых был диагностирован РШМ. По-видимому, рост заболеваемости РШМобусловлен существенным распространением папилломавирусной инфекции, которая ассоциируется с 10-кратным повышением риска CIN ШМ. Вместе с тем, давно установлено, что рак не возникает внезапно, опухоль проходит период предракового состояния, фоном для последнего служат различные по этиологии и морфогенезу заболевания, по сути, это - все заболевания ШМ.

Общеизвестно, что беременность как физиологическое состояние со свойственными ей специфическими особенностями и иммунодефицитом оказывают крайне неблагоприятное (стимулирующее) влияние на клиническое течение патологических состояний на шейке матке, как органе мишени, способствуя возникновению рака. Во всем мире рак ШМ сочетается с беременностью в 0,45%-3,1% случаев. Опасность его у беременных связана не только с возможностью внутриутробной гибели плода, но и с материнскими потерями.

Иногда предрак регрессирует и переход его в РШМ не является неотвратимым. Этот факт имеет существенное практическое значение для профилактики злокачественного заболевания, которая станет возможной при своевременных диагностике и лечении фоновых заболеваний и СЕЧ ШМ. Именно благодаря скрининговым программам и своевременному лечению предрака ШМ в последние годы снизилась на 80% заболеваемость раком ШМ (372). Однако по-прежнему отсутствует консенсус относительно необходимости биопсии и лечения заболеваний ШМ у беременных женщин, особенно в случаях, подозрительных на CIN III и Ca in situ эктоцервикса, тогда как эта патология обнаруживается довольно часто - в 3 % подозрительных случаев.

Вопросы диагностики, лечения, родоразрешения и мониторинга у беременных с доброкачественными и предраковыми заболеваниями ШМ практически не освещены в учебниках и научно-практических изданиях.

Кольпоскопия и биопсия показана всем женщинам с CIN II и III, независимо, от подтверждается у них наличие ВПЧ инфекции.

Сторонники наблюдательной тактики совершенно игнорируют известный факт стимулирующего прогресс опухоли влияния беременности.

Кроме того, при беременности кольпоскопические, цитологические и гистологические картины меняются, поэтому возможны как гипер-, так и гиподиагностика озлокачествления вследствие скептического отношения клиницистов и морфологов к возможным малигнизированным внутриэпителиальным изменениям экзоцервикса у беременных.

В женских консультациях страны функционирует кабинет патологии шейки матки для оказания специализированной помощи больным женщинам, но беременных предписания приказа не коснулись, т.к. согласно устоявшемуся среди практикующих врачей мнению, диагностику и лечение патологии ШМ следует осуществлять лишь после завершения беременности из-за опасений спровоцировать инструментальными исследованиями выкидыш. Более того, при позднем первом визите беременной в консультацию, когда дно матки определяется выше лона, ШМ неосматривают даже в зеркалах. Между тем, известно, что без дополнительных исследований появившиеся клинические признаки рака ШМ чаще всего трактуются как симптомы выкидыша или предлежания плаценты. В подобных случаях назначается сохраняющая беременность терапия и надолго откладывается диагностическая биопсия.

В последние годы при выявлении у беременной CIN II, III агрессивная диагностическая и лечебная тактика сменяются консервативной, в особенности считают непоказанной конусовидную биопсию из-за возможных серьезных последствий для беременности. Американская ассоциация кольпоскопии и цервикальной патологии разработала в 2006 году следующие согласительные рекомендации: у очень молодых беременных женщин при CIN II оптимальным является тщательное наблюдение, а при CIN III показана эксцизия или аблация очага дисплазии.

Отечественные авторы рекомендуют выполнять прицельную биопсию лишь при подозрении на инвазивный процесс; после исключения инвазивного рака все диагностические и терапевтические мероприятия выполняются через 2 месяца после родов.

Как следует из выше изложенного, в настоящее время при предраке ШМ у беременных женщин просматривается существенная разница между диагностическими и лечебными подходами отечественных и зарубежных клиницистов.

Таким образом, заболевания ШМ у беременных чреваты серьезнейшими осложнениями гестационного процесса вплоть до гибели матери, плода и новорожденного от септических осложнений. В некотором числе случаев плохие материнские и перинатальные исходы ассоциируются с онкопатологией ШМ. Вместе с тем, оптимизировать исходы беременности, родов, послеродоваого и неонатального периодов вполне возможно прогнозированием, адекватной своевременной и современной диагностикой, лечением и предупреждением осложнений гестации превентивными технологиями, начиная с ранних сроков беременности оздоравливать ШМ и нижний отдел генитального тракта.

Литература

1. Исаков В.А., Кноринг Г.Ю., Стернин Ю.И. и др. Иммунопатогенез и терапия простого герпеса: Рекомендации для врачей. СПб, 2008, 88с.

2. Biggs W.S. Cervical conisation affects pregnancy outcnee // J. Watch womens Health., 2008, v.13, p.84-85

3. Прилепская В.Н. Патология шейки матки и генитальные инфекции. М.: МЕДпресс-информ, 2008, 398 с.

4. Bipat S., Glas A.S., van der Velden J. et al. Computed tomography and magnetic resonance imaging in staging of uterine cervical carcinoma: a systematic review // Gynecol. Oncol., 2003, v.91, p. 59-66

5. Арестова И.М., Занько С.Н., Русакевич П.С. Генитальные инфекции и беременность. М.: Медицинская литература, 2003, 176 с.
6. Бабинцева Т.В. Оценка эффективности и лечения эктопии шейки матки с использованием радиоволнового метода: Автореф. дисс.... канд. мед. наук. Пермь, 2006, 20 с.
7. Баггиш М.С. Кольпоскопия. Атлас-справочник. М.: Практика, 2008, 340 с.
8. Подзолкова Н.М., Кузнецова И.В., Глазкова О.Л. Клиническая гинекология. М.: Медицинское информационное агентство, 2009, 640 с.
9. Бакулев П., Василенко А.Л, Оркин В.Ф. и др. Воспалительные заболевания гениталий инфекционной природы у женщин. М.: Дрофа, 2008, 152 с.
10. Бауэр Г. Цветной атлас по кольпоскопии. М.: ГЭОТАР-Медиа, 2009, 288 с.
11. Бахидзе Е.В. Фертильность, беременность и гинекологический рак. , М.: Диля, 2004, 288 с.
12. Бургхардт Э., Пикель Г., Жирарди Ф. Кольпоскопия. Атлас и руководство. , М.: Медицинская литература, 2008. , 176 с.
13. Кауфман Р., Фаро С., Браун Д. Доброкачественные заболевания вульвы и влагалища. — М.: Бином, 2009, 548 с.
14. Петерсен Э.Э. Инфекции в акушерстве и гинекологии. М.: МЕДпресс-информ, 2007, 352 с.
15. Подистов Ю.И., Лактинов К.П., Петровичев Н.Н. и др. Эпителиальные дис-плазии шейки матки (диагностика и лечение). М.: ГЭОТАР-Медиа, 2006,138 с.
16. Роговская С.И. Практическая колытоскопия. М.: ГЭОТАР-Медиа, 2010. -294 с.
17. Saslow D., Runowicz C.D., Solomon D. et al. American Cancer Society guideline for the early detection of cervical neoplasia and cancer.// CA Cancer J Clin., 2002, v.52, p.342-362.
18. Soma H., Okada T., Yoshinari T. et al. Placental site trophoblastic tumor of the uterine cervix occurring from undetermined antecedent pregnancy.// J Obstet Gynaecol Res., 2004, v.30, p.113-116
19. Прилепская В.Н. Возрастные особенности шейки матки. Современные методы диагностики патологии шейки матки.// Акушерство и гинекология, 1998, N6, с.51-54.
20. Ohwada M., Suzuki M., Hironaka M. et al. Neuroendocrine small cell carcinoma of the uterine cervix showing polypoid growth and complicated by pregnancy.//Gynecol. Oncol., 2001, v.81, p.117-119.
21. Russomano F., Reis A., de Camargo MJ. et al. Efficacy in treatment of subclinical cervical HPV infections without CIN. Systemic review. San Paulo Mtd J // Rev Paul Med., 2000, v.118, p.109-115.
22. Роузвиа С.К. Гинекология. М.: МЕДпресс-информ, 2007, 520 с.
23. Кузьменко Е.Т., Ладыгина А.В. Сочетание различных ИППП с псевдоэрозией шейки матки / «Росс. Конгресс « Генитальные инфекции и патология шейки матки». 2004, с. 55.
24. Сидорова И.С., Макаров И.О., Куликов И.М. Патологические состояния шейки матки во время беременности // Вопросы гинекол., акуш. и принатол., 2009, №5, с.75-80.
25. Хапимов Ф.М., Купавский В.А. Оптимизация методов хирургического лечения посттравматической деформации шейки матки / VII- Росс, форум «Мать и дитя». М., 2005, с.527
26. Харит С.М. Профилактика папилломавирусной инфекции // Практика педиатра, вакцинопрофилактика, 2008, №5
27. Манухин И.Б., Пономарева Ю.Н. Исследование пролиферативной активности клеток в диагностике цервикальных интраэпителиальных неоплазий / Материалы «Всероссийского конгресса «Амбулаторно-поликлиническая практика новые горизонты». - М., 2010, с. 206.
28. Шперлинг Н.Г. комплексная терапия аногенитальных кондилом у женщин / Форум «Мать и дитя». М., 2005, с.548
29. Яглов В.В. Воспалительные заболевания органов малого таза // Гинекология, 2001, №3, с. 93-97.

Xülasə

Hamiləlik zamanı uşaqlıq boynu patologiyalarına müasir baxış

İ.A.Şamxalova, G.L.Abdiyeva

Müasir təbabətin prioritet məsələlərindən biri ana və uşağın sağlamlığının mühafizəsidir. Xüsusilə hamiləlik və doğuş zamanı xəstəliklərin diaqnostika və müalicəsi də aktual olaraq qalmaqdadır. Hamiləlik zamanı ən vacib problemlərdən biri uşaqlıq boynu patologiyalarıdır ki, müasir təbabətdə əldə olunan nailiyyətlər, diaqnostika, profilaktika və müalicədə yeni optimal metodların meydana

gəlməsinə baxmayaraq uşaqlıq boynu patologiyası sona qədər öz həllini tapmamışdır. Hazırda bu patologiyanın hamiləliyin və doğuşun gedişatın nəzərəçarpacaq təsiri sübut olunmuşdur.

Summary

Modern look back on cervical pathology during pregnancy

I.A.Shamhalova, G.L. Abdiyeva

A priority of modern medicine is to improve maternal health and child. In particular remain relevant diagnosis and treatment during pregnancy and childbirth. One important issue is the gestation period of cervical pathology, despite the advancements of medicine, the selection of the optimal method of diagnosis, prevention and treatment of cervical pathology is not completely resolved, as proved a significant impact on these diseases during, the outcome of pregnancy and childbirth.

Daxil olub: 23.07.2013

ПРОФИЛАКТИКА ОСЛОЖНЕНИЙ ПРИ ЛЕЧЕНИИ ЗАБОЛЕВАНИЙ ЖЕЛЧЕВЫВОДЯЩЕЙ СИСТЕМЫ

К.Р.Юсиф-заде

Военный госпиталь Государственной пограничной службы Республики Азербайджан, г.Баку

Açar sözlər: öd yolları xəstəlikləri, profilaktika, ağırlaşmalar
Ключевые слова: заболевания желчевыводящей системы, профилактика, осложнения
Keywords: diseases of the biliary system, the prevention of complications

Из всех осложнений лапароскопической холецистэктомии (ЛХЭ) наиболее значимы повреждения внепеченочных желчных путей. Их частота составляет 6 случаев на 1000 операций. а при открытой холецистэктомии в 2-5 раз меньше. Кроме того. сравнение ЛХЭ и открытой холецистэктомии не совсем корректно. поскольку группы существенно отличаются по характеристикам пациентов [1,2,3,4]. Традиционным способом оперируют практически всех больных с осложнениями желудчно-кишечных болезней (ЖКБ) (острый холецистит. механическая желтуха). а ЛХЭ применяют в более простых и благоприятных в прогностическом плане случаях. Хотя общая летальность после ЛХЭ ниже. чем после открытой холецистэктомии. более половины смертей после лапароскопических операций при ЖКБ обусловлено самим методом. Тогда как при открытой операции 90% летальных исходов связано с сопутствующими заболеваниями сердечно-сосудистой и лёгочной систем. Поэтому проблема ятрогенных повреждений внепеченочных желчных путей при ЛХЭ имеет первостепенное значение [5,6,7[. Ранения жёлчных протоков весьма различны по характеру. последствиям. способным варьировать от небольшого желчеистечения до неизлечимых стриктур внутрипечёночных протоков. Различают большие и малые повреждения. частота которых примерно одинакова в отличие от открытой хирургии. где преобладают небольшие повреждения. «Большие повреждения» - это полное пересечение ОЖП. общего печёночного. долевого печёночного протоков или пересечение протока на более чем 50% его окружности.

Цель исследований: оценить структуру осложнений при диагностике и хирургическом лечении заболеваний желчного пузыря.

Материалы и методы исследований. Основой клинических исследований являются результаты лечения пациентов. оперированных за период 2006-2012 год. Всего за этот период выполнено 404 ЛХЭ. Лапароскопическим способом были выполнены 399 (98.7%) операций. завершены лапаротомным 5 (1.2%). Мужчин было 102. женщин 302. Возраст больных от 18 до 80 лет. большинство составили пациенты наиболее работоспособных возрастов – от 30 до 60 лет. а пациенты старшей возрастной группы (> 60 лет) составили 15.3%.

За период с 2006-го по 2012 гг. нами было произведено 175 ЭРХПГ и 159 ЭПСТ (эндоскопическая папиллосфинктеротомия). В таблице приводится распределение больных по нозологическим формам. При необходимости эндоскопической ретроградной холангиопанкреатографии (ЭРХПГ) и эндоскопической папиллосфинктеротомии (ЭПСТ) применялся гастродуоденоскоп TJF-150 и стойка фирмы «Olympus». Операция ЛХЭ

выполнялась со стойкой и набором инструментов фирмы «Karl Storz» (Германия). «Covidien» (Швейцария).

Результаты исследования обработаны методом вариационной статистики. Для характеристики группы однородных единиц были определены их средние арифметические величины (M). ее стандартная ошибка (m) и диапазон изменений (min-max). Статистическая обработка полученных данных проводилась на персональном компьютере с использованием современного программного обеспечения – редактора электронных таблиц Microsoft Excel 2007 и пакета прикладных программ Statistica 7.0.

Результаты собственных исследований. Возраст больных от 18 до 80 лет. большинство составили пациенты наиболее работоспособных возрастов – от 30 до 60 лет. а пациенты старшей возрастной группы (> 60 лет) составили 15.3% (рис. 1).




Рис. 1 Распределение пациентов по возрасту

Сопутствующие заболевания наблюдались у 86 (21,28%) пациентов. перенесших ЛХЭ. Из сопутствующих заболеваний сердечно-сосудистые заболевания встречались у 35 (8,7%). сахарный диабет – у 22 (5,4%). урологические болезни – у 6 (1,5%). гинекологические болезни- у 6 (1,5%).

Данные таблицы 1 указывают на сравнительной невысокий. несмотря на тяжелый характер течения фоновой патологии у больных при поступлении в стационар и перед началом проведения диагностических мероприятий. процент осложнений (8.9%). что в некоторой степени подтверждалось литературными данными.

Таблица 1

Частота и вид осложнений в зависимости от типа эндоскопической процедуры

Вид эндоскопической процедуры	Число больных	Осложнения						
		кровотечение	перфорация	Панкреатит	Холангит	вклинение камня	Анестезиологические осложнения	Всего
Диагностическая ЭРХПГ	16	-	-	3	-	-	2	5
ЭП-pre-cut	12	2	-	-	-	-	-	2
ЭРХПГ+ЭП	147	2	-	6	-	-	9	17
всего	175	4	-	9	-	-	11	24

Необходимо отметить. что в процессе ЭРХПГ без папиллотомии возможно возникновение осложнений. в основном. это постманипуляционный панкреатит и холангит. что чаще всего является результатом эндогенной инфекции. В нашем случае все выявленные осложнения устранялись адекватными терапевтическими манипуляциями.

Применение эндоскопической папиллотомии для разрешения патологического состояния является более серьезным вмешательством и может чаще приводить к возникновению

осложнений. Наибольший процент осложнений наблюдается при операции ЭП-pre-cut (16.7%) с использованием игольчатого электрода. обеспечивающего доступ в холедох в процессе затрудненной канюляции. Частые осложнения обусловлены тем. что контролировать погружение иглы-электрода вглубь ткани иногда не представляется возможным. в результате чего вероятность перфорации, кровотечения и развития панкреатита увеличивается. По нашим результатам в 12 неудачных случаях канюлизации холедоха удалось достичь положительных результатов с использованием игольчатого электрода.

Операция ЭРХПГ+ЭП - это стандартное сочетание операций с частотой осложнений в пределах 7-10%.

Наиболее частым осложнением является панкреатит. далее холангит. кровотечение. перфорация ретродуоденальной складки. а вклинение обнаруженного фрагмента (камня) – наиболее редко встречающееся осложнение. В настоящее время во всем мире повышенный интерес проявляется к операциям. выполняемым не через три-четыре небольших разреза как при стандартной лапароскопической холецистэктомии. а всего лишь через один небольшой двух сантиметровый разрез. выполняемый в пупочной области. Одним из пионеров данной методики является компания Covidien (SILS™ Port), которая и разработала специальный порт. через который и заводятся все используемые в операции инструменты.

Больная 33 лет поступила в хирургическое отделение Военного госпиталя Пограничной Службы АР 11.10.2011 года с диагнозом: "Желчнокаменная болезнь, Хронический калькулезный холецистит", 12.10.2011 г. выполнена лапароскопическая холецистэктомия. 13.10.2011 г. выписана домой.

21.10.2011 г. больная вновь обратилась в госпиталь с жалобами на тошноту. желтушность. При осмотре: Общее состояние стабильное. Кожные покровы и слизистая желтушны. Артериальное давление 115/75 мм рт.ст. При пальпации живот мягкий и болезненный в правом подреберье. Симптом Пастернацкого отрицательный. Общий анализ крови: BIL-D 15 mg/dL (N: 0-0.8). BIL-T 25 mg/dL (N: 0.2-2.1). ALT-324 U/L. AST-252 U/L. Произведено УЗИ брюшной полости. визуализировалось расширение внутрипеченочных желчных протоков I-II деления на 4.4-4.8 мм. холедох в 1/3 проекции сужен. В данной проекции прослеживаются инородные тела в форме параллельных линий. По данным выполненной ЭРХПГ холедох не окрашивается после средней 1/3 части.

Диагноз: «Состояние после холецистэктомии. Ятрогенная механическая желтуха».

Больной проведена открытая холецистэктомия. Выяснилось. что во время лапароскопической холецистэктомии общий желчный проток. ошибочно принятый за пузырный проток, был клипирован и пересечен. Блокированный участок холедоха обнаружен и ликвидирован. Сформирован холедохоеюно-анастомоз и энтеро-энтероанастомоз методом Ру, дренирование брюшной полости. Таким образом, общий желчный проток был восстановлен. Послеоперационный период прошел без осложнений.



Рис.1. Клипирование ОЖП.




Рис.2. Пересечение ОЖП.

Таким образом, к опасным и к сожалению все еще частым осложнениям. возникающим непосредственно во время оперативного вмешательства с применением лапороскопической

техники и в послеоперационный период. относятся ранение внепеченочных желчных протоков. повреждение органов брюшной полости, массивные кровотечения. желчный перитонит. Довольно высокий уровень частоты встречаемости постоперационных осложнений лапароскопической холецистэктомии свидетельствует об актуальности и нерешенности данной проблемы. что предопределяет необходимость и своевременность разработки достаточно эффективных средств и методов их профилактики и прогнозирования.

ЛИТЕРАТУРА

1. Кузнецов Н.А., Соколов А.А., Артемкин Э.Н., Кудишкина И.Н. Механическая желтуха в ранние сроки после холецистэктомии // Бюллетень Восточно-Сибирского научного центра Сибирского отделения РАМН, 2010, № 2, с.55-59.

2. Курбонов К.М., Даминова Н.М. Диагностика и тактика лечения послеоперационного желчного перитонита // Хирургия, 2007, №8, с.38-42.

3. Мизуров Н.А. Лечение желчнокаменной болезни и ее осложнений: Учеб. пособие. Чебоксары: Изд-во Чуваш. ун-та, 2002, 104 с.

4. Назыров Ф.Г., Хаджибаев А.М. Операции при повреждениях и стриктурах желчных протоков //Хирургия, 2006, №4, с.46-52.

5. Соколов А.А.. Лопаткин Д.С.. Артемкин Э.Н.. Кудишкина И.Н. Эндоскопическое лечение синдрома острой окклюзии терминального отдела холедоха и ампулы большого дуоденального сосочка / Материалы 14 Московского международного конгресса по эндоскопической хирургии 21 – 23 апреля. М., с.187-188.

6. Mallery J.S., Baron T.H. Dominitz J.A. et al. Complications of ERCP // Gastrointest Endosc., 2003,v.57, p.633

7. Masci E., Toti G., Mariani A. et al. Complications of diagnostic and therapeutic ERCP: a prospective multicenter study // Am J Gastroenterol., 2001, v.96, p.417.

Xülasə

Öd sistemi xəstəliklərinin müalicəsində agırlaşmaların profilaktikası

K.R. Yusif-zadə

Dövlət Sərhəd Xidmətinin hərbi hospitalına müraciət edən 404 öd sistemi patoloqiyaları askarlanan xəstə üzərində statistik araşdırmalar aparılmışdır. Xəstələrdə xroniki kalkulyoz xolesistit, xroniki kalkulyoz xolesistitin kəskinləşməsi, kəskin qanqrenoz-kalkulyoz xolesistit, kəskin fleqmanoz kalkulyoz xolesistit, öd kisəsi polipi və digər patologiyalar aşkar olunmuşdur. Xolesistitlər öd kisəsinin iltihabı olub və onlara daha çox hallarda qadınlarda rast gəlinir, qeyd etdiyimiz patoloqiyaların daha da qabarıq səkildə təzahürünün yaranmasina yanasi inkişaf edən xəstəliklər də şərait yaradır. Müayyinə olunanların ümümi vəziyyətinin və xəstəlik tarixinin dərindən öyrənilməsi və alınan nəticələr onlarda daha cox ürək-damar və endokrin xəstəliklərin olmasini aşkar etmişdir. 175 cərrahi xəstələrdə endoskopik prosedurların effektivliyini qiymətləndirilməsi ERCP metodunun tədbiqi müalicənin nəticələrinin yüksəlməsinə zəmin yaradir. Endoskopik prosedurları effektivliyinin təhlili zamanı ERCP metodu üzrə (96,5%) yüksək nəticələr əldə edilmişdir və ekstrahepatik patologiyaların müalicəsində o "qızıl standart" kimi göstərilməlidir. 98.7%-li nətcə endoskopik papillotomy tətbiq edildikdə əldə olunmuşdur.

Summary

Prevention of complications in the treatment of the biliary system diseases

K.R.Yusif-zade

A statistical analysis of case histories of 404 surgical patients who were on combined treatment of diseases of the gallbladder and extra hepatic bile ducts, age and sex distribution of patients and the presence of comorbidities were carried out in a military hospital in the border troops. In form and severity of the studied pathologies identified in hospitalized surgical patients was determined for the following pathologies: chronic calculous cholecystitis. acute exacerbations of chronic calculous cholecystitis. acute calculous cholecystitis, acute gangrenous calculous cholecystitis, acute abscess calculous cholecystitis, gallbladder polyp, etc. Almost all of the surgical patients had a combined manifestation of the different clinical forms of background pathology and associated diseases (mostly abnormalities of cardiovascular, endocrine and urogenital systems). In addition there was a dependence of frequency of occurrence of gallbladder disease by age and gender. Results obtained in studies evaluating the efficacy of endoscopic procedures performed in 175 surgical patients indicate a high resolution of the method ERCP. The analysis of the effectiveness of endoscopic procedures

indicate a high resolution method ERCP (96,5%), and it is the "gold standard" for treatment of extrahepatic pathologies. It is noted the high performance of endoscopic papillotomy. reaching 98,7%.

Daxil olub: 14.05.2013

MÜXTƏLİF MATERİALLARDAN HAZIRLANMIŞ ÇIXAN PROTEZLƏRİN İSTİFADƏSI ZAMANI BAŞ VERƏN AĞIRLAŞMALAR

R.R.Şahmuradov

Azərbaycan Tibb Universiteti, ortopedik stomotologiya kefedrası, Bakı

Açar sözlər: diş protezləri, material, ağırlaşmalar
Ключевые слова: зубные протезы, материалы, осложнения
Keywords: dentures, materials, complications

Müxtəlif proseslər nəticəsində əsas stomatoloji xəstəliklərin (karies və onun ağırlaşmaları, paradont və selikli qişa xəstəlikləri) meydana çıxması və ağırlaşması nəticəsində dişlərin erkən itirilməsi baş verir. Dişlərin itirilməsi ağız boşluğu yaxud ümumi orqanizm səviyyəsində baş verən destruktiv proseslər və xəstəliklər nəticəsində də baş verə bilər. Bu problemlər daima həkim-stomatoloq və tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Ağız boşluğunda dişlərin tam yaxud hissəvi itirilməsi funksional çatışmazlıqlara və deformasiyalara gətirib çıxarır. Ona görə də müasir stomatologiyanın əsas istiqamətlərindən biri də belə xəstələrin protezlərlə təmin edilməsi, funksional çatışmazlıqların və xəstənin qidalanma qabiliyyətinin bərpasıdır. Dişlərin hissəvi itirilməsi çoxsaylı dişləri əhatə etdikdə, hüdudlanmayan qüsurlar olduqda və tam adentiya olduqda funksional çatışmazlıqları aradan qaldırmaq üçün çıxan lövhəli-akril, bügel və termoplast tərkibli protezlərdən istifadə olunur [4]. Bu növ protezlərin geniş tətbiq olunmalarına baxmayaraq, müasir dövrümüzdə dişsiz xəstələrin ideal protezlənməsi və funksional çeynəmə qabiliyyətlərinin tam bərpası sahəsində tədqiqatların aparılmasına ehtiyac yaranır. Bundan başqa, çıxan protezlərin dişləri estetik tələblərə də cavab verməlidir. Müxtəlif ədəbiyyat məlumatlarını araşdırarkən əhalinin çıxan protezlərə ehtiyac dərəcəsi təxminən 15-96% arasında dəyişilir. Bu göstəricinin belə geniş dəyişməsi ayrı-ayrı yerlərdə yaşayan əhalinin yaş tərkibinin dəyişikliyi ilə əlaqədardır.Müasir dövrümüzdə çıxan protezlərin geniş tətbiqi və onların düzəldilməsi üsullarının təkmilləşdirilməsinə baxmayaraq, protezlər istifadəçilərinin protezin əlavə təsirlərinə dair şikayətləri yenə də artım tendensiyasında davam edir [1,2,3]. Polimer protezlər ağız boşluğuna toksiki-allergik, qıcıqlandırıcıtəsirlər göstərərək ağız boşluğunun selikli qişasının, mədə-bağırsaq traktının xroniki xəstəliklərinə, asteniya və dispepsiyaya səbəb ola bilər.

Müasir dövrümüzdə akril protezləri daha yeni tərkibli konstruksiyalar əvəz etməkdədir. Bu konstruksiyalar bügel və termoplast protezləri aiddirlər. Termoplast protezlərin sınma halları az nisbətən az olurProtez yatağının iltihabı reaksiyaları dedikdə, müxtəlif səbəblərdən protezin altında qalan yumşaq toxuma sahələrində iltihabı reaksiya və proseslərin inkişafı nəzərdə tutulur. Bu proseslərə protezin düzgün hazırlanmaması nəticəsində yumşaq toxumaların travması, protezin termiki mərhələsinin düzgün yerinə yetirilməməsi nəticəsində artıq monomer qalıqlarının selikli qışanın qıcıqlanması, allergiyası, protez stomatitləri və s. aiddir (5.6.8). Taktil hissiyatının pozulması isə əsasən lövhəli akril diş protezlərində müşahidə olunur ki, bu da qeyd olunan protezlərin lövhələrinin selikli qişanın reseptorlarla zəngin səthini yeməklə təmasdan məhrum etməsilə əlaqədardır. Bügel protezlərində isə lövhəni metal qövs əvəz etdiyindən qidalar asanlıqla selikli qişanın reseptorlu səthləri ilə təmas edir. Yuxarıda qeyd etdiyimiz halların müxtəlif materiallardan hazırlanmış protezlərdə rast gəlinməsi onların keyfiyyət və funksional göstəricilərini ehtiva edir. Ona görə də müxtəlif növ protez istifadəçiləri arasında qeyd olunan halların hesablanması və statistikası aktual mövzudur.

İşin **məqsədi** müxtəlif materiallardan hazirlanmış çıxan protezlərin istifadəsi zamanı baş verən əlavə halların statistik təhlilindn ibarətdir

Material və metodlar: Bu məqsədlə tərəfimizdən çıxan protezlərlə ortopedik müalicə olunan 118 nəfər yaşı 60-75 arası olan şəxslər üzərində protezlənmədən 3 ay sonra müayinələr aparılmış və onlarda diskomfort, protez yatağının iltihabı reaksiyalarının olması, taktil hissiyatının pozulması, protezin sınması, protez yatağında yanma hissi və hipesalivasiyanın olub olmaması öyrənilmişdir. Qeyd edək ki, 118 nəfərdən 43-ünə akril, 35-nə termoplast və 40-na isə bügel protezi hazırlanmışdır.Müxtəlif növ protez taxan qruplar üzrə qeyd olunan çatışmazlıqların qrup üzrə neçə

nəfərdə rast gəlinməsi faiz tezliyi ilə hesablanmışdır. Alınmış ədədi verilənlər müasir tələbləri nəzərə almaqla statistik metodlarla işlənmişdir. Qrup göstəriciləri üçün orta qiymətlər (M), onların standart xətası (m), sıraların minimal (min) və maksimal (max) qiymətləri, həmçinin qruplarda keyfiyyət göstəricilərinin rastgəlmə tezliyi müəyyən edilmişdir. Qeyd edək ki, tədqiqat işi zamanı alınan nəticələrin statistik işlənməsi Statistica 6.0 tətbiqi komputer proqramı ilə aparılmışdır.

Tədqiqatın nəticələri və onlarin müzakirəsi: Müayinələr nəticəsində 3 ay sonra akril protez düzəltdiyimiz 43 nəfər xəstələrdən 88,4±4,89%-ində diskomfort, 83,7±5,63%-ində protez yatağında iltihabi proseslər, 81,4±5,93%-ində taktil hissiyatının pozulması, 69,8±7,00%-ində protezin sınması, 32,6±7,15%-ində protezə öyrəşmənin çətinləşdiyi, 67,4±7,15%-ində protez yatağının toxumalarında yanma hissiyyatı və 72,1±6,84% xəstələrdə isə hipersalivasiya aşkar edilmişdir. Rampelə görə bügel protezlər yarım-fizioloji, lövhəli plastmass protezlər isə qeyri-fizioloji hesab olunur. Əsasən hissəvi adentiyanın ortopedik müalicəsində istifadə olunan Bügel protezləri qalan dişlərə oturan klammerlərlə təchiz olunurlar ki, əksər hallarda bu klammerlər dayaq dişlərinin şaquli oxu boyu da çeynəmə qüvvəsinin ötürürlər. Bu halda selikli qişa daha az təzyiqə məruz qalır. Bundan başqa, bügel protezinin lövhəsi ensiz metal qövslə əvəz olunduğundan onun altında mikroorqanizmlərin toplanması üçün şərait olmur. Termoplast protezlər isə lövhəli quruluşa malik olsalar da onların tərkibindəki polimerlər yumşaq toxumalara daha az ziyan vururlar. Onlar akril materiallara nisbətən yumşaq olurlar ki, bu çeynəmə qüvvələrinə qarşı dözümlü olmağa yardim edir, çeynəmə effektini yaxşılaşdırır. Qeyd olunan hallar daha çox yaşı 80-dən çox olan şəxslərdə rast gəlinmişdir. 35 nəfərdən ibarət termoplast tərkibli protez düzəltdiyimiz şəxslər qrupunda isə müayinələr nəticəsində 34,3±7,24% xəstələrdə diskomfort müşahidə olunmuşdur ki, bu da akril protez istifadə edən şəxslərdəkindən 2,5 dəfə azdır. Protez yatağında baş verən iltihabi proseslər isə 40,0±7,47% xəstələrdə müşahidə olunmuşdur ki, bu da akril protezi istifadə edənlərdə 2 dəfəyə qədər azdır (Cədvəl 1).

Cədvəl 1

Müxtəlif materiallardan hazirlanmış çıxan protezlərin istifadəsi zamanı baş verən əlavə hallar

Əlavə hallar	Akril (n=43)	Termoplast (n=35)	Bügel (n=40)
Diskomfort	88,4±4,89	34,3±7,24	25,0±6,85
İltihabi dəyişikliklər	83,7±5,63	40,0±7,47	10,0±4,74
Taktil hissiyatın pozulması	81,4±5,93	8,6±4,27	37,5±7,65
Sınma	69,8±7,00	0	17,5±6,01
Öyrəşmənin çətinliyi	32,6±7,15	2,9±2,54	15,0±5,65
Yanğı hissi	67,4±7,15	0	20,0±6,32
Hipersalivasiya	72,1±6,84	42,9±7,55	50,0±7,91

Termoplast tərkibli protez düzəltdiyimiz 35 nəfər şəxslərdən cəmi 8,6±4,27% təşkil etmişdir ki, bu da akril protez gəzdirən qrupun eyni göstəricisindən 10 dəfəyə qədər azdır. Termoplast protezi taxan şəxslərdə protezin sınması və protez yatağının yanması halları qeydə alınmamışdır, protezə öyrəşməmə halları isə 2,9±2,54% təşkil etmişdir ki, bu akrillərdən 16 dəfə azdır. Hipersalivasiya halları isə termoplast protez istifadə edən şəxslərdən 42,9±7,55% -də rast gəlinmişdir ki, bu da akril protezi taxan şəxslər qrupunun uyğun göstəricisindən 1,5 dəfəyə yaxın azdır. Termoplast protezlər elastiki olduqları üçün onlar deformasiyaya uğrayaraq taktil hissiyatını protez yatağı toxumalarına ötürürlər. Protezin qırılması halları da tez-tez baş verə bilər. Protezin qırılması halları daha çox bügel və akril plastmasslarından hazırlanan protezlərdə baş verir ki, bu da onların sərt və kövrək olduqlarına görədir. Termoplast protezlər elastiki olduqlarına görə az hallarda sınırlar. Protezə öyrəşmənin çətin olması çox vaxt ilk dəfə protez taxan şəxslərdə baş verir. Akril və bügel protezlərinə öyrəşmə termoplast protezlərdən çətin olur. Protezi taxan zaman onun altında qalan yuymşaq toxuma sahələrində yaranan yanğı hissi adətən akril protezlərin monomerlərinin yumşaq toxumalara təsiri, şəxsin individiual həssaslığı və akril protezin düzgün termiki qaynatma mərhələsindən keçirilməməsi nəticəsində monomer qalıqlarının tam polimerləşməməsi nəticəsində yaranır. Hipersalivasiya da protezləmə zamanı baş verən hallardan biridir. Hipersalivasiya allergik reaksiyalar, iltihabi proseslər və s. səbəblərdən baş verir.

40 nəfərdən ibarət bügel protezi ilə təchiz etdiyimiz şəxslər qrupunda isə 25,0 ± 6,85% hallarda diskomfort müşahidə olunmuşdur ki, bu akril protezli şəxslər qrupundan 3, termoplast protezli şəxslər qrupundan isə 1,2 dəfə az olmuşdur. Bu qrupda protez yatağının iltihabi reaksiyaları 10,0 ± 4,74% şəxslərdə rast gəlinmişdir ki, bu termoplast protez istifsdə edən şəxslərdən 8, termoplast protezlərdən

isə 4 dəfə azdır. Bügel protezi istifadə edən şəxslər qrupunda protez yatağı toxumalarının iltihabı reaksiyalarının digər 2 qrupun göstəricilərində az olması bu protezlərdə çeynəmə qüvvəsinin dayaq dişlərinin parodontuna istinad-tutucu klammerlər vasitəsilə ötürülməsi nəticəsində selikli qişanın nisbətən az təzyiqə məruz qalmasıyla əlaqədardır. Akril protezlərin hazırlanması zamanı onun materialının tərkibinə hidroksiapatitlərin daxil edilməsi polimerləşməsi zamanı monomer molekullarının çevrilmə koofissentini və plastmassın rezistentliyini artırır, mikroorqanizmlərin inkişafına şərait yaratmır. Çıxan protezin hazırlanmasının yaxşılaşdırılması nəticəsində akril protezlərə elastiki altlıqların tətbiqi nəticəsində protezin effektivliyi və xəstənin tez öyrəşməsinə şərait yaranır. Hesablamalara əsasən akril protezlərə yumşaq və elastiki təbəqənin yapışdırılması çeynəmə effektini 20-25% artırır. Protez yatağına akril materiallarının toksiki-allergik iltihabi reaksiyaları yerli toxumaların protez materiallarına reaktivliyinin artmasıyla əlaqədardır. Akril protezləri daha çox protez stomatitlərinə səbəb olurlar.

Taktil hissiyatının pozulması isə 37,5±7,65% şəxslərdə rast gəlinmişdir ki, bu da termoplast protezlərdən 4 dəfə çox, akril protezlərdən isə 2,5 dəfə azdır. Bügel protezi taxan xəstələrimizdə protezin qırılma hallarına 17,5±6,01% hallarda rast gəlinmişdir ki, bu akril protezlərinin uyğun göstəricilərindən 3 dəfə azdır. Protezlərə öyrəşmənin çətinliyi isə 15,0±5,65% hallarda rast gəlinmişdir ki, bu hal akril protez istifadəçilərindən 2 dəfə az, termoplast protezlər istifadəçilərindən isə 6 dəfə çoxdur. Bügel protezi istifadə edən şəxslər qrupunda protez yatağında yanma hissi 20,0±6,32% şəxslərdə rast gəlinmişdir ki, bu da akril protezləri istifadə edən şəxslərin uyğun göstəricilərindən 3,2 dəfə azdır. Hipersalivasiya halına isə bügel protezi taxan şəxslərin 50,0±7,91%-ində rast gəlinmişdir ki, bu hal termoplast protez istifadə edən şəxslərdən cüzi artıqdır, akril protezlərin istifadəçilərindən isə 1,2 dəfə azdır. Qeyd edək ki, termoplast protez istifadə edən şəxslər qrupunda protez yatağında yanğı hissi və protezin sınma halına rast gəlinməmişdir. Bu hal termoplast protezlərin funksional və dözümlülük baxımından digər növ protezlərdən üstün olduğunu göstərir. . Hissəvi və tam çıxan protezlərdən istifadə edən şəxslər protezi istifadə edərkən narahatlıqdan-diskomfortdan, yumşaq toxumaların, o cümlədən protez yatağının ihtihabi reaksiyalarından, taktil hissiyatının zəifləməsindən, onun tez-tez sınmasından, protezə öyrəşə bilməməkdən, protez yatağının yumşaq toxumalarında yanğı hissindən və hipersalivasiya kimi əlavə problemlərdən əziyyət çəkirlər. Diskomfort dedikdə, xəstənin protezi ağzına taxarkən narahat olması, pis hisslər keçirməsi nəzərdə tutulur, xəstədə sinir problemləri, protezin düzgün hazırlanmaması, ilk dəfə protez taxma və səbəblərlə əlaqədar meydana çıxır.

Nəticə. Protez yatağında baş verən iltihabi proseslər 40,0±7,47% xəstələrdə müşahidə olunmuşdur və bu hal Termoplast tərkibli protez düzəltdiyimiz 35 nəfər şəxslərdə akril protez gəzdirən qrupun eyni göstəricisindən 10 dəfəyə qədər azdır. Termoplast protezi taxan şəxslərdə protezin sınması və protez yatağının yanması halları qeydə alınmamışdır, protezə öyrəşməmə halları akrillərdən 16 dəfə azdır. Hipersalivasiya halları isə termoplast protez istifadə edən şəxslərdə akril protezi taxan şəxslər qrupunun uyğun göstəricisindən 1,5 dəfəyə yaxın azdır. Termoplast protezlər elastiki olduqları üçün onlar deformasiyaya uğrayaraq taktil hissiyatını protez yatağı toxumalarına ötürürlər.

ƏDƏBİYYAT

1.Сафаров А.М., Гаджаров И.Т., Клиническая эффективность результатов комплексного лечения осложнений несъемного протезирования // Azərbaycan tibb jurnalı, 2011, № 3, с. 71-74

2.Трезубов В.Н., Климов А.Г. Клиническая критериальная оценка качества съемных протезов // Стоматология, 2006, №6, с. 62-65.

3.Фомина О.Л. Оценка состояния тканей ротовой полости по химическому составу сред при ортодонтическом лечении с использованием несъемной техники: Автореф. дис....канд.мед.наук. М., 2003, 2 7 с.

4.Фомина Ю.В., Урутина М.Н., Леонтьев В.К. и др. Оптическая когерентная томография в оценке состояния слизистой оболочки полости рта. Сообщение 1. Нормальная слизистая оболочка // Стоматология, 2004, №3, с.15-21.

5.Хапилина Т.Э. Ортопедическое лечение больных частичной вторичной адентией II класса Кеннеди съемными зубными протезами с замковой фиксацией: Автореф. дис. … канд.мед. наук. М., 2000, 19с.

6.Napankangas R., Salonen-Kemppi M.A., Raustia A.M. Longevity offixed metal ceramic bridge prostheses: a clinical follow-up study // J.Oral. Rehabil., 2002, v. 29, № 2, p.140-145.

7.Massad J.J., Cagna H.K. Removable prosthodontic therapy and xerostomia. Treatment considerations // Dent Today, 2002, v.21, №6, p.80-87.

Summary

Complications when using dentures made of different materials

R.R.Sahmuradov

The basic and widely used method of restoring the integrity of the dentition, the anatomical and functional condition of organs and tissues of the maxillofacial region is a removable prosthesis, which is the main requirement is the individual approach in choosing the design of the base material, the concrete implementation of all requirements of clinical and laboratory stages of the manufacture of these structures. In order to increase the conversion rate of the monomer molecules in the polymerisation process and increase the colonization resistance of plastic, very important is that the hydroxyapatite crystals are not favorable environment for colonization by micro organisms. This method eliminates the phenomenon of intolerance throughout the period of use dentures.

Xülasə

Müxtəlif materiallardan hazirlanmış çıxan protezlərin istifadəsi zamanı baş verən ağırlaşmalar

R.R.Şahmuradov

Protez yatağında iltihabı proseslər daha çox akril əsaslı protezlərdə müşahidə olunur. Termoplastik və bügel protezlərində baş verən iltihabı reaksiyalar adətən protezin düzgün hazırlanmaması və relyefinin düzgün olmaması ilə əlaqədar olur. Akril protezlərdə isə bəzən texniki mərhələlər düzgün yerinə yetirildikdə belə, bəzi şəxslərdə individual olaraq, yerli allergik-iltihabi reaksiyalar baş verə bilir. Protezi taxan zaman onun altında qalan yuymşaq toxuma sahələrində yaranan yanğı hissi adətən akril protezlərin monomerlərinin yumşaq toxumalara təsiri, şəxsin individiual həssaslığı və akril protezin düzgün termiki qaynatma mərhələsindən keçirilməməsi nəticəsində monomer qalıqlarının tam polimerləşməməsi nəticəsində yaranır.

Daxil olub: 24.05.2013

ANADANGƏLMƏ ANOMALİYALARIN RİSK AMİLLƏRİ VƏ PREDİKTORLARININ PROQNOSTİK ƏHƏMİYYƏTİ

P.M.Əliyeva

Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, mamalıq və ginekologiya kafedrası, Bakı

Açar sözlər: anadangəlmə anomaliyalar risk amilləri, prediktorlar, proqnozlaşdırma
Ключевые слова: врожденные аномалии, факторы риска, предикторы, прогнозирование
Keywords: congenital anomalies, risk factors, predictors, forecasting

Anadangəlmə anomaliyaların risk amilləri ədəbiyyatda mübahisəli olan problem kimi izlənir [16,17,18,19]. Belə ki, anadangəlmə anomaliyaların etio-patogenezi mürəkkəb mexanizmə malik olduğuna görə etioloji amil və risk amili arasında fərq qoymaq çətinləşir. Digər tərəfdən, risk amili məvhumunun ümumi qəbul olunmuş interpretasiyası da yoxdur. Klinik epidemiologiyada risk dedikdə hər hansı hadisənin yaranma ehtimalı nəzərdə tutulur. Anadangəlmə anomaliyaların populyasiyada, ayrı-ayrı ərazilərdə yaşayanlarda, bəzi amillərə məruz qalmış insanlarda yaranma ehtimalı onların riskini səciyyələndirir. Risk amili dedikdə isə həmin ehtimalı artıran amil nəzərdə tutulur [5,6,8,10,15]. Risk amillərin etioloji amil olmadığı bu məvhumların mənasından aydın görünür. Fikrimizə görə, anadangəlmə anomaliyalara səbəb olan mutasiya və ya teratogen təsirli amillərlə qeyd olunan təsir üçün şərait yaradan amillər arasında fərq qoyulmalıdır. Belə ki, mutasiyanı tezləşdirən (məsələn, cinsi hüceyrələrin qocalması) amili populyasiyada çoxaldan amillər (demoqrafik davranış) eyniləşdirilməməlidir. Profilaktik təbabətin əsas məqsədi xəstəliklərin etioloji amillərini aradan götürməklə və ya onları tezləşdirən risk amillərinin rolunu aşağı salmaqla ilkin profilaktika üçün zəmin yaratmaqdır. Bu deyilənləri əsas tutaraq, bizim tədqiqatımızda anadangəlmə anomaliyaların etio-patogenetik mexanizmi və etioloji amilləri araşdırmaq planlaşdırılmamışdır. Çünki bu istiqamətdə iş genetik tədqiqatların aparılmasını şərtləndirir. Biz ölkəmizdə anadangəlmə anomaliyaların populyasiya səviyyəsini (yəni mövcud etioloji amillərin təsiri ilə formalaşmış səviyyəsini) artıran amilləri araşdırmışıq [1,2,3,4,7,9,11,12,13,14]. Bu amilləri risk amilləri adlandıraraq, onların iki əsas səciyyəsi alınmışdır:

- atributiv və ya əlavə risk (risk amili ilə assosiasiya olunan hamiləliklərdə anadangəlmə anomaliyaların tezliyi ilə populyasiya səviyyəsində anadangəlmə anomaliyaların tezliyinin fərqi);
- nisbi risk (risk amili ilə assosiasiya olunan hamiləliklərdə anadangəlmə anomaliyaların tezliyinin populyasiya göstəricisinə nisbəti).

Tədqiqatımızda anadangəlmə anomaliyaların ehtimalını statistik dürüst artıran aşağıdakı amillərin rolu sübut olunmuşdur:

- sosial-iqtisadi, ekoloji, demoqrafik durumun inteqral amil kimi dəyişməsi;
- atmosfer havasında bir sıra kimyəvi inqridentlərin səviyyəsi;
- hamilə qadının və ərinin yaşı;
- əvvəlki hamiləliklərdə dölün inkişaf qüsurunun olması;
- əvvəlki hamiləliklərin düşüklə nəticələnməsi;
- valideynlərin (ər və qadının) yaxın qohumlarında anadangəlmə anomaliyalar;
- hamilə qadınla ərinin yaxın qohumluğu;
- hamiləliyin sıra sayı;
- hamiləliklər arası interval;
- hamiləlik müddətində (əsasən birinci trimestdə) keçirilmiş respirator infeksiyalar;
- hamiləlikdən əvvəl və hamiləliyin erkən müddətində qadında bir sıra infeksiyaların olması (dölün bətndaxili infeksiyalaşması);
- mayalanmanın təqvim üzrə vaxtı;
- hamiləlikdən əvvəl qadında sidik yollarının infeksiyalarının olması;
- hamiləlikdən əvvəl qadında kiçik çanaq orqanlarında xroniki iltihabi xəstəliklərin olması;
- hamiləliyin birinci trimestrində odontogen infeksiyaların sonasiya olunmamış ocaqlarının olması;
- hamilə qadının sağlamlıq durumu (ginekoloji və ekstregenit xəstəliklərin olması);
- hamiləliyin erkən dövründə dərman preparatlarının istifadəsi.

Risk amillərinin aşkar olunması üçün istifadə olunan metodoloji yanaşmalar həmin amillərin rolu və proqnostik əhəmiyyəti barədə müddəalara təsir etdiyinə görə onların adekvatlığı mühüm əhəmiyyət kəsb edir. Ona görə də bu tədqiqat risk amillərinin proqnostik əhəmiyyətinin kompleks öyrənilməsi məqsədi ilə həyata keçirilir.

Tədqiqatın material və metodları. İlkin material kimi 1999-2008-ci illərdə akademik M.Mirqasımov adına Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Klinik Xəstəxanasının mamalıq (doğuş kateqoriyasına aid edilənlər üçün) və ginekologiya (abort və düşüklər barədə məlumatlar üçün) şöbələrinin, həmçinin ultrasəs və ekoqrafiya kabinetlərinin retrospektiv və prospektiv materialları təhlil olunmuşdur. Retrospektiv materiallar əsasında 216 diri doğulmuş, 72 ölü doğulmuş və 224 abortus barədə məlumat toplanmışdır. Bu məlumat 33682 hamiləliyin nəticəsini əks etdirən ilkin sənədlərin (xəstəlik və doğum tarixləri) təhlili əsasında alınmışdır. Prospektiv müşahidə ilə ultrasəs və ekoqrafiya müayinəsi aparılmış 1978 hamilə qadında dölün durumu barədə sənədlər toplanmış və onlar arasında dölün inkişaf qüsuru diaqnozu qoyulmuş 204 hamilə qadın olmuşdur.

Risk faktorları və onların prediktorları üçün aşağıdakı göstəricilər hesablanmışdır:

- həssaslığın səviyyəsi, yəni anadangəlmə inkişaf qüsuru olan dölün və ya yenidoğulmuşların analarında risk əlamətinin qeydə alınma tezliyi (sensitivity);
- spesifikliyin səviyyəsi, yəni inkişaf qüsuru olmayan döl və yenidoğulmuşların analarında risk əlamətinin olmaması hadisələrinin tezliyi (specificity);
- risk əlamətinin olmasının proqnostik əhəmiyyəti, yəni risk amili ilə assosiasiya olunan hamiləliklərdə dölün inkişaf qüsurlarının olma ehtimalı (positive predictive value);
- risk əlamətinin olmamasının proqnostik əhəmiyyəti, yəni risk amili ilə assosiasiya olunmayan hamiləliklərdə dölün inkişaf qüsurunun olmaması ehtimalı (neqative predictive value);
- həqiqətə uyğunluq müyarının səviyyəsi, yəni inkişaf qüsuru olan və olmayan döllərin analarında risk amilinin olması ehtimallarının nisbəti (likelihood ratio).

Alınmış nəticələr və onların müzakirəsi. Alınmış nəticələrin yekun səciyyələri cədvəldə verilmişdir.

Cədvəl

Anadangəlmə anomaliyaların risk amillərinin və prediktorların yekun səciyyələri (%)

Risk amilləri və prediktorlar	Se	Sp	PV+
Yaş (illər) < 19	85,0	55,6	18,5
19	80,0	51,9	12,1

20	75,0	51,9	9,4
33	78,6	46,3	9,2
34	78,6	54,7	12,4
35	82,4	54,7	15,2
36	84,2	54,7	17,0
37	84,2	58,8	19,5
> 37	85,7	59,1	21,7
Anamnezdə: dölün Aa	63,7	71,6	20,4
düşük	54,8	65,0	15,2
Qohumlarda Aa: qadının	54,1	71,3	22,7
kişinin	45,5	75,0	20,8
Valideynlərdə Aa: anada	85,7	72,7	66,7
atada	100,0	70,0	57,1
Valideynlərin yaxın qohumluğu	54,3	78,9	4,0
Hamiləlikdən öncə aybaşı pozğunluğu	27,1	91,7	76,5
Kiçik çanaq orqanlarının xroniki iltihabi xəstəlikləri Uşaqlıq boynu patologiyaları	26,0	92,7	78,1
Kolpit	25,0	87,5	66,7
Yumurtalıqların polikistozu	23,6	89,2	68,7
Hamiləliyin I trimestrində:	2,8	99,0	72,7
respirator xəstəliklər	32,6	86,8	71,2
hamiləliyin pozulma riski	22,6	92,4	74,7
dərman müalicəsi	18,1	98,6	92,9
hamiləliyin pozulmasının gecikmiş təhlükəsi	39,9	87,5	76,2
plasentasiyanın aşağı yerləşməsi- dölyan maye: çox	15,3	93,4	69,8
az	31,6	95,8	88,3
Hamiləliyin 28 həftəsindən sonra hestoz	22,2	96,2	85,3
Mayalanma vaxtı:	32,3	88,9	74,4
yanvar	10,8	95,1	68,9
oktyabr	13,2	95,5	74,5
dekabr	11,8	94,4	68,5
Anamnezdə dölün inkişaf qüsuru: risk + 1 əlavə	2,2	98,9	52,1
əlavə risk + 2	12,5	100,0	100,0
əlavə risk + 3	15,0	100,0	100,0
əlavə risk + 4 və çox	18,8	100,0	100,0
Anamnezdə düşük:+ 1 əlavə risk	11,3	98,6	81,8
+ 2 əlavə risk	21,2	98,9	92,7
+ 3 əlavə risk	22,5	99,6	97,6
+ 4 və çox əlavə risk	26,2	100,0	100,0
Sidik yollarının infeksiyaları:+ 1 əlavə risk	20,0	96,8	76,9
+ 2 əlavə risk	26,8	97,1	84,6
+ 3 əlavə risk	27,7	94,3	95,8
+ 4 və çox əlavə risk	28,6	99,6	98,0
Anemiya: + 1 əlavə risk	86,2	67,6	41,3
+ 2 əlavə risk	89,0	81,3	65,7
+ 3 əlavə risk	90,9	85,6	76,2
+ 4 və çox əlavə risk	91,4	93,7	89,5
Qalxanvari vəzin patologiyaları: + 1 əlavə risk	3,7	98,9	72,7
+ 2 əlavə risk	5,5	98,9	80,0
+ 3 əlavə risk	9,6	99,3	91,7
+ 4 və çox əlavə risk	15,5	99,6	97,4
Hamiləliyin erkən dövründə qanaxma: + 1 əlavə risk	13,6	99,3	92,3
+ 2 əlavə risk	16,5	99,6	96,8
+ 3 əlavə risk	20,8	99,6	97,8
+ 4 və çox əlavə risk	21,7	100,0	100,0
Hamiləliyin erkən dövründə respirator infeksiya: + 1 əlavə risk	76,9	35,7	30,3
+ 2 əlavə risk	81,8	26,0	27,1
+ 3 əlavə risk	88,0	100,0	100,0

+ 4 və çox əlavə risk	88,7	100,0	100,0
Anamnezdə Aa: + yaş < 25	20,0	99,6	66,7
+ yaş < 35	20,0	99,2	50,0
Anamnezdə düşük: + yaş < 25	54,5	96,0	37,5
+ yaş < 35	25,0	96,8	20,0
Hamiləliyin erkən dövründə qanaxma: + yaş < 25	36,4	97,2	86,4
+ yaş <35	20,0	96,8	20,0

Risk amilinin həssaslığı onun neçə % hallarda döldə inkişaf qüsuru olan hamiləliyi assosiasiya etməsini, spesifikliyi isə - onun neçə % hallarda inkişaf qüsuru olmayan hamiləliyi assosiasiya etməsini göstərir. Hesab edilir ki, risk amili nə qədər yüksək həssaslığa və spesifikliyə malik olsa, bir o qədər onun rolunu ehtiyatla araşdırmaq vacibdir. Amma nə həssaslıq, nə də spesifiklik anadangəlmə anomaliyaların ehtimalını proqnozlaşdırmaq üçün istifadə olunmur. Həssaslığı və spesifikliyi yüksək olan amillər (prediktorlar) pasiyentə daha diqqətlə (ehtiyatla) yanaşmağı tələb edir.

Aldığımız məlumatlara görə, risk amillərinin həssaslığı geniş intervalda (3,7-100%) dəyişmişdir. Həssaslığın səviyyəsinə görə, şərti olaraq 5 variant ayırd etmək olar:

- həssaslığı çox aşağı olan (< 20%);
- həssaslığı orta aşağı olan (20-30%);
- həssaslığı aşağı olan (30-40%);
- həssaslığı az yüksək olan (30-50%);
- həssaslığı yüksək olan (50-60%);
- həssaslığı çox yüksək olan (60-70%);
- həssaslığı ən çox yüksək olan (> 70%) amillər.

Ayırd etdiyimiz modifikasiya olunan risk amillərinin əksəriyyətinin həssaslığı aşağı səviyyədə olmuşdur (< 40%). Həssaslığı ən yüksək olan amillərə aiddir (> 70%): qadının yaşının 20-dən az və 33-dən çox olması; kişi və ya qadında inkişaf qüsurunun olması; anemiya fonunda əlavə bir və bir neçə risk amilinin olması; bir və ya bir neçə risk amili olan qadının hamiləliyin erkən fazasında respirator xəstəliklərə tutulması.

Həssaslığı və spsifikliyi yüksək olan (> 70%) amillərin çeşidi məhduddur: bir və bir neçə risk amili fonunda anemiya və respirator xəstəliklərə tutulmaq.

Bunları nəzərə alaraq, hesab edirik ki, həssaslığı və spesifikliyi yüksək olan amillərə assosiasiya olunan hamiləliklərdə qadınlar erkən (prenatal diaqnostika metodları ilə) müayinəyə cəlb olunmalıdır.

Qeyd edək ki, risk amilinin həssaslıq və spesifiklik səviyyəsi onun təhlükəsini ifadə etmir. Anadangəlmə anomaliyaların ehtimalını bilavasitə əks etdirən göstərici risk amilinin proqnostik əhəmiyyəti hesab olunur. Cədvəldən göründüyü kimi, tədqiqatımızda qiymətləndirilmiş risk amillərinin proqnostik əhəmiyyəti 9,2-100% intervalında dəyişmişdir. İntervalın genişliyi risk amillərinin təsnifatlandırılmasına imkan verir: < 20% (aşağı), 20-40% (orta), 40-60% (yüksək), 60-80% (çox yüksək) və > 80% (həddən çox yüksək). Proqnostik əhəmiyyəti aşağı səviyyədə olan risk amillərinə aiddir: yaşın 20-yə qədər və 33-37 intervalda olması; anamnezdə düşük və valideynlərin yaxın qohumluğu. Bu amillərlə assosiasiya olunan hamiləliklərdə ehtiyatlı olmalı, hamiləliyin normal gedişinə səy göstərməlidir.

Proqnostik əhəmiyyəti orta səviyyədə olan risk amillərinə aiddir: qadının yaşı 37-dən çox olanda; anamnezdə dölün inkişaf qüsuru; qohumlarda dölün inkişaf qüsurları; 1-2 risk amili fonunda hamiləliyin erkən dövründə respirator infeksiya. Bu amillər fonunda hamilə qadınların exoqrafik müayinəsi tövsiyə olunur.

Proqnostik əhəmiyyəti yüksək olan amillərə aiddir: qadının ərində anadangəlmə anomaliyaların olması; bir əlavə risk amili fonunda qadının anamnezində inkişaf qüsurlu dölün olması; əlavə risk amili fonunda qadında anemiya; anamnezində inkişaf qüsurlu dölü olan qadında 35 yaşdan sonrakı hamiləlikdə. Bu amillərlə müşahidəyə götürülən qadınların hamiləlikdən öncə dispanserləşməsi təmin olunmalı, hamiləliyin 10-14 həftələrində exoqrafiyası təmin olunmalıdır.

Proqnostik əhəmiyyəti çox yüksək və həddən çox yüksək olan amillərin sayı çoxdur (cədvəl). Bu amillərin monitorinqi bütün reproduktiv fəaliyyət dövründə, həmçinin modifikasiya olunan amillərin tibbi profilaktikası həyata keçirilməlidir. Bütün hamilə qadınlarda hamiləliyin 12-ci həftəsinə qədər kompleks müayinəsi aparılmalı, ən azı iki dəfə (8-10, 2-16-cı həftələr) exoqrafiya, əlavə göstərişlər olanda isə - sitogenetik müayinələr aparılmalı, hamiləliyin saxlanması isə prenatal konsilium tərəfindən həll olunmalıdır.

Beləliklə, anadangəlmə anomaliyaların profilaktikası mürəkkəb vəzifə olaraq, çoxsaylı risk amilləri nəzərə alınmaqla həyata keçirilə bilər. Profilaktikanın mövcud şəraitdə əsas yolla ikincili profilaktika tədbirləri ilə, yəni risk amilləri ilə assosiasiya olunan hamiləliklərin pozulmasına obyektiv göstərişlərin erkən aşkar olunması yolu ilə mümkündür.

Anadangəlmə anomaliyaların profilaktikasını dövlət səviyyəsində tənzimləmək üçün problemin miqyasını qiymətləndirən daimi monitorinq sistemi – Respublikanın inkişaf qüsurları registri yaradılmalıdır. Belə registrlər inkişaf etmiş ölkələrin əksəriyyətində fəaliyyət göstərir. Bu məqsədlə anadangəlmə anomaliyaların diaqnostikası meyarları standartlaşdırılmalı və bütün mamalıq-ginekoloji xidmət şəbəkələrində müvafiq resurslar nəzərdə tutulmalıdır. Bu məqsədlə fəaliyyət proqramı iki mərhələli aparıla bilər. Birinci mərhələdə bütün hamiləlik və doğuş zamanı tibbi yardım göstərən tibb müəssisələrində aşağıdakı diaqnozu asanlıqla qoyulan anomaliyaların vahid mərkəzə (anadangəlmə anomaliyaların registrinə) xəbərdarlıq vərəqəsi formasında informasiya verməsi tələb olunmalıdır: Daun sindromu; çox orqanlı inkişaf qüsurları; anensifaliya; onurğa beyni yırtığı; dodaq, dodaq-damaq yarıqları; polidaktiliya; ətrafların redaksion qüsurları; anusun və qida borusunun asuziyası. Monitorinqin ikinci mərhələsində Avropa beynəlxalq registrinə daxil edilmiş 19 inkişaf qüsurunun statistikası təmin olunmalıdır (anensefaliya, onurğa beyni yırtığı, ensefalosele, hidrosefaliya, mikrotiya, dodaqların bitişməməsi, damağın yırtığı, qida borusunun atreziyası, anusun atreziyası, hipospodiya, ətrafların reduktion qüsurları, polidaktiliya, diafraqma yırtıqları, böyrəklərin ageneziyası və disgeneziyası, onfalosele, qastroşizis, Daun sindromu və çox orqanlı inkişaf qüsurları).

Nəticələr: 1. Anadangəlmə anomaliyaların risk amilləri və prediktorlarının proqnostik əhəmiyyəti bir-birindən fərqlənir və geniş intervalda (9-100%) dəyişir. 2. Anadangəlmə anomaliyaların profilaktikası üçün risk amillərinin proqnostik əhəmiyyəti nəzərə alınmaqla kompleks tədbirlərin həyata keçirilməsi vacibdir.

ƏDƏBİYYAT

1. Əliyeva P.M., İsrafilbəyli S.H., Ağayev F.B. Ağırlaşmış mamalıq anamnezinin anadangəlmə anomaliyaların prediktoru kimi həssaslığı // Sağlamlıq, 2010, №6, s.65-70
2. Əliyeva P.M., İsrafilbəyli S.H. Risk amillərinin müştərəkliyindən asılı anadangəlmə anomaliyaların tezliyi // Sağlamlıq, 2010, №7, s.116-119
3. Əliyeva P.M. Yenidəndoğulmuşlarda anadangəlmə anomaliyaların ananın yaşından asılılığı // Az. Tibb Jurnalı, 2010, №1, s.62-64
4. Əliyeva P.M. Anadangəlmə anomaliyaların dəqiqləşdirilmə riski barədə // Az. Tibb Jurnalı, 2010, №2, s.56-58
5. Əliyeva P.M. Sidik yolları infeksiyaları və assosiasiya olunan risk amillərinin anadangəlmə anomaliyalarının tezliyinə təsiri // Az. Tibb Jurnalı, 2010, №3, s.112-115
6. Əliyeva P.M., Ağayev F.B. Doğuşlararası intervaldan asılı risk amillərinin yayılma xüsusiyyətləri // Az. Təbabətinini müasir nailiyyətləri, 2010, №1, s.111-113
7. Əliyeva P.M. Anadangəlmə anomaliyaların yenidoğulanlarda aşkarlanma tezliyi barədə // Az. Təbabətinini müasir nailiyyətləri, 2010, №2, s.39-42
8. Əliyeva P.M. Anadangəlmə inkişaf qüsurlarının risk səviyyəsinin qiymətləndirilməsi variantları // Az. Təbabətinini müasir nailiyyətləri, 2010, №3, s.125-128
9. Алиева Р.М., Исрафилбейли С.Г. Сравнительная оценка частоты и структура врожденных аномалий в зависимости от жизнеспособности плода и новорожденного // Терапевтический вестник, Казахстан, 2011, №1 (29), с.31-32
10. Алиева П.М., Агаев Ф.Б. О степени распространенности и сочетаемости акушерских факторов риска // Вестник хирургии Казахстана, 2011, т.XVII, №1, с.32-34
11. Алиева П.М. О чувствительности и специфичности антенатальных факторов для прогнозирования впр // Curierul medical, Moldavie, 2011, №5 (323), s.3-6
12. Алиева П.М. Методические подходы изучения факторов риска врожденных аномалий // Врач-аспирант, 2011, №3,4 (46), с.546-549
13. Алиева П.М., Агаев Ф.Б. Родственный брак как фактор риска рождения детей с врожденными пороками развития // Врач-аспирант, 2011, №4,5 (47), с.722-727
14. Алиева Р.М., Исрафилбейли С.Г. Риск врожденных пороков развития при родственных браках // Curierul medical, Moldavie, 2011, №3 (321), s.41-44
15. Алиева П.М., Агаев Ф.Б. Новые подходы к оценке изучения факторов риска врожденных аномалий // Fapmuev-Kazaxstan, 2011, №7, с.41-44

16. Кулаков В.И. К вопросу о патогенезе привычного невынашивания // Акушерство и гинекология, 1996, №4, с.3-4
17. Кулаков В.И. Вспомогательная репродукция: настоящее и будущее // Акушерство и гинекология, 2003, №1, с.3-7
18. Субботин Д.Н., Сорокина Т.В. Пренатальная диагностика синдрома Дауна: сочетание ультразвуковых маркеров и возраста беременной // Пренатальная диагностика, 2002, т.1, №3, с.220-221
19. Loffredo C. Association of the great arteries in infants with maternal exposures to herbicides // Am. J. Epidemiol., 2001, v.153, №6, p.529-536

Резюме

Прогностическая ценность факторов риска и предикторов врожденных аномалий

П.М.Алиева

В работе поставлена цель- оценить прогностическую ценность факторов риска и предикторов врожденных аномалий. Прогностическая ценность определена как величина вероятности врожденных аномалий при наличии факторов риска. По этой величине проведена классификация факторов риска. Выделены факторы риска с высокой прогностической значимостью. Считается, что профилактика должна быть включена в государственную программу.

Summary

Predictive value of risk factors and predictors of congenital anomalies

P.M.Aliyeva

In work the purpose is set, to estimate the predictive value of risk factors and predictors of congenital anomalies. Predictive value is determined as the size of probability of congenital anomalies with risk factors. In this size classification of risk factors is carried out. Risk factors with the high predictive importance are marked out. It is considered that prevention of these has to be included in a state proqram.

Daxil olub: 16.12.2013

ƏCZAÇILIQ PSİXOLOGİYASININ ANLAYIŞI, PREDMETİ VƏ METODLARI

N.M.Naibov, A.B.Bağırova

Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: əczaçılıq psixologiyası, əczaçı magistr
Ключевые слова: психология фармацевта, магистр-фармацевт
Key words: pharmaceutical psychology, pharmacist master.

Son zamanlar xəstəliklərin qarşısının alınması sahəsində işlər uğurla həyata keçirilirsə də onların bəzilərinin səviyyəsi artmaqdadır. Sağalmayan xəstəliklərə düçar olan insanların psixoloji durumu kəskin olaraq dəyişməkdə davam edir. Belə insanlara əczaçılıq xidmətini yüksək səviyyədə və peşəkarcasına göstərmək üçün əczaçı psixologiya elminin sirlərinə yiyələnməlidir.

Məlumdur ki, əczaçı magistrantlar psixologiya fənnini birinci kursda 18 saat olmaqla öyrənirlər. Lakin psixologiya elmi müxtəlif ali məktəblərin proqramına uyğun öyrədilir. Belə ki, əvvəllər ali məktəb psixologiyası indiki dövrdə isə bakalavrlar üçün müxtəlif institutların proqramlarından istifadə edilir.

Lakin əczaçı magistrlər təkcə elm və təhsil sahəsində deyil, həm də tibb və əczaçılıq praktikasının müxtəlif sistemlərində, rəhbər qurumlarda, böyük əczaçılıq şirkətlərində, apteklərdə çalışırlar. Ona görə də, əlbəttə, hər bir magistr ali məktəb psixologiyasını öyrənməklə tələbələrin də psixologiyasını dərindən bilməklə və dərk etməklə yanaşı əczaçılıq psixologiyasının sirlərini də mənimsəmələri məqsədəuyğun olardı. Çünki sənət (xüsusi) psixologiyasını bilmək onların bu sahədə yəni əczaçılıq sahəsində fəaliyyət göstəricilərinin səviyyəsinin yüksəlməsinə səbəb olar və onlar yüksək nailiyyətlər əldə edə bilərlər.

Əczaçılıq (sənət) psixologiyası hələ elm kimi formalaşmamış və onun haqqında indiyə qədər ədəbiyyat və internet materiallarında tərəfimizdən rast gəlinməmişdir.

Əczaçı magistrlər və bakalavrlar əczaçılıq psixologiyasına yiyələnməkdən sonra iş yoldaşlarını, özünü və xəstələri, o cümlədən ətrafdakı insanları yaxşı tanımağa imkan tapar, onların xasiyyətlərinə, mənəvi və psixi keyfiyyətlərinə bələd olar, və əczaçılıq sənətinə yaxın olan psixoloji hadisələrə daha

düzgün qiymət verə bilərlər. Bundan əlavə, magistrlər əczaçılıq ixtisasına yiyələnən tələbələrə əczaçılıq (sənət) psixologiyasının sirlərini onun predmet və metodlarını öyrətmək imkanına malik olacaqlar.

Yuxarıda deyilənləri nəzərə alaraq, əczaçılıq (sənət) psixologiyası anlayışını, onun predmetini və metodologiyasını, digər elmlərlə əlaqəsini verməyə və psixoloji elmlərin təsnifatında yerini müəyyən etməyə cəhd edəcəyik.

